ASİF ATA

# On Qutsal Bitiq’in (Onluğun) Yan Bitiqləri

# III Yan Bitiq:
# HƏQİQƏTLƏR

**ASİF ATA (İNAM ATA)**

# On Qutsal Bitiq'in (Onluğun) Yan Bitiqləri

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

***Üçüncü Yan Bitiq:***

# HƏQİQƏTLƏR

***(Gerçəklik – Ata Sınağında)***

Atakənd
30-il

**Türkün (İlk) Ruhaniyyat Ocağı –**
**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**ASİF ATA**
On Kutsal Bitiq'in (On Müqəddəs Kitabın – Onluğun) Yan Bitiqləri (Əlavə Cildləri). Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı. Üçüncü Yan Bitiq (Əlavə Cild): Həqiqətlər. Atakənd. 30-il.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının nəzəri əsaslarını və fəlsəfəsini özündə daşıyır. Ona görə də dünyabaxış özüllü bu kitabı təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa təqdim edirik.

Üçüncü Yan Bitiq'in – "Həqiqətlər"in – birinci bölümündə Sənətə, Elmə, Fəlsəfəyə, Ruhaniyyata, ikinci bölümündə siyasətə yönəlik Ata Söyləmləri, Dəyərləndirmələri toplanmışdır.

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

# HƏQİQƏTLƏR

# Birinci Bölüm:

## Sənətə, Elmə, Fəlsəfəyə, Ruhaniyyata yönəlik

## ATA SÖYLƏMLƏRİ – DƏYƏRLƏNDİRMƏLƏRİ

**MÖMİNLİK ÇEŞİDLƏRİ**
Katolisizm – Kilsə ibadəti.
Protestantizm –Şəxsi ibadət.
İslam – İlahi Qismət itaəti.

*21 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**RƏŞİD BEHBUDOV**

İstedadlı Lotuydu – arsız, hiyləgər, yaltaq.

**SÜLEYMAN RÜSTƏM**

Manşırlanmış Şər nökəri, abırsız, idraksız, məddah, təmənnalı şüarşünas, pozğun boyunduruqpərəst, ehtiraslı xalqsatan.

**MİRZƏ İBRAHİMOV**

Şöhrət Aşiqi – həm oynadılan, həm oynadan, həm çalınan, həm çalan; həm sürünən, həm süründürən; əxlaq tanımayan, əqidə tanımayan – əxlaqlı tanınan, əqidəli tanınan.

*13 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**MANQURTLUQ**

Çingiz Aytmatovların daxilində bitən Ağac.

**FƏALİYYƏT**

Sovet ədəbiyyatı adamları yalana alışdırdı.

*14 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**TÖHFƏ**

Zeynəb Xanlarovada sənət küçələşdi.

*16 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**FƏRQ**

Qız seçmək – Ticarətdir, Qız sevmək – Sevda.

**VAQİF**

Bambılı, ruspərəst molla, təbli şəhvət müəllimi.

**PUŞKİN**

Əxlaqsızlığıyla fəxr edən, murdar, çirkin, qafiyəçi.

*18 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**RUHSUZLUQ**

Avropa mədəniyyətində dressiləşmə ruhsuzluğu hökm sürür.

**OYUNA SƏCDƏ**

Kino-aktyorlardan Allah düzəldir Avropa – Oyunu ilahiləşdirir.

**DÜNYASIZLIQ**

Abırsızlıq – Dünyasızlıqdır. Avropalılar Dünyasızlaşırlar.

**AVROPA NAŞILIĞI**

Maddi Tərəqqi vasitəsiylə Səadətə çatmaq niyyəti.

**MADDİYYATÇI QİYMƏTİ**

Dünyanı maddiyyatla qiymətləndirdilər – Dünyanı qiymətdən saldılar.

## AVROPA MÖMİNLİYİ

Əşyanı o qədər sevdilər ki, Əşyaya çevrildilər.

## İCTİMAİ QİYMƏT

Bacarıq qazancla ölçüləndə əşyalaşır – satılır, alınır.
***Bu baxımdan milyonçu, əslində əşyadır.***

## HƏQİQƏT

Ağalıqdan böyük Gədalıq yoxdur əslində.

## AVROPA ZAHİRİLİYİ

Avropada Daxili Boşluq var – Zahiri Fəallıqla doldurulan.
Daxili Süstlük var – Zahiri Həşirlə pozulan.
Daxili Həqarət var – Zahiri Mədəniyyətlə pərdələnən.
Avropada şux murdarlıq var, süni təbiilik, cazibəli qəddarlıq var, mərhəm yağılıq var, yetkin oyunçuluq var.
Avropa sürətlə Mənadan qaçır.
“Yeni sosialistlər” Avropaya çatmağa tələsiyir.

## NƏTİCƏ

Açıq-saçıqlıqda heyvan aşkar oldu.
***Çılpaqlandıqca – bədənləşdilər.***

*19 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## AVROPA AQİBƏTİ

Avropada Vatikan var, Kilsə var – ancaq Avropalıların Allahı Maddiyyatdır.

## MİRZƏ FƏTƏLİ AXUNDOV

Antişərq məfkurəli çar çinovniki, İmperiya nökərlərinin üfürdüyü köpük – Sənətkar olmayan, Filosof olmayan, Tənqidçi olmayan.

*20 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## AVROPA ŞUXLUĞU

Həyanı özlərinə Yük eləmirlər.

## GÜNƏŞSİZLİK

Melodiya – musiqinin Günəşidir.

Bu səbəbdən də yeni Qərb estradası – Günəşsizdir, çünki melodiyasızdır.

## FƏRƏHSİZLİK

Arsız fərəh olmur – Arsızın Fərəhi olmur.

## YAZIÇI NİFRƏTİ

Yazıçıların çoxu Əsərlərində nifrət etdiklərinə həyatda məhəbbət bəsləyirlər.

## SOVET TƏNQİDÇİSİ

Ədəbi Hambal.

## SOVET FİLOSOFU

Dövlət nökəri.

## BOŞLUQ

Cəmiyyət nə yaradıbsa – Boş yaradıb, əslində böyük bir Boşluq yaradıb!

***Dəhşətli Boşluğa düşüb İnsan – çıxa bilmir!***

*21 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## MÜASİR ƏDƏBİ QAZANLAR

İçəriləri boşdur – ona görə danqıldayırlar.

*22 Mərhəm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## ADSIZLAR

Aşıq Hökumətdən ad istəyir,
Xanəndə Hökumətdən ad istəyir,

Şair Hökumətdən ad istəyir,
Alim Hökumətdən ad istəyir –
Aşıq, Xanəndə, Şair, Alim adlarından iraq.

**KONSERVATORİYA BEYNƏLMİLƏLÇİLİYİ**

Azərbaycan xalq mahnılarını əcnəbisayaq oxumaq.

*24 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**GÖZƏLLİK MÜSABİQƏSİ**

Ruhani Eybəcərlik.

*8 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

**JURNALİZM ŞƏRİ**

Həşirlik – Şərlikdir.

**MƏTBUAT HƏQİQƏTSİZLİYİ**

Gün Həqiqəti olmur, Ay Həqiqəti olmur, İl Həqiqəti olmur, Zaman Həqiqəti olmur – ***Həqiqət həmişəlikdir.***

***Bu səbəbdən də Mətbuat – Həqiqətsizdir.***

*9 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Müasir Teatr əslində camaatı süniləşdirir, aktyorlaşdırır.

*7 Arzu günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**DƏB**

Mövcud olan – Var olmayan.

*25 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Materializm Dünyanı Ayağı üstə qoymur – Ayağa salır.

## HƏQİQƏT

Azərbaycan maarifçiləri (Axundov və s.) xalqı Yadlaşma yoluyla irəli aparırdılar, əslində uçuruma salırdılar.

## HƏQİQƏT

İnqilabdan qabaqkı Azərbaycan millətçiləri çarizmə dözürdülər – bu, onların ən böyük fəlakəti idi – xalqa verilən.

## HƏQİQƏT

Təzəliyi bizə özgələr gətirdi – bu səbəbdən də Təzəlik bizi özgələşdirdi.

*23 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Şəhvətdə Həyat insanı oynadır –Məhəbbətdə İnsan Həyatı.

## HƏQİQƏT

Şəhvətə yumulan Göz – Məhəbbətə açılır.

## HƏQİQƏT

Məhəbbət – Şəhvətin üzünü ağardır, üstünü örtür.

## HƏQİQƏT

Həyatın Rəmzi –Şəhvət.
Amalın Rəmzi – Məhəbbət.
***Ailə – məhəbbətləşən Şəhvət, Amallaşan Həyat.***

## HƏQİQƏT

Sevda – İlahi münasibət kimi başlayır – cinsi münasibət kimi davam eləyir.

Həyat Sevdanı ilahilik taxtından salır – İnsanı Əksildir.

Ailə – cinsiliyə Atalıq, Analıq ülviliyi gətirir; cismani – ruhanilәşir, həyatın bəd əməli yarımçıq qalır; məhəbbət Ocağının közü sönmür.

*24 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Gün görməyən – Günü görür.
Gün görən – Günü görməyir.

*26 İnam günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**B.VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASI**

Bugünün səviyyəsində Haray: Allahlı, Şeyxli, Xəlil Rzalı, Puşkinli...

*29 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Təbiət – Zorakıdır. Zorla gətirir, Zorla aparır.

*4 Ümid günü, Ata Ayı, 12-ci il. Bakı.*

**BƏDİİ HADİSƏ**

Kədər Kosmetikası.

*7 Qismət günü, Ata Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Adam – Zamanın Yavrusu.
İnsan – Zamanın Yağısı.

*1Arzu günü,Xəzan Ayı, 12-ci il. Bakı.*

**VƏZİYYƏT**

Ailə – Adamı Həyat üçün böyüdür – Amal üçün Böyütmür, bu səbəbdən də o, Adamlığı qoruyur, İnsanlıqdan qorunur.

**RUHANİ PEDOQOGİKA**

Tərbiyə – Zamanı ötmək.
Tərbiyəsizlik – Zamana uyğunlaşmaq.

*3 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

**FƏRQ**

Adam gözünü açanda – Cəmiyyət görür.
İnsan gözünü açanda – Ruhaniyyat görür.

*4 Mərhəm günü,Xəzan Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Biclik – Ağlıəyrilik.

*10 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

**ƏLAQƏ**

Estradada sevgi çoxaldıqca, Həyatda sevgi azalır.

*9 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

**ROKK HALLARI**

“Bağırtıya qalan canım!”

***xxx***

“Ölmüşəm – gəlin meydimi götürün”.

*1 Ümid günü, Qar Ayı, 12-ci il. Bakı.*

**BAYRAM BAYRAMOV AĞSAQQALLIĞI**

Hökumətaltı Etika.

*8 Qismət günü, Köçəri  Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Heyvanat – İnsanın cismani qohumu.
Təbiət – İnsanın ruhani qohumu.

**HƏQİQƏT**

Dünya – gerçəkliyə bənzəməyən dərəcədə Mənalıdır.

**HƏQİQƏT**

Həmzələr – Koroğluların sadəlövhlüyüdür –
Əslində Həmzələr Yoxdur, Koroğlular Var.

**HƏQİQƏT**

Həyatda nə varsa – Ölümə qarşıdır.
Həyat özü isə – Ölümlə birdir.

*30 Ümid günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Əyləncələrin Hamısı – Fərəhsizlikdən yaranıb.
***Fərəh əyləncə deyil – Əməldir.***

**HƏQİQƏT**

Əslində Kefdən böyük Fərəhsizlik yoxdur.
Kefcillər – Fərəhsizdirlər.

**HƏQİQƏT**

Abırsız Həqiqət olmur.
Abırlı Yalan olmur.

**HƏQİQƏT**

Gerçəklik – Ötərilik, Keçicilik, Nisbilik tərbiyə eləyir, əslində tərbiyəsizlik tərbiyə eləyir.

**HƏQİQƏT**

Həyat Ağı Qaradan seçmir.

*2 Mərhəm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Məscid – O Dünyaxana, Cənnətxana, Cəhənnəmxana, Huri – pərixana, Qəzavü qədərxana.

## VƏZİYYƏT

Muğam Ə.A.Vahidi diriltdi, Vahid Muğamı öldürür.

*26 İnam günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Bədbinlik – ən böyük təskinlikdir əslində.

## HƏQİQƏT

Ekzistensializm – Quyunu görür, Quyuya düşür – çıxa bilmir.

## HƏQİQƏT

Ekzistensializmdə Varlıq Yoxluğa bərabərdir.
Əslində isə VarlıqYoxluq Tanımır.

## HƏQİQƏT

Ekzistensializm – Fəlsəfi Rokk-n-rol.

## HƏQİQƏT

Cəfəngiyyat – Mənanın Yoxluğudur.
Ancaq Cəfəngiyyatın Cəfəngiyyat sayılması –
Mənanın Varlığıdır.

## HƏQİQİƏT

Yaranan nə varsa – Yox olur.
***Dünya yaranıbsa – Yox omalıdır.***
Əslində – dünya yaranmayıb; bu səbəbdən də Yox olmur.
Allahın Dünyanı yaratması iddiası Dünyanın yox olması ehtimalını yaradır ki, bu – Yalandır.

## HƏQİQƏT

İdeal Əsarəti olmur – Yalan əsarəti olur – Yalançı İdeal biçimində.

İdealsızlıq Azadlığı olmur – İdeal Azadlığı olur – Həqiqət biçimində.

*30 Ümid günü, Od Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Qərb Fəlsəfəsi Şərqləşdikcə – Şərq Siyasəti Qərbləşir.

*31 Dözüm günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

***Cəmiyyət Xalqı ifadə eləmir.***
Quldarlıq cəmiyyəti olub –
Quldarlıq Xalqı olmayıb.
Feodalizm cəmiyyəti olub –
Feodalizm Xalqı olmayıb.
Kapitalizm cəmiyyəti olub –
Kapitalizm Xalqı olmayıb.
Sosializm cəmiyyəti olub –
Sosializm Xalqı olmayıb.

## HƏQİQƏT

Cəmiyyət – Təbəqələşmə, Sinifləşmə, İdarələşmə, Ağalaşma, Nökərləşmə – Yəni Antiinsanlaşma deməkdir.

*1 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Adamlar ürəklərində Günahlarıyla qürrələnirlər.

## HƏQİQƏT

Adamlar İblis Həqarətində Fərasət görür və ona Heyran olurlar. ***Adamlar Ürəklərində İblisə gizli eşq gəzdirirlər.***

## HƏQİQƏT

Adamlar cəmiyyət adlı Yoxolmanı görmürlər – Ölüm adlı Yoxolmanı görürlər.

## HƏQİQƏT

Adamlar ömrü boyu Yoxluq içində olurlar, ancaq Yoxluğu görmürlər – ***Ölüm ayağında onu görürlər və qorxurlar.***

## HƏQİQƏT

"Bugün Varam – Sabah Yox." Deməli, Yoxsan.

***Varlıq – Həmişəlikdir.***

## HƏQİQƏT

Şekspirin dillərə düşmüş "Olum ya Ölüm" sualında "Yox olmaqdan qorxmaq" duyğusundan başqa heç nə yoxdur.

*11 İnam günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Hegeldə Mütləq Nisbiylə (Gerçəkliklə) barışır –

***"Nisbi Mütləq" yaranır – əslində Mütləqsizlik yaranır.***

## HƏQİQƏT

Mahiyyət Təzahürdə Yox olsaydı – Təzahürə bərabər olardı və Təzahürün yoxluğu bilinməzdi.

## HƏQİQƏT

Mahiyyət – gerçəklikdə Yoxluq tərzində aşkarlanır; ancaq Yox olmur, çünki Yoxluq gerçəkliyə aid olur, Mahiyyətə aid olmur.

## HƏQİQƏT

Kant Fəlsəfəni elmləşdirir – yəni Mahiyyətdən ayırır və "Mahiyyətin dərk olunmazlığından" danışır.

***Kant Fəlsəfənin elmləşdirilməsi əməliylə "Mahiyyətin dərk olunmazlığını" yaradır.***

***Elm – Gerçəkliyi ötə bilmir, Mahiyyətə çata bilmir.***

## HƏQİQƏT

Məna – Əşya deyil, cism deyil – bu səbəbdən də ***Obyekt deyil.***

İnsan – Mənanı mənimsəmir, Mənaya qovuşur – bu səbəbdən Subyekt deyil.

***Obyekt – Subyekt münasibətlərində gerçəklik dərk olunur, Dünyanın mənası dərk olunmur.....***

## HƏQİQƏT

Formal Məntiq Fikri qəlibə salır, Dialektik Məntiq azdırır...

*14 Dözüm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Fixte İnsanla Dünyanı eyniləşdirir – əslində İnsanı böyütmür – kiçildir: çünki İnsan Dünyadan artıqdır – o, Dünyanın Dünyadan böyük Mənasını ifadə eləyir.

## HƏQİQƏT

Kant Mənayla Gerçəkliyin Fərqini görür, lakin Mənanı İnsandan ayırır, onu dərk edilməz sayır; əslində isə Məna İnsanda təcəssüm olunur.

## HƏQİQƏT

Dialektika Hegeli Mütləqdən ayırır, Mütləqə qarşı çevirir.

## HƏQİQƏT

Hegeldə Təsdiq – Nisbidir, çünki Təsdiq olunan İnkar edilir; İnkar – Nisbidir, çünki İnkar edilən Təsdiq olunana qayıdır.

***Əslində Hegeldə Mütləqin Mütləq vəziyyəti olmur – yalnız Nisbi vəziyyəti olur.***

*15 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Materialistlər üçün İnsan ən yaxşı Halda ***xüsusi*** Təbiətdir: – əslində isə İnsan Təbiətdən artıqdır – Təbiətin Vicdanı yoxdur.

## HƏQİQƏT

İnsan özünü dərk edə bilər, ancaq cəmiyyət bu haqqı onun əlindən alır – ***cəmiyyətdə İnsan özünü dərk edə bilmir.***

**HƏQİQƏT**

İnsanın bədəni – Təbiətin hissəsi.
İnsanın Ruhu – Təbiətin mənası.

**HƏQİQƏT**

Beyin – fikir yaratmır, Fikri əks etdirir.

**HƏQİQƏT**

Cismanilikdən Bədən yaranar, Ruh yaranmaz.

*16 Qismət günü, Qürub Ayı, 13-ci il. Bakı.*

**VƏZİYYƏT**

Müasir xristianlıq – Maddiyyata, Cismaniyə səcdəni, ***yəni əslində antixristianlığı qoruyur.***

*2 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

**KÜTLƏVİ İNFORMASİYA**

Mənəvi Goreşənlik.

*6 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

**FƏRQ**

İdeologiya – İdeyalar Sistemi.
İdeal – Mütləq İdeya.

*8 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Dini İdeologiya – Allahçılıq.
Elmi ideologiya – Maddiyyatçılıq.
İctimai İdeologiya - Cəmiyyətçilik.
***Hər üçü İdealsızlıq.***

**AZADLIQ**

***Adam*** Əsarətindən Azad olmaq.

***Cəmiyyət*** əsarətindən Azad olmaq.
***Özgə Dövlət*** Əsarətindən Azad olmaq.
***Dünya*** Əsarətindən Azad olmaq.

*10 Ümid günü, Ata Ayı, 13-cü il. Bakı.*

## MİLLİ ŞÜUR

Antiictimai Şüur – Təbəqələşməyə Zidd, Özgələşməyə Zidd, Hamılaşmaya Zidd – ***Cəmiyyətə Zidd.***

## HƏQİQƏT

Təbəqələşmə – Xalqa Ziddir.
Özgələşmə – Xalqa Ziddir.
Hamılaşma – Xalqa Ziddir.
***Cəmiyyət Xalqa Ziddir.***

## HƏQİQƏT

***Cəmiyyət Başçısı*** – Təbəqələşmə Başçısı, Özgələşmə Başçısı, Hamılaşma Başçısı – ***Antixalq Başçısı.***

## HƏQİQƏT

Cəmiyyət İnsani naqislik əsasında yaranıb, bu səbəbdən də İnsana yaramır.

## HƏQİQƏT

Tarixən İqtisadi münasibətlər İnsani münasibətlərə Zidd olublar: İqtisadi münasibətlər naminə İnsanlar İnsani münasibətlərdən keçiblər. Iqdisadi Tərəqqi İnsanilik hesabına həyata keçib.

## HƏQİQƏT

Ağa – Nökər əlaqələrini İnsani Naqislik yaratdı. İnsani Naqislik – İqtisadiyyata yaradı və cəmiyyət onu yaşatdı.

**HƏQİQƏT**

Ağa–Nökər münasibətləri İstehsalata yarayıb – İqtisadi İnkişaf naminə İnsanilikdən keçiblər İnsanlar – ***Antiinsani Cəmiyyət yaradıblar.***

**İCTİMAİ HƏMRƏYLİK**

Ağalar – Nökərlər Birliyi.

*12 Mərhəm günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Xalq – Mahiyyətdir, Əhali – Təzahür.
Xalq – Əhalidən artıqdır, böyükdür, yüksəkdir.

**HƏQİQƏT**

Xalq – Fərdiyyət, Ruhaniyyat Birliyi.

**HƏQİQƏT**

Xalq – Tükənməzdir, bu səbəbdən də Müəyyəndir.
Cəmiyyət – tükənəndir, bu səbəbdən də Qeyri-müəyyəndir.

**HƏQİQƏT.**

Maddiyyat əsasında yaranan Birlik – ***Cəmiyyət.***
Ruhaniyyat əsasında yaranan Birlik – ***Xalq.***

**HƏQİQƏT**

Kütləvilik – Zahiri Xəlqilik.
Fərdiyyət – Daxili Xəlqilik

**HƏQİQƏT**

Heç bir Sinif Xalqı ifadə eləmir.
Heç bir Təbəqə Xalqı ifadə eləmir.
Heç bir Cəmiyyət Xalqı ifadə eləmir.
***Xalq – gerçəkliyi ötür; bu səbəbdən də Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.***

## HƏQİQƏT

Siniflər Birliyi olmur – Siniflər Ayrılığı olur.
Təbəqələr  Birliyi olmur – Təbəqələr Ayrılığı olur.
***Xalq – Bütöv Mənadır.***
***Bu səbəbdən də Cəmiyyət – Xalqa  qarşıdır.***

## HƏQİQƏT

Siyasət Zamanı ifadə eləyir və Zamanla bərabər ölüb gedir.
Ruhaniyyat Əbədiyyəti ifadə eləyir və daim yaşayır.

*19 Mərhəm günü, Ata Ayı, 13-ci il. Bakı.*

## BƏŞƏR AQİBƏTİ

Maddi Tərəqqi – Ağalaşma – Nökərləşmə.
Ruhani Tərəqqi – İnsanlaşma.

*20 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Bəşər dahi Sənət yarada bildi –
Ruhani Həyat yarada bilmədi.
***Bəşər – İnsaniliyi vəsf edə bildi –***
***İnsanlaşa bilmədi.***

## HƏQİQƏT

Dahinin gəlişi – Əbədiyyətin Zamana gəlişidir – buna görə də o, əcayib görünür.

## HƏQİQƏT

Dahini Zaman yaratmır – əbədiyyət yaradır; ***Zaman Dahini yarıtmır.***

## HƏQİQƏT

Vaxtında doğulan Dahi olmur, çünki Dahinin vaxtı – əbədilikdir.

**HƏQİQƏT**

Hər dövrün öz hakimi olur, Dahisi olmur.
***Dahilər bütün dövrlər üçündür.***

**HƏQİQƏT**

Böyüklük çox vaxt Dövrün acığına yaranır.

**HƏQİQƏT**

Sənətin inkişafını maddi tərəqqi müəyyən eləmir, qeyri-maddi amillər – ***Ruhani ənənə*** və ***dahilik*** müəyyən eləyir.

*21 Murad günü, Ata Ayı, 13-cü il. Bakı.*

**TARİX**

Ruhani Mahiyyətin İctimai Təzahürü.

*22 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Lovğalıq – İtirilmiş Vüqar.

*23 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Sənət ən Mənasız Həyatdan danışanda belə, Mənadan danışır.

*24 Ümid günü, Ata Ayı, 13-cü il. Bakı.*

**NİRVANA**

Həqiqəti tapmaq.

*29 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Mütləq Təzahür olmur –
Bu səbəbdən də O, Var olmur.
Nisbi Məna olmur –
Bu səbəbdən də O, Yox olmur.

## DƏYİŞKƏNLİK – YOXLUQ

***Həqiqət*** Dəyişilsə – Həqiqət olmaz;
Dəyişkənlik Həqiqətin Yoxluğudur.

***Ədalət*** Dəyişilsə – Ədalət olmaz;
Dəyişkənlik Ədalətin Yoxluğudur.

***Məhəbbət*** Dəyişilsə – Məhəbbət olmaz;
Dəyişkənlik Məhəbbətin Yoxluğudur.

***Qeyrət*** Dəyişilsə – Qeyrət olmaz; –
Dəyişkənlik Qeyrətin Yoxluğudur.

***Dəyişkənlik – Yoxluqdur.***

## HƏQİQƏT

Gerçəklikdə Yox olan Məna – İnsanda Var olur.

## İDEAL

Gerçəklikdə Yox olan, İnamda, İdrakda, Mənəviyyatda, İradədə Var olan Əzəli, Əbədi, Sonsuz, Kamil Məna.

## HƏQİQƏT

İdeal – Həyatın Mənası.
Gerçəklik – Mənanın Təzahürü.

## HƏQİQƏT

Nisbi – Natam Mütləq deyil, AntiMütləqdir –
Natam Mütləq olmur.
Nisbi Xeyir – Natam Xeyir deyil, AntiXeyirdir –
Natam Xeyir olmur.
Nisbi Həqiqət – Natam Həqiqət deyil, AntiHəqiqətdir –
Natam Həqiqət olmur.
Nisbi Ədalət – Natam Ədalət deyil, AntiƏdalətdir –
Natam Ədalət olmur.
Nisbi Varlıq – Natam Varlıq deyil, Antivarlıqdır –

Natam Varlıq olmur.
***Nisbilik – Yoxluqdur.***

**HƏQİQƏT**

Adam – İnsan Gerçəkliyi – Yoxluğu.
İnsan – Adam Mahiyyəti – Varlığı.

**HƏQİQƏT**

Gerçəklik – Mahiyyət Yoxluğu.
Mahiyyət – Gerçəklik Varlığı.

Gerçəkliyi Var eləyən – Mahiyyətdir.
Mahiyyət – Gerçəklikdən artıqdır –
Bu səbəbdən də Yox olmur.

*1 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Musiqini dinlərkən biz həyatla təzədən görüşürük və ölümdən əvvəl vidalaşırıq.

*2 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Gerçəkliyin Mənası – Gerçəkliyə Yaddır.

**HƏQİQƏT**

İnsan – Mahiyyətlə Gerçəklik arasında Körpü.

*3 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Zaman – Əbədiyyət Yoxluğu.
Əbədiyyət – Zaman Varlığı.

**HƏQİQƏT**

Daxili aləm Xarici aləmə qarşıdır əslində.

***Daxili aləm – Mütləq yönlüdür;***
***Xarici aləm – Nisbi Yönlü.***

## HƏQİQƏT

Nisbi Azadlıq olmur, Keçici Azadlıq olmur, Sonlu Azadlıq olmur – ***Gerçəklik səviyyəsində Azadlıq olmur.***

***Azadlıq – Gerçıkliyi ötməkdir.***

*4 Qismət günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Gerçəkliyin Əbədilik İmkanı yoxdur.
Bu səbəbdən də Gerçəklikdə Əbədilik İmkansız görünür.
Gerçəkliyin Sonsuzluq İmkanı yoxdur.
Bu səbəbdən də Gerçəklikdə Sonsuzluq İmkansız görünür.
Gerçəkliyin Kamillik İmkanı yoxdur.
Bu səbəbdən də Gerçəklikdə Kamillik İmkansız görünür.
***Gerçəklikdə Varlıq – İmkansız görünür.***

## HƏQİQƏT

Cəmiyyət İnsanı müəyyənləşdirmir, Qeyri-müəyyənləşdirir.

## HƏQİQƏT

Konkretlik – Mütləqilik.
Mücərrədlik – Nisbilik.

## HƏQİQƏT

Cəmiyyətdə İnsan Mahiyyətsizləşir.

Bu səbəbdən də Cəmiyyətdə İnsani Mahiyyət axtarmaq – Mənasızdır.

## HƏQİQƏT

Maşın – əslində ***cəmiyyət qaydaları əsasında qurulub.***
İlk maşın – cəmiyyət olub, sonrakılar cəmiyyəti təqlid ediblər.

*5 Murad günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Ölüm – gerçəkliyin Güzgüsü.

*7 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Dünyanın əsil Özümlüyü – Mənadır...
Dünya Mənadan – yəni ***Özündən*** yaranıb.
Həyatın əsil Özümlüyü – Mənadır.
Həyat Mənadan – yəni ***Özündən*** yaranıb.
İnsanın əsil Özümlüyü – Mənadır.
İnsan Mənadan – yəni Özündən yaranıb.

## HƏQİQƏT

Keçici nə varsa – Əbədidən yaranıb –
Əbədini heç kəs yaratmayıb, yoxsa o, Keçici olardı.
Sonlu nə varsa – Sonsuzdan yaranıb –
Sonsuzu heç kəs yaratmayıb, yoxsa o, Sonlu olardı.
Qeyri-kamil nə varsa – Kamildən yaranıb –
Kamili heç kəs yaratmayıb, yoxsa o, Qeyri-kamil olardı.

## HƏQİQƏT

***Yaradılan nə varsa – ölür.***
Dünya yaradılmayıb – bu səbəbdən də ölmür.
Həyat yaradılmayıb – bu səbəbdən də ölmür.
Insanlıq yaradılmayıb – bu səbəbdən də ölmür.
Dünya Yaranıb – Dünyadakılar Dünyadan Yaradılıb.
Həyat Yaranıb – Həyatdakılar Həyatdan Yaradılıb.
İnsanlıq Yaranıb – Adamlar İnsanlıqdan Yaradılıb.
***Yaranan – Ölmür..***

## HƏQİQƏT

***Məna*** – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik.
***Təzahür*** – Əvvəllik, Sonluluq, Keçicilik, Qeyri-kamillik.
***Təzahür – Mənanın özgələşməsi.***

*21 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İnam – Mütləq İdrak.
Elm – Nisbi İdrak.

*22 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Dünya Mahiyyətlə Bir yaranıb, sonra Mahiyyətdən ayrılıb – Gerçəkləşib.

Həyat Mahiyyətlə Bir yaranıb, sonra Mahiyyətdən ayrılıb – Gerçəkləşib.

Insan Mahiyyətlə Bir yaranıb, sonra Mahiyyətdən ayrılıb – Gerçəkləşib.

## HƏQİQƏT

Dünya – Mahiyyətlə Gerçəkliyin Birliyidir – yəni Mənayla Mənasızlığın Birliyidir; –

Mənayla Mənasızlığın Birliyi – Formal Birlikdir.

## HƏQİQƏT

İnsan Mahiyyətin – Mütləqin Bəndəsi deyil, İfadəsidir.

## HƏQİQƏT

Mahiyyət – İnsanda cəmləşən Dünyadan artıq Məna.

## MƏNALAR

İnamın Mənası – Mütləq.
İdrakın Mənası – Həqiqət.
Mənəviyyatın Mənası – Vicdan.
İradənin Mənası – Kamillik.

## HƏQİQƏT

Ölüm – Gerçəklik Yoxluğu.

## HƏQİQƏT

Şər – Xeyir nisbiliyindən yaranıb – Özündən yaranmayıb – Şərin Mənası yoxdur.
***Xeyir Özündən yaranıb – Mənadan yaranıb.***

## HƏQİQƏT

Dünya Özündən – öz Mənasından – yaranıb.
Həyat Özündən – öz Mənasından – yaranıb.
İnsan Özündən – öz Mənasından – yaranıb.

## HƏQİQƏT

Allaha inanmaq əvəzinə Özünə inan –
Onda Mütləqə İnanacaqsan.
Allahı tanımaq əvəzinə Özünü tanı –
Onda Mütləqi tanıyacaqsan.
Allahdan qorxmaq əvəzinə Özündən qorx –
Onda Mütləqdən qorxacaqsan.
***Özün – yəni Əzəliliyin, Əbədiliyin, Sonsuzluğun, Kamilliyin, Ruhluğun.***

*23 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Torpaq, Hava, Su, Od – Torpağın, Havanın, Suyun, Odun – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik adlı Mənasından yaranmışlar.

## HƏQİQƏT

İnsan olmasaydı – Dünyanın Mənası itərdi.
Insan Dünyanın cüzi hissəsidir, ancaq Dünyanın Mənası onda cəmlənib.

## HƏQİQƏT

Dahilik, Qəhrəmanlıq, Müqəddəslik, Aşiqlik –
Gerçəklikdə Gerçəklikdən artıq olan Mahiyyət.

*24 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Ölümü yaşadan –Nisbilikdir.
Mütləq – Ölümsüzdür.

*25 Qismət günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Gerçəklikdə Mütləq Yoxdur – əslində Mütləq Var.
Gerçəklikdə Nisbi Var – əslində Nisbi Yoxdur.

*28 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Hegel Mütləqi Gerçəkliklə barışdırır: bu, Mütləqi nisbiləşdirməkdir – yəni Yox eləməkdir əslində.

## HƏQİQƏT

Hegeldə gerçək olan – Mənalıdır;
bu, əslində Mənanı Mənasızlaşdırmaq deməkdir.
Nisbi Xeyiri – Xeyir saymaq – Xeyiri Mənasızlaşdırmaqdır.
Nisbi Vicdanı – Vicdan saymaq – Vicdanı Mənasızlaşdırmaqdır.
Nisbi Ədaləti – Ədalət saymaq – Ədaləti Mənasızlaşdırmaqdır.
Nisbi Həqiqəti – Həqiqət saymaq – Həqiqəti Mənasızlaşdırmaqdır.
***Gerçəkliyi Mənaya bərabər saymaq – Mənanı Mənasızlığa bərabər saymaqdır əslində.***

## HƏQİQƏT

Mühit Dairəsində Müstəqillik – Mühitdən çıxmaq.
Şərait Dairəsində Müstəqillik – Şəraitdən çıxmaq.
Zaman Dairəsində Müstəqilik – Zamandan çıxmaq.

*30 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Əsarətin öz Varlığı yoxdur – Əsarət Azadlığın Yoxluğudur.
Zülmün öz Varlığı yoxdur – Zülm Ədalətin Yoxluğudur.
Yalanın öz Varlığı yoxdur – Yalan Həqiqətin Yoxluğudur.

## HƏQİQƏT

Hadisə Mahiyyətdən yaranır, ancaq Mahiyyət Hadisədən yaranan görünür.

Təzahür Mənadan yaranır, ancaq Məna Təzahürdən yaranan görünür...

*31 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Tarixilik – Qədimliyin Təzahürü.
Qədimlik – Tarixiliyin Mənası.

## HƏQİQƏT

Ziddiyyətləri yaradan Gerçəklikdir, aradan qaldıran – Mahiyyət.

## HƏQİQƏT

İnsanla Adamın Fərqi – Mənayla Təzahürün Fərqinə bərabərdir.

*3 İnam günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Səbəb – Məna, Nəticə – Təzahür.
Səbəb – Mütləq, Nəticə – Nisbi.
Səbəb – Əbədi, Nəticə – Keçici.
Səbəb – Sonsuz, Nəticə – Sonlu.
Səbəb – Kamil, Nəticə – Qeyri-kamil.

Nisbi Səbəb yoxdur, Mütləq Təzahür yoxdur; bu səbəbdən də Mütləq Labüdlük – Qismətçilik Yalanıdır...

## HƏQİQƏT

Cəmiyyət əslində Var olmur, çünki o, Yox ola bilərdi; Adam İnsanlaşsaydı – cəmiyyət Var olmazdı.

Maddiyyatçılıq əslində Var olmur, çünki o, Yox ola bilərdi; Adam İnsanlaşsaydı – maddiyyatçılıq Var olmazdı.

Tarixi Gedişat əslində Var olmur, çünki o, Yox ola bilərdi; Adam İnsanlaşsaydı – Tarixi Gedişat Var olmazdı.

## DİALEKTİK YALANLAR

***Əksliklərin Vəhdəti Qanunu:*** –
Xeyirin Şərləşməsi, Şərin Xeyirləşməsi Yalanı.

***Kəmiyyətin Keyfiyyətə Keçməsi Qanunu:*** –
Kəmiyyətin Keyfiyyətləşməsi,
Keyfiyyətin Kəmiyyətləşməsi Yalanı.

***İnkarı İnkar Qanunu:*** –
İnkarın Təsdiqləşməsi, Təsdiqin İnkarlaşması Yalanı.

## HƏQİQƏT

Gerçəklikdə olmayan Mütləq Xeyir – İnsanın daxilindədir: İnamında, İdrakında, Mənəviyyatında, İradəsində...

Gerçəklikdə olmayan Mütləq Həqiqət – İnsanın daxilindədir: İnamında, İdrakında, Mənəviyyatında, İradəsində...

Gerçəklikdə olmayan Mütləq Ədalət – İnsanın daxilindədir: İnamında, İdrakında, Mənəviyyatında, İradəsində...

***Əzəli, Əbədi, Sonsuz, Kamil Məna – Mütləq – İnsanın daxilindədir...***

## HƏQİQƏT

Dəyişilən nə varsa – Yaradılıb.
Dəyişməz nə varsa – Yaranıb.

## HƏQİQƏT

Təcrübəni Həqiqətin Meyarı saymaq – Nisbini Mütləqin Meyarı saymaqdır.

*5 Ümid günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət İnsan həyatını mexanikləşdirir, cansızlaşdırır, əslində İnsan cəmiyyətdə ölümlə üzləşir və instinktiv surətdə özünü cəmiyyətdən qorumağa can atır.

***Cəmiyyət insanları daşa, ağaca döndərən, tilsimə salan Divə oxşayır – nağıllar əslində cəmiyyəti ifadə eləyirlər.***

## HƏQİQƏT

Tarixi Zəruriyyət – Qismətçiliyin elmi adı.

## HƏQİQƏT

İmkan – Gerçəkliyi ötmək.
İmkansızlıq – Gerçəkliyə uyğunlaşmaq.

*6 Dözüm günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## DİALEKTİKAYA QARŞI

Xeyir Şərə keçirsə, o, Xeyir deyil – Şərdir.
Şər Xeyirə keçə bilməz, çünki o, Xeyirin Yoxluğudur.

## HƏQİQƏT

Təzahürün Varlığı – Mahiyyətdədir,
Mahiyyətin Varlığı – Özündə.

## HƏQİQƏT

Varlıq – Yoxluğa çevrilə bilməz,
Var olan – Yox olmaz.

## HƏQİQƏT

Təzahür – Var olsaydı – ölməzdi.
Mahiyyət – Yox olsaydı – ölərdi.

## FƏRQ

Təzahür – Ölümlü Mövcudluq;
Mahiyyət – Ölümsüz Varlıq.

## HƏQİQƏT

Yoxluq – Nisbidən  Yaranıb;
Mütləq – Yoxluq tanımır.

## AZADLIQLAR

İnam Azadlığı – Mütləqilik.
İdrak Azadlığı – Həqiqət.
Mənəviyyat Azadlığı – Kamillikə
İradə Azadlığı – Gerçəkliyi ötmək.

*8 Qismət günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İnsanilik – əməkdən artıqdır –
Əmək İnsanı yarada bilməzdi.
İnsanilik – Cəmiyyətdən artıqdır –
Cəmiyyət İnsanı yarada bilməzdi.
İnsanilik – Dövrandan artıqdır –
Dövran İnsanı yarada bilməzdi.
İnsanilik – Şəraitdən  artıqdır –
Şərait İnsanı yarada bilməzdi.

***İnsanilik – Mütləqilikdir; İnsan Mütləqilikdən yaranıb.***

## HƏQİQƏT

İnsan – ictimai münasibətləri yaradır, – ictimai  münasibətlər insana yaramır.

## HƏQİQƏT

İnsan Əməyi yaratdı; – Əmək İnsanı yaşatdı.

*14 Murad günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cansız Təbiət əslində Canlıdır – çünki Ruhludur.

Canlı Təbiət (Heyvanat Aləmi) əslində Cansızdır – çünki Ruhsuzdur.

***İnsan Öküzdən çox, Ulduza bənzəyir.***

## FƏRQ

İnsan üzərində Məna Ağalığı olmur – Allah Ağalığı olur.

## HƏQİQƏT

Mədəniyyət İnsanı Ucaldır, Din İnsanı Alçaldır.

Bu səbəbdən də "Dini mədəniyyyət" anlayışı cəfəngiyyatdır.

"İslam mədəniyyəti" anlayışı cəfəngiyyatdır.

"Xristian mədəniyyəti" anlayışı cəfəngiyyatdır.

*12 Mərhəm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Dünya dəyişir, Məna dəyişmir, bu səbəbdən də Dünya ölmür.

*13 Qismət günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Qılıncla Ruhani İntibah yaranmaz.
Qılıncla Ruhani İntibah dağılar, yaxud qorunar.

## HƏQİQƏT

Dinə qarşı – İnam.
Ateizmə qarşı – İnam.

*15 İnam günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Allah – Mənayla qırılan Tilsim.

**HƏQİQƏT**

Cənnət – əslində Cəhənnəm Əzabı.

*16 Arzu günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Məna – Dünyadaşıyan.
İnsan – Mənadaşıyan.

**DİN XOFU**

Allahdan Qorx – Pislik eləmə.
Qorxu – özü elə Pislikdir.
Allahdan Qorx – Şər eləmə.
Qorxu – özü elə Şərdir.

**HƏQİQƏT**

Dinin Göyü – Yerdir əslində.
Din Göysüzdür.

**HƏQİQƏT**

Cəza – Mükafatın Davamı.
Mükafat – Cəzanın Davamı.

**HƏQİQƏT**

Cəza – Cinayətdən Törəyən.
Cinayət – Cəzanı Törədən.
Cəza – Cinayəti öldürmür.
Cinayət ölməsə – Cəza ölməz.

**HƏQİQƏT**

Adamlar həqiqətdən xilas olamq üçün Yalana qaçdılar; unutdular ki, həqiqətdən başqa xilas yoxdur.

**HƏQİQƏT**

Xalq – Camaatın Mahiyyəti.

Camaat – Xalqın Təzahürü.
Mahiyyət – Təzahürdən artıqdır, böyükdür, yüksəkdir.
Xalq – Camaatdan artıqdır, böyükdür, yüksəkdir.

**HƏQİQƏT**

Zorakılıq – Əxlaqsızlıqdır.
Zorakı Əxlaq – Əxlaqsızlıqdır.

**HƏQİQƏT**

İslam – Şərabı günah sayır.
İslam özü elə Şərabdır.
Marksizm – Dini Tiryək sayır.
Marksizm – özü elə Tiryəkdir.

**HƏQİQƏT**

İnsana Münasibət – Mənaya Münasibətdir.
İnsanı Alçaltmaq – Dünyanı Mənasızlaşdırmaqdır.

*17 Ümid günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Din – Ruhani Hakimlik.
İnam – Ruhani Kamillik.

**HƏQİQƏT**

***Allah əslində Gördüyümüzdür:*** Quldardır, Ağadır, Mülkiyyətçidir, İnzibatçıdır; Hökmdardır, Nəzarətçidir, Cəzaçıdır, İnşaatçıdır...

**HƏQİQƏT**

İnsana İnanmayan – Kafirdir.
Dinlərin Heç biri İnsana İnanmır.
***Dinlərin Hamısı Kafirdir.***

**HƏQİQƏT**

Ateisti Allahsız saymaq Günahdır.
***Ateistin Allahı – maddiyyatdır.***

*18 Dözüm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Quran – əslində Qorxu – namədir.

*19 Mərhəm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Amansız Həqiqət olmur.
Amansız Yalan olur.

*20 Qismət günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Din İnsandan qorxur, bu səbəbdən də onu Allahla qorxudur.

*23 Arzu günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Boşluq – Mənasızdır.
Dünya Boşluq tanımır.
Bu səbəbdən də Dünya – Mənalıdır.

*26 Mərhəm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Vaqif Saray şairidir; Saray Əxlaqının – Əxlaqsızlığının tərənnümçüsüdür.

*27 Qismət günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Zor – Heyvanın Gücüdür; Adamın – Gücsüzlüyü.

*4 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Təhlükədən qaçmasan – Təhlükə səndən qaçar.

*11 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Fərəhli Zaman olmur – Fərəhli İnsan olur.
Fərəhli Şərait olmur – Fərəhli İnsan olur.
Fərəhli Mühit olmur – Fərəhli İnsan olur.
Fərəhli Cəmiyyət olmur – Fərəhli İnsan olur.
***İnsanlıq – Fərəhdir.***

*12 İnam günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## FƏRQ

Müsəlmanlar – İtaətçidirlər.
İtaətdə Eşq yoxdur.
Sufilər – Aşiqdirlər, bu səbəbdən də Müsəlman deyillər.

*18 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Dünya nədən yaranıb?
Dünya Dünyalıqdan yaranıb.
Dünyalıq nədən yaranıb?
Dünyalıq Özündən Yaranıb!

Həyat nədən yaranıb?
Həyat Həyatlıqdan yaranıb.
Həyatlıq nədən yaranıb?
Həyatlıq Özündən yaranıb!

İnsan nədən yaranıb?
İnsan İnsanlıqdan yaranıb.
İnsanlıq nədən yaranıb?
İnsanlıq Özündən yaranıb!

**HƏQİQƏT**

Mənliyin Mənəmlikdən böyük Düşməni yoxdur.

*24 Qismət günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Cismani Mənadan yaranıb, bu səbəbdən də Mənasız sayılır.

**HƏQİQƏT**

Dünyanın yaşı var, Dünyalığın yaşı yoxdur.

**HƏQİQƏT**

***Mahiyyət*** **–** Gerçəkliyin daxilində –
Gerçəklikdən Artıq, Böyük, Yüksək.
***Dünyalıq*** **–** Dünyanın daxilində –
Dünyadan Artıq, Böyük, Yüksək.
***Həyatlıq*** **–** Həyatın daxilində –
Həyatdan Artıq, Böyük, Yüksək.
***İnsanlıq*** **–** İnsanın daxilində –
İnsandan Artıq, Böyük, Yüksək.

**HƏQİQƏT**

"İnsanı Allah yaradıb!" demək – Allahı günahkar saymaqdır – İnsanın Günahını Allahın üstünə yıxmaqdır.

**HƏQİQƏT**

Yalan – Gerçəkliyə yaxındır.
Həqiqət – Gerçəklikdən uzaqdır.

*25 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

**HƏQİQƏT**

Təzahür Mahiyyətdən yaranıb.
Cismani Ruhanidən yaranıb.
Dünyalıq – Səbəb, Dünya – Nəticə.
Həyatlıq – Səbəb, Həyat – Nəticə.

İnsanlıq – Səbəb, İnsan – Nəticə.

*26 İnam günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Mahiyyət – Məna deməkdir.

Maddi Məna olmur.

Bu səbəbdən də Maddiyyatı Dünyanın Əsası saymaq – Dünyanı Mahiyyətsizləşdirməkdir.

## FƏRQ

***Kainat Cismaniyə sığır.***
***İnsan Cismaniyə sığmır.***
İnam cismaniyə sığmır.
İdrak cismaniyə sığmır.
Mənəviyyat cismaniyə sığmır.
İradə cismaniyə sığmır.

## HƏQİQƏT

Biçim – Mahiyyətin Təzahürü.
Mahiyyət – Biçimin Mənası.

*27 Arzu günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Dünya Böyükdür – ancaq Mənadan kiçikdir –

Yəni İnamdan kiçikdir, İdrakdan kiçikdir, Mənəviyyatdan kiçikdir, İradədən kiçikdir.

*28 Ümid günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

***İnam*** – Mütləqilik Halıdır,
Həm də Mütləqiliyin İzharıdır.
***İdrak*** – Mütləqilik Halıdır,
Həm də Mütləqiliyin Dərkidir.

***Mənəviyyat*** – Mütləqilik Halıdır,
Həm də Mütləqiliyə çatmaqdır.
***İradə*** – Mütləqilik Halıdır,
Həm də Mütləqiliyin təsdiqidir.

**HƏQİQƏT**

Dünya dəyişilir – təzələnmir.

**HƏQİQƏT**

Xudbinlik – Özgələşmədir.

**HƏQİQƏT**

Musiqidə Qulaq Ruhu eşidir.
Şeirdə Göz Ruhu oxuyur.
Rəssamlıqda Göz Ruhu görür.
Məhəbbətdə Ürək Ruha qovuşur.

**HƏQİQƏT**

Dil – Təfəkkürün Təzahürü.
Təfəkkür – Dilin Mahiyyəti.

*1 Qismət günü, İşıq Ayı, 14-cü il. Bakı.*

**BİRLİK**

"Mənlər" deyilmir, "Biz" deyilir – çünki "Mən" Birdir.
"Sənlər" deyilmir, "siz" deyilir – çünki "Sən" Birdir.

**HƏQİQƏT**

Şər Xeyirdən törəmir – Şərdən törəyir.

Ölüm Həyatdan törəmir – Ölümdən törəyir.

Xeyirlə Şər arasında Birlik yoxdur – İkilik var – Mahiyyətə zidd.

Ölümlə Həyat arasında Birlik yoxdur – İkilik var – Mahiyyətə zidd.

***Mahiyyət – Vahiddir; Gerçəklik – İkili; bu səbəbdən də Gerçəklik Mahiyyətə ziddir.***

## HƏQİQƏT

Ziddiyyətsiz Mahiyyət, Ziddiyyətli Gerçəklik – Gerçəkliklə Mahiyyət arasında Ziddiyyət – Dünya budur.

## HƏQİQƏT

Ziddiyyətli Gerçəklik – Mahiyyətə Zidd olan Gerçəklik.

## ƏLAQƏ

Dəyişən Mahiyyət olmur.
Dəyişməz Təzahür olmur.

## HƏQİQƏT

Mütləqilik – Nisbidən üstün, Nisbilərdən üstün; Nisbilər bir yerdə Mütləq deyillər.

Sonsuzluq – Sonludan üstün, Sonlulardan üstün; Sonlular bir yerdə Sonsuz deyillər.

Əbədilik – Keçicidən Üstün, Keçicilərdən üstün; Keçicilər bir yerdə Əbədiyyət deyillər.

Kamillik – Qeyri-kamildən üstün, Qeyri-kamillərdən üstün; Qeyri-kamillər bir yerdə Kamil deyillər.

Mahiyyət – Gerçəklikdən üstün, Gerçəkliklərdən üstün; Gerçəkliklər bir yerdə Mahiyyət deyillər.

## ZİDDİYYƏT

Ziddiyyət – Mahiyyətə Ziddir.
Gerçəklik – Mahiyyətə Ziddir, çünki Ziddiyyətlidir.

*2 Murad günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## İMKANLAR

Elin çiynində hakimiyyətə gəlmək olar.
Elin çiynində Qəbrə getmək olar.
***Eli çiynində Ruhaniyyata Yüksəltmək olar.***

*11 Arzu günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

"Otello"da bir Günahsız İnsan var – Dezdemona.

Yaqo – Murdardır; Otello – günahkardır, ***çünki Axmaqlıq – Günahdır.***

*13 Dözüm günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

***Kantçılıq*** – Həqiqətsizlikdir, çünki İdrakın Həqiqəti dərk etməyinə inanmır.

***Hegelçilik*** – Mütləqsizlikdir, çünki Mütləqi Gerçəkliklə bərabərləşdirir.

***Pozitivizm*** – Mahiyyətsizlikdir, çünki Mahiyyəti Gerçəkliklə eyniləşdirir.

## HƏQİQƏT

***Kəmiyyətin Keyfiyyətə keçməsi İdeyası – cəfəngiyyatdır.***

Əslində Keyfiyyət Kəmiyyətə keçir, çünki Keyfiyyət – Mahiyyətdir, Kəmiyyət – Təzahür.

Kəmiyyət Dəyişiklikləri Keyfiyyət Dəyişikliklərindən yaranır əslində.

***Əksliklərin Birliyi İdeyası – cəfəngiyyatdır.***

Birləşən əksliklər – əkslikdən məhrum olardılar.

***İnkarı İnkar İdeyası – cəfəngiyyatdır.***

Əsil İnkar – İnkarolunmazdır, İnkar olunan İnkar İnkar deyil; Nisbi İnkar, yarıminkar – İnkar deyil.

*24 İnam günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Sokrat Gerçəkliyi Zəkanın məhkəməsinə çəkdi və məhkum etdi; ancaq Zəkanı məhkəməyə çəkmədi; çəksəydi – Zəkanı da məhkum etməli olardı.

## HƏQİQƏT

Platon İdeyalar aləmini Zəka üzərində qurdu – bu səbəbdən də Mənaya çatmadı, çünki Məna Zəkadan böyükdür, yüksəkdir, artıqdır.

*30 Murad günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## FƏRQ

Mosart – Musiqi; Bethoven – Musiqinin Ruhu.

*8 Arzu günü, Şölə Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

İnsan Gerçəkliyi dərk edir, Mahiyyətə qovuşur.

*11 Mərhəm günü, Şölə Ayı, 14-cü il. Bakı.*

## MÜDRİKLİK

Mənanı anlamaq, Mənanı duymaq, Mənalı yaşamaq.

*1 Dözüm günü, Od ayı, 14-cü il. Bakı.*

## ƏLAQƏ

Bəşərin Məzmunu – Xalq.
Xalqların Biçimi – Bəşəriyyət.

*6 Ümid günü, Od Ayı, 14-cü il. Bakı.*

## MÜTALİYƏ

Boşluğa düşürəm və Boşluğu Fikirlərimlə doldururam.

*19 İnam günü, Od Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Fəlsəfə Tarixi – İçməli Suyu olmayan Nəhəng Dəniz.

*20 Arzu günü, Od Ayı, 14-cü il.Bakı.*

## OLAN – OLMAYAN

Olum–Ölüm Təzadında İnsan Olumu seçir, çünki Ölüm onsuz da labüddür – ***İnsan olmayanı seçir əslində.***

*6 Ümid günü, Od Ayı, 14-cü il.Bakı.*

## HAL

İnamlıyam, çünki bütün Xülyalardan azad olmuşam.

## HAL

Qorxu İt kimidir. Qabağından qaçırsan – arxanca düşür; qaçmırsan – geri çəkilir.

*7 Murad günü, Yağış Ayı, 14-cü il.Bakı.*

## ÖLÇÜ

Əxlaq – Təmənnasızlıq.
Həqiqət – Mütləqilik.
Ədalət – İmtiyazsızlıq.

## ƏLAQƏ – ƏLAQƏSİZLİK

Ağa – Nökər Əlaqəsi olmur,
Ağa – Nökər Əlaqəsizliyi olur.

*10 Ümid günü, Yağış Ayı, 14-cü il.Bakı.*

## HƏQİQƏT

Əslində konkret nə varsa – Qeyri-müəyyəndir – dəyişkəndir, nisbidir, keçicidir, sonludur.

Əslində Ümumi müəyyəndir – sabitdir, mütləqdir, əbədidir, sonsuzdur.

Dəyişkən – müəyyən deyil, Sabit – müəyyəndir.
Nisbi – müəyyən deyil, Mütləq – müəyyəndir.
Keçici – müəyyən deyil, Əbədi – müəyyəndir.
Sonlu – müəyyən deyil, Sonsuz – müəyyəndir.

## KANTÇILIĞA QARŞI

Fəlsəfə İdrakın Tədqiqi deyil, Özüdür.
Fəlsəfəni İdrakın Tədqiqi saymaq onu özgələşdirməkdir.

## HƏQİQƏT

Gərək biləsən ki, Hadisə Mənadan əmələ gəlib, Məna Hadisədən Yox.

Gərək biləsən ki, Konkret Ümumidən əmələ gəlib, Ümumi Konkretdən Yox.

Gərək biləsən ki, Sadə Mürəkkəbdən əmələ gəlib, Mürəkkəb Sadədən Yox.

***Gərək biləsən ki, Gözün səni aldadır.***

## HƏQİQƏT

Elm Təbiət Qanunlarını kəşf edir; Təbiət Qanunları Məna deyil – onun Təzahürüdür; bu səbəbdən də Elm əslində Təzahürü kəşf edir.

## HƏQİQƏT

Fizika Dünyanı öyrənir, Dünyanın Mənasını öyrənmir.
Biologiya Həyatı öyrənir, Həyatın Mənasını özrənmir.
Antropologiya İnsanı öyrənir, İnsanın Mənasını öyrənmir.
Dünyanın, Həyatın, İnsanın Mənasını Fəlsəfə öyrənir; İnam – Mənaya qovuşur.

***Fəlsəfə Mənanı İnsana çatdırır; İnam İnsanı Mənaya çatdırır.***

## HƏQİQƏT

Şüur – Materiyanın xassəsi deyil, Materiya vasitəsiylə Məna ifadəsidir.

## HƏQİQƏT

Əgər Şüur Materiyanın məhsuludursa, onda Materiya – şüurludur – fikirlidir, ideyalıdır... Qəribə bir idealizm törəyir materialist monizmdən (vəhdətdən).

## MƏNA YOLU

İdrak – Mənalandıran.
Əxlaq – Mənalanan.
Həqiqət – Məna.

## HEGELÇİLİYƏ QARŞI

Dialektik Üsul (Metod) əslində Nisbilik Kultudur; Mahiyyətcə o, Mütləq tanımır, yəni Həqiqət tanımır.

## HƏQİQƏT

Dünyanın Dünyalıq boyda Mənası var.
Həyatın Həyatlıq boyda Mənası var.
İnsanın İnsanlıq boyda Mənası var.

## ƏMƏLLƏR

Elm İnsanı Məna Yoluna çatdırır.
Fəlsəfə Mənanı dərk edir.
İnam İnsanı Mənaya qovuşdurur.

## VƏZİYYƏT

İnsanlığın Sonundan danışırlar, İnsanlıq nə vaxt başlayıb ki, qurtarsın?

## HƏQİQƏT

Duyğunu Beyin yaratmır,
Beyindən kənardakı Məna yaradır;
Fikri Beyin yaratmır,
Beyindən kənardakı Məna yaradır;
İdeyanı Beyin yaratmır,
Beyindən kənardakı Məna yaradır.

***Beyindən kənardakı Məna Beyin vasitəsiylə ifadə olunur.***
Yəni Fikir – Məna İfadəsidir,
Beyin – Fikir Vasitəsi.
Duyğu – Məna İfadəsidir,
Beyin – Duyğu Vasitəsi.
İdeya – Məna İfadəsidir,
Beyin – İdeya Vasitəsi.

*12 Mərhəm günü, Yağış Ayı, 14-cü il.Bakı.*

## FƏRQLƏR

Həyat Adamı – Güzərançı.
Cəmiyyət Adamı – Siyasətçi.
Amal Adamı – İnsançı.

*16 Arzu günü, Yağış Ayı, 14-cü il.Bakı.*

## HƏQİQƏT

Əgər İnsan – ictimai heyvandırsa, cəmiyyət heyvanlıqdır.

## HƏQİQƏT

İctimai Əlaqə – Ruhani Təcriddir.
Ruhani Əlaqə – İctimai Təcriddir.

## İNSAN FACİƏSİ

İnsan müstəqil olmaq istəyiylə Təbiətdən ayrıldı, cəmiyyət yaratdı, – cəmiyyət onun müstəqilliyini əlindən aldı.

*17 Ümid günü, Yağış Ayı, 14-cü il.Bakı.*

## HƏQİQƏT

Din İnamsızlığı.
İnam Dinsizliyi.

*13 Murad günü, Köçəri Ayı, 14-cü il.Bakı.*

## RUHANİ SAY

***Məna – Birdir, Təzahür – Min.***
Bir – Mindən Artıqdır.

*18 Mərhəm günü, Köçəri Ayı, 14-cü il.Bakı.*

## KANTA QARŞI

İnsan – əyri ağac deyil, əyrilmiş ağacdır – onu düzəltmək gərək.

*23 Ümid günü, Köçəri Ayı, 14-cü il.Bakı.*

## HƏYAT HALI

Həyat ölmür.
Ölüm Həyatı qoruyur.

*24 Dözüm günü, Köçəri Ayı, 14-cü il. Bakı.*

## HAL

Şeirin ölümünü gördük – ağlamadıq, güldük.

## HƏQİQƏT

Adamlar Allahdan özlərinə Ata düzəltdilər – Yetim qaldılar.
Cəmiyyətdən özlərinə Ata düzəltdilər – Yetim qaldılar.
***Adamlar özlərinə Atalıq edə bilmədilər – Yetim qaldılar.***

*1 Arzu günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Ateizm Dinin qənimi olmadı, rəqibi oldu.

**HƏQİQƏT**
Din – Varlını qoruyur; Yoxsula rəhm eləyir.

**HƏQİQƏT**
Dini Dualar –Mənəvi Diləncilik.

**HƏQİQƏT**
İslam Təməlçiliyi – Yeni Xəlifətçilik.

**HƏQİQƏT**
***Dinçilik*** – Qismətçilik, Xofçuluq, Yalançılıq.
İnam – Özümçülük, Qorxmazlıq, Həqiqətçilik.

**HƏQİQƏT**
Din – əslində İnamsızlığa İnamdır.

*9 Ümid günü, Günəş Ayı, 15-ci il.Bakı.*

**FƏRQLƏR**
***Dinçilik*** – Allahçılıq.
***Ateizm*** – Maddiyyatçılıq.
***İnamçılıq*** – İnsançılıq.

*10 Dözüm günü, Günəş Ayı, 15-ci il.Bakı.*

**HƏQİQƏT**
Soyuq Ağıl olmur – çünki Sönük Ağıl olmur.

**HƏQİQƏT**
Od – yandığı dərəcədə Oddur; Od sönəndə Od olmur, Kül olur.

**HƏDD**
Od – sönmək üçün Yanmır, Yanmaq üçün yanır, ancaq Sönməyə bilmir.

Varlıq – ölmək üçün Yaşamır, Yaşamaq üçün Yaşayır, ancaq Ölməyə bilmir.

***Odun Sönmək adlı Həddi var.***
***Varlığın ölmək adlı Həddi var.***

**HƏQİQƏT**

Kül Oddan törəmir – ***Odun Ölümündən törəyir; Odun Ölümündə Od olmur.***

***"Od olmasaydı – Kül olmazdı!" – deyirlər.***
***"Od olsaydı – Kül olmazdı!" – deyirik.***

Ölüm Varlığın Yoxluğundan törəyir; ***Yoxluqda Varlıq olmur.***
***"Varlıq olmasaydı – Yoxluq olmazdı!" – deyirlər.***
***"Varlıq olsaydı – Yoxluq olmazdı!" – deyirik.***

**HƏQİQƏT**

Yaz Yazlığını tam İfadə edə bilmir – Yaya keçir.
Yay Yaylığını tam İfadə edə bilmir – Payıza keçir.
Payız Payızlığını tam İfadə edə bilmir – Qışa keçir.
Qış Qışlığını tam İfadə edə bilmir – Yaza keçir.
***Ömür Ömürlüyünü tam İfadə edə bilmir – Ölümə keçir.***

*11 Mərhəm günü, Günəş Ayı, 15-ci il.Bakı.*

**FƏRƏH**

Qabaqdan Qocalıq adlanan Ucalıq gəlir.

*16 Ümid günü, Günəş Ayı, 15-ci il.Bakı.*

**HƏQİQƏT**

Məscidlər, Kilsələr – Sənət İşığı, Din Qaranlığı.

**HƏQİQƏT**

***Köləlik*** adlı Müqəddəslik Yoxdur – bu səbəbdən də Din Müqəddəslik tanımır.

***Ağalıq*** adlı Mütləqilik Yoxdur – bu səbəbdən də Din – Mütləqilik tanımır.

**FƏRQ**

Misirlilər – Hökmdarları Allah sayırdılar;
Semitlər – Allahı Hökmdar saydılar.

**HƏQİQƏT**

Din – Ruhani Əsarət.

**HƏQİQƏT**

Dinçilik – Köləlik Yoluyla xilas.

**HƏQİQƏT**

Azadlıq – Vicdan Hakimliyi.

**HƏQİQƏT**

Din – Allahçılıq.
İnam – İnsançılıq.

**HALLAR**

Din Zülmü.
İnam Azadlığı.

**FƏRQ**

Din – Adamı Qul eləyir; İnam – Adamı İnsan eləyir.

**HƏQİQƏT**

Allaha Qul olmaq – əslində Cəmiyyətə Qul olmaqdır.
***Din – əslində cəmiyyətçilikdir.***

*18 Mərhəm günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## İNSANSIZLIQLAR

***Dində*** İnsan yoxdur – Allah var.
***Marksizmdə*** İnsan yoxdur – İstehsalat var.
***Freydizmdə*** İnsan yoxdur – Cinsiyyət var.
***Nitsşeçilikdə*** İnsan yoxdur – Yırtıcılıq var.

## NƏTİCƏ

Adam Dinə yaradı, Sosializmə yaradı, Faşizmə yaradı, Kapitalizmə yaradı – İnsaniliyə yaramadı.

## HƏQİQƏT

Özünə inanmadığın dərəcədə Allaha inanırsan.
Özünə inandığın dərəcədə Mənaya inanırsan.

## HƏQİQƏT

İnsan Dünyanı Bilmədiyi dərəcədə Allaha inanır.
İnsan Dünyanı Bildiyi dərəcədə Mənaya inanır.

İnsan Həyatı Bilmədiyi dərəcədə Allaha inanır.
İnsan Həyatı Bildiyi dərəcədə Mənaya inanır.

İnsan İnsanı Bilmədiyi dərəcədə Allaha inanır.
İnsan İnsanı Bildiyi dərəcədə Mənaya inanır.

*6 Ümid günü, Günəş Ayı, 15-ci il.Bakı.*

## HƏQİQƏT

Din – əlacsızlıq.
İnam – əlac.

## HƏQİQƏT

Adam İnsan olmasa – Azad olmaz.
***Adam Azadlığı – əslində Əsarətdir.***

*7 Dözüm günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

**YAŞAYIŞ**

Cəmiyyətdə Ağalıq eləyə bilmir – Ailədə Ağalıq eləyir.
Cəmiyyətdə Xanımlıq eləyə bilmir – Ailədə Xanımlıq eləyir.
***Ağalığı yaşadır.***
***Xanımlığı yaşadır.***

**ƏLAQƏ**

Varlı Yoxsulun Hesabına Varlı olur.
Yoxsul Varlının Hesabına Kasıb olur.
***Varlı Yoxsulluq yaradır əslində.***
***Yoxsulluğu Var yaradır əslində.***

**ƏLLƏR**

Yoxsulluğu yaradan Varlı Yoxsula əl uzadır.
Varlılığı yaradan Yoxsul Varlıya əl açır.

**HƏQİQƏT**

Varlı Ölkə olmur.
Varlı Dövlət olur, Varlı Təbəqə olur.
***Yoxsullar olmasa – Varlılar olmaz.***

**FƏRQ**

***Din*** – Yalançılıq.
***İnam*** **–** Həqiqətçilik.

**HƏQİQƏT**

Dini yaşadan – İnamsızlıqdır.
Allahı yaşadan – Mütləqsizlikdir.

*8 Mərhəm günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

**İNAMSIZLIQ YÖNÜ**

Dinə Qayıtmaq İnamsızlığı.
Kapitalizmə Qayıtmaq İnamsızlığı.
Qərbçiliyə Qapılmaq İnamsızlığı.

## FƏRQ

Göy Dərinliyi var – İşıqlı.
Quyu Dərinliyi var – Qaranlıq.

*9 Qismət günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## FƏRQ

Həya – Qorxusuzluq.
Həyasızlıq – Qorxu əvəzi.

## HƏQİQƏT

Adam – Var olmadığından Qorxur;
Yox olmaqdan Qorxur.

Adam – özünü Var olan saymır və Allahdan Qorxur;
Yox olmaq istəmir və Ölümdən Qorxur.

## HƏQİQƏT

Adamda Cəsarət Qorxuyla qoşalaşır.
Həqiqətçilik Cəfəngiyyatçılıqla qoşalaşır.
Doğmalıq Yağılıqla qoşalaşır.
Heyrət Həsədlə qoşalaşır.
Ləyaqət Qəbahətlə qoşalaşır.
***Bütöv Adam olmur əslində – Bütöv İnsan olur.***

## TƏKƏBBÜR

Sifəti çirkləndirən Ağalıq.
Sifəti çirkləndirən Xanımlıq.

## HƏQİQƏT

Ağalıq – Adamda İnstinkt səviyyəsindədir.
Nökərlik – Adamda İnstinkt səviyyəsindədir.
Yırtıcılıq – Adamda İnstinkt səviyyəsindədir.
Cəfəngiyyatçılıq – Adamda İnstinkt səviyyəsindədir.
Qorxu – Adamda İnstinkt səviyyəsindədir.

Həsəd – Adamda İnstinkt səviyyəsindədir.
Şəhvət – Adamda İnstinkt səviyyəsindədir.
***Özüylədöyüş – İnstinktlərlə döyüşdür – bu səbəbdən də əsil Ruhani Hünərdir.***

*12 Arzu günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

**YARANIŞ**

Dünyadakılar Dünyadan yaranıb.
Dünya özündən yaranıb.
Dünyanın Mənası özündədir.

*13 Ümid günü, Çiçək Ayı, 15-ci il.Bakı.*

**ÜMİDSİZLİK İNAMI**

"Əlac Allaha qalıb" Sözündən Ümidsiz Söz yoxdur əslində.

**HƏQİQƏT**

İnsan Dünyanı Bilmədiyi dərəcədə Allaha inanır.
İnsan Dünyanı Bildiyi dərəcədə Mütləqə inanır.

*17 Murad günü, Çiçək Ayı, 15-ci il.Bakı.*

**HƏQİQƏT**

Allaha üz tutmaq – Özgəyə üz tutmaqdır.
Mütləqə üz tutmaq – Özünə üz tutmaqdır.

*19 Arzu günü, Çiçək Ayı, 15-ci il.Bakı.*

**DİNİ POZĞUNLUQ**

Cəfəngiyyatçılıq Pozğunluğu.
Qismətçilik Pozğunluğu.
İtaətçilik Pozğunluğu.
Cənnətçilik Pozğunluğu.
Cəhənnəmçilik Pozğunluğu.

*20 Ümid günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## DOĞMALIQ – YADLIQ

Doğma Vətən – Yad Cəmiyyət.
Doğma Həqiqət – Yad Siyasət.
Doğma Ruhaniyyat – Yad Hakimiyyət.

*6 Mərhəm günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## "OLUM ya ÖLÜM" SUALI

Şekspirdə "Yaşamaq" və Ölmək" mahiyyətcə Birdir.
Həyat – Ölümdür, Ölüm – Həyatdır.

***Əslində isə Var olmaq – Olumdan Artıqdır, Ölümdən Artıqdır.***

*11 Ümid günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Din adlanan Ümidsizlikdən İnam adlı Ümidə keçə bilmirlər Adamlar.

*14 Qismət günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Adam Həyatı yenəndə – İnsan yaranır.
Həyat İnsanı yenəndə – Adam yaranır.

*17 Arzu günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Aktyorluq – Oyunçuluq sənəti.

## HƏQİQƏT

Siyasətdə – İnsanilik keçmir;
Ticarətdə – İnsanilik keçmir;
Siyasət – İnsanilikdən keçir;
Ticarət – İnsanilikdən keçir;
bu səbəbdən də Siyasətdə, Ticarətdə Ruhaniyyat məğlub olur.

*28 Qismət günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## ƏLAQƏ

Dinçilik – Mənəvi Pulçuluq.
Pulçuluq – Maddi Dinçilik.

*4 Qismət günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Məhəbbətsiz ailə – İstehsalatdır.

*5 Murad günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət Ailəni müdafiə eləmir – Ailədə Cəmiyyəti müdafiə eləyir.

*13 İnam günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## ƏNƏNƏ

Şeyx Nəsrullah qaçdı...
Kefli İsgəndər ölülərin üzünə tüpürür.

*18 Qismət günü, Şölə Ayı, 15-ci il.Bakı.*

## YOX OLMAQ QORXUSU

Adam Həyatdan getməkdən qorxmur – Yox olmaqdan qorxur.

Adam Yox olmasaydı – Həyatdan getməkdən qorxmazdı.

***Ölümdən qorxmaq – Yox olmaqdan qorxmaqdır əslində.***

## BİRLİK

İnsan Öləndən sonra Dirilərə qarışır, təzə Fərdlərə paylanır.

*28 Arzu günü, Şölə Ayı, 15-ci il.Bakı.*

## İNSANDAN UTANMAYANLAR

İnsanı Şəhvətlə (Libidoyla) eyniləşdirən Freydi vəsf edirlər – İnsandan utanmırlar.

İnsanı Fövqəlinsan aləti sayan Nitsşeni vəsf edirlər – İnsandan utanmırlar.

## ÖLÜM – HƏYAT

Ölüm Həyatdakıları öldürə bilir, ancaq həyatı öldürə bilmir.

***O, Həyatdakılardan güclüdür, Həyatdan zəif.***

*9 Murad günü, Xəzan Ayı, 15-ci il. Bakı.*

## NİTSŞEYƏ QARŞI

***Əxlaq – Gücdür.***

Əgər o, Zəiflərin silahıdırsa, Zəiflər güclüdürlər.

*1 Murad günü, Qar Ayı, 15-ci il. Bakı.*

## TÜRK XORU

Evlərdən-eşiklərdən, Dağ ətəyindən, Çay qırağından, Düzlərdən gəlib Dərddə birləşirlər və birlikdə Ağlaşırlar.

*3 Arzu günü, Qar Ayı, 15-ci il. Bakı.*

## HAL

Adamları biri-birinə bağlayan – Mənadır.

Adamlar – Mənasızlaşıb; bu səbəbdən də biri-birindən Ayrılıblar.

***Biri-birindən Ayrılanlar Birliyi yaranıb – hay-həşirli.***

*12 Ümid günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## HAL

***Gerçəkləşmə*** – Nisbiləşmə.
***Mahiyyətləşmə*** – Mütləqləşmə.

## GEDİŞAT

***Mütləqdən Nisbilər yaranır.***
***Birdən çoxlar yaranır.***
***Vahiddən Müxtəliflər yaranır.***

Mütləqdən Mütləqlər yaransaydı, çoxlu Mütləqlər peyda olardı; müxtəlif Mütləqlər peyda olardı – yəni Mütləq olmazdı, ***çünki çoxlu Mütləq olmur; müxtəlif Mütləq olmur; Bir Mütləq olur, Vahid Mütləq olur.***

## HƏQİQƏT

Əgər Mahiyyət Bütövlüyü olmasaydı – Gerçəklik öz Ziddiyyətlərində boğulardı.

Əgər Mahiyyət Dəyişməzliyi olmasaydı – Gerçəklik öz Dəyişkənliyində itərdi.

Əgər Mahiyyət Sonsuzluğu olmasaydı – Dünya sona çatardı.

## HAL

Xeyirlə Şərin Birliyi – Dialektik uydurmadır.

Xeyir bütün vəziyyətlərdə Şərə qarşıdır.

Xeyir Şərdən bəhrələnmir əslində – Şərin məğlubiyyətindən bəhrələnir.

## HAL

Metafizika – Gerçəklikdən təcrid olunmuş Mahiyyəti tədqiq edir, Dialektika – Mahiyyətdən təcrid olunmuş Gerçəkliyi.

***Məqsəd isə Mahiyyətlə Gerçəkliyin Birliyini tədqiq etməkdir.***

## HAL

Dünyanın Mahiyyəti Bütövdür, Təzahürü – Ziddiyyətli.

*13 Dözüm günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## İNAM TƏLƏBİ

İdrakdan kənardakı – İdrakda dərk olunur.

İdraka İnanmasan – İdrakdan kənardakını dərk etməzsən.

## İNAMSIZLIĞA QARŞI

Dünyanın dərkinə inanmasan – Dünyanı dərk etməzsən.

***Dünyanı dərk etməmək mümkün deyil.***

Bu səbəbdən də İdraka inanmamaq mümkün deyil.

**HAL**

Gerçəklikdə hər şey Nisbidir.
Mahiyyət Gerçəkləşəndə Nisbiləşir.

**BİRLİK**

**1. MAHİYYƏT – TƏZAHÜR**

Birlik Mahiyyət – Təzahür Ziddiyyətindən yaranmayıb.
***Mahiyyət – Təzahürləri Birləşdirir.***

**2. XEYİR – ŞƏR**

Birlik Xeyir – Şər Ziddiyyətindən yaranmayıb.
***Dünya Xeyirlə Birləşir.***

**3. HƏQİQƏT – YALAN**

Birlik Həqiqət – Yalan Ziddiyyətindən yaranmayıb.
***Dünya Həqiqətlə Birləşir.***
***Ziddiyyətlərin Birliyi – Dialektik uydurmadır.***

**HƏQİQƏT**

Mütləqilik – Həqiqi sayılmasa, Nisbilik – Həqiqi sayılmalıdır.

***Nisbilik – Həqiqi sayılmır, bu səbəbdən də Mütləqilik – Həqiqi sayılır.***

**HƏQİQƏT**

Əgər Mahiyyət Mütləq olmasaydı – Nisbi Təzahürlər tükənərdi.

Əgər Mahiyyət Əzəli olmasaydı – Ötəri Təzahürlər tükənərdi.

Əgər Mahiyyət Əbədi olmasaydı – Keçici Təzahürlər tükənərdi.

Əgər Mahiyyət Sonsuz olmasaydı – Sonlu Təzahürlər tükənərdi.

Əgər Mahiyyət Kamil olmasaydı – Qeyri-kamil Təzahürlər tükənərdi.

## QAYDA

Dünya dəyişkəndir, ancaq Dəyişkənliyin özü Dəyişməzdir.
Dünyadakılar ötəridirlər, ancaq Ötəriliyin özü Əzəlidir.
Dünyadakılar keçicidirlər, ancaq Keçiciliyin özü Əbədidir.
Dünyadakılar sonludurlar, ancaq Sonluluğun özü Sonsuzdur.

## DİALEKTİKAYA QARŞI

1

***Ziddiyyət – əslində Mənasızlıqdır.***
Dünyanın Mənasız əsası ola bilməz.
***Dünyanın əsası – Bütövlükdür.***

2

Ziddiyyətin həlli – Bütövlük əsasında baş verir.

***Ziddiyyəti – Ziddiyyət aradan qaldırmır, Bütövlük aradan qaldırır.***

## DİALEKTİKAYA QARŞI

Əgər Hərəkətin əsası Ziddiyyətdirsə, onda Hərəkət əsassızdır.

*14 Mərhəm günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## DİALEKTİKAYA QARŞI

Əgər Dünyanı Ziddiyyət irəli aparırsa, deməli, Dünya irəli getmir.

*18 Arzu günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## ƏSASLAR

Nikbinliyin əsası – Mütləqilik.
Bədbinliyin əsası – Nisbilik.

## HƏQİQƏT

Kamillik – Naqislikdən azad olmaqdır.
Naqislik – Kamillikdən məhrum olmaqdır.
Kamillik – Azadlıqdır.
Naqislik – Əsarətdir.

## YOXLUQ

İslam mədəniyyəti yoxdur – çünki İtaət mədəniyyəti olmur.
İslam ölkəsi yoxdur – cünki İtaət ölkəsi olmur.
İtaət dünyası yoxdur – çünki İtaət – Dünyasızlıqdır.

## HAQSIZLIQ

Ağalıq Dairəsindən İnsan Haqqı – Haqsızlıqdır.
Nökərlik Dairəsində İnsan Haqqı – Haqsızlıqdır.
Təbəqəlik Dairəsində İnsan Haqqı – Haqsızlıqdır.
Özgələşmə Dairəsində İnsan Haqqı – Haqsızlıqdır.
***Cəmiyyət Dairəsində İnsan Haqqı – Haqsızlıqdır.***

## HƏQİQƏT

Bütün cinayətlər Pulu Məqsəd saymaq cinayətindən başlanır.

*19 Dözüm günü, Xəzan Ayı, 16-cı il. Bakı.*

## ÜMİD SƏSİ

Nə qədər musiqi var – Ümid var.
***Musiqi – Ümid səsidir.***

*25 İnam günü, Sərt Ayı, 16-cı il. Bakı.*

## DUYĞU

Gördüm ki, Tərpənə bilmirəm, bildim ki, ölürəm;
Ölüm – Mütləq Haqsızlıqdır.
Dağlar aşmaq istədim; bildim ki, ölməyəcəyəm.

*16-cı il. Bakı. (1994)*

# İkinci Bölüm:

## GERÇƏKLİK – ATA SINAĞINDA

## Siyasətə yönəlik Ata Söyləmləri – Dəyərləndirmələri

### QAZAX BİLİYİ

Şərə qəzəbləndilər. Şəri qəzəbləndirdilər.
Şər şərliyini daha artıq bildirəcək.
Şərin şərliyi daha artıq bilinəcək.

*15 İnam günü, Köçəri Ay, 8-ci il. Bakı.*

### QARABAĞ MƏSƏLƏSİ

1. Qarabağın hər qarışı üçün ölümə getmək gərək.

2. Erməni sionistləri bədnam edilməli.

3. Təzə hal yaranıb Məmləkətdə. Rəsmiyyətə qarşı mütəşəkkil Etiraz – Amala Doğma!

4. Xalqa Sahibsizliyini anlatmaq, Ata ətrafında Birliyə çağırmaq – Tədricən, Səbrlə, Dözümlə.

5. Çıxış Məktəbi keçmişlərdən Evlad hazırlamaq Ataya.

Qaranlıqlar Yarılsın!

*26 Qismət günü, Köçəri Ay, 9-cu il. Bakı.*

## QARABAĞ HADİSƏSİ

Azərbaycana qarşı xain Qəsd!
Qorunmalı, gözləməli, verməməli!

*1 Günəş Ayı, Ümid günü, 10-cu il. Bakı.*

## QARABAĞ HADİSƏSİ

1.Təzə Şərbaşı Qarabağı Erməni sionistlərinə verirdi.

2. Qarabağı Universitet tələbələri, Sumqayıtlılar, Türkiyə, Geo-siyasət, "Qarabağ" komitəsinin çılğın Səfehliyi xilas elədi.

3. Yurdumuzda Amalın Xeyrinə təzə hal yaranıb, bundan istifadə etmək Labüddür.

4. Xalqa üz tutmaq, xalqın İçində olmaq, Xalqın içindən Ailə, Evlad seçmək!

Qaranlıqlar Yarılsın!

*25 Qismət günü, Günəş Ayı, 10-cu il. Bakı.*

## İŞIQ AYINDA BAKI NÜMAYİŞLƏRİ

1. Camaat bildi ki, respublika rəhbərliyi Şərin əlində oyuncaqdır və kəndxuda səlahiyyətinə belə malik deyil.

2. Bəlkə də Şər Dağlıq Qarabağda Azərbaycanla formal əlaqəsi olan, Ermənistana meyil eləyən cırtdan bir dövlət yaratmağa səy göstərsin.

3. Camaat bilməlidir ki, Şər boyunduruğundan xilas olmadan nə Cənubi Azərbaycan, nə də Qarabağ məsələsi həll olunmayacaq.

4. Son hadisələr camaaatı Amala ruhən yaxınlaşdırdı, Amal onu öz arxasınca aparmalıdır.

Tədricən, Müdrikcəsinə, Yetkin səviyyədə, Ailələşmə biçimində.

*20 Qismət günü, İşıq Ayı, 10-cu il. Bakı.*

## NƏTİCƏ

1. Erməni sionistlərinin hay-küyü Təzə Şərbaşını qorxuzdu və o, ətəyini yavrularından çəkdi.

Erməni "müdrikliyi" öz heçliyini tam aşkara çıxartdı.

2. Azərbaycan qaçqınları Oğuz ənənələrinə sadiq qalmadılar, qorxdular; ellərindən, obalarından didərgin düşdülər.

3. Nəbi Xəzrinin dostu və Tofiq Bayramın ağası Rəsul Həmzətov Azərbaycana düşmənçiliyini büruzə verdi, "torpaq vətən deyil" – deyə Azərbaycan ləzgilərinin könlünə ayrılmaq havası saldı.

4. Ermənilər səfehcəsinə gülünc və bədnam oldu, Şər geri çəkildi, qəzəbini yeyə-yeyə.

5. Əslində Azərbaycanlı Türklərin – Dünyada və SSRİ-də təpərli və inamlı dostu yoxdur. (Türkiyəlilər elə bizik, bu səbəbdən də özümüzdən başqa dostumuz yoxdur).

Dünyada və SSRİ-də düşmənimiz hədsizdir.

Nəticənin əsas səbəbi Ermənilərin başsızlığı, əksər hallarda qaş qayırdığı yerdə göz çıxarmağı, mərkəzi ayıq salmağı oldu.

Astronom və general yetirmək hələ böyük xalq olmaq deyil!

6. Cənubi Azərbaycan məsələsi ön plana keçir.

Ocaq qalanmalıdır orada.

7. Mütəşəkkillik əslində Anti Azərbaycan hərəkatının belini qırdı, şairlər öz çığırtılarıyla İmperiyanı oyatdı, burada Füzulinin sözü yada düşür: Şairlərin arxasınca gedən yolunu azır.

Göz qamaşdıran mitinqlər, xəyalı qanadlandıran tətillər, möcüzəli kassalar, heybətli qarasaqqallar, hökumətlə xalqın "tarixi vəhdəti" əslində köpük idi, köpükləndilər ermənilər yamanca, köpüyə uydular və məğlub oldular.

8. Bir az arı kimi vızıldayacaqlar, kimisə çalacaqlar, sonra Şərə xidmətlərini davam etdirəcəklər, təzə şər arayacaqlar və tapacaqlar, təzədən məğlub olacaqlar.

Bir xalq kimi gələcəkləri yoxdur, arxdırlar – axacaqları çayları, dənizləri yoxdur, özləriylə də dostluq eləmək olmaz, yola çıxmaq olmaz – satarlar, satılarlar, qapıdan içəri qoyulası deyillər – çünki evinə yiyələnərlər.

9. Məqsəd – Qisasçılıq idi – cavan türklərin hayıfını bizdən çıxmaq idi, Məqsəd Daşnakların Böyük Ermənistan sərsəriliyini həyata keçirməyə başlamaq idi, Qarabağ əhalisini etnik ölümdən xilas eləmək bağırtısı üsul idi, siyasət idi, olduqca bəsit, ibtidai.

Ermənilər özlərinə ölüm hazırlayırlar.

10. Antistalinizmdən istifadə eləmək istədilər – alınmadı, demokratikləşməyə çox uydular, Zora bel bağladılar, axmaqcasına aeroport həşiri yaratdılar və Şərbaşını özlərindən uzaqlaşdırdılar, hökuməti qorxuzmaqla səfehliyin həddini tam aşdılar və Şərbaşı məcbur oldu gədələrini döysün.

***Bəlkə də tarixdə belə səfeh üsyan olmayıb.***

11. Xalq başsızların arxasınca getdi, çünki başı havalandı, beyni qızdı, qızışdırdılar erməniləri, idraksızlaşdırdılar və urvatdan saldılar həmişəlik!

*20 Dözüm günü, Od Ayı, 10-cu il. Bakı.*

## ŞƏRİN XEYRİNƏ

İcazəli Mitinqlər, Təşkilatlar Şərə xidmət edirlər.

***Yalançı Xalq haqqı, Sərbəstlik, Çoxrəylilik yaradırlar ki, Şəri yaşatsınlar.***

*26 Arzu günü, Ata Ayı, 10-cu il. Bakı.*

## QORBAÇOVŞİNA TƏKAMÜLÜ

Anarxiya, xaos, gərginlik üstəgəl psevdostalinizm.

## ERMƏNİ MİLLƏTÇİLİYİ

Həm Ağılsız, həm Vicdansız...

Ağılsız – çünki Türk Dünyası boyda düşmən qazanır özünə.

Vicdansız – çünki Yalana arxalanır.

## ŞƏR ÜÇÜN

Mərkəzi Komitənin rəhbərliyi altında yaradılan Milli Cəbhə Şərə xidmət eləyir, yəni xalqın Şər əsarətində həmişəlik qalmasına yarayır.

## İNQİLABİ FƏLAKƏT

İnqilab – yeni Dünya doğmur – saldırır.

*3 Xəzan Ayı, Arzu günü, 10-cu il. Bakı.*

## LİTVALILARIN MİLLİ BAYRAĞI

Milli Bayraq milli azadlığı təmsil eləyir.

Milli azadlıq olmayanda, o, Şərin əlində əsarət vasitəsi rolu oynayır.

***Şər xalqa milli bayraq verir ki, onu əsarətdə saxlasın.***

***Yalançı müstəqillik xülyası yaratmaq istəyir xalqda Şər, ömrünü əbədiləşdirməkçün.***

***Xalqa güzəştə gedir ki, xalq Zənciri qırmasın, Zəncirin üstündən ipək dalğalandırır.***

## BUGÜNKÜ DÜNYA

Bugünkü Dünya Qərb Demokratiyasına meyl eləyir.

***Bu, Şərin ziyanınadır.***

Həm də Amalın Yayılması üçün imkan artır.

***Avropalaşma Şərin alternativi ola bilməz, ancaq İnamımızın dünyalaşmasına xeyir verə bilər – son nəticədə öz ziyanına...***

*8 Murad günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## ESTONİYADA MİLLİ CƏBHƏ

Boyunduruğa salınanların boyunduruqdan çıxmaqdan başqa Müstəqilliyi yoxdur.

Müstəqilləşdirirlər ki, boyunduruqda saxlasınlar.

*10 Arzu günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## YALAN YARIŞI

Sovetlər ilə Qərbi "barışdırırlar".

***Barışıq Yalanını elan elədi təzə Şər.***

***Barışıq vasitəsiylə Yiyələnmə izlənir Yalanda.***

***Qərb də öz növbəsində Sovetləri aldadır, onun daxildən Qırılmasına çalışır.***

***Yalan Yarışındadır ictimai sistemlər – İnsan Hayında deyillər.***

*12 Ümid günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## YAD DOĞMALIQ

Torpağı kəndliyə kirayə verir ki, kəndli onu özünə doğma saysın!

Müəssisəni təsərrüfat hesabına keçirir ki, fəhlə onu özünə doğma saysın!

Torpaq kəndlinin olmur.

Müəssisə fəhlənin olmur.

***Yad doğmalaşmır.***

## KENTAVR

Sosializmlə kapitalizmin qarışığından ictimai-siyasi Kentavr yaradırlar – eybəcər, ölümlü...

"Dirildə-dirildə" öldürürlər sosializmi.

## BÜROKRATİK SİSTEM

Sosializm – cəmiyyətin hərtərəfli (total) Dövlətləşməsi deməkdir.

Dövlətləşmə – çoxrəislik, çoxmərhələlik, çoxkağızlıq, formalçılıq yaradır, – bu baxımdan, sosializm elə bürokratizm deməkdir.

Bürokratizmin ləğvi sosializmin ləğvini tələb edir.

Sosializm ölməsə – bürokratizm ölməz!

## TƏZƏ KÖHNƏLİK

***Bəşərin Vahid aqibəti*** deyəndə Kommunist imperiyasının başçılıq eləyəcəyi Vəhdət nəzərdə tutulur.

***Bütöv Bəşər*** deyəndə Kommunist imperiyasının başçılıq eləyəcəyi Bütövlük nəzərdə tutulur.

***Erməni qəsdinə*** obyektiv münasibət deyəndə “parçala və hakim ol!” siyasəti nəzərdə tutulur.

***Təzə Köhnəlik yetirirlər Təzələr.***

## QORBAÇOV YALANI

Sosializm daxilində əməkçi müstəqilliyi – Yalançı müstəqillik!

Sosializm daxilində demokratiya – Yalançı demokratiya!

Sosializm daxilində bəşərilik – Yalançı bəşərilik!

Sosializm daxilində çoxrəylilik – Yalançı çoxrəylilik!

Sosializm daxilində milli muxtariyyat – Yalançı muxtariyyat!

Sosializm daxilində azad seçki – Yalançı seçki!

Sosializm daxilində qanunçuluq – Yalançı qanunçuluq!

Sosializm daxilində beynəlxalq təhlükəsizlik – Yalançı təhlükəsizlik!

***Böyük yalan və Möhtəşəm özünüaldatma!***

## TƏSLİMÇİ XƏTT

Qorbaçovşina – opportunizmdir, yəni gerçəkliyə təslim olmaqdır, bu baxımdan o, əslində, antimarksizm və antileninizmdir, ancaq gizlin, zahirdə o, marksist və leninçi kimi bilinməyə çalışır.

Qorbaçov Lenindən yapışır ki, yıxılmasın – əslində o, leninizmi yıxır.

Stalinlə döyüş əslində marksizmlə döyüşdür, çünki stalinizm marksizmdən başqa bir şey deyil.

Stalinlə döyüş həm də Leninlə döyüşdür, çünki Stalinlə Lenin arasında yalnız taktiki fərq var, strateji fərq yoxdur.

Sosializm potensiyasından danışırlar, əslində sosializmin stalinizm potensiyasından başqa potensiyası yoxdur; digər potensiyalar marksizmin lənətləndirdiyi – "burjua", "kapitalist" potensiyalardır.

Qorbaçovşina – Əqidə riyakarlığı yaradır – marksist olmaya-olmaya marksist görünmək, leninçi olmaya-olmaya leninçi görünmək!

## MİLLİ BARIŞIQ SİYASƏTİ

Dostu bəd ayaqda qoyub qaçmağın siyasi biçimi.

## NƏTİCƏ

Ya sosializmin ardıcıl şəkildə öldürülməsi, ya çevriliş – təzə müstəbidliyin təsdiqi!

## VƏZİYYƏT

Rus İmperiyası sosializm doktrinasından əl çəksə – yıxılar.

Bu səbəbdən də İmperiya başçılarının heç biri sosializmi açıq şəkildə rədd etmir.

Ehtimal ki, sosializmin yıxılması "xalq demokratiyası ölkələrindən" başlasın.

***Hər halda, sosializmin Süqut dövrü başlanıb.***

## MÜNASİBƏT

Rus İmperiyası Dünyaya qarışır ki, Dünyanı qarışdırsın!

Dünya Rus imperiyasına qarışır ki, İmperiyanı udsun.

## FƏRQ

Sosializm kapitalizmi ləğv elədi və Dövlət kapitalizmi yaratdı; mülkədarlığı ləğv elədi və Dövlət mülkədarlığı yaratdı.

Dövlət kapitalizmi daha möhtəşəm istismarçı oldu.

Dövlət mülkədarlığı daha möhtəşəm istismarçı oldu.

***Sosialist Fəlakəti Kapitalist Fəlakətindən daha ağır oldu.***

## SOSİALİZM ANTİHUMANİZMİ

"Təzə nəzəriyyədə" sosializm humanizmlə eyniləşdirilir.

Bəşər tarixində özünü humanist saymayan ictimai sistem olmayıb.

"Təzə nəzəriyyədə" sosializm ictimai ədalətlə eyniləşdirilir.

Bəşər tarixində ictimai ədaləti inkar eləyən ictimai sistem olmayıb.

Sosializm – ictimai mülkiyyət, partiya hakimiyyəti, marksizm xurafatı deməkdir ki, bunlar labüd şəkildə siyasi, idraki, ruhani əsarət yaradırlar.

***Humanizmi bərqərar eləmək üçün, sosializmi aradan qaldırmaq lazımdır.***

## TƏZƏ MİLLİ SİYASƏT

Dilini öyrən ki, Əsarət boyunduruğunda qalasan!
Tarixini öyrən ki, Əsarət boyunduruğunda qalasan!
***Özün ol ki, Özün olmayasan!***

*19 Dözüm günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## NİYYƏTLƏR

Sovet istəyir ki, Qərbin əliylə sosializmi xilas etsin.
Qərb istəyir ki, Sovetin əliylə sosializmi məğlub etsin.

## YALANLAR VƏ HƏQİQƏTLƏR

Sosializm və Demokratiya Yalanı.
Ya Sosialzim, ya Demokratiya Həqiqəti.

Sosializm və Milli Müstəqillik Yalanı.
Ya Sosializm, ya Milli Müstəqillik Həqiqəti.

Sosializm və Çoxrəylilik Yalanı.
Ya Sosialzim, ya Çoxrəylilik Həqiqəti.

Sosializm və Beynəlxalq Əməkdaşlıq Yalanı.
Ya Sosializm, ya Beynəlxalq Əməkdaşlıq Həqiqəti.

*24 Arzu günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## YAD DOĞMALAŞMALAR

1. Zəhmətkeşlə Mülkiyyət arasındakı Yadlığı Təsərrüfat hesabı, Kirayə vasitəsiylə aradan qaldırmaq istəyirlər və unudurlar ki, Yalançı Doğmalıqdan daha dəhşətli Yağılıq törəməlidir.

2. Respublikalarla İttifaq arasındakı Yağılığı Müstəqillik aldanışıyla aradan qaldırmaq istəyirlər və unudurlar ki, Yalançı Doğmalıqdan daha dəhşətli Yağılıq törəməlidir.

3. Xalqla Dövlət arasındakı Yağılığı Demokratikləşmə Xülyasıyla aradan qaldırmaq istəyirlər və unudurlar ki, Yalançı Doğmalıqdan daha dəhşətli Yağılıq törəməlidir.

Yalançı Doğmalıq Yadlığına tapınırlar Təzələr və Təzə Yağılıq Yaradırlar.

## "TƏZƏ" BEYNƏLXALQ SİYASƏT

Bəşər ölməsin – Şər yaşasın!

## SİYASİ İSLAHATLAR

Amerika yerişi yerimək.
Sovet Prezidenti və Sovet Senatı Düzəltmək.
Təqlid Yadlığına çatmaq.

## ANTİXƏLQİ İMPERİYA

Rus İmperiyası Rus xalqının belini qırdı;
Rus xalqı İmperiyadan xilas olmayınca Dirçəlməyəcək!

## SSRİ HADİSƏSİ

Respublikalar İttifaqı olmayıb –
Zora ölkələr tabeçiliyi olub.
Xalqlar Dostluğu olmayıb –
Zora xalqlar tabeçiliyi olub.
Beynəlmiləlçilik olmayıb –
Zora milli tabeçilik olub.
Respublika olmayıb –
Zor hakimiyyəti olub.

## MİLLƏTLƏRƏ "TƏZƏ" MÜNASİBƏT

Elə açılın ki, həmişəlik bağlanasınız!

## GƏNCLƏRƏ "TƏZƏ" MÜNASİBƏT

Elə bağır ki, əsil həqiqət eşidilməsin.

## KAPİTALİZM POTENSİYASI
**(Daxili İmkanı)**

Sosializmdən yan keçmək.

## SOSİALİZM POTENSİYASI
**(Daxili imkanı)**

Kapitalizmə Yönəlmək.

## BƏNZƏRLİK

Kapitalizmdə zəhmətkeş Mülkiyyətinə Kapitalist Sahib olur.
Sosializmdə zəhmətkeş Mülkiyyətinə Dövlət sahib olur.

## BƏDNAMÇILIQ

Sosializmin ən böyük bədnamçılığı ondadır ki, o, kapitalizmi doğruldur.

## TARİXİ YALAN

Zəhmətkeş hakimiyyəti əvəzinə – Marksist hakimiyyət – yəni xurafat hakimiyyəti.

Zəhmətkeş Dövləti əvəzinə – Marksist Dövlət – yəni xurafat dövləti.

Zəhmətkeş Mülkiyyəti əvəzinə – Dövlət mülkiyyəti.

## ÇEVRİLİŞ

Kapitalizmdən azad olmaq – Mütləq Azadsızlıq yaratdı.

Kapitalizmdən azad olmamaq – Nisbi Azadlıq yaratdı.

## ŞƏR TƏLƏSİ

Şər özü yaratdığı Demokratiya Tələsinə düşüb – çıxa bilmir.

## LATVİYA MİLLİ CƏBHƏSİ

İttifaqda qalmaq Fəlakətini İttifaqdan qoparmaq səadətiylə yola vermək cəhdi.

## QORBAÇOV MÜDRİKLİYİ

Konservatorları Ekstremistlərlə qorxutmaq istəyir, Ekstremistlərdən qorunmaq üçün konservatorlara üz tutur.

***Hər iki qüvvəni hiddətləndirir.***

*19 Murad günü, Yağış Ayı. 10-cu il. Bakı.*

## DƏLİ GƏLİŞİ

İmperiyalar ölməyə başlayanda hakimiyyətə dəlilər gəlir – atını nazir elan eləyən Roma imperatoru dəli Kaliqula kimi...

## ƏQİDƏ GENİŞLİYİ

Pribaltika kommunistləri Qorbaçovdan yapışırlar, erməni kommunistləri Vazgendən, azərbaycanlı kommunistlər də – Paşazadəyə yönəlirlər.

## QEYRİ-FORMAL TƏŞKİLATLAR

Sirk Atları – təp-təzə, yüyrək.

## QORUYAN

Kommunist Partiyasının başçısı Birləşmiş Millətlər Təşkilatının xitabət kürsüsündən bəşəriyyəti kommunizmdən qorumaq vədi verdi – gurultulu alqışlar altında.

## SİYASƏT XƏYANƏTİ

Siyasət naminə İranı Xomeyniyə qurban verdilər, Ermənistanı Vazgenləşdirdilər, indi də Azərbaycanda İslamı tüstüləndirirlər.

## MOLLA ZƏRURİYYƏTİ

***(Sovet şeyxülislamı Paşazadənin deputat təqdim olunması)***

Demokratiya sirkində bircə Molla Ayısı çatışmırdı.

## TƏZƏ SEÇKİ

Köhnə seçkisizliyin təzə biçimi.

## TƏZƏ ŞƏR VALİSİ

İmperiya İtlərinin ən səfehi və ən hay-həşirlisi.

## ŞƏR QİYMƏTİ

Bakı nümayişini Tayfabazlığın, Hakimiyyət uğrunda Döyüşün ayağına yazırlar Şərçilər, Xalqı təhqir edirlər.

Nümayişdə xalq öz ləyaqətini qorumaq istədi, bacarmadı, çünki xəlqi ləyaqət Ehkamın, Quruluşun, Təşkilatın məhvini tələb edir, bunun üçün Mitinq üsulu yararsızdır.

## QARABAĞ MUXTAR VİLAYƏTİNİN XÜSUSİ SƏLAHİYYƏTİ

Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının xüsusi biçimi.

## MƏNƏVİLİK QITLIĞI HADİSƏSİ

***Səbəb:*** 1. Maddiyyatçılıq.
2. Dialektika fetişi.
3. Makkiavelçilik.
4. Antişərq.

***Nəticə***: İnamsızlıq.

***Çıxış Yolu***: Amal.

*22 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

## QORBAÇOV ŞÖHRƏTİ

İmperiyaqıran sayırlar – özünü imperiya quran sayanı.

## TƏZƏ SEÇKİ

Köhnə Yalan.

## SOSİALİST ÇOXRƏYLİYİ

Yalanlar birliyi.

## ZORSUZ DÜNYA SİYASƏTİ

Zoru yaşatmaq siyasəti.

## MİLLİ DÖVLƏT DİLLƏRİ

Milli Dil vasitəsiylə antimilliliyi saxlamaq siyasəti.

## TÜRKİYƏ İLƏ MƏDƏNİ ƏLAQƏ

Antimilli qüvvələrin birliyi.

## GÜCSÜZLÜK

Güclü Mərkəz – Güclü müttəfiq respublika ideyası Yalandır.

Güclü Mərkəz – gücsüz müttəfiq respublika deməkdir və əksinə...

Güclü respublika – müstəqil respublika deməkdir ki, mərkəz ona qarşıdır...

Məntiqləri gücsüzdür yenilikçilərin, özlərini aldadırlar ki, Yalanlarına inansınlar.

## "QAYĞI" ŞƏRİ

Sovet Azərbaycanı – mahiyyət etibarilə antiazərbaycandır.

"Qayğı" cəmiyyəti Sovet Azərbaycanına xidmət eləyir, bu səbəbdən də Şər alətidir.

## "VƏTƏN" ŞƏRİ

Sovet Azərbaycanı – mahiyyət etibarilə antiazərbaycandır.

"Vətən" cəmiyyəti Sovet Azərbaycanına xidmət eləyir, bu səbəbdən də Şər alətidir.

## ŞƏR "MİLLİLİYİ"

Boyunduruğun üzərini milli naxışlarla bəzəyirlər.

## ŞƏR "XƏLQİLİYİ"

Satırlar camaatı Güzərana, Dolanacağa, "Xəlqiləşdirirlər" Boyunduruğu.

## NOVRUZ BAYRAMI SİYASƏTİ

Novruz Bayramından "Yaşasın Şər" Həqarəti yağdı Yurdumuza.

*22 Dözüm günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## XEYİRİ ŞƏRƏ QATMAQ

Novruz Bayramını Şər seçkisinə Girişə çevirdilər.

*24 Qismət günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## GÜRCÜSTAN HADİSƏSİ

Gürcülər İmperiyaya qarşı çıxdılar, Ayrılmağa çağırdılar xalqı.

Respublikalar arasında antiimperialist Birlik üçün imkan yaranır – onun gerçəkləşməsinə çalışmalıyıq gələcəkdə.

## FƏRQ

Pribaltikalılar Şərlə – Mərkəzi Komitəylə birləşməkdə strateji səhvə yol verdilər.

Gürcülər Şərə – Mərkəzi Komitəyə qarşı çıxmaqda strateji Dürüstlük əldə etdilər.

## SİYASİ OYUN

Fidel Kastro Qorbaçova yaramır, bu səbəbdən də Qorbaçov Fideli aldatmağa çalışır.

Kastro özünü o yerə qoymur, Qorbaçova inam bəslədiyini göstərir.

***Siyasi Oyun oynayırlar biri-biriylə Amaldaşlar.***

## BELQIRAN

Tetçer Qorbaçov vasitəsiylə sosializmin belini qırmaq istəyir.

O həm də SSRİ və ümumən sosializm daxilində Qorbaçova qarşı oppozisiyanı gücləndirir – əslində Qorbaçovun özünün də belini qırır.

*10 Arzu günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

## TƏZƏ AZƏRBAYCAN VALİSİ

1. Düşüncə imkanı kasaddır – fikirsiz sözlər hərarətlə, şiddətlə, aramsız tüğyan eləyir.

2. Camaatın aldanmasına inamı qətidir, çünki inamsızdır.

3. Aktyorluğu gücsüzdür: "Təbiiliyi" süni görünür, "Doğmalığı" Yad.

4. Harayı gülüncdür: "Qoymurlar sizə hamam tikəm, qaz çəkdirəm, ay camaat!"

5. Güzəran vəd edib ləyaqət almaq istəyir Siyasi Dəllal: ləyaqətsizliyə arxalanır.

6. Hakimlik havasından divanələşib – Hakimliyi itirsə – ölər.

*17 Arzu günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

## ŞƏRİN TƏZƏ XƏTTİ

Siyasi Kəndirbazlıq.

## İRƏLİLƏYİŞ

Açıq-saçıqlıq Tüğyanıyla Sovet Avropaya deyir ki, "Abırsızlıqda səndən geri qalmıram!"

## ŞƏR ÇAĞIRIŞI

"Bütün dünyanın proletarları birləşin!" – yəni "Bütün dünyanın millətləri parçalanın!"

*2 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## ŞƏR MƏZHƏKƏÇİLİYİ

***Demokratikləşmə*** – Torbaya salınmış Günəş.
***Aşkarlıq*** – Torbada gəzdirilən Günəş.

## SOVET MİLLİ CƏBHƏLƏRİ

Boyunduruq saxlayanlar.

## MİLLİ DÖVLƏT DİLLƏRİ

Millətlərin Dilə tutulması.

## PRİBALTİKA XƏTTİ

Boyunduruqda çiçəklənmək.

## ƏDƏBİ FƏLAKƏT

Öz tarixi ərzində Azərbaycan Sovet ədəbiyyatı "Yaşasın Boyunduruq!" sözündən başqa heç nə deməyib mahiyyətcə.

**BUGÜNKÜ TÜRKİYƏ**
Hakimləri – Avropa yönlü.
İqtisadiyyatı – Kəsərsiz.
Ziyalısı – Yolsuz.
Xalqı – Qadir.

**TÜRKİYƏ–AZƏRBAYCAN MƏDƏNİ ƏLAQƏLƏRİ**
Şər körpüsü düzəldirlər Yurdumuzdan qulluqçular:
Şər aparırlar, Şərçi qonaqlayırlar.

**İQTİSADİ İNQİLAB**

"Yüksək Sosialist Qəhrəmanlığının" "Alçaq Burjua Dəllallığına" sığınması.

**SSRİ-nin TƏZƏ BEYNƏLXALQ NÜFUZU**
Kommunizm İflasından götürülən Bəhrə.

**HÜQUQ İSLAHATI**
Şərin hüquqa mindirilməsi.

**SOSİALİST ÇOXRƏYLİYİ**
(Plüralizmi)
Şər küpəgirənliyi.

**TƏZƏ SOVETLƏR**
Şər Həngaməsi.

**PARTİYA İSLAHATI**
Zoru doğrultmaq.

**VAHİD AVROPA EVİ**
Şərə açılan Qapı.

**TARİXİ HADİSƏ**
Rus hakimiyyəti – Rus xalqının Müsibəti.

**MÜASİR SSRİ**
Xalqlar Oyunxanası.

**ŞƏR TƏZƏLİKLƏRİ**

1. Təzə sosializm – "Xeyirləşən" Şər.
2. Təzə sosial xətt – "Doğmalaşan" Şər.
3. Təzə xarici siyasət – Şər xilası.
4. Təzə seçki – Şərtəhər.
5. İcarəçilik – Şər kirayəsi.
6. Kooperasiya – Şər artığı.
7. Qeyri-formal Təşkilatlar – Şəraltılar.

**ŞƏR MƏQSƏDLƏRİ**

"Vətən" cəmiyyəti vasitəsiylə Vətəndən kənardakıları Şərləşdirmək.

"Qayğı" cəmiyyəti vasitəsiylə Şəri xalqa mərhəmləşdirmək.

**ŞƏRİN MİLLİ İSLAHATI**
Üstündə milli naxış çəkilmiş Boyunduruq.

*6 Murad günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**MİTİNQ AZADLIĞI**
Əsarəti möhkəmləndirən.

**AVROPA PARLAMENTARİZMİ**
Atasızlıq.

**KOMMUNİSTLİK**

Yer cənnəti uğrunda döyüş – Əqidəsizlikdir.

**OLMAYAN – OLAN**

***Yoldaş*** – Cənab deyən oldu.
***Mərkəzi Komitə*** – Saray deyən oldu.
***Baş Katib*** – Çar deyən oldu.
***Kolxoz*** – Dövlət təhkimçiliyi deyən oldu.
***SSRİ*** – Rus İmperiyası deyən oldu.
***Müttəfiq Respublikalar*** – koloniyalar deyən oldu.
***Birlik*** – Ağalıq deyən oldu.
***Qardaşlıq*** – Mütilik deyən oldu.
***Çiçəklənmə*** – İflas deyən oldu.
***Sıçrayış*** – Uçurum deyən oldu.

**İNQİLABIN NƏTİCƏSİ**

Sosializm Rus imperiyasını süqutdan xilas etdi:
Milli azadlıq Hərəkatlarının qarşısını aldı.
***Oktyabr İnqilabı – İmperiya xilaskarı adlandırılmalıdır.***

**ÖZÜNÜALDADAN**

Qorbaçov Qərbi aldadır ki, “Kommunizmi sarsıdıram”.
Şərqi aldadır ki, “Kommunizmi möhkəmlədirəm”.
Özünü Qərbin və Şərqin fövqündə hiss edir: – ***Əslində isə özünü aldadır – çünki hər ikisindən aşağıdır.***

*7 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**MİLLİ ÖZÜNÜDƏRKETMƏ**

Antikommunizm.

**TƏZƏ ƏQİDƏSİZLİK**

“Əqidədən ötrü ölməyə dəyməz!” inamı.

**ƏFQANISTAN FƏLAKƏTİ**
Hamilik Zülmətinə qərq olmaq.

**ŞƏRİN TƏZƏ LATIN AMERİKA SİYASƏTİ**
Latın Amerikasını Təzə Sosializmin sınaq meydanına çevirmək.

**ŞƏRİN TƏZƏ AVROPA SİYASƏTİ**
Avropadan bəhrələnmək vasitəsiylə – Avropanı Şərləşdirmək.

**ŞƏRİN TƏZƏ ASİYA SİYASƏTİ**
Asiyayla "mərhəmlik" vasitəsiylə Asiyanı Şərləşdirmək.

**TƏZƏ SOVET–ÇİN MÜNASİBƏTLƏRİ**
Müştərək Hakimlik oyunu.

*9 Ümid günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**MÜSAVAT PARTİYASI**
Milli Dövlət Fədaisi.

**MİLLİ YAS GÜNÜ**
28 Aprel 1920-ci il – Milli Azərbaycan Dövlətinin beynəlmiləlçi şərçilər tərəfindən devrilməsi.

**SƏNƏTDƏ PARTİYA PRİNSİPİ**
Şəri doğrultmaq.

**FƏRQ**
Amerikadan bəhrələnib Yaponiya olmaq olur.
SSRi-dən bəhrələnib Çin olmaq olmur.

**QARABAĞ ƏHVALATI**
Qorbaçovşinadan bəhrələnən, Qorbaçovşinanı bəhrələndirən.

## İSRAİL TƏHLÜKƏSİ

Ərəb Birliyinə qarşı düzəldilmiş Şər Fitnəsi.

## ŞƏR ƏMƏLİ

Türk birliyi yaranmadı – SSRİ qoymadı.
Ərəb birliyi yaranmadı – SSRİ qoymadı.
Şərq birliyi yaranmadı – SSRİ qoymadı.

## FƏRQ

Amerika xalqları özündən asılı eləyir, SSRİ – özgələşdirir.

## QONŞULUQ FƏLAKƏTİ

Türkiyənin ən böyük fəlakəti ondadır ki, SSRİ ilə qonşudur.
İranın ən böyük fəlakəti ondadır ki, SSRİ ilə qonşudur.
Əfqanıstanın ən böyük fəlakəti ondadır ki, SSRİ ilə qonşudur.

## TƏZƏ SİYASİ TƏFƏKKÜR ŞƏRİ

"Yaşamaqdan böyük əqidə yoxdur!" – həqarəti.

*10 Dözüm günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## AMERİKA–SOVET münasibətləri gedişatı

***Amerika – Sovetlərə: Birinci Mərhələ –***
Mənim kimi ol – Dostlaşaq.
***İkinci Mərhələ –***
Mənim əlaltım ol – Dostluğumuzu saxlayaq.

***Sovetlər – Amerikaya: Birinci mərhələ –***
Sənin kimi oluram – Dostlaşaq.
***İkinci mərhələ –***
Mənim kimi ol – Dostluğumuzu saxlayaq.

## SINDIRMA

Cavanları abırsızlıqda sındırırlar.
Camaatı güzəranda sındırırlar.
Xalqları "milliləşmədə" sındırırlar.
***Sındırırlar ki, Boyunduruq sınmasın!***

## MİLLİ DÖVLƏT DİLLƏRİ SİYASƏTİ

Respublikalara edilən güzəşt – Boyunduruğu saxlayan, ikidillilik Məngənəsinə yarayan.

## MİLYONÇUYA EHTİRAM

Hacı Zeynalabdin Tağıyev Hoqqası xaricdəki Azərbaycan milyonçularının sovetyönləşməsi üçündür.

*11 Mərhəm günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## SOVET PEDAQOQİKASI

Sürüdə, sürüylə birgə tərbiyə.

## SOVET PSİXOLOGİYASI

İnsanı Hayvan vasitəsiylə dərk etmək.

## TƏZƏ SEÇKİLƏRİN NƏTİCƏSİ

Eynilik "müxtəlifliyi".

## BİRLİK OYUNU

Pribaltika Qorbaçovun ətəyindən yapışır ki, rus hakimiyyətiylə döyüşsün.

Qorbaçov ətəyini Pribaltikadan çəkmir ki, rus hakimiyyətini möhkəmləndirsin.

## SAXAROV BOŞLUĞU

Pünhandı – Dolu görünürdü,
Aşkarlandı – Boş bilindi.

## TƏZƏ DÖVLƏTÇİLİK

Kooperativ – Dövlət artığı.
İcarə – Dövlət təhkimçiliyi.
Təsərrüfat hesabı – Dövlət kölgəsi.
Fərdi Təsərrüfat – Dövlət Zəkatı.

## QORBAÇOVUN ÇİN SƏFƏRİ

Kommunist Soyuqluğu, İnamsızlığı, Nəticəsizliyi, Gələcəksizliyi.

## TƏZƏ HƏKİM

Azərbaycanın yaralarını artistlərə titul paylamaqla sağaldır valimiz!

## EYBƏCƏRLİK VARİSLİYİ

Brejnevin memuarları, Qorbaçovun Raisası.

*19 Qismət günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## AŞKARLIQ

Mahiyyəti gizlətmək üçün Üsul.

## SOVET ZİYALISI

Qaranlıq yayan.

## HADİSƏLƏR

***Demokratik kapitalizm*** – Azad Dəllallıq.
***Demokratik sosializm*** – Azad Məhrumiyyət.
***Humanist sosializm*** **–** İnsani Məhrumiyyət.

## QORBAÇOVŞİNANIN "YENİ SOSİALİZMİ"

Sosializm – ***mərkəzləşmə*** deməkdir –
***qeyri-mərkəzləşməyə*** sığınıblar!
Sosializm – ***ümumiləşmə*** deməkdir – ***Xüsusiliyə*** sığınıblar!
Sosializm ***vahidlik*** deməkdir – Müxtəlifliyə sığınıblar!

***Kapitalizm yönlü "Sosializm" yaradırlar "yeni sosialistlər".***

## STALİN MƏSƏLƏSİ

Qorbaçovşina Sosializmin cinayətlərini Stalinin üstünə yıxır; Yevreizm Trotskinin, Zinovyevin intiqamını alır Stalindən; Ziyalılar öz siyasi anlaqsızlıqlarını humanizmlə pərdələyirlər – əslində isə Stalin başdan-binadan marksist idi – bu səbəbdən də əzəmətli və dəhşətli Zindan yaratdı.

## URVATSIZ ELƏYƏN

Qorbaçov rusları azsaylı millətlərin gözündə urvatsız eləyir, ordunu əhalinin gözündə urvatsız eləyir, nazirlikləri zəhmətkeşlərin gözündə urvatsız eləyir ki, özü Urvatlı görünsün – Urvatsız yolla Urvat qazanmaq istəyir.

***Amalın dilində buna Gədalıq deyirlər.***

***Şərin dilində siyasi məharət sayılır.***

## QORBAÇOVUN MİLLİ BARIŞIQ SİYASƏTİ

Aramsız milli boğuşma həqarəti.

## KOMMUNİST YALANI

Kommunist Partiyası heç vaxt Fəhlə partiyası olmayıb, İdeologiya partiyası olub.

Fəhlə sinfinin əslində heç vaxt öz partiyası olmayıb.

Marksizm heç vaxt Fəhlə ideologiyası olmayıb, Yer cənnəti haqqında əsatir olub.

Fəhlə sinfinin əslində heç vaxt öz ideologiyası olmayıb.

## TƏZƏ SİYASİ TƏFƏKKÜR

SSRİ ilə müqaviməti zəiflətmək səyi.

## "SOYUQ MÜHARİBƏ"

Kommunizmə silahsız müqavimət.

## TÜRKİYƏ SOVETPƏRƏSTLƏRİ

Türk özgələşənləri, özgələşdirənləri.

*20 Murad günü, İşıq Ayı, 11-ci ilş Bakı.*

**QANUNAUYĞUNLUQ**
SSRİ-lə ittifaqda olanın tifaqı dağılır.

**SOVETLƏRİN XEYİRXAH QONŞULUĞU**
Daxilə Şər yeritmək.

**KOMMUNİSTLƏRLƏ HÖKUMƏT KOALİSİYASI**
Uçurumda Birləşmək!

**ÜÇÜNCÜ DÜNYA MÜHARİBƏSİ TƏHLÜKƏSİ**
Kommunistləşmədən qorunmaq Səyi.

**İMPERİALİST SİYASƏT**
Kommunistləşdirmə Zoru.

**BEYNƏLMİLƏL TƏRBİYƏ**
Antixəlqi özgələşmə

**PROLETAR İNQİLABININ NƏTİCƏSİ**
Total (hərtərəfli) proletarlaşma.

**MARKSİST ŞÜAR**
Bütün marksist ölkələrin xalqları deyə bilərlər ki, "bizim zəncirdən başqa itiriləsi bir şeyimiz yoxdur".

**BOYUNDURUQÇU İNAMI**
Hamam vasitəsiylə xalqı boyunduruqda saxlayacağam!
Qaz vasitəsiylə xalqı boyunduruqda saxlayacağam!
Novruz Bayramı vasitəsiylə xalqı boyunduruqda saxlayacağam!
***Xalqa inanmadığım dərəcədə özümə inanıram!***

## KLASSİK ANTİSOVETİZM

Antisovet Muğam.
Antisovet Saz.
Antisovet Füzuli.
Antisovet Nəsimi.

## SOVET ZİYALISI

Xurafata satılmış.

## FƏHLƏ SİNFİ

Kommunist Hakimlərinin ayaqlarının altında kəsilən qurbanlıq.

## SİYASİ XƏTLƏR

Sağçılar – Sabitçilər.
Solçular – dəyişçilər.
***Kommunistlər – Dəyişçi Gerilikçilər.***

## DEMOKRATİK SOSİALİZM

Əsarət naminə azadlıq.

## ƏSARƏT BÜTÖVLÜYÜ

Kommunizm əsarətindən ***bütöv*** əsarət yoxdur əslində, başqa əsarətlər onun yanında natam görünür.

## QAÇAĞAN

Əfqanları qoyub qaçdı, Nikaraqualıları qoyub qaçdı – ermələri də qoyub qaçacaq – yenilikçi Qaçağan.

## TƏZƏ ALİ SOVET

***"Demokratik" partiya teokratiyası.***
("İlahi" hakimiyyəti)

## QÜDRƏT

Kommunizmin qənimi – millətçilikdir.

## FƏRQ

Amerika Dünyaya rəhbərlik etmək istəyir.
SSRİ Dünyaya sahib olmaq istəyir.
***Dünyaya rəhbərlik etmək – günahdır.***
***Dünyaya sahib olmaq – cinayətdir.***

## Sov.İKP-də QRUPLAŞMA

1. Yenilikçilər" qrupu – Əqidəsizlər.
2. "Konservativ" qrup – Yanlış əqidəçilər.

Birinci – Hüquqlu, Hakim; ikinci – Hüquqsuz, Məhkum.

## VƏZİYYƏT

İndi Dünyada bir imperialist dövlət var əslində: SSRİ.

## TÜRKİYƏ FACİƏSİ

Kommunizmə qarşı Birlik yaranmır, Anarxiya aradan qalxmır, Millətçilik qələbə çalmır.

*21 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## MÜASİR TÜRKİYƏ

Şərq ölkələri arasında ən qüdrətli Antikommunist.

## SOVETPƏRƏST QABAQCILLAR

Uçurumçular.

## SOVET QƏHRƏMANLARI

***Yelsin*** **–** Yüyürəkliyində ayağını sındıran.
***Liqaçov*** **–** Yorğalığında təntiyən.

## YENİ SİYASİ İSLAHAT

Partiya Dövləti əvəzinə – Dövlət Partiyası.

## LENİN MİLLİ SİYASƏTİ

Siyasətdə Doğmalıq olmur – Rəqabət, Yadlıq, Yağılıq olur.

Siyasətin bir sifəti olmur – Siyasət ikiüzlüdür.

*22 Arzu günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**QORBAÇOVŞİNA SABAHI**

Anarxiya, Xaos, Gərginlik – nəticədə Qadirsizlik.

**TARİXİ HADİSƏ**

Beynəlmiləlçilik Qeyrətsizliyi.

*23 Ümid günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**GERİYƏ İRƏLİLƏMƏK**

İctimai mülkiyyəti "xüsusiləşdirirlər", soveti parlamentləşdirirlər, planlı iqtisadiyyatı bazarlaşdırırlar – kapitalizmin ətəyindən yapışırlar "yeni sosialistlər".

**MÜNASİBƏT**

Qorbaçovşinadan istifadə etmək – Qorbaçovşinanı ifşa etmək.

**SÜRÜ BƏRABƏRLİYİ**

Kommunizm fərdiyyət tanımır, bu səbəbdən də azadlıq tanımır. Sürü bərabərliyində amansız əsarət yaşayır.

**OLANDAN ÜSTÜN**

"Həm sosializm, həm kapitalizm!" – deyir əslində "yeni sosialistlər".

"Nə sosializm, nə kapitalizm – Ruhani cəmiyyət!" – demək gərək!

**MƏNƏVİ QITLIQ**

Kapitalizmin ətəyindən yapışmaqdan çəkinmirlər sosialistlər.

**SƏBƏB – NƏTİCƏ**

"Nazirliklər İqtisadiyyatı boğur!" – deyirlər –
"İctimai Mülkiyyət İqtisadiyyatı boğur!" – demirlər.

“Aqrosənaye İqtisadiyyatı boğur!” – deyirlər –
“Kolxoz İqtisadiyyatı boğur!” – demirlər.
***İdarələrdə Səbəb axtarırlar – Quruluşda səbəb axtarmırlar.***

**GÜCLÜ MƏRKƏZ – GÜCLÜ MÜTTƏFİQ RESPUBLİKA OYUNU**

İkibaşlılıq Yalanı.

**TƏZƏ QLOBAL SİYASƏT**

Məzhəbsiz sağ qalma.

**XALQ DEPUTATLARI QURULTAYI**

Kukla teatrı. Qorbaçovun oynatdığı “müstəqillər”. Qorbaçovun özünün kuklalığı.

*24 Dözüm günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**SOVETLƏR QURULTAYINDA QORBAÇOV XƏTTİ**

“Ölkə mənsiz batar, çünki mən ölkəni batırmışam”.

**TƏZƏ YOL**

Həşir Şərçiliyi.

**SOVETLƏR QURULTAYINDA SAXAROV XƏTTİ**

“Qorbaçovdan yaxşısı yoxdur, çünki mənə yarayır”.

*25 Mərhəm günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**QURULTAY “XƏLQİLİYİ”**

Hakimiyyət uğrunda boğuşma.

**QORBAÇOV GÜZƏŞTÇİLİYİ**

Hamıdan Üstün görünmək üçün, hamıya əksilir.

**QURULTAYDA VƏZİYYƏT**

Ölkə Başsızdır, bu səbəbdən hamı baş aparır.

**QURULTAY HALI**

İdraksızlıq Səs-küyü.

*26 Qismət günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**XUDBİNLİK NAŞILIĞI**

Hamıya xoş gəlmək istəyir, bu səbəbdən də heç kəsə xoş gəlmir əslində Lotubaşı.

**QURULTAY AHƏNGİ**

Ərindən küsmüş Arvad acığı.

**QURULTAY HALI**

Zəncirdən açılmış İt haytası.

**QORBAÇOV "MƏHARƏTİ"**

Elə barışdırır ki, Boğuşurlar.
Elə sağaldır ki, Sağ qalmırlar.

**ÇİN HADİSƏLƏRİ**

Yaponlaşma Həsrəti.

**NƏTİCƏ**

Bəşəriyyətə yeni era vəd edən Rusiya Sovet İmperiyası "bəd-nam Qərbin" işartısına möhtacdır.

**KÖVÜK XƏTTİ**

Qorbaçov qurultayı dalğalandırır ki, kövük kimi üstə çıxsın.

**QORBAÇOV ANLAĞI**

Sağçılara qandırır ki, mən olmasam, "solçular" sizi yeyər.

Solçulara qandırır ki, mən olmasam, "sağçılar" sizi yeyər.

Ağlına sığışdırmır ki, solçularla sağçılar birləşib onun özünü yeyə bilərlər.

*27 Murad günü, İşıq Ayı, 11-ci il. Bakı.*

**QURULTAY İQLİMİ**

Yoldaşlıq Yolsuzluğu.

**QORBAÇOV ÜSULU**

Döyüşdürür ki, Barışdırsın.
Elə Barışdırır ki, daim Döyüşürlər.

**URVATSIZLIQ QAZANCI**

Ətrafdakıları urvatsız eləyir ki, urvatlı görünsün.
Nəticədə Urvatsızlıq qazanır özü.

**MÜASİR VÜQAR HEÇLİYİ**

Azərbaycan Sovet elçilərinin hörməti heçə bərabər idi – Püstəxanım Əzizbəyova isə vüqarla yeriyirdi.

**NÖKƏR İDRAKSIZLIĞI**

Qorbaçovun ermənilərin əlində olan ətəyindən yapışmaq miskinliyi.

**"KÖVRƏK" YALMANMA**

Vəli Məmmədovun Qorbaçova yalmanması o qədər kövrək idi ki, hesaba alınmadı.

**ERMƏNİ GEDİŞİ**

Gürcüyə yas saxlayır ki, Qarabağı alsın!
Qurultayı tətillə qorxuzur ki, Qarabağı alsın!
Raisa Maksimovnaya qahmar çıxır ki, Qarabağı alsın!

**QORBAÇOV HƏKİMLİYİ**

Xəstəliyi təzədən bərpa eləyir ki, "sağaltsın".
Bərpa olunan xəstəlik daha heç vaxt sağalmır.

## QORBAÇOV YÖNÜ

Xalqları xalqlara qarşı Yönəldir.
Cavanları yaşlılara qarşı Yönəldir.
Camaatı orduya qarşı Yönəldir.
Bugünü dünənə qarşı Yönəldir.
Hamını özünə qarşı Yönəldəcək gec-tez Yönsüz.

## AZƏRBAYCAN SOVETLƏRİNİN QURULTAYA MÜRACİƏTİ

Azərbaycanlıların qarşısında öz qara üzlərini ağ eləmək cəhdi.

## QURULTAY BOĞUŞU

Nə sağçılar vardı, nə solçular, nə oppozisiya, nə mərkəz – hakimiyyət uğrunda boğuşanlar vardı, bir də onları boğuşduran Qorbaçov – bəzən boğuşanlardan uzaq dururdu ki, özünü dişləməsinlər.

## "CƏSARƏTLİ" DƏMTUTANLAR

Çingiz Aytmatov cəsarətlə dəm tuturdu Qorbaçova.
Oljas Süleymenov cəsarətlə dəm tuturdu Qorbaçova.
***Hakimə yalmanırdılar cəsarətlə!***

## QURULTAY AQİBƏTİ

Moskva hücum eləyir.
Pribaltika təzyiq göstərir.
Sovet Azərbaycanı qulluq göstərir.

Hücum edəndən qorxurlar.
Təzyiq göstərəndən çəkinirlər.
Qulluq göstərəni görmürlər.

## SEÇKİ YEŞİYİ

Azad Tələ.

## NƏTİCƏ

Xaosdan nə yaradacaqlar? – Xaos.
Anarxiyadan nə yaradacaqlar? – Anarxiya.
Xaos uçurumu hazırlanır xalqa,
Anarxiya hücumu hazırlanır – yenidənqurma həşirində.

*28 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## QDLYAN – İVANOV ƏHVALATI

Rüsvayçılıqdan Qəhrəmanlıq düzəldirlər, Ədalət uydururlar.

## QƏRB RADİOSTANSİYALARIYLA ƏLAQƏ

Şöhrətpərəstlik Həqarəti – Şərin Xeyrinə.

## “TƏZƏ SOSİALİZM” CƏNGAVƏRLƏRİ

Afanasyev – gurultulu cümlələr zəhmi.
Adamoviç – hərarətli çığırtı həmləsi.
Popov – yavan jestlər hədəsi.

## İTTİFAQ SƏVİYYƏSİ

Səviyyəsizlik.

## DÜNYA SƏVİYYƏSİ

Azdıran.

## NƏTİCƏ

İdrakı əlindən alınmışların idraksız nümayəndələri.

## QORBAÇOV TƏRZİ

Hamıyla dost olmaq üçün – dostlarını daim satır.

## MƏĞLUBİYYƏT

İndidən demək olar ki, Qurultayda mahiyyətcə qalib gələn olmayacaq, məğlub olan olacaq.

Qorbaçov məğlub olur, çünki "sağçılardan" irəli tullanır – "solçulardan" geri düşür; bu səbəbdən də həm "sağçıların", həm də "solçuların" etimadını itirir.

Solçular məğlub olur, çünki hakimiyyətə əl uzatdılar – əlləri çatmadı.

Sağçılar məğlub olurlar, çünki solçuların səsini batıra bilmədilər.

*29 Arzu günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## ƏSAS ZİDDİYYƏT

Sosializm xalqın mənafeyi bahasına yaranır, xalqın mənafeyi sosializmin ləğvini tələb eləyir.

## NƏTİCƏ

Bəşərin qabağında ayaqyalın, başıaçıq yüyürən indi Avropanın arxasınca sürünür.

## GÜRCÜ FƏLAKƏTİ

Qorbaçovşina fitnəsi – Orduya qarşı qəsd, gürcülərə dost görünmək: – Ordunu sındırır, Gürcünü özünə bağlayır.

*30 Ümid günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## OPPOZİSİYA MURDARLIĞI

Kommunist partiyasının başçısını alqışlayırlar ki, o, partiyanı atıb, xalqı tutur.

Kolxozu ləğv edib sosializmə "xidmət eləyirlər".

Mərkəzi sarsıdırlar ki, Sosializmi möhkəmləndirsinlər.

Murdarcasına oyun oynayırlar, yalan toxuyurlar, özlərini və xalqı aldadırlar.

## QURULTAY İSTİQAMƏTİ

Danışdırmaq – əməlsizləşdirmək.

## XƏTT

Gürcü fəlakətindən istifadə edib Abxaz məsələsini yatırtmaq.

## QURULTAY TƏƏSSÜRATI

Moskva nümayəndələri başlarında beyin əvəzinə diş gəzdirdilər.

Pribaltika nümayəndələri başlarında beyin əvəzinə daş gəzdirdilər.

Erməni nümayəndələri başlarında beyin əvəzinə ağu gəzdirdilər.

Azərbaycan nümayəndələri başlarında beyin əvəzinə quyruq gəzdirdilər.

## XİLASKAR

Saxarovu “xilas eləyərək” öldürdü həkim.

## MÖHTƏŞƏM YAĞILIQ

Rus xalqının Rus İmperiyasından böyük düşməni yoxdur əslində – rus xalqı bunu bilsə də, bilməsə də.

## ÜMUMİ QİYMƏT

Qurultaydan iyrənməyən adam – Ləyaqətsizdir!

*2 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HAKİMİYYƏT BÖLGÜSÜ

Qurultayda qaynayan Qazanı Qurultayın seçdiyi Ali Sovetdə soyudurlar.

## MƏĞLUBİYYƏT

Qorbaçov Demokratik SSRİ yaratmaq istəyir; anlamır ki, SSRİ əslində antidemokratiyadır; bu səbəbdən də Demokratikləşmə – SSRİ-nin Uçurulmasıdır; gec-tez Qorbaçov ya Demokratiyanı seçməli olacaq, ya SSRİ-ni.

Ya Rus İmperiyasını Demokratiyaya qurban verməlidir “Yenilikçi”, ya Demokratiyanı Rus imperiyasına – hər ikisi onun məğlubiyyətidir.

## DARTIŞMALAR NAİLİYYƏTİ

Güclü Respublikalar Güclü Mərkəzlə dartışacaq.

Bu səbəbdən də Güclü Mərkəz "Güclü respublikaları" gücdən salmalıdır – mütləq!

## GÖZLƏNİLƏN

Ya Qorbaçovun belini qıracaqlar, ya da Qorbaçov SSRİ-nin belini qıracaq.

## TƏZƏ ƏQİDƏ

Kommunist Ambarsumyan Sovetlər Qurultayından Daşnak Partiyasının proqramını bəyan etdi.

## DEMOKRATİKLƏŞMƏ

Şər artımı.

## "TƏZƏ" HAKİMİYYƏT QURULUŞU

Partiya Sovetlərə Rəhbərlik eləyir, Sovetlər xalqa hakimlik eləyir – yəni mahiyyətcə Partiya Sovetlər vasitəsiylə Xalqa rəhbərlik eləyir – yəni əslində Hakimlik eləyir – "Xalq nümayəndələriylə birgə", tənqid "şəraitində", hay-həşir mümkünlüyündə, geniş rəyçilik zənginliyində.

Mahiyyətcə heç nə dəyişmir, Partiya Ağalığı zəifləmir, əksinə, möhkəmlənir – "demokratik şəkildə" Ağalıq təsdiqlənir.

## VƏZİYYƏT

Mərkəzi Komitənin Xalq üzərində Ağalığını ləğv etmək gərək!

Partiya Komitələrinin rayon, şəhər Əhalisinin üzərində Ağalığını ləğv etmək gərək!

Sovetlər həmin Ağalığa xidmət edəcək!

İcraiyyə Komitələri həmin Ağalığa xidmət edəcək!

**EHKAM POZUSU**

Azərbaycan tarixini marksizm-leninizm baxımından yazmaq olmaz – pozmaq olar.

**NƏTİCƏ**

Pribaltika Mərkəzlə aramsız döyüşəcək, Erməni Azərbaycanlıyla aramsız döyüşəcək, “Köhnəçilər” “Yeniçilərlə” aramsız döyüşəcəklər – Şər artacaq – Təzə Şərlər aşkarlanacaq.

*3 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**SİYASƏT ELANI**

Milli Dövlət Dilləri elan edirlər ki, Milli Dövlətlər elan olunmasın!

**AYƏTULLA XOMEYNİNİN VƏFATI**

Şərqin “İslamın Müstəqilliyi” ideyasının ölümü.

**RESPUBLİKA TƏSƏRRÜFAT HESABI**

“Könüllüləşən” maddi əsarət.

**TƏZƏ SİYASİ SİSTEM**

Partiya Hökmranlığı, burjua parlamentarizmi + Sovet.

**MÜTTƏFİQ RESPUBLİKALAR MÜSTƏQİLLİYİ**

“Müstəqilləşən” əsarət.

**QORBAÇOV SOSİALİZMİ**

Kapitalizmaltı sosializm.

**LƏYAQƏT**

İcazəli “Qəhrəmanlığı” ləyaqətinə sığışdırmamaq.

**MARKSİST SİYASİ İQTİSADI**

İqtisadi əsarəti doğrultmaq.

## SOSİALİZM BÜROKRATİZMİ

Bürokratizmin iqtisadi mənbəyi – "Ümumxalq" mülkiyyəti;
İctimai mənbəyi – Mütləq Dövlət Hakimiyyəti (Totalitarizm);
Siyasi mənbəyi – Partiya diktaturasıdır.
***Bürokratizm – sosializm deməkdir əslində.***

**(Sərbəstləşən Əsarət)**

Sosializmin kapitalistləşməsi Əsarəti azaltmır – Sərbəstləşdirir.

## TƏZƏ SÖZ AZADLIĞI

"Nə deyirsən de – Ehkamı rədd etmə!"
"Nə deyirsən de – Quruluşu rədd etmə!"
"Nə deyirsən de – Təşkilatı rədd etmə!"
***Nə deyirsən de – Həqiqəti demə!***

## TƏZƏ İQTİSADİ SİSTEM

Dövlət Kapitalizmi + burjua sərmayəçiliyi.

## QORBAÇOVUN TƏZƏ SÜLH SİYASƏTİ

Dünyaya car çəkdilər ki, Sülhün düşməni əslində SSRİ-ymiş!

## QORBAÇOV SİSTEMİ

Məzmunca kapitalist, formaca sosialist.

*4 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## SİYASİ OYUN

Qorbaçov azərbaycanlılara qandırır ki, ermənilərin müəyyən mənada Qarabağı almağa haqları var – amma mən vermirəm – mənə minnətdar olun!

Qorbaçov ermənilərə qandırır ki, azərbaycanlılar Qarabağı vermirlər, ancaq nə qədər mən varam – ümidinizi itirməyin!

## ÖZBƏK YADLIĞI

Əgər Mesxet türkləri özbəklərə qarşı üsyan qaldırırlarsa – deməli, özbəklər öz türklüyünü unudublar.

## QUYUQAZAN

Qorbaçov Ali Sovetdən özünə Qala tikmək istəyir, Quyu qazır.

## POLŞADA SEÇKİLƏR

Xalq Antikommunizmə Səs verdi.

## HƏQİQƏT

Azərbaycanlıların Sumqayıt adlı Ləkəsi yoxdur, Hiddəti var!

## QORBAÇOVUN "SÜLH QƏLƏBƏLƏRİ"

Daxili Döyüşlər, xarici müdaxiləni hazırlayan!

## YİYƏSİZLİK

İranda azərbaycanlılar İslama qurban kəsildilər, Rusiyada marksizmə.

## NƏTİCƏ

Partiya Diktaturası plyus Demokratiya Xaosu.

## İRANIN XOMEYNİ DÖVRÜ

Ölkə İslam zülmətinə büründü, məkrli Qonşusunun xeyrinə hədsiz dərəcədə zəiflədi, – "nə Qərbi, nə Şərqi" prinsipinə riayət eləyə bilməyəcək, həm Qərbdən, həm Şərqdən asılı qalacaq.

*5 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## FƏRQSİZLİK

Sovet Hakimiyyəti mahiyyətcə Partiya Hakimiyyətidir.

*6 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Əgər SSRİ Fövqəlgücünü azaltmasa – Dünya ona etibar eləməyəcək, əgər SSRİ Fövqəlgücünü çox azaltsa – Dünya onu saymayacaq.

Bu səbəbdən də SSRİ Fövqəlgücünü "qədərincə" azaldacaq, yoxsa Dünyadan bəhrələnə bilməz, niyyətinə çatmaz.

## KƏDƏRLİ HAL

Pribaltikalılar mütəşəkkilliyində təcavüzkar həqarət var, bu səbəbdən də onların məğlubiyyəti heç kəsi kədərləndirmir.

*7 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## TƏZƏ LƏYAQƏT

Lenindən Litva millətçisi düzəldirlər,
erməni daşnakı düzəldirlər,
yəhudi dəllalı düzəldirlər.

## FİTNƏKARLIQ

Konstitusiya çərçivəsində qəhrəmanlıq – fitnəkarlıqdır.

## HƏQİQƏTSİZLİK

Demaqoq – Həqiqətsizdir, bu səbəbdən də Sözbazdır.

## İQTİDARSIZLIQ

Pribaltika SSRİ daxilində Müstəqillik istəyir, İnadla – İnamsız.

## TƏZƏ MƏRHƏLƏ

Yenidənqurma – dəhşətli tarixi fəlakət.

*9 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## QURULTAY MƏZMUNU

Haytalı, Həşirli, Qarışıq, Fəlakətli, Ləyaqətsiz Boşluq.

## QURULTAY AŞKARLIĞI

Hakim sinif sayılan Fəhlə Sinfinin dəhşətli Hakimiyyətsizliyi, Sahibsizliyi tam aşkara çıxdı Qurultayda.

## İNQİLABİ TRAGİKOMEDİYA

Xilaskarların xilas harayı!

## QURULTAY DAVRANIŞI

Pribaltikalılar özlərini Evi qarət olunmuş Yiyə kimi aparırdılar.

Ruslar özlərini dəvəsi ölmüş ərəb kimi aparırdılar.

Ermənilər özlərini zəncir gəmirən köpək kimi aparırdılar.

Azərbaycanlılar özlərini üzü qara gəlin kimi aparırdılar.

## QURULTAY ATASIZLIĞI

Evdə Ata olmayanda – Uşaqlar biri-birinin başını yarır.

## BƏDNƏZƏR GERB

***Oraq–çəkic***: Kəndli ölümü, Fəhlə fəlakəti.

## BİLMƏDİLƏR

Solçular Nazirlər Diktaturasını uçura bilmədilər.

Sağçılar Solçuları Hakimiyyətdən xaric edə bilmədilər.

Azərbaycanlılar Qarabağ məsələsində irəliləyə bilmədilər.

Qorbaçov Saxarova Sahib ola bilmədi.

“Cahanşümul tarixi hadisədə” əslində heç nə baş vermədi.

## TƏZƏ ALİ SOVET

Partiyanın demokratik nökəri.

## DÜNYƏVİ NƏTİCƏ

Qurultayı dinləyən hər bir xarici şəxs sosializm adlanan Yer cənnətindən cəhənnəmdən qaçan kimi qaçacaq.

*11 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## EKOLOJİ FƏLAKƏT

Sosializm yırtıcılığı.

## SOSİALİZM MÜBAHİSƏLƏRİ

Bəziləri deyir ki, sosializmin bünövrəsi qurulub, binası tikilməyib.

Bəziləri deyir ki, sosializm olmayıb – onu təzədən qurmaq lazımdır.

Leninin təzə sosializm konsepsiyasından xəbər verirlər – heç kəs də demir ki, o nədir.

Qorbaçov Sosializmi humanizmlə eyniləşdirir – özünü humanist saymayan ictimai sistem isə tarixdə olmayıb.

Əslində sosializm elə stalinizmdir (İctimai Mülkiyyət, Ehkam Hökmranlığı, Partiya Müstəbidliyi).

İndiki sosializm – Qorbaçov sosializmi, neososializm – stalinizmdir üstəgəl kapitalizmin bəzi xüsusiyyətləri (kooperasiya, parlamentarizm).

## YENİLİKLƏR

***Kooperasiya*** – alman kapitalisti Abbedən götürülmüş ideyadır: – Şəxsləşən kollektiv mülkiyyət.

(Kollektiv – kooperasiyada yuridik şəxs sayılır).

***İcarəçilik*** – kirayəçilikdir, burada müstəqil mülkiyyətdən söhbət gedə bilməz.

Mülkiyyətin Sahibi kolxozdur – yəni əslində Dövlətdir.

***Təsərrüfat hesabı*** – Dövlət Mülkiyyətində müstəqillik – sahibin verdiyi Müstəqillik – yəni əslində olmayan Müstəqillik.

***Təzə Ali Sovet*** – “Burjua” parlamentarizmi üztəgəl Qurultay.

***Demokratiya, Aşkarlıq*** – Soosializm çərçivəsində – yəni Antidemokratiyaya xidmət edən.

***Təzə Milli Siyasət*** – Boyunduruq Qoruyan.

***Təzə Mərkəzi Komitə*** – Ali Sovet adlı işlək icraçısı olan Mütləq Hakim.

***Təzə Sülh Siyasəti*** – İmperiyanı möhkəmləndirən – yəni əslində müharibə təhlükəsini əbədiləşdirən.

***Ümumi nəticə:*** Köhnə sosializm üstəgəl xaos, anarxiya, gərginlik.

*12 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## DƏLLALLIQ VƏ AĞALIQ PRİNSİPİ

Kommunizm prinsipində Cəmiyyətlə Şəxsiyyət arasında Dəllallıq və Ağalıq hökm sürür.

"Hər kəsdən Qabiliyyətinə görə, hər kəsə Tələbatına görə" – münasibətində cəmiyyət qabiliyyət alıb Tələbat verir – Şəxsiyyətin maddi Aqibəti bütünlüklə cəmiyyətin ixtiyarında olur; cəmiyyət Şəxsiyyət üzərində ağalıq eləyir.

## MÜDHİŞ PİRAMİDA

Sovet adamının üzərində dəhşətli hakimiyyət Piramidası ucalır: Pioner təşkilatı, Komsomol, Həmkarlar İttifaqı, Partiya, İcraiyyə Komitəsi, Mərkəzi Komitə, Rəis, Sədr, Briqadir, Şöbə müdiri, Milis, Prokuratura, Məhkəmə, Ali Sovet, Direktor – Uçurulası, Uçurulmalı!

## ANTİBİRLİK

Müasir kollektivçilik – Dəhşətli, Fəlakətli Antibirlik.

## MAHİYYƏTSİZLƏŞMƏ

Demokratiyada xalq mahiyyətsizləşir.

## YENİ QLOBAL SİYASƏTİN SATQINLIQ POTENSİALI

Almaniya Federativ Respublikasıyla dostlaşmaq üçün Almaniya Demokratik Respublikasını sata bilər Yeni Siyasət;

Cənubi Koreyayla dostlaşmaq üçün Koreya Xalq Demokratik Respublikasını sata bilər;

Amerikayla dostlaşmaq üçün Kubanı sata bilər.

***Satqınlıq potensiyası böyükdür yeni siyasətin.***

## KOMMUNİZM YADLIĞI

Ümumi Mülkiyyət – Birlik yaratmır, Birgə Yadlıq yaradır.
Ümumi Təminat – Birlik yaratmır, Birgə Yadlıq yaradır...
***Kommunizm Yadlar birgəliyi yaradır.***

## İQTİDARSIZLIQ

Sinif – Fərdiyyətsizlikdir.

Sinfin ləğvi – Fərdiyyətin təsdiqidir.

Kommunizm sinifləri ləğv edə bilməz, çünki əslində fərdiyyət tanımır.

*13 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## SİYASİ ASSİMİLYASİYA

Avropalaşma – əslində siyasi assimilyasiyadır – Şərqin hərarətlə qəbul etdiyi, qürrələndiyi.

## GİZLİ AŞKARLIQ

Millətlərin biri-birinə qovuşmasından danışmırlar – millətlərin ölüm təhlükəsindən danışırlar – ***əslində bu, eyni şeydir – bundan danışmırlar.***

## NİCAT

Marksistlər formal saydıqları "burjua demokratiyasının" ətəyindən beşəlli yapışıblar – yenidənqurmanın qələbəsini onda görürlər.

## SOSİALİZM SİYASİ İQTİSADI

Dövlət Mülkiyyətindən, Planlı Təsərrüfatdan yaxşı İqtisadiyyat yoxdur – o, ölkəni süquta uğratsa da.

## KOMMUNİST ƏXLAQI

Kollektiv Əxlaqsızlığı.

## KOMMUNİST PEDAQOQİKASI

Sürüyetirən.

**MARKSİST ETİKASI**
Sinfi gözəllik xurafatı.

**SOVET ELİTASI**
**(Yüksək Təbəqəsi)**
Ruhani Proletariat.

**FƏRQ**
Stalinizm – cəmiyyətin Zalım vaxtıydı.
Qorbaçovşina – cəmiyyətin Dəli vaxtıdır.
***Dəlidən hər şey gözləmək olar.***

**SOVET QANUNÇULUĞU**
Fəhlə Mülkiyyətsizliyi.
Kəndli Mülkiyyətsizliyi.
Xalq Hüquqsuzluğu.

**SOSİALİZMİN TƏZƏ HALI**
Kütləvi Dılğırlaşma.

**RİBBENTROP-MOLOTOV PAKTINA QARŞI HƏRƏKAT**

Pribaltika Mərkəzə deyir ki, məni Zorla SSRİ-yə daxil etmisən, Tələblərimi qəbul et ki, Müstəqilliyimə qayıtmayım.

Pribaltika Mərkəzə təzyiq göstərmək istəyir antipakt fəaliyyətiylə.

**SOSİALİZM "ƏDALƏTİ"**
Maddi bərabərsizlik.
İmtiyaz bərabərsizliyi.
Mülkiyyətsizlik bərabərliyi.

**YENİDƏNQURMA AQİBƏTİ**
Xalqı ağır günlər gözləyir – qarışıq, qadalı.

## QAZAXISTAN DƏRSİ

Əgər Kolbin qazaxların milli hiddətini mənzil vasitəsiylə söndürə bilibsə, deməli, qazaxlar Mənzillərini hələ tanımırlar.

## HEÇLİK

Sübut eləyirlər ki, 70 ildə SSRİ-də Fövqəl Dövlətdən başqa heç nə yox imiş.

***Demək, əslində Fövqəldövlət – heçdir.***

## SOSİALİZM CƏMİYYƏTİ

Xalqqıran.

## KAPİTALİZM CƏMİYYƏTİ

Ruhsuzlaşdıran.

## RAİSA MAKSİMOVNA

Qorbaçovun hamının ayağına dolaşan quyruğu.

## QORBAÇOV

Həyadan uzaq, satqın, qorxaq, yüngül, dayaz, əqidəsiz, ləyaqətsiz, şöhrətpərəst siyasətbaz.

## TƏZƏ MÜNASİBƏT

Qərb SSRi-ni öz daxilində əritmək istəyir.
SSRİ Qərbin daxilində dirçəlmək istəyir.

## QABAQCILLAR

Azanlar, Azdıranlar.

## RUS FƏLAKƏTİ

Marksistlər rusların çiyninə sosializm yükü qoydular, xalq yükə tab gətirmədi, sındı.

Marksistlər rusların belini qırdılar – Rus Hakimiyyəti adıyla.

## SİYASİ LƏYAQƏT

Zahir şahın ətəyindən yapışırlar Antişahlar.
Şahzadə Sianukun ətəyindən yapışırlar Antişahzadələr.

## TƏBƏQƏLƏŞMƏ – ŞƏRLƏŞMƏ

Ziyalı Təbəqəsində Ziya sönür.

*14 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## MÜNASİBƏT

Naxçıvanlılara hörmətim var – naxçıvanizmə nifrətim!

## YADLIQ

Ticarət – Yadlıqdır, – Doğmaya satmırsan, bağışlayırsan.
Bu baxımdan, dünyamız total (hərtərəfli) Yadlıqdır.

## TİCARƏT

Sənaye – əməyin satılmasıdır, əslində o, Ticarətdir.
***Sənayedə Fəhlə satılır.***

## SİYASİ ƏMƏLİYYAT

Azərbaycan tarixini Novruzəliləşdirirlər ki, Poçt qutusuna şükür oxuyaq.

## TOTAL (HƏRTƏRƏFLİ) ANTİXƏLQİLƏŞMƏ

Müəssisələrdə İstehsalat Antixəlqiləşir.
Akademiyalarda İdrak Antixəlqiləşir.
Səhnələrdə Sənət Antixəlqiləşir.
Mətbuatda Söz Antixəlqiləşir.
Ailələrdə Tərbiyə Antixəlqiləşir.
Məktəblərdə Tədris Antixəlqiləşir.
Məhkəmədə Cəza Antixəlqiləşir.

## VƏZİYYƏT

Ticarətdə əslində İnsaniyyət satılır.

**TİCARƏT**

Mükafat – Ticarətdir – satma, satılmadır.

**İDEALSIZLIQ**

Yaponiyadan İdeal düzəldirlər, unudurlar ki, Sənayeləşmədə İdeallıq yoxdur.

**SOSİALİST SƏNAYELƏŞMƏSİ**

Zorla satılma, satma.

**HƏQİQƏT**

Sovet Hökuməti Xalqı ifadə eləmir, idarə eləmir – Xalqsızlaşdırır.

**ZƏRURİ İŞIQ**

Antikommunizm qədər Zəruri İşıq yoxdur indiki Qaranlıqda.

**ŞƏRƏ XİDMƏT**

Partiya Yer cənnəti naminə Yer cəhənnəmi yaradan bir İdeologiyaya xidmət eləyir.

**ŞƏRƏFOVŞİNA**

Mərkəz Rus itlərini Rüşvət imkanıyla yallandırırdı.

**ƏLİYEVŞİNA**

Xalqı Şərə yedirtdi, özü yedi, Tayfasına yedirtdi – özünü yedilər.

**MƏTBUAT HÜNƏRİ**

Zindanın içindəkilər Zindanda olduğunu bilmirdilər.

**ƏCAİB GÖRÜNMƏ**

Xalq özünü və hökuməti dolandırır, ancaq Hökumət Xalqı dolandıran görünür...

**QURULTAY QƏHRƏMANLARI**
İflasdan don geyinmişlər.

*16 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**AKADEMİK İDRAK**
Həqiqətsizlik mövqeyi.

**SƏBƏB**
Sosializm Yerdə bitmədi, Göydən düşmədi – Zorlaşdırıldı.

**İDMAN İQTİDARSIZLIĞI**
İdman Həyatı təqlid eləyir – yaxşılaşdırmır.

**TƏZAD**
Hökumət – Antixalq.
Hökumət Adamı – Xalqa Zidd.
Xalq Adamı – Hökumətə Zidd.

**AĞALIQLAR**
Müəssisə Dövlətin olanda – Direktor Ağalığı Yaranır.
Torpaq Dövlətin olanda – Sədr Ağalığı Yaranır.
Mətbuat Dövlətin olanda – Redaktor Ağalığı yaranır.
Respublika Mərkəzi Komitənin olanda – Katib Ağalığı Yaranır.
***Dövlət Ağalığında Ağalıq azalmır – artır.***

**VƏHŞİLƏŞMƏ**
Maddi Mənafe uğrunda döyüşdə Vəhşilik irəli çıxır.

**TƏZƏ SƏDD**
Kim nə deyir desin, hamı Yenidənqurma deməlidir.

**YENİDƏNQURMA FƏALLIĞI**
Camaatı siyasiləşdirmirlər – əqidəsizləşdirirlər.

**MÜASİR ZİYALI**

Köpək kimi bağlanıblar cəmiyyətə – açıla bilmirlər.

**VƏZİYYƏT**

Xalq özünü dolandırar – Dövlət onu dolandırmasa.

**QORBAÇOVŞİNA ÇOXRƏYLİYİ**

İtlərin birgə boğuşmasından həqiqi səs hasil olacaq!

**MURDARLIQ**

"Hər kəsə qabiliyyətinə görə" prinsipində "qabiliyyəti çox olan daha çox yeməlidir" – murdarlığı təsdiq olunur.

*17 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**SOSİALİST HƏYAT TƏRZİ**

Kollektiv Tənhalıq.

**HƏQİQƏT**

İclas – İdraki İflas.

**ÖLÜMCÜL TƏHLÜKƏ**

Kommunizmlə barışmaq Atom müharibəsiylə barışmaqdan pisdir.

**TƏZƏ HAL**

SSRİ başını aşağı salıb Dünyanı qarışdırmaqla məşğuldur.

**HƏQİQƏT**

Maddi Tərəqqi – əslində Bazarlaşmadır.

**BAZAR QİSMƏTİ**

Cəmiyyət Qisməti Bazar Qismətidir əslində – Satılan, Satan.

## DÜNYANIN SSRİ-yə GƏLƏCƏK MÜNASİBƏTİ

Əvvəl: "SSRİ – Hə, Sosializm –Yox!"
Sonra: "SSRİ – Yox, Sosializm – Yox!"

## SOSİALİST BEYNƏLMİLƏLÇİLİYİ

Ağa deyir "Sür dərəyə!" – Sür dərəyə.

## ÖLÇÜ

Yenidənqurmadan iyrənməyən adam – adam deyil.

## BÖYÜK BAZAR

Adam Smit cəmiyyəti "Böyük Bazar", adamları alverçi adlandırırdı; təbiidir ki, Böyük Bazardan və Alverçilərdən Ruhaniyyat gözləmək olmaz.

Smit cəmiyyətin Bazar Mahiyyətini – yəni satmaq, satılmaq xüsusiyyətini – gözəl tədqiq eləyir: cəmiyyət ruhaniyyata xidmət eləmir – Maddiyyata xidmət eləyir.

## AZADLIQ

Daxili naqislikdən azad olmaq – Xarici əsarətdən azad olmaq.

## RÜŞVƏTXOR

Rüşvəti şəxsə vermirlər əslində – sosializmə verirlər.

## SOSİALİST ZİNDANLARI

Kolxoz Zindanında çürüyən Kəndli.
Zavod Zindanında çürüyən Fəhlə.
Mətbuat Zindanında çürüyən Ziyalı.
Məktəb Zindanında çürüyən Tələbə.
Akademiya Zindanında çürüyən Alim.

## SOSİALİZM İQTİDARSIZLIĞI

Bazarı planlaşdırmazlar.

## ƏLAQƏ

Cəmiyyət İqtisadiləşəndə – Dövlət Bazarkomlaşır.

## CƏMİYYƏT TƏRBİYƏSİZLİYİ

***Cəmiyyət – Bazardır***; Bazarda – Təmənnasızlıq olmur, Dostluq olmur, Məhəbbət olmur, Ülfət olmur – Cəmiyyət adamı Pozur – Bazarlaşdırır.

***Cəmiyyət Adamı – Bazar Adamı deməkdir.***

## SİYASİ ALVER

Deputat Seçkiləri: Səs Almaq, Vermək.

## KOMMUNİST İXTİLAFLARI

Şaykalaşma.

## HƏQİQƏT

Sosializm imperialistliyi itirsə – sosializm olmaz.
Sosializm bürokratizmi itirsə – sosializm olmaz.
Sosializm Ağalığını itirsə – sosializm olmaz.
***Sosializm özündən artıq ola bilməz.***

## AŞKARLANMA

Məlum oldu ki, "Soyuq müharibənin" yaradıcısı əslində SSRİ-ymiş.

Sonradan məlum olacaq ki, Dünyəvi xaosun, gərginliyin və anarxiyanın da yaradıcısı elə oymuş.

## TÜRK FƏLAKƏTİ

Özbəkistanda Türk Türkü döydü, Türkiyə Türkü çağırmadı, türk Rusiyanı çağırdı.

*18 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## TEXNİKİ YÖN

İxtisasçılar cəmiyyəti yaradırlar, imtiyazçılar cəmiyyəti yaradırlar – İnsanlar cəmiyyəti yaratmırlar İcadçılar.

## HƏQİQƏT

Cəmiyyətdə Birlik yoxdur – Cəmlik var.

## SOVETLİK

Sovet Xalqı – Xalqsızlıq.
Sovet Ailəsi – Ailəsizlik.
Sovet Tərbiyəsi – Tərbiyəsizlik.
Sovet Qanunu – Qanunsuzluq.
Sovet Kəndi – Kəndsizlik.
Sovet İnamı – İnamsızlıq.

## RƏFSƏNCANİNİN RUSİYA SƏFƏRİ

İran Avropalaşmanı Moskvadan başlayır.

## YÜKSƏK TƏBƏQƏ

Aşağı ləyaqət.

## XİDMƏT – XƏYANƏT

Neft çıxarırsan ki, Şər möhkəmlənsin!
Pambıq yığırsan ki, Şər möhkəmlənsin!
Kitab yazırsan ki, Şər möhkəmlənsin!
***Xəbərin yoxdur ki, Xalqa necə xəyanət eləyirsən...***

## BAŞAYAQ

Respublika Başı – Mərkəz Ayağı.

## CƏMİYYƏTİN SÜTUNLARI

Ruhani Sütunsuzlar.

## CƏMİYYƏTİN MƏŞHURLARI

Ala itdən manşırlar...

## MƏRKƏZİ KOMİTƏ

Şər Mərkəzi.

## İCTİMAİ TİCARƏT

Diplom, Mandat, Rütbə, Titul – satma, satılma nişanələri.

## ELMİ XƏYANƏT

Cəmiyyət Həqiqət tanımır – Faydalıq tanıyır.

Bu səbəbdən də cəmiyyətə xidmət edən Elm- Həqiqətə xəyanət eləyir.

## NÖKƏR AĞALIĞI

Sosializm Alimlərdən nökər düzəldə bildi,

Kapitalizm Alimlərdən ağa düzəltmək istəyir;

Yəqin ki, bacarmayacaq – Alimlər elə nökər olaraq qalacaqlar – cəmiyyətdə.

## HADİSƏ

Xalqın puluyla Dövlət özünə Akademiya adlı nökər saxlayır.

## QARIN BAŞLIĞI

İqtisadiyyatı başa çıxartmaq – əslində Başı Qarına endirmək kimi bir şeydir.

## SOSİALİST HADİSƏSİ

Kütləviləşən Antixəlqilik.

## RUSİYA AQİBƏTİ

1. Pyotra qədər pis-yaxşı Rusiya var idi, Pyotr Rusiyanı Avropalaşdırdı.

2. Lenin Rusiyadan yeni Era yaratmaq istədi – alınmadı; yeni Era əvəzinə köhnə Despotiya bərqərar oldu.

3. Qorbaçov Rusiyanı təzədən Avropalaşdırır – əslində Rusiyanı təzədən yox eləyir.

## CƏMİYYƏT DƏLLALLIĞI

"Kim cəmiyyətə çox xeyir verir, o da cəmiyyətdən çox xeyir götürür" prinsipi Dəllallıqdır – Ruhanilikdən uzaq, ancaq cəmiyyətə uyğun, çünki Cəmiyyət Ruhaniyyat əsasında yox, əslində elə Dəllallıq əsasında qurulub.

*19 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## FƏXRİ XİYABAN

Hökumətləşən Ölülük.

## ƏLAQƏ

Qorbaçovun Daxili Siyasəti əslində onun xarici siyasətinin davamı və nəticəsidir.

Xarici amil əsasdır Qorbaçov üçün, xaricə işləyir Qorbaçov ən çox, ancaq daxili vəziyyət ona ziyan verir, onu xaricin gözündən salır.

## ALİMLƏR HAKİMİYYƏTİ
## (Təzə Avropa İdealı – Texnokratlıq)

Elmi Təbəqə Hökmdarlığı, bəyliyi, xanlığı – buxovu, zülməti, əsarəti.

Alətləşən xalq, qəfəsləşən Həyat: Qərbin bəşəriyyətə təqdim etdiyi təzə gələcək.

## KÜTLƏVİ TƏBLİĞAT

İctimai – Antixəlqi.

## TƏHLÜKƏ

Bilik Xurafatçıları Hakimiyyətə can atırlar: Texnokrat Faşizm təhlükəsi yaranır.

## İSLAM AQİBƏTİ

İslamçıdan Antiislamçı – Kommunist Qasidi düzəldirlər. Paşazadəni Türkiyəyə göndərirlər.

## SOVET HEYKƏLSEVƏRLİYİ

Ateistlərin Bütpərəstliyə qayıtması – Ruhani vəhşilik.

## FƏRQ

Rusiya Avropasız keçinmək istədi – Qurudu Qaxac oldu.
Şərq Avropasız keçinə bilmədi – Qurudu Qaxac oldu.

## SOVET MƏBƏDLƏRİ

Kahinləşən Əxlaqsızlıq.

## SƏFİLLİK

Maddiyyatlaşan Dünya – əslində Səfilləşən Dünyadır.

## HÖKUMƏT İTLƏRİ

Müasir Ziyalılar Hökuməti Xalqdan qoruyan İt rolunu oynayırlar.

*20 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## AKADEMİK

Fəxri Nökər.

## HÖKUMƏT XALQÇILARI

Xalqı atıb Hökuməti tuturlar ki, Hökumət onları Xalqçı adlandırsın.

## GƏDALIQ

Təqlidçilik – Gədalıqdır. Avropa Dünyanı Gədalaşdırır.

## İŞLƏK SEVGİ

Xalqa Qayğı lazımdır ki, Xalq işləsin!
Xalqa Mənzil lazımdır ki, Xalq işləsin!
Xalqa Ərzaq lazımdır ki, Xalq işləsin!
***Xalqı işlətmək üçün sevirlər!***

## HƏQİQƏT

Cəmiyyətdə tutulan mövqe – əslində itirilən mövqedir.

## PARLAMENT ƏMƏLİ

Parlament bağırtılarında Xalqın səsini batırmaq istəyirlər.
Parlament savaşında Xalqın hiddətini soyutmaq istəyirlər.
Parlament fəallığında Xalqı fəalsızlaşdırmaq istəyirlər.

## FƏRQ

Təzə Deputatlara Boşboğazlıq haqqı verilib.

## QURULTAYDAKI

Şöhrət, Rəqabət, Hakimiyyət Həsrətiylə alışan gözlər.
Xudbinlik Harayı.
Namərd gedişlər. Hədyan hücumlar.
Siyahıya düşmək Eşqi.
Yağılaşan Yadlar cəmi.

## RƏSMİ QİYMƏT

Xalqın adından Antixalqçılardan Xalqa Xalqçı düzəldirlər.

## YAD DİLLƏR

Xalq dilində danışanı hökumət dilində danışan anlamaz.

## İCTİMAİ EKOLOGİYA

Zəhərli cəmiyyət uduruq ciyərlərimizə.

## YUBİLEY ƏMƏLİYYATI

Xeyri Şərləşdirmək, Şəri Xeyirləşdirmək.

## SOVET ƏDƏBİYYATŞÜNASI

Şirə üstünə qonmuş çibin.

*21 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## TƏZƏLİK

Qorbaçovun ucbatından indi kapitalist olmayanı sosialist saymırlar.

## KOMMUNİST ƏQİDƏSİZLİYİ

Mənsəb üçün Partiyaya daxil oldular.
Şöhrət üçün Partiyaya daxil oldular.
Mənsəblərini qorudular.
Şöhrətlərini qorudular.
***İndi də yenidən qurulurlar!***
Dəhşətli əqidəsizlikdir əslində Kommunistlik.

## İYRƏNMƏK YETKİNLİYİ

Bəşər kommunist sözündən faşist sözü qədər iyrənməyincə körpəliyindən ayrılmayacaq.

## KOMMUNİST RİYAKARLIĞI

Müsavatı Kommunistlər devirdilər, Vətəndən didərgin saldılar.

Müsavat rəhbərini tərifləməyə kommunistin mənəvi haqqı yoxdur.

***Oyun oynayırlar Xalqla – Kommunist Riyakarlığı göstərirlər – əzəli, sabit!***

## RİYAKAR SİYASƏT

Lenin siyasəti ardıcıl Riyakarlıqdır əslində - Güzəşt adında, yanaşı yaşamaq adında.

## MÜASİR ANLAQ

Hələ anlamayıblar ki, Təqlidçilik – Köləlikdir.

## SOSİALİST HADİSƏSİ

Eyniləşənlər Yadlığı.

## MÖHKƏM BİRLİK

Həm İran, həm SSRİ Cənubi Azərbaycanın Azərbaycanla Birləşməsinə Ziddir.

Bu məsələdə onların arasında möhkəm Birlik mövcuddur.

## MÖHKƏM DÜYÜN

Təzə Komitələr, Komissiyalar, Yarımkomissiyalar düzəldirlər, İqtisadi İdarəçiliyi sadələşdirmək əvəzinə mürəkkəbləşdirirlər – İqtisadiyyatı möhkəm Düyünləyirlər.

## SOVET BEYNƏLMİLƏLÇİLİYİ

Dünyalaşdıqca Dünyasızlaşmaq.

## RƏİYYƏTÇİLİK

Camaatı yığırlar hakimlərin ətrafına – rəiyyət əl-ayaqsızlığında.

## HÖKUMƏT XƏLQİLİYİ

Xalqa işgüzar sadəlik göstərirlər, təbəssüm paylayırlar; xəlqilik oyunu oynayırlar – məqsədyönlü "adiləşirlər", mərhəmləşirlər, xalqa əxlaqi zülm eləyirlər – onu söyürlər, döyürlər, tapdalayırlar əslində.

**MADDİYYATÇILIQ**

Müasir Həyat demək olar ki, bütünlüklə maddiyyata həsr olunub.

Bu səbəbdən də onun mənası yoxdur.

*22 Mərhəm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**MARKSİZM ÖYÜDÜ**

Məzlumlara Zalımlıq arzulamaq.

**MARKSIN POLEMİKA ÜSULU**

Həqiqətçilik əvəzinə Terrorçuluq.

Qarşındakını sıradan çıxarmaq, məhv eləmək.

**ANTİHUMANİZM**

Marksizm İnsanı İctimailəşdirir – Özgələşdirir.

**ÇƏPƏR**

Cəmiyyət əslində Çəpərdir – Fərdlə Xalq arasında.

**DUSTAQXANA**

Sosializm adlı Dustaqxanadayıq.

Mərkəzi Komitə keşiyimizi çəkir.

**MƏRKƏZİ KOMİTƏ**

Dustaqxana gözətçisi.

**BİRLİK YARATMAQ**

Kəndlini Torpağıyla tək qoy!
Fəhləni Zavoduyla tək qoy!
Ziyalını Fikriylə tək qoy!
***Onda Birlik yaranacaq!***

## İDEAL CƏHƏNNƏM

Kommunizm Ümumi Mülkiyyət, Ümumi Təminat, Ümumbəşəri Xalq deməkdir.

Ümumi Mülkiyyət – Total (hərtərəfli) Məhrumiyyət,
Ümumi Təminat – Total əsarət;
Ümumbəşəri Xalq – Total Xalqsızlıq deməkdir.

## KOMMUNİST ANTİMİLLİLİYİ

Əgər sən kommunistsənsə – onda millətlərin biri-birinə qovuşması, yəni əslində ölməsi ideyasına inanmalısan – deməli, sənin millət uğrunda döyüşün kommunistliyinə ziddir.

Əgər sən doğrudan da millətçün döyüşürsənsə, sən kommunist ola bilməzsən – millətlərin biri-birinə qovuşması, yəni əslində ölməsi ideyasına inana bilməzsən.

Kommunistliklə millətsevərlik biri-birinə daban-dabana ziddir – millət uğrunda kommunist döyüşü hər mənada riyakarlıqdır.

***Həm kommunist, həm millətsevər olmaq mümkün deyil – millətsevərlik – Antikommunizmdir əslində.***

## KOMMUNİST ƏXLAQI

Nəyin bahasına olursa olsun Özgəni tapdala.

## KOMMUNİST ÖZÜMLÜYÜ

Öz Canavarlıqlarını Stalində tapmışdılar.
Öz İlanlıqlarını Stalində tapmışdılar.
Öz Tülkülüklərini Stalində tapmışdılar.
***Özlərini Stalində tapmışdılar – ona görə də Stalini sevirdilər.***

## VƏZİYYƏT

Fəhlə Hərəkatı sosializmlə birləşəndən sonra Fəhləyə gərək olmadı.

## ƏQİDƏSİZLİK ƏQİDƏSİ

Yenidənqurma təzə Əqidə – Əqidəsizlik Əqidəsi yaratdı.

*23 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## SOSİAL – DEMOKRATLAŞMA

Kommunist Partiyası yox olur əslində – yerinə sosial-demokratiya partiyası yaranır Qərb tipli.

## MİLLİ AQİBƏT

Deyirlər ki, Sovet Hakimiyyəti olmasaydı – Akademiyanız olmazdı, İnstitutlarınız olmazdı, Teatrlarınız olmazdı, Fabrikləriniz, Zavodlarınız olmazdı.

Deyirik ki, Akademiyamızı, İnstitutlarımızı, Teatrlarımızı, Fabriklərimizi, Zavodlarımızı ***Müstəqillik bahasına*** aldıq.

Deyirik ki, ***Müstəqil olsaydıq*** öz Akademiyamız, öz İnstitutlarımız, öz Teatrlarımız, öz Fabriklərimiz, Zavodlarımız olardı.

Deyirik ki, Akademiyayla, İnstitutlarla, Teatrlarla, Fabrik, Zavodlarla bizə milli ölüm gəldi – millətlərin biri-birinə qovuşması adıyla: "çiçəkləndik ki," solaq; "tapıldıq ki," itək.

## VƏZİYYƏT

Amerika istəyir ki, Rusiya təhlükəsizləşsin.
Avropa istəyir ki, Rusiya təhlükəsizləşsin.
Asiya istəyir ki, Rusiya təhlükəsizləşsin.
***Rusiya istəyir ki, Rusiya təhlükəsizləşsin.***

## HƏQİQƏT

Hökumət qəhrəmanı olmur –
Hökumətə qarşı Qəhrəmanlıq olur.

## KÖLƏLƏŞMƏ

İctimailəşən İqtisadiyyat – Kölələşir.
İctimailəşən İnsan – Kölələşir.
İctimailəşən Elm – Kölələşir.
İctimailəşən Sənət – Kölələşir.
***Sosializm – Kölələşmə deməkdir.***

## VƏZİYYƏT

Rusiya liderliyini itirsə – Dünya düzələr – kommunizm ölümü çəkilər.

## CƏMLƏŞİRLƏR

Şərlər Cəmləşir – Kommunizm Şəri İslam Şəriylə, Xristian Şəriylə Cəmləşir.

## FƏRQANƏ FƏLAKƏTİ

1. Özbəklər Rusları ölkədən qovmaqda xilas görürlər – əslində isə Rus İmperiyasından çıxmaq gərəkdir.

2. Panislamizm bayrağı altında döyüşürlər – cəhalət və xurafat qaranlığına qərq edirlər camaatı.

3. Mesxet türkləriylə birləşməyə qüdrətləri çatmadı – Doğmadan Yağı düzəltdilər.

4. Vəhşi kimi tanındılar aləmdə – Qantökən, Ev yıxan cani kimi.

5. İmperiyanı ayıq saldılar – Tələyə düşdülər – İmperiyaya Xeyir verdilər.

6. İnstinktləri oldu, İdrakları olmadı – Məğlub oldular Bədnamcasına.

## SÜLH SİYASƏTİ

Amerika istəyir ki, SSRİ – Demokratik – yəni mahiyyətcə Antikommunist ölkə olsun.

İngiltərə istəyir ki, SSRİ – Demokratik – yəni mahiyyətcə Antikommunist ölkə olsun.

Fransa istəyir ki, SSRİ – Demokratik – yəni mahiyyətcə Antikommunist ölkə olsun.

Almaniya Federativ Respublikası istəyir ki, SSRİ – Demokratik – yəni mahiyyətcə Antikommunist ölkə olsun.

Kommunizm olmayanda – Sülh olacaq.

## VƏZİYYƏT

Rusiyanın yeganə xilas yolu – sosializmdən əl çəkməkdir.

Sosializmdən əl çəksə, Rusiya liderliyini əldən verər – dünya ölkələrinin biri olar; ***Rusiya heç vaxt liderliyindən əl çəkməz – bu səbəbdən də əslində çıxış yolu yoxdur.***

***Rusiyanı sosilaistlər xilas edə bilməzlər.***

## ŞƏR İSTƏYİ

Şərə İnkişafdan qalan, İnkişafa can atan və çatmayan Qonşu gərəkdir.

Bu səbəbdən də o, Xomeynini əvvəl alqışladı.

Sonralar Xomeyni Şərin təsirini qətiyyətlə rədd etdi.

İndi İran Şərə yönəlir, – Şər, istəyinə çatır yavaş-yavaş.

## ALDANIŞ

Əgər Qorbaçov elə hesab eləyir ki, demokratiya vasitəsiylə kommunizmi xilas eləyəcək və Qərb ona bu işdə kömək edəcək – o, özünü aldadır.

Əgər Qorbaçov elə hesab eləyir ki, Qərbin Kommunizm haqqında fikrini dəyişdirə biləcək – o, özünü aldadır.

***Qərb ölər – kommunizmi qəbul etməz.***

## MƏĞLUBİYYƏTÇİLƏR

Dünyanı Kommunistləşdirmək istədilər – Bacarmadılar.
Bir ölkədə sosializm qurdular – Zindan yarandı.
İndi demokratik sosializm harayındadırlar məğlubiyyətçilər.

## RƏFSƏNCANİNİN SSRİ-yə SƏFƏRİ

İran "kiçik şeytanın" ayağına gəlir ki, "böyük şeytanın" ayağına çağırılsın.

## KOMMUNİST XİLASI

Parlamentarizm – kommunizmdən uzaqlaşmaqdır.
Kooperasiya – kommunizmdən uzaqlaşmaqdır.
Icarəçilik – kommunizmdən uzaqlaşmaqdır.
***Kommunizmdən uzaqlaşırlar kommunist xilaskarlar.***

## QORBAÇOV QƏRBÇİLİYİ

Qorbaçov istəyir ki, Qərb – Demokratikləşən – yəni mahiyyətcə Antikommunistləşən Rusiyaya gərək olsun.

## DİNİ ŞƏR

Dinin Şərə xidmət etmək imkanından istifadə etmək istəyir Şər.

*24 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Lenin qəti Mərkəzçi idi, Respublikalar İttifaqı ideyasını o, məcburən, taktiki addım kimi qəbul etmişdi. Leninin Məqsədi – "balaca xalqları" öz daxilində toplayan və "təbii şəkildə" "zorakılığa yol vermədən" əridən güclü Rusiya yaratmaq idi və bu baxımdan, Leninlə Stalin arasında heç bir fərq yox idi.

## TƏZƏ AQİBƏT

Antiinsani Sosializm üstəgəl qeyri-insani kapitalizm bərabərdir Qorbaçovun yeniliyinə.

## AZƏRBAYCAN SOVET RƏHBƏRLİYİNİN DƏYİŞMƏZ XƏTTİ

"Mütiləşməsək – Ölərik!"

## HAL

Özlərini ***Özgə*** kimi tənqid edirlər – ***Özgələşiblər.***

## SOSİALİST EYBƏCƏRLİYİ

Kapitalizm tələbəsi sosializm.

## FƏRQ

Stalini ifşa eləmək üçün 45 il lazım oldu, Qorbaçovu ifşa eləmək üçün 45 saat yetər.

## LƏYAQƏTSİZLİK

Vətəndən qaçanları ləyaqətsizləşdirirlər – ləyaqətsizliyi normalaşdırırlar ləyaqətsizlər.

## İNQİLABİ DƏYİŞİKLİK

Bir vaxt kapitalizmi tərifləyənləri öldürürdülər, indi kapitalizmi tənqid edənləri öldürürlər.

## ÇEVRİLMƏ

Dünyaya yeni era vəd eləyənlər indi köhnə eranın arxasınca sürünürlər.

## FƏRQ

Stalin camaatı yalançı ideala bağlamışdı.
Qorbaçov camaatı yalançı güzərana bağlayır.

## TƏZƏ LENİNÇİLİK

Leninin ölümə məhkum etdiyi cəmiyyətdən ölməmək dərsi alırlar leninçilər.

## TƏZƏ YALAN

Kapitalizmdən yaxşı sosializm yoxmuş – deyirlər təzə sosialistlər və kapitalizmə böhtan atırlar – kapitalizm sosializmdən yaxşıdır.

## TƏZƏ KOMSOMOL

Sosial – kapitalizm aləti.

## YENİDƏNQURMA HASİLATI

Sosializm adında sosial-kapitalizm – eybəcər calaq – Zorla Dəllallığın vəhdəti.

## YENİDƏNQURMA

Uçurdular – Uçurum yarandı.

## TƏZƏ ÖLÇÜ

Sosializmə qarşı çıx, kommunizmə qarşı çıx, marksizmə qarşı çıx – Qorbaçova tərəf dur – kommunistsən!

## VƏZİYYƏT

Qabaqcıllıq – əqidəsizlik demək olur yenidənqurmada.

## HƏQİQƏT

İyirminci əsrin ən böyük məğlubu – əslində SSRİ-dir.

## HƏQİQƏT

Dünyaya uyğunlaşmaqdan böyük macəraçılıq yoxdur siyasətdə.

## TƏZƏ KOMMUNİST

Dünyanı Kommunizm qorxusundan xilas edən kommunist kimi sevilir Qorbaçov.

## AQRO ZƏRURİYYƏT

Torpağı sosializmdən xilas eləmək.

*25 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## ARDICIL XƏTT

Qorbaçov hamıyla Dil tapır – çünki hamıya satılır, hamını satır.

## TƏZƏ LƏYAQƏT

Vətənə söyənləri sevirlər – Vətənə söyürlər.

## FƏRQ

Lenin "Bütün hakimiyyət Sovetlərə!" şüarını Fevral inqilabından sonra Sovetlərdə çoxluq bahasına hakimiyyəti ələ almaq məqsədiylə ortalığa atmışdı, Qorbaçov – Partiya Totalitarizminə (Mütləq Hakimliyinə) təzə don geyindirmək niyyətiylə dirçəldir.

Birinci hakimiyyət uğrunda Döyüş idi, ikinci Hakimiyyəti qorumaq siyasətidir.

## ELMİ SİMPOZİUMLAR MAHİYYƏTİ

Təntənəli Boşluq.

## YEVREİST TOPLANIŞI

Yevreistlər Qorbaçovun ətrafına toplaşıblar ki, Rusiyaya Ağalıq eləsinlər.

## ALİ SOVET BİLDİRİŞİ

Ermənistan rəhbərliyi Qarabağ daşnaklarına bildirirlər ki, yeni Konstitusiyaya əsasən Qarabağı Azərbaycandan alacaqlar.

## ÇEVRİLMƏ

Sosialist Bağında sosialist meyvəsi yetişmədi – indi sosialist Bağında kapitalist meyvəsi yetişdirirlər.

## QURULTAYA SEÇKİ

Xalq öz Əlacsızlığını Seçdi Qurultaya.

## MƏNƏVİ ANTİSANİTARİYA

Yenidənqurma sosializmin üfunətli meyid vəziyyətidir – ona yaxınlaşmaq üçün burnunu tutmalısan.

## TƏZƏ SÜLH SİYASƏTİ

Realizm – təslimçilik.
Ümumbəşərilik – Əqidəsizlik.
Dünyəvilik – İqtidarsızlıq.

## VƏZİYYƏT

Rusiya Amerikanın dəyirmanına Su tökməli olur, Amerika Rusiya dəyirmanının Suyunu kəsməyə can atır.

*26 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## YENİ YALAN

Partiya – siyasəti ifadə eləyir – deyirlər, Sovetlər – Hakimiyyəti.

Siyasət – Hakimiyyət deməkdir; əslində Hakimiyyətsiz Siyasət yoxdur.

Deməli, "Bütün Hakimiyyət Sovetlərə!" iddiası – Partiyanın Siyasi Hökmranlığı şəraitində Yalandır – Təzə, Yenidənqurma Yalanı.

## ƏLAQƏ

İctimai Mülkiyyəti yalnız komanda – inzibatçı üsulla idarə eləmək olar.

Komanda – inzibatçı üsulu ləğv etmək üçün ictimai Mülkiyyəti – yəni əslində sosializmi ləğv etmək gərəkdir.

## VƏZİYYƏT

Azərbaycan deputatları Mərkəzi – Respublikalardan qoruyurlar – Ağaya sədaqət göstərirlər – nifrət döşürürlər.

## TƏZƏ MÜDRİKLİK

Məsələləri çətinləşdirirlər ki, onların həlli asan olsun.

## DİALOQ

Qorbaçov Pribaltiklərə deyir: ölümünüzü istəyirsinizsə, SSRi-dən ayrılın.

Pribaltiklər Qorbaçova deyirlər: Ölməmək üçün SSRi-dən ayrılacağıq.

## QORXAQ CƏSARƏT

Necə cəsarətliymişlər Qorxaqlar!

## QURULTAY HARAYLARI

Xalqın Dərdini Dərdə danışırlar.

## SOSİALİST NƏTİCƏ

İqtisadiyyat Kölələşdikcə Ağalaşdı.

## VƏZİYYƏT

Sosialistlərin biri-birilərinin boğazlarını üzmək vaxtı gəlib çıxır deyəsən.

## BAŞ-AYAQ

Sosializm bloku ikiləşir: ***Birincilər – sosialistlər***: Rumıniya, Almaniya Demokratik Respublikası, Kuba;

***İkincilər; Sosial-kapitalistlər:*** SSRİ, Macarıstan, Polşa, Çexoslovakiya, Bolqariya (Yuqoslaviya çoxdan sosial-kapitalistləşib).

***Birincilər – ayaqdadırlar, ikincilər – başda.***

***Sosializm baş-ayaqlaşır.***

## NÖKƏRLƏŞMƏ AĞALIĞI

Mədəniyyət Nazirliyi Mədəniyyəti Nökərləşdirmək üçündür.

Ali Təhsil Nazirliyi Ali Təhsili Nökərləşdirmək üçündür.

İqtisadiyyat Nazirlikləri İqtisadiyyatı Nökərləşdirmək üçündür.

Nazir – Ağa Nökəri, Nökər Ağasıdır.

## SOSİALİST ƏFSANƏSİ

İctimai Mülkiyyət azad Bazar Qanunlarına ziddir. Azad Bazar – Azad Mülkiyyət, yəni Şəxsi Mülkiyyət tələb eləyir.

Azad Bazara nail olmaq üçün ictimai mülkiyyəti – yəni əslində sosializmi ləğv etmək gərəkdir.

***Sosialist azad Bazarı – əfsanədir.***

*27 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Ölkəni 5 İnsan idarə edə bilər – 5000 adam idarə edə bilməz.

## VƏZİYYƏT

Xalqın çiyninə sosializm adlı Zindan düşüb – ata bilmir.

## SOSİALİZM HUMANİZMİ

"Əridə bilmədiyini, əyə bilmədiyini – Öldür!"

## VƏZİYYƏT

Dövlət Təhlükəsizlik Komitəsinin vəzifəsi Xalqı yox, İnsanı yox – Quruluşu qorumaqdır – Quruluş naminə Xalqın və İnsanın başını kəsməkdir.

Dövlət Təhlükəsizlik Komitəsinin "xalqa yaxınlaşması" – təzə baş kəsmək üsuludur.

Qorbaçovşinanın Dövlət Təhlükəsizlik Komitəsinin "ipini yığması" – təzə siyasi oyundur; mahiyyətcə heç nə dəyişməyib.

## MAHİYYƏT

Sosialist Qanunu Cəmiyyətin İnsan üzərində hakimliyini qoruyur – İnsanı qorumur.

Bu səbəbdən də Təzə Sosialist Qanunlarının köhnə sosialist qanunlarından mahiyyətcə fərqi yoxdur.

## ZƏRURİ TƏLƏB

Sosializm – Cəmiyyətin İnsan üzərində Hakimliyi deməkdir.

Cəmiyyətin İnsan üzərində hakimliyi olan yerdə İnsan Hüquqsuzdur.

Bu səbəbdən də İnsan Hüquqlarının Təsdiqi sosializmin ləğvini tələb edir.

## İSLAHAT İQTİDARSIZLIĞI

Heç bir hadisə yarımçıqlıqda, natamlıqda qala bilməz; bütövlüyə, tamlığa can atar.

Qorbaçov islahatları yarımçıqlıq, natamlıq təcəssümüdür, bu səbəbdən də o, heç nəyə nail olmur – ola bilməyəcək.

## ELMİ ÖLÜM

İqtisadiyyatı iqtisadiyyatçı alimlərə tapşırmaq – Həyatı Ölümə tapşırmaq kimi bir şeydir.

## SOSİALİZM TƏQAÜDÜ

"Cəmiyyət İnsan üçün yox, İnsan Cəmiyyət üçündür" prinsipinə əsaslanan cəmiyyətdə qocalar ayda 12 manat təqaüdə tapınmalıdır.

## SOVET KƏNDLİSİ

Ölkəni Yedirə bildi, özünü Yedirə bilmədi.

## YENİDƏNQURMA FƏALLARI

İndiyə qədər İddiadan öz başlarını yeyənlər indi cəmiyyətin başını yeyirlər.

## ALDANIŞ

SSRİ daxilində Respublika özünüidarəsindən danışmaq – Aldanışdır.

İctimai Mülkiyyət daxilində – Müəssisə özünüidarəsindən danışmaq – Aldanışdır.

Kolxoz daxilində kəndli özünidarəsindən danışmaq – Aldanışdır.

Sosializm daxilində xalq özünüidarəsindən danışmaq – Aldanışdır.

## ZOR DOĞMALIĞI

Sosialist İqtisadiyyatı Zorla quraşdırılan və Zorla inkişaf elətdirilən bir Təsərrüfatdır.

İndikilər onu süni surətdə Doğmalaşdırmağa səy göstərirlər, Yalançı Müstəqillik yaradırlar, Yaddan Doğma düzəltmək istəyirlər Zorla.

Sosialist İqtisadiyyatı ləğv olunmayınca SSRİ iqtisadi böhrandan çıxa bilməyəcək.

## MÜNAQİŞƏ

Yarım müstəqil Müəssisələr Yarım Hakim nazirliklərlə döyüşəcəklər – Birincilər tam müstəqillik tələb edəcək, İkincilər – tam Hakimliyə can atacaqlar.

## QƏRBİN SSRİ SİYASƏTİ

SSRİ-nin ipi Qərbin əlindədir.

***İqtisadi ipi:*** Qərbsiz SSRİ iqtisadi böhrandan çıxa bilməyəcək.

***Siyasi ipi:*** SSRİ Qərbi təqlid edir – Təqlidçilik Asılılıq yaradır.

***Beynəlxalq ipi:*** SSRİ-nin xarici siyasətinin qələbəsi bütünlüklə Qərbdən asılıdır.

Qərb SSRİ-ni yaxalayıb – SSRİ yaxalanmağın fərəhindən məst olub.

## AQİBƏT

Kəndlinin əlindən torpağı aldılar, dərisini soydular, indi də dərisinə saman təpirlər.

## VƏZİYYƏT

Əgər Nazirlik Nazirlikdirsə o, İqtisadiyyatı İdarə eləməlidir.

Əgər o, İqtisadiyyatı idarə etmək əvəzinə Elmi Tədqiqat İnstitutu rolu oynayacaqsa – o, Nazirlik olmayacaq.

Təbiidir ki, nazirliklər gec-tez öz əzəli hakimliyinə qayıdacaq və İqtisadi Buxov rolunu davam etdirəcəklər.

***Nazirliklər ölməsə – İqtisadiyyat dirilməz.***

***Nazirliklər ölsə – Sosializm ölər.***

*28 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## CƏFƏNGİYYAT

Federasiya daxilində Milli Dövlət istəyi – cəfəngiyyatdır.

Bir Dövlətdə iki Dövlət olmur.

Federasiyadan çıxmadan Milli Dövlət yaratmaq olmaz.

Pribaltiklər və Gürcülər özlərini, xalqlarını aldadırlar – Federasiya Daxilində Milli Dövlət uğrunda döyüşməkdə.

Leninə istinad da Aldanışdır – Lenin qatı Mərkəzçi idi, Federasiya onun taktiki addımı idi, Məqsəd Güclü, Mərkəzləşmiş, vahid Rusiya idi.

***Milli Dövlət istəyirsən – Ayrıl – başqa yol yoxdur!***

## YENİ TƏQLİDÇİLİK

Heç bir təzə ideyaları yoxdur Yenilikçilərin.

Kooperasiya – Qərbdən götürülüb.

Müəssisə "Müstəqilliyi" – Çex "təftişçilərinin" eksperimentidir.

***İcarə üsulu – Çinlilərin məhsuludur.***

Qeyri-ideoloji xarici siyasət – Fransa sosioloqu Aronun nəzəriyyəsidir.

Parlamentarizm – Qərb siyasi quruluşunun əsasıdır.

***Qatı təqlidçidirlər Yenilikçilər!***

## HAMİLİK

Mədəniyyətə Dövlət Hamiliyindən, Mesenatdan danışırlar Boşboğazlar.

Azərbaycan Muğam sənətini Xalq saxlayıb.

Xalqdan böyük hami yoxdur – Maddi əsarətdən, haqsızlıqdan başı açılsa.

## VƏZİYYƏT

Ölkə çox Yekədir, bu səbəbdən də Böyük ola bilmir.

## NƏTİCƏ

Demokratiya Xalq üçün olmadı – Boşboğazlar üçün oldu.

Aşkarlıq Xalq üçün olmadı – Boşboğazlar üçün oldu.

Xalq Demokratiyadan, Aşkarlıqdan heç nə qazanmadı.

## YOL

Kəndli Dövləti torpağına yaxın qoymamalıdır.
Fəhlə Dövləti Fabrikinə yaxın qoymamalıdır.
Onda iqtisadi böhran aradan qalxar.

## SOSİALİZM İQBALI

Kooperasiya vasitəsiylə ölkə varlanmaz – təzə burjuy varlanar.

İcarə vasitəsiylə ölkə varlanmaz – icarəçi dolanar.

Təsərrüfat hesabı vasitəsiylə ölkə varlanmaz – müəssisə dolanar.

İqtisadi böhran sosializmin ləğvinə qədər davam eləyəcək!

## ERMƏNİ FƏLAKƏTİ

Ermənilər qətiyyətlə daşnaklaşırlar, antitürk küdurəti alışdırırlar, Böyük Ermənistan Həşirinə yüyürürlər, Qorbaçovşinaya sığınırlar, Avropaya yalmanırlar – mahiyyətcə uduzurlar; Türk Dünyasını qəzəbləndirirlər; ***Türklər gec-tez birləşəcək, birləş-***

***məlidir – onda Ermənilər Dəhşət gözləyir – özlərinin yetirdiyi.***

İndi ***Bayramlaşdırılan*** Ermənistan Dövləti Türkiyə ərazisində yaradılan daşnak Dövlətidir – Bayram Harayı – “Tarixi Ermənistana” qayıtmaq, yəni Türkiyəni parçalamaq daşnaklığını dirçəldir.

Qorbaçovşina Qədim Antitürk məqsəd və Yeni milli Oyun siyasəti naminə daşnak duyğularını əzizləyir; ancaq Qorbaçovşinaya bel bağlamaq olmaz – bəd ayaqda o, ermənini satacaq: Əfqanları, Kambocaları satdığı kimi.

Ermənin boş başı danqıldaya bilər türk zərbəsindən.

## VƏZİYYƏT

Qorbaçovşina milli duyğularla oynayır: respubliakları bayraqlaşdırır, gerbləşdirir.

Respublikalar Qorbaçovşinaya təsir vasitəsiylə milliliyi gücləndirməyə cəhd göstərirlər.

Mahiyyətcə heç nə dəyişmir: Boyunduruğun möhkəmliyinə xələl gəlmir, millilik də Boyunduruqdan kənara çıxmır.

Milli Cəbhələr boyunduruq altından bağırır; boyunduruqdan çıxmaq istəyən kimi boyunları sınır.

## ANTİKOMMUNİST KOMMUNİST

Əgər kommunist daşnakdırsa – o, antikommunistdir.

Müasir erməni kommunisti – antikommunistdir – ancaq murdarından, satqınından.

## XALQ FƏLAKƏTİ

100 milyard Büdcə kəsiri olan bir Hökumət xalqın güzəranını yaxşılaşdırmaq vəd eləyir.

Yazıq xalq!

## YOLSUZLUQ

Kolxozların ləğvi kənddə sosializmin ləğvi deməkdir.

Kolxozlar saxlanılsa – Ölkə iqtisadi böhrandan çıxa bilməyəcək.
Ya sosializmin ləğvi, ya da İqtisadi Böhran.
Üçüncü Yol yoxdur.

**İNAMSIZLIQ**

Pribaltiklər Müstəqillik İstəyinin nəticəsinə inanmırlar.
Iqtisadçılar İqtisadi İslahatın nəticəsinə inanmırlar.
Siyasətçilər Siyasi İslahatın nəticəsinə inanmırlar.
Qurultaydakıları İnamsızlıq birləşdirir.

**HƏQİQƏT**

"Pis işləyirik – ona görə pis yaşayırıq!" – iddiasında murdarlıq var – cəmiyyətin günahını Xalqın üstünə atırlar.
"Pis yaşayırıq – çünki pis cəmiyyətdə yaşayırıq!" – demək lazımdır.

*29 Mərhəm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

**MÜNASİBƏT**

Qorbaçovşina təzə Bağ axtarır, Pribaltika açılmaq istəyir.

**HƏQİQƏT**

Ermənilərin Qarabağ ərazisini tərk edib Ermənistanda məskənləşmək haqları var.
Ermənilərin Qarabağ ərazisini Ermənistana qatmaq haqları yoxdur.

**DÖVLƏTSİZLİK**

Müstəqil Dövlətin bir Bayrağı olar: İkibayraqlılıq – əsarət nişanəsidir.

**ZƏRURİ TƏLƏB**

SSRİ daxilində Respublika ölkəsi yaranmaz, çünki SSRİ-də ölkə birdir.

SSRİ daxilində Respublika dövləti yaranmaz, çünki SSRİ-də dövlət birdir.

***SSRİ-dən çıxmaq – Zəruri Tələbdir.***

## VƏZİYYƏT

Qorbaçovşina SSRİ-ni saxlamaqda Ağrı çəkir: Dövlətlər nə vaxta qədər Dövlətsiz olacaqlar; Ölkələr nə vaxta qədər Ölkəsiz olacaqlar; – bu səbəbdən də ölkəvarilik axtarırlar Ölkələr üçün, Dövlətvarilik axtarırlar Dövlətlər üçün.

## SSRİ XALQSIZLIĞI

On beş Xalqdan ibarət Bir Xalq ola bilməz.

Bir Xalqda On beş Xalq ola bilməz.

SSRİ-də xalq yoxdur əslində, xalq SSRİ-dən gizlin yaşayır əslində.

## HƏQİQƏT

15 Respublikalı Bir ölkə ola bilməz.
15 Respublikalı Bir Dövlət ola bilməz.
Hər Respublika Bir Ölkə olmalıdır.
Hər Respublika Bir Dövlət olmalıdır.
SSRİ-də 15 ölkə, 15 Dövlət olmalıdır.
***Deməli, SSRİ ölkəsi olmamalıdır.***

## KONFEDERASİYA GƏRƏKSİZLİYİ

Konfederasiya (Müstəqil Ölkələr, Dövlətlər Birliyi) SSRİ-nin ləğvi deməkdir, çünki SSRİ ***bir*** ölkədir, ***bir*** dövlətdir.

Müstəqil Respublikalara Konfederasiya gərək deyil – hər cür İnzibati İttifaq az və ya çox dərəcədə müstəqillik bahasına başa gəlir.

## VƏZİYYƏT

Respublikaların əsil – qeyri-formal müstəqilliyi SSRİ-nin ölümüdür.

SSRİ yalnız formal müstəqilliklər Birliyi kimi yaşamağa qadirdir.

Bu səbəbdən də əsil respublika müstəqilliyinin SSRİ-dən ayrılmaqdan başqa Yolu yoxdur.

## FƏRQ

Pribaltika Rəhbərliyi deyir ki, biz özümüzü SSRİ-yə qurban vermək istəmirik.

Orta Asiya Rəhbərliyi deyir ki, SSRİ olmasa batarıq.

Azərbaycan Rəhbərliyi deyir ki, özümüzü SSRİ-yə qurban verməsək – ölərik.

## BİRLİK

Pribaltikayla Qorbaçovşinanı bir cəhət birləşdirir – Avropalaşma yönü.

Pribaltika SSRİ-də Avropanın Qasidi kimi çıxış eləyir – Qorbaçovşina Pribaltika Qasidliyinə yönəlir, – ancaq Pribaltika müstəqilliyinə yönəlmir.

## KÖHNƏ SİYASƏT

Pribaltiklər əslində formal İttifaq tələb eləyirlər.

Qorbaçovşina Pribaltiklərlə oynayır – onlara mahiyyətsiz güzəştlərə gedir, ancaq Mərkəzi başqa biçimdə gücləndirir – bununla da Pribaltiklər formal Müstəqillik səviyyəsində qalırlar.

Ya formal Müstəqillik, ya formal İttifaq təzadında formal Müstəqillik seçilir yenə də.

## MÖHTƏŞƏM CƏFƏNGİYYAT

SSRİ – Ölkələr İttifaqı deyil, çünki Ölkə birdir.
SSRİ – Dövlətlər İttifaqı deyil, çünki Dövlət birdir.
Ancaq Respublika ölkə deməkdir, dövlət deməkdir.
Cəfəngiyyatdır əslində SSRİ – möhtəşəm.

## YOXLAR İTTİFAQI

SSRİ – vahid çoxmillətli Ölkədir, Dövlətdir.

Respublikalar əslində Ölkə deyil, Dövlət deyil – çünki dövlət birdir, ölkə birdir.

Deməli, respublikalar yoxdur – ölkə olmadıqları üçün, dövlət olmadıqları üçün.

***Deməli, SSRİ əslində Yoxlar İttifaqıdır.***

## ƏLAQƏ

SSRİ – Müstəqil respublikaların Yoxluğu deməkdir.
Müstəqil Respublikalar SSRİ-nin Yoxluğu deməkdir.
SSRİ – Müstəqil respublikalara qarşıdır.
Müstəqil respublikalar SSRİ-yə qarşıdır.

## ANTİXƏLQİLİK ƏNƏNƏSİ

Xalqın bahasına Antixəlqi Dövlət yaratdılar.
Xalqın bahasına Antixəlqi Dövləti "xəlqiləşdirirlər".

## HƏQİQƏT

Azərbaycan Mərkəzi Komitəsi – Ölkəsizliyi, Dövlətsizliyi yaradan.

Azərbaycan Təhlükəsizlik Komitəsi – Ölkəsizliyi, Dövlətsizliyi təhlükəsizləşdirən.

## SOSİALİST XARİCİ TİCARƏTİ

Xalqa gərək olan nə varsa – satılır!

Xalqa gərək olan nə varsa – alınmır!

***Səbəb – cəmiyyətləşmə, – xalqsızlaşma, insansızlaşma.***

## ZƏRURİYYƏTƏ QARŞI

Zəruriyyət məsələni qəti qoyur: "Ya sosializm, ya xilas!"

"Həm sosializm, həm xilas!" carçıları ölkəni sosial-kapitalizm eybəcərliyinə sürükləyirlər.

## İQTİSADİ ZƏRURİYYƏT

Dövlət Mülkiyyəti Müəssisə Müstəqilliyinə – ziddir.

Dövlət Mülkiyyəti daxilində Müəssisə Müstəqilliyi – formal Müstəqillikdir.

Əsil Müəssisə Müstəqilliyi Dövlət Mülkiyyətinin, yəni sosializmin ləğvini tələb eləyir.

Kolxoz Mülkiyyəti – Kəndli Müstəqilliyinə ziddir.
Kolxoz Mülkiyyəti daxilində Kəndli Müstəqilliyi formal Müstəqillikdir.
Əsil kəndli müstəqilliyi – Kolxoz mülkiyyətinin – yəni sosializmin ləğvini tələb eləyir.

## SOSİALİST İNZİBATÇILIĞI

Mülkiyyət hamının olanda, ona rəhbərlik eləmək olmur, Ağalıq eləmək olur.

## HƏQİQƏT

Sosialist iqtisadiyyatı – süni iqtisadiyyatdır, indi süni surətdə təbiiləşdirilən iqtisadiyyatdır – nəzəriyyədən törəyən, həyata uyuşmayan.

## YARANIŞINDAN...

SSRİ ***Bir Ölkə kimi qurulub*** ki, daxilində başqa ölkələr olmasın.
SSRİ ***Bir Dövlət kimi qurulub*** ki, daxilində başqa dövlətlər olmasın.
SSRİ ***Assimilyasiya ölkəsi kimi*** qurulub, –
***Assimilyasiya dövləti kimi*** qurulub...

*30 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## YENİDƏNQURMA EHKAMI

***Güzəşt, Uyğunlaşma, Çoxrəylik.***
Güzəşt – İqtidarsızlıq.
Uyğunlaşma – Təslimçilik.
Çoxrəylik – Həqiqətsizlik.

## TƏZƏ TƏFƏKKÜR

Sağçılardan nəsə götürür – atır beyin sayılan yeşiyə.
Solçulardan nəsə götürür – atır beyin sayılan yeşiyə.
Kommunistdən nəsə götürür – atır beyin sayılan yeşiyə.
Kapitalistdən nəsə götürür – atır beyin sayılan yeşiyə.
Götürdüklərini qarışdırır biri-birinə və bəşərə təzə Xilas quraşdırır – öldürücü.

## GÜZƏŞT YAĞILIĞI

Kommunist kapitalistə güzəştə getsin, kapitalist kommunistə; imperialist millətçiyə güzəştə getsin, millətçi imperialistə – ***Güzəşt Yağılığı*** törəsin – Qəddar.

*2 Ümid günü, Ata Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Stalin milli siyasəti – Zorakı Dostluq.
Qorbaçov milli siyasəti – Könüllü Yağılıq.

*3 İnam günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Pribaltika Köpükdə Dənizi itirdi.

*7 Mərhəm günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Demokratiyası –
Demokratiyaya fəlakətli karikatura.
Qorbaçovşina Aşkarlığı –
Aşkarlığa fəlakətli karikatura.

## VƏZİYYƏT

Demokratiyadan istifadə etmək olmur, sui-istifadə etmək olur.

## VƏZİYYƏT

Bütün qüvvələri Sosializm əsasında birləşdirirlər.

Bütün qüvvələri Marksizm əsasında birləşdirirlər.
Bütün qüvvələri Partiya əsasında birləşdirirlər.
Sosializm – ölümdür.
Marksizm – ölümdür.
Partiya – ölümdür.
Bütün qüvvələri ölüm əsasında birləşdirirlər.
Bütün qüvvələri öldürürlər.

*8 Qismət günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Yenidənqurma milli şüuru oyatmadı, aldatdı.

## ÇEVRİLMƏ

Zingildəyən küçüklər nərildəyən aslanlara dönüblər.

*9 Murad günü, Ata Ayı, 11-ci il. Bakı.*

## YOXLUQ

Qeybəti əlindən al, Rəqabəti əlindən al, Həqarəti əlindən al və bugünkülər həyatından əsər-əlamət qalmasın.

*10 İnam günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Hökumətin kölgəsində İşıq yoxdur.

"Xalq Cəbhəsi" Hökumətin kölgəsinə sığınır, sığınmalıdır; yeri gələndə hökumət kölgəsini döyür, kölgə hökuməti yamanlayır – mahiyyət isə dəyişməzdir – Hökumət kölgəsi daşıyır Xalq Cəbhəsi.

## YENİDƏNQURMA HALI

Təslimçilik Nikbinliyi.

## HƏQİQƏT

"Xalq Cəbhəsi" – Qorbaçovşina meyvəsidir – Xalqa yedirilən.

*11 Arzu günü, Ata Ayı, 11-ci il. Bakı.*

## BAĞLILIQ

Pribaltika millətçiləri ümidlərini Qorbaçova bağlayırlar.
Moskva Yevreistləri ümidlərini Qorbaçova bağlayırlar.
Macarıstan Təftişçiləri ümidlərini Qorbaçova bağlayırlar.
Polşa antikommunistləri ümidlərini Qorbaçova bağlayırlar.
Ermənistan daşnakları ümidlərini Qorbaçova bağlayırlar.
Qorbaçov antisosializmi sosialzimlə bağlayır ki, sosialzim möhkəmlənsin: ***antisosializm Qorbaçov sosializminə yarayır.***

## FƏRQ

Kapitalizm sosializmin uçurulmasını bugünlə bağlayır.
Sosializm kapitalizmin uçurulmasını sabaha saxlayır.

## OYUN

Avropa Qorbaçov vasitəsiylə sosializmdən xilas olmaq istəyir.
Qorbaçov Avropa vasitəsiylə sosializmi xilas eləmək istəyir.

## VƏZİYYƏT

Xalq Cəbhəsinin əliylə Azərbaycan Hökuməti Mərkəzdən Qarabağı tələb eləyir ki, özünü xalqdan qorusun.

*12 Ümid günü, Ata Ayı, 11-ci il. Bakı.*

## QORBAÇOVŞİNA ARDICILLIĞI

“Ölkə uçsa da – Yenidənqurma tikilməlidir!”

## QORBAÇOVŞİNA DÜYÜNLƏRİ

Respublika Suverenliyi – Azad Əsarət.
Respublika Təsərrüfat Hesabı – Sərbəst asılılıq.

## QORBAÇOVŞİNA “NAİLİYYƏTLƏRİ”

Qərbləşən Polşa.
Qərbləşməyə başlayan Macarıstan.
İrqçiləşən Pribaltika.

Azğınlaşan Moldaviya.
Quduzlaşan Canilik.
Sərbəstləşən Dəllallıq.
Güzəran Qıtlığı.
Kütləvi Əqidəsizlik.
Daşnaklaşan Ermənistan.
Anarxiya, Xaos, Demaqoqiya.
Urvatsızlaşan Ordu.
Dəmir gəmirən Xalq.

## VƏZİYYƏT

Tətillərin yaradıcısı da Qorbaçovşinadır əslində, mitinqlərin törədicisi, Xalq Cəbhələrinin üfürücüsü də – qarmaqarışıq dərzisidir Qorbaçovşina – Qarmaqarışıqdan don tikir ölkəyə.

*13 Dözüm günü, Ata Ayı, 11-ci il. Bakı.*

## SSRİ DAXİLİNDƏ MİLLİ SUVERENLİK

Sosial icarəçilik.

*14 Mərhəm günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Stalin sosializmini rədd edirlər, başqa sosializm də yoxdur.

Sosializm naminə sosializmi rədd edirlər – ***təzə sosializm quracaqlar indən sonra sosializmə zidd.***

## İFLİCLİK

Komanda – inzibati rəhbərlikdən kənarda idarəçilik iflici yaranıb – sağalmaz.

## ŞƏR ƏMƏLİ

Həyatı dayandırırlar və bunu həyatın sürətli inkişafı adlandırırlar.

*15 Qismət günü, Ata Ayı, 11-ci il. Bakı.*

## DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNİN QORBAÇOVŞİNA ÇƏRÇİVƏSİNDƏ HƏLLİ

Azərbaycanın Formal ərazisi olan Ermənistan diyarı.

*17 İnam günü, Ata Ayı, 11-ci il. Bakı.*

## TƏZƏ SOSİALİST XƏTT

Düşmənlə dostlaşırlar – Dostla düşmənləşirlər.

## FƏRQ

Sosializm (Stalinizm) – dəhşətdir.
Sosial-kapitalizm (Qorbaçovşina) – iyrəncdir.

## AMERİKA – MACARISTAN ƏLAQƏLƏRİ

Kommunistlərin əliylə kapitalistləşən ölkəyə maddi kömək.

*19 Ümid günü, Ata Ayı, 11-ci il. Bakı.*

## MİLLİ MƏSƏLƏYƏ DAİR PLENİUM

1. Boyunduruq təzələndi.

2. Gizli Polisin Hökmü artdı...

3. Rəsmi SSRİ dili Təyin olundu.

4. Vəzirov "Mərkəzə gərək olduğum dərəcədə Respublikaya gərəyəm" – dedi.

5. Qorbaçov ermənilərə qandırdı ki, Qarabağdan əl çəkməsinlər.

*22 Qismət günü, Ata Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Mütilərin cəsarəti sayılmır.

## VƏZİYYƏT

Hökumətin sərbəst kölgəsindən "blokada" macərası yarandı Yağının xeyrinə, Tələyə düşdülər hayçılar, həşirə sarıldılar.

**AZƏRBAYCAN SUVERENLİYİ**

Marksizmdən azad olmaq.
Sosializmdən azad olmaq.
Partiyadan azad olmaq.
Sovetdən azad olmaq.
SSRİ-dən azad olmaq.

**VƏZİYYƏT**

İqtisadiyyatın belini düzəldəndə Xalqın beli qırılır.
Xalqın belini düzəldəndə İqtisadiyyatın beli qırılır.

**VƏZİYYƏT**

Xalq "xilaskarlarından" xilas olmalıdır!

**HƏQİQƏT**

Xalq Deputatları – Hökumət Atları.

**VƏZİYYƏT**

Unudurlar ki, Anarxiya Zülmün inkarı deyil, davamıdır.

*5 Mərhəm günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

**YALANLAR QANUNU**
**AZƏRBAYCAN HÖKUMƏTİNİN RESPUBLİKA SUVERENLİYİ ELANI HAQQINDA**

**BİRİNCİ YALAN:**

***"Azərbaycan Sovet Sosialist Respublikası hər millətin öz müqəddəratını təyin etmək hüququna istinad edərək... digər sovet sosialist respublikaları ilə Sovet Sosialist Respublikaları İttifaqında birləşmişdir".***

(Azərbaycan SSR-in Konstitusiya Qanunu)

Millətin öz müqəddəratını təyin etmək hüququ müstəqil, milli dövlət tələb edir.

***SSRİ – bu tələbin ləğvi deməkdir, çünki o, Vahid, Ümumittifaq Dövlət prinsipinə əsaslanır.***

Ümumittifaq Dövləti olan yerdə Respublika dövləti yoxdur əslində, bir millətin iki dövləti ola bilməz.

***Bir Vahid Dövlət olan yerdə 15 Dövlət ola bilməz – 15 Dövlətsizlik ola bilər.***

***Əslində, SSRİ-lə birləşməkdə Azərbaycan öz milli müqəddəratını təyin etmək hüququndan keçmişdir.***

**İKİNCİ YALAN:**

***"Azərbaycan Sovet Sosialist Respublikası respublika xalqının azad istifadə edilmiş iradəsinə uyğun olaraq digər sovet respublikalarıyla Sovet Sosialist Respublikalarında birləşmişdir".***

*(Orada)*

Azərbaycan xalqı öz "azad iradəsini" 11-ci Ordunun ölkəni zəbt etməsi nəticəsində, həmin zəbtin başa çıxartdığı nümayəndələr vasitəsiylə, əslində dili və qolu bağlı vəziyyətdə "ifadə etmişdir": Müsavat hökumətinin səyi nəticəsində təşkil olunmuş milli dövlət devrilmiş, Azərbaycan SSRİ-yə qatılmışdır.

**ÜÇÜNCÜ YALAN:** "Azərbaycan SSR – İttifaq tərkibində suveren sosialist dövlətdir".

*(Orada)*

SSRİ tərkibində suveren dövlət yoxdur; çünki SSRİ – Vahid Dövlətdir – Vahid Dövlət çərçivəsində müstəqil dövlətlər olmur; müttəfiq respublikalar İttifaqda ***Dövlətsizləşirlər*** – Bir Vahid Dövlətə çevrilirlər.

***Suveren respublika Dövləti – SSRİ tərkibindən kənarda mümkün ola bilər yalnız.***

**DÖRDÜNCÜ YALAN**: ***"Respublikada siyasi, iqtisadi, sosial-mədəni quruculuq, onun inzibati ərazisi ilə əlaqədar bütün məsələləri Azərbaycan SSR müstəqil həll eləyir".***

*(Orada)*

***Ümumittifaq Dövləti çərçivəsində*** ictimai-siyasi məsələlərin müstəqil həlli – Yalandır, Problemlər Vahid Planlar, Qaydalar, Yönlər əsasında həyatiləşir, ***respublika Müstəqilliyi Ümum-sovet mənafeyə qurban verilir.***

**BEŞİNCİ YALAN:**

***"Azərbaycan SSR SSRİ-dən azad surətdə çıxmaq hüququna malikdir.***

***Bu Hüquq Azərbaycan SSR Ali Sovetinin qərarı ilə respublikanın bütün əhalisi arasında keçirilən xalq səsverməsi (referendum) yolu ilə həyata keçirilir".***

*(Orada)*

***SSRİ-dən çıxmaq hüququ xalqa SSRİ-də qalmaq üçün verilir.***

Ali Sovet SSRİ-dən çıxmaq qərarına razı olsa – məhv olar, çünki onu qoruyan SSRİ-dir; SSRİ olmasa – Sovet olmaz, bu səbəbdən də Sovet hər cəhdlə respublikanın SSRi-də qalmasına çalışacaq.

***SSRİ-dən ayrılmaq üçün Ali Soveti ləğv etmək lazımdır ilk növbədə.***

**ALTINCI YALAN:**

***"Azərbaycan SSR-də torpaq, Yerin təki, meşələr və digər təbii ehtiyatlar respublikanın milli sərvəti, onun dövlət mülkiyyətidir və Azərbaycan xalqına məxsusdur".***

*(Orada)*

Vahid Ümumittifaq İqtisadiyyatı olan yerdə müstəil respublika mülkiyyətindən danışmaq Yalandır.

***Vahid SSRİ Dövlətinin Vahid İqtisadiyyatı var – yəni Mülkiyyəti var, çünki Mülkiyyətsiz İqtisadiyyatdan danışmaq cəfəngiyyatdır.***

**YEDDİNCİ YALAN:**

***“Azərbaycan SSR-də bütün hakimiyyət xalqa məxsusdur və xalqdan yaranır.***

***Xalq dövlət hakimiyyətini həm bilavasitə, həm də Azərbaycan SSR-in siyasi əsası olan xalq deputatları Sovetləri vasitəsiylə həyata keçirir”.***

*(Orada)*

Azərbaycan SSR-də bütün hakimiyyət Partiyaya məxsusdur, Ali Sovet Partiya Hökmlərinin icraçısıdır, xalq Partiya rəiyyətidir, ***təzə Demokratiya və Aşkarlıq xətti vəziyyəti gizlətmək üçündür.***

**SƏKKİZİNCİ YALAN:**

***“Azərbaycan dili – Azərbaycan SSR-in Dövlət dilidir”.***

*(Orada)*

Dövlət olmayan yerdə hansı Dövlət dilindən danışmaq olar?

Ümumittifaq Dövləti və Ümumittifaq dili olan yerdə milli dövlət dili nə deməkdir?

***SSRİ daxilində milli suverenlik – Yalandır!***

Azərbaycan suverenliyi SSRİ-dən ayrılmaq tələb edir: ***Ruhani, İdeoloji, Siyasi, İctimai, Ərazi Ayrılığı gərəkdir Xalqa.***

*6 Qismət günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Stalinin yaratdığı fövqəldövlət baxımından yanaşırlar Qorbaçova: fövqəldövlətin təmsilçisi kimi; fövqəldövlətin təslimçisi kimi.

Stalinin kölgəsində canlanır Qorbaçov, Stalinin kölgəsini qamçılayır.

*7 Murad günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## ƏKİNÇİ

Kapitalist ölkələrindən yığdığı sosial-kapitalizm toxumunu sosialist ölkələrinə inadla səpir Qorbaçovşina.

*8 İnam günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

SSRİ-nin sosialist ölkələriylə münasibətində kələk artır, kömək azalır.

## XƏTT

Fəhlənin ***öz "doğma partiyası"yla*** döyüş məqamı var.

***Öz "doğma dövləti"ylə*** döyüş məqamı var.

Kəndlinin ***öz "doğma partiyası"yla*** döyüş məqamı var.

***Öz "doğma dövləti"ylə*** döyüş məqamı var.

***Yalançı doğmalıqdan ayılmaq məqamı var*** – Qəti, Qüdrətli! Barışmaz!

## MACARISTAN TƏCRÜBƏSİ

Kommunist Partiyası öz adından Fəhlə sözünü silir, heç vaxt Fəhlə təşkilatı olmayan – indi özünün əsil kimliyini camaata bildirir.

## TƏZƏ SİYASƏT

Qorbaçovşina Şərqi Almaniyadan keçər, Qərbi Almaniyadan keçməz.

*9 Arzu günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Sosialist İqtisadiyyatı İnsanı nəzərə almır, Dövləti nəzərə alır, bu səbəbdən də "insanlaşan" kimi ölür.

## QORBAÇOVŞİNA DOLAŞIQLIĞI

Qorbaçovşina bir tərəfdən kommunist hərəkatını özünə qarşı çevirmək istəmir, digər tərəfdən kapitalist ölkələrindəki kommunist partiyalarına boy vermir – əslində kommunist hərəka-

tının gözündən düşür və kapitalist ölkələrinin tam etimadını qazana bilmir.

### VƏZİYYƏT

Macarıstan İsveçləşir, Polşa Finləşir – sosializm sistemi uçub tökülür sosial-kapitalizmin xeyrinə.

### VƏZİYYƏT

İdeoloji İqtisadiyyat yaratdılar – İdeoloji Yalandan Yalançı İqtisadiyyat doğdu. İdeologiyanın Yalanı üzə çıxdı, İqtisadiyyatın Yalanı ölkəni bürüdü.

*10 Ümid günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## QORBAÇOVŞİNANIN HÜQUQİ CƏMİYYƏTİ

Qanunlar Xalqı hökumətdən yox, Hökuməti Xalqdan müdafiə eləyirlər.

### VƏZİYYƏT

Sosializm kapitalistləşir, kapitalizm sosialistləşmədən xilas olur, artır, böyüyür, zənginləşir.

Qorbaçovşina əslində kapitalizmə xidmət eləyir, bu səbəbdən də Qərbdə sevilir.

### VƏZİYYƏT

Sosialist potensiyasından danışdılar –
Kapitalist potensiyasına sığındılar:
***Kooperasiya, icarə, təsərrüfat hesabı, parlamentarizm, çoxrəylilik.***

## QORBAÇOVŞİNANIN VAHİD DÜNYA SİYASƏTİ

Kapitalizm sosializmi əridir, ***yeni vahid ictimai quruluş yaranır kapitalist ruhlu.***

## VƏZİYYƏT

Sosial-kapitalizm təqdim edir Qərbə Qorbaçovşina – Qərbin xeyrinə, sosializm kapitalizmə qovuşur, kapitalizmlə doğmalaşır; Qərbin siyasi quruluşu təhlükəsizləşir, dünyalaşır, "Demokratik sistem" sosialist ölkələrini dəyişir, Vahid Qərb üsuluna uyğunlaşır ölkələr.

Qərb Şərqi Qərbləşdirir.

## VƏZİYYƏT

Amerika Macarıstana kömək eləyir ki, Macarıstan kapitalistləşsin.

Macarıstan Amerikadan kömək alır ki, sosial-kapitalistləşsin.

Amerika Polşaya kömək eləyir ki, Polşa kapitalistləşsin.

Polşa Amerikadan kömək alır ki, sosial-kapitalistləşsin.

***Amerika sosial-kapitalizmi kapitalizmə doğru gedən yol sayır.***[4]

## VƏZİYYƏT

Qorbaçovşina sosial-kapitalizm vasitəsiylə Qərbdən bəhrələnmək istədi, əslində isə Qərb SSRİ-dən kapitalizmin xeyrinə bəhrələndi – SSRİ qərbləşir, kapitalistləşir, Qorbaçovşina uduzur, Qərb udur.

## VƏZİYYƏT

Dövlət İqtisadiyyatından azad iqtisadiyyat yaratmaq istəyirlər – İqtisadiyyatı Dövlətdən azad etmirlər.

Dövlət adamından azad adam yaratmaq istəyirlər – adamı Dövlətdən azad etmirlər.

Dövlətləşən Həyatdan azad Həyat yaratmaq istəyirlər – Həyatı Dövlətdən azad etmirlər.

*11 Dözüm günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Sosial-kapitalizm sosializmin xilası deyil – iflasıdır.

*12 Mərhəm günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

**QORBAÇOVŞİNA İDMANI**

Geriyə tullanmaq.

**TƏZƏ SOVET HADİSƏSİ**

Cəsarətli təslimçilik.

*13 Qismət günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

**DÖVLƏT YALANI**

Şöhrət pərvanələri Qeyrət pərvanələri sayılır...

**ŞƏRQİ AVROPA HADİSƏLƏRİ**

Zəncirdən açılan İt vəziyyətindədir xalqlar – gəmirməyə boğaz axtarırlar.

**SAXAROVUN ÖLÜMÜ**

Saxarovu Qorbaçovşina öldürdü əslində – Ölümlüyünü aşkar elədi əvvəldən.

**VƏZİYYƏT**

Sosializmdən azad olmadan İqtisadiyyat arzulayırlar.

Sosializmdən azad olmadan müstəqil Respublika arzulayırlar.

***Əsarətdən azad olmadan azadlıq arzulayırlar.***

*15 Qismət günü, Sərt Ay, 11-ci il. Bakı.*

**RUMIN HADİSƏSİ**

Qorbaçovşina sosial-kapitalizmi Çauşesku sosializmini devirdi.

*25 Arzu günü, Sərt Ay, 11-ci il. Bakı.*

**PRİBALTİKA AYRILIĞI**

Qorbaçovşinanın Böyütdüyü, Böyürtdüyü – Qorbaçovşinanı Böyürdən!

## VƏZİYYƏT

Qorbaçovşina Pribaltların ayağına düşdü ki, başda qalsın, ayağa salındı.

## VƏZİYYƏT

Pribaltlardan özünə dayaq hazırlayırdı Qorbaçovşina, Dayaq baş oldu, Baş ayaq.

*26 Ümid günü, Sərt Ay, 11-ci il. Bakı.*

## ÇEVRİLMƏ

Qəddar kapitalizmi uçurdular sosialistlər və əvəzində qəddar sosializm qurdular, indi təzədən qəddar sosializmi uçurub əvəzində qəddar kapitalizm qururlar.

## ZƏRURİYYƏT

Dünyaya qovuşmaqdan daha çox, Dünyaya bulaşmamaq zəruriyyəti yaranıb indi.

## VƏZİYYƏT

Sosialistlərlə kapitalistlərin Birliyini düzəldirlər.

Ateistlərlə Dindarların Birliyini düzəldirlər.

Təzə Yer cənnəti yaradırlar kommunistlər kommunizm əvəzinə.

## YOLSUZLUQ

Sosializmə qayıtmayacaqlar.
Kapitalizmə çatmayacaqlar.
Yolsuzdurlar kommunistlər.

## NƏTİCƏ

İnsanın taleyini İqtisadiyyatın ayağına bağlamışdı Marks, bu səbəbdən də İqtisadiyyat yerimədi.

## BAŞ YALAN

Lenin bir dəfə də Partiya hakimiyyəti, Rəhbər Hakimiyyəti demədi, Fəhlə Hakimiyyəti dedi, Xalqı aldatdı – Yalandan yapışdı beşəlli, Yalana sarıldı.

## VƏZİYYƏT

Aradan qaldıran Yaradır.
Uçuran Uçur.

## NAİLİYYƏT

Qərb Qorbaçovu alqışlayır: Şərqi Avropanı Qərbləşdirdiyi üçün, SSRİ-ni Qərbə yönəltdiyi üçün.

Qərbə xidmətinə görə, Şərqə xəyanətinə görə.

## MƏQAMLAR

Əsrin əvvəli – İnqilab vədəsi.
Əsrin sonu – Əksinqilab vədəsi.

## HƏQİQƏT

Kapitalizm – Kapitalist demək deyil; kapitalın, pulun, maddi varidatın hakimliyi deməkdir; bu baxımdan Qorbaçovşina kapitalizmə dönməkdir.

## VƏZİYYƏT

Ateistlər Dindən özlərinə dirək hazırlayırlar – çünki öz Dirəkləri yoxdur.

## İCTİMAİ HADİSƏ

Birgə Yadlıq.

## QORBAÇOVŞİNA İSTƏYİ

Azad, Demokratik, Humanist – yəni əslində Kapitalist Dünya – Ruhsuz, Əxlaqsız – yəni əslində AntiAzad, AntiDemokratik, Antihumanist Dünya.

## VƏZİYYƏT

"Özümüzü elə aparaq ki, bizə vəhşi deməsinlər!" çağırışında öz vəhşiliyinə inanmaq miskinliyi var, öz mədəniliyinə inanmamaq naşılığı var, yad təlqininə uymaq qüdrətsizliyi var – təhqiredici, ləyaqətsiz...

## QORBAÇOVŞİNA LƏYAQƏTİ

Qorbaçov özünü xalqı idarəçilərdən, idarəçiləri xalqdan, Ali Soveti Siyasi Bürodan, Siyasi Büronu Ali Sovetdən qoruyan xilaskar kimi aparır; əslində onları biri-biriylə döyüşdürür ki, barışdırsın və hamısının üzərində yüksəlsin.

## VƏZİYYƏT

Milyonçunu tərifləmək cəsarətində qabaqcıl xəyanət gizlənib.

## VƏZİYYƏT

Xalq Cəbhəsindən Qorbaçovşina özünə İt düzəltdi, it qudurub yiyəsinə hürdü.

## HADİSƏ

Komsomol – Mütiləşmə Pozğunluğu, Mənsəb məktəbi.

## VƏZİYYƏT

İslamı dirildirlər ki, Şərqi öldürsünlər.

## QORBAÇOVŞİNANIN BEYNƏLXALQ SİYASƏTİ

Təslimçilik Qələbələri.

## YARATDILAR

Marks Zordan Həqiqət yaratmaq istədi – Yalan yaratdı.
Lenin Zordan Ədalət yaratmaq istədi – Ədavət yaratdı.
Stalin Zordan Əzəmət yaratmaq istədi – Fəlakət yaratdı.
Qorbaçov Zorsuzluqdan Zor yaratmaq istədi – Həqarət yaratdı.

## VƏZİYYƏT

Daxili Dava – Xarici Dava hazırlayır – Qorbaçovşina Soyuq müharibəni Qızğın müharibəyə çevirə bilər – bu baxımdan onun imkanları böyükdür.

## YENİDƏNQURMA MƏNTİQİ

"Bütün dünya proletarları birləşin!" əvəzinə "Bütün dünya proletarları varlanın!" şüarı.

"Oraq və Çəkic" əvəzinə "Bank və Kantor" Gerbi.

## TƏKAMÜL

Rəşadət Rəmzi olan Əmək – gəlir mənbəyinə döndü.

Milyonçulara Sosialist Əməyi Qəhrəmanı adı verəcəklər antimilyonçular.

## TƏYİNLƏR

Kommunizm – cəhənnəmdir;
Kommunist antikommunizmi – həqarət.

## YENİDƏNQURMANIN TƏRKİBİ

Təftişçilik.
Antikommunizm.
Qərb sovetologiyası.

## TƏZƏ SİYASİ TƏFƏKKÜR

"Namusumdan keçirəm ki, Namusumu saxlayam".

## ŞƏRQİ AVROPA QƏRBLİYİ

Sosial-kapitalizm qiyafəsində Avropa Evinə daxil olmaq.

## YENİDƏNQURMA NƏTİCƏLƏRİ

Demokartiya adlı Böhran yarandı.
Aşkarlıq adlı Böhran yarandı.
Yeni Siyasi Düşüncə adlı Böhran yarandı.
***Böhrandan çıxmaq Böhranı yarandı.***

**AZƏRBAYCAN ALİ SOVETİNİN SESSİYASI**
Miskin cəsarət.

**ÇAUŞESKUNUN QƏTLİ**
Qorxudan Qudurmaq.

**VƏZİYYƏT**
SSRİ daxilində Kirovabadın Gəncə adlandırılması siyasi oyundur, çünki Kirovabad əsarət rəmzidir – əsarət qalırsa, adın dəyişilməsi heç nəyi dəyişmir.

**VƏZİROVŞİNA**
Hakimiyyət havasında Mərkəzlə Respublika arasında fırlanmaq.

**BARIŞQANLIQ AQİBƏTİ**
Respublika Mərkəzlə döyüşəcək.
Kooperativ – Dövlət müəssisəsiylə döyüşəcək.
Qeyri-formallar Partiyayla döyüşəcək.
Fəhlə Ziyalıyla Döyüşəcək.
Radikallar Ehtiyatkarlarla Döyüşəcək.
Respublikalar Respublikalarla Döyüşəcək.

***Barışqanlıqdan Döyüşkənlik törədi – Qəddar...***

**RESPUBLİKA SUVERENLİYİ**
Ayrılmadan Ayrılmaq – əslində Bağlanmaqdır.

**VƏZİYYƏT**
Leninin heykəlini uçururlar, şəklini cırırlar – bu, Qorbaçovşinanın xeyrinədir, çünki Qorbaçoşina tarixi özündən başlamaq arzusundadır.

## XASSƏLƏR

Lenin sosializmi – Şüarçı.
Stalin sosializmi – Qəddar.
Qorbaçov sosializmi – Əqidəsiz.

## VƏZİYYƏT

Kommunist Partiyalarına antikommunistlər başçılıq eləyir.

Xəyanətkar Antikommunizm yaranır – Murdar; Antikommunizm Müqəddəsliyinə Zidd.

## TƏZƏLƏŞƏN KOMMUNİST PARTİYASI

Antikommunist Kommunist Partiyası.

## QORBAÇOVŞİNA YÖNÜ

Təzə sosializm yoluyla Təzə Kapitalizmə doğru.

## VƏZİYYƏT

Qorbaçovşina İmperialistlərlə döyüşmür, antiimperialistlərlə döyüşür.

## VƏZİYYƏT

Kapitalistlər Təzə Sosializmi Köhnə sosializmdən qoruyurlar – Təzə sosializm vasitəsiylə köhnə sosializmdən qorunurlar.

## CƏLİLABAD HADİSƏSİ

Vəzirovçuluqla döyüşürlər – Təzahürü döyürlər, Mahiyyətə döyülürlər.

## VƏZİYYƏT

İmperialistlər təzə sosializmi köhnə sosializmdən qoruyurlar.
Təzə sosialistlər imperialistləri köhnə sosializmdən qoruyurlar.
İmperialistlərin bir Düşməni var:
Köhnə sosializm.
Təzə sosialistlərin bir Düşməni var:

Köhnə sosializm.
***Təzə sosializm İmperializmlə antisosializm əsasında birləşib.***

## VƏZİYYƏT

Ya antikommunist oyunu oynayırlar kommunistlər kapitalistlərlə, ya da kommunizmdən keçirlər: birinci xülyadır, ikinci xəyanət.

Əslində hər ikisi var Qorbaçovşinada: xülyəvi xaindirlər təzəqurmaçılar.

## VƏZİYYƏT

Dünyaya Kommunist pasportuyla daxil ola bilmədilər; Dünyaya antikommunist pasportuyla daxil olmaq istəyirlər kommunistlər.

## BAŞ YALAN

Yenidənqurmanın sosialist sərvətlərinə əsaslanması haqqında Şüar yalandır: yenidənqurma kapitalist sərvətlərinə əsaslanır. Kooperasiya, icarəçilik, parlamentarizm, plüralizm.

Qorbaçovşina Xalqı aldadır, Yalana sığınır.

## HƏQİQƏT

Qorbaçovşina Dünyəvi Konsensus (Razılıq) xatirinə kommunizmdən əl çəkir.

Dünya Qorbaçovşina Qurbanını qəbul edib, Qorbaçovşina İddiasını rədd edəcək.

## HƏQİQƏT

Marks Zoru tarixin mamaçası adlandırırdı.
Qorbaçovşina bu müddəadan əl çəkir.

Marks Dini xalqın Tiryəki adlandırırdı.
Qorbaçovşina bu müddəadan əl çəkir.

Marks sinfiliyi əsas İdraki prinsip hesab eləyirdi.
Qorbaçovşina ümumbəşəriliyə sığınır.

Marks ictimai mülkiyyəti – iqtisadi xilas sayırdı.
Qorbaçovşina ictimai mülkiyyəti xüsusiləşdirir.

Marks əksliklərin mübarizəsini əsas sayırdı.
Qorbaçovşina Vəhdətə sığınır.

Qorbaçovşina – əslində antimarksizmdir, ancaq marksizmlə pərdələnir, bu səbəbdən də riyakar qüvvədir – əxlaqsız, özülsüz.

*31 İnam günü, Sərt Ay, 11-ci il. Bakı.*

## NƏTİCƏ

Yeni Siyasi Təəfəkkür Əfqanıstanı satdı, Kambocanı satdı, Nikaraquanı da satacaq, Kubaya da ziyan verəcək.

## YENİDƏNQURMA HALI

Uçurula-uçurula Uçuruma doğru Yürüş.

## QORBAÇOV XƏTTİ

Cəsarətli istedadsızlıq.

## YENİDƏNQURMA SEVGİSİ

Qorbaçovu o qədər sevirlər ki, təmsil etdiyi xalqın üzünə tüpürürlər.

Qorbaçovu o qədər sevirlər ki, başçılıq etdiyi İttifaqdan çıxırlar.

## VƏZİYYƏT

Qorbaçovun Razılaşma Siyasəti partiyanı iflic eləyib, həm də danlaq hədəfinə çevirib.

Partiyanı şikəst eləyən də Qorbaçovdur, töhmətləndirən də.

Partiyanın başına bəla gətirən durub partiyanın başında, bu səbəbdən də partiya başıqapazlı olub.

**SƏY**

Kommunist – Xristian –Müsəlman Birliyi yaratmaq istəyir Yenidənqurmaçılar – əslində Antikommunist, Antixristian, Antimüsəlman Birliyi.

**TƏYİNLƏR**

Xaos Zülmü.
Anarxiya Müstəbidliyi.

**İCTİMAİ HADİSƏ**

Əqidədən azad olmaq Əsarəti.

*1 Arzu günü, Qar Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Yenidənqurma – sosializm xarabazarlığı.

**HƏQİQƏT**

Yaponiya – Şərqi Qərbdir; bu səbəbdən də Qərb onu Şərqə nümunə göstərir.

**HƏQİQƏT**

Hacı Zeynalabdin Tağıyevin sinəsini çar ordenləri bəzəyirdi, "İslam mömini" həm də çarizm sevimlisiydi, Yenidənqurma oyununda şərəfə mindirilən "millət atası" İmperiya xidmətçisi idi – M.F.Axundov kimi, M.C.Bağırov kimi, Vəli Axundov kimi, Ə.Vəzirov kimi.

**HƏQİQƏT**

Müsavatçıları kommunistlər hakimiyyətdən saldılar, Vətəndən xaric elədilər.

İndi müsavatçıları tərifləyirlər – "28 aprel"i pisləsinlər gərək onda! – Ələtdə dayanan 11-ci ordunu, parlamentə tuşlanan Topu!

**QORBAÇOVŞİNA XİLASI**
Özümü öldürüm ki, məni öldürməsinlər.

**HƏQİQƏT**
Demokratiya Adamı İnsandan qoruyur.

**VƏZİYYƏT**
Çoxpartiyalı sistem kommunist partiyasının ölümü deməkdir: rəqiblərini üstələmək üçün o, öz ideologiyasından əl çəkməlidir, kommunistliyindən keçməlidir.

**VƏZİYYƏT**
Demokratiya labüd şəkildə kapitalizmə aparır.
Sosial – kapitalizmdə dayananda o, eybəcərləşir.

**VƏZİYYƏT**
Nəticədə sosializm ya Totalitarizmə (Dövlətçiliyə) qayıdacaq, ya da kapitalizmə çevriləcək: sosial-kapitalizm çox zəif teldir – qırılan.

**VƏZİYYƏT**
***Qərb üçün*** sosial-kapitalizm kifayət deyil, ona tam kapitalizm gərəkdir. Bu səbəbdən də o, əlindən gələni eləyəcək ki, sosial-kapitalizm kapitalistləşsin.

***Şərq üçün*** sosial-kapitalizm çöpü lazımdır ki, öz "müstəqilliyini saxlasın".

Bu səbəbdən də o, sosial-kapitalizm çöpündən beşəlli yapışacaq.

**VƏZİYYƏT**
Sosializm – ictimai mülkiyyət, "zəhmətkeş hakimiyyəti", kommunizm ideologiyası deməkdir.

İctimai mülkiyyət – icarələşir, kooperativləşir, təsərrüfat hesabna keçir.

"Zəhmətkeş hakimiyyəti" – parlamentləşir.

Kommunizm ideologiyası sosial-demokratlaşır: – ***sosializm burjualaşır.***

## HƏQİQƏT

Qorxuya əsaslanan Sülh – Sülh deyil.
Qorxuya əsaslanan Razılıq – Razılıq deyil.
Qorxuya əsaslanan Sülhdən Dava iyi gəlir.
Qorxuya əsaslanan Razılıqdan Nifaq iyi gəlir.

*2 Ümid günü, Qar Ayı, 11-ci il. Bakı.*

## QORBAÇOVŞİNA ÇEVRİLMƏLƏRİ

Kapitalist Polşası, Rumıniyası;

Sosial-kapitalist SSRİ-si, Bolqarıstanı, Çexoslovakiyası, Almaniyası.

Qeyri-kommunistləşən, müflisləşən kommunist partiyaları.

## VƏZİYYƏT

Sosializm–Kapitalizm Təzadı Diktatura–Demokratiya Təzadıyla əvəz olunub.

Bu baxımdan, Kastro ilə Pinoçet arasında fərq aradan götürülür.

## VƏZİYYƏT

Sosial-kapitalizm kapitalizmə keçid dövrüdür: Qərbin Yenidənqurmaya rəğbəti bununla izah olunur.

## HADİSƏLƏR

Təzə Birlik: Yolsuzluq Yolçuları.
Təzə Dünya: Dünyasızlar Dünyası.

**QORBAÇOVŞİNA SÜKANÇILIĞI**
Gəmini Tufana tapşırmaq.

**İCTİMAİ MƏRHƏLƏLƏR**
Quldarlıq – Zor hakimiyyəti.
Feodalçılıq – Əmlak Hakimiyyəti.
Kapitalizm – Pul Hakimiyyəti.
Sosializm – Yalan Hakimiyyəti.

**ƏLAQƏ**
Kapitalizmdən sonra gələn Sosializm Uçdu, Sosializmdən sonra gələn Kapitalizm də Uçacaq...

**HƏQİQƏT**
Marksist əxlaqı Zora əsaslanır, bu səbəbdən də Əxlaqsızlıqdır.

**BUGÜNKÜLƏR**
Demokratiya – azad köpük.
Aşkarlıq – zahiri həqiqət.

**QORBAÇOVŞİNA NAİLİYYƏTLƏRİ**
Polşa kapitalistləşdi, ictimai mülkiyyəti ləğv elədi; Rumıniya kapitalistləşir...

**SOSİALİZM YOLU**
Stalin Zindanından Qorbaçov avaralığına.

**VƏZİYYƏT**
Sosializm ölkələrində heyrətli antisosializm potensiyası püskürdü.

*3 Dözüm günü, Qar Ayı, 11-ci il. Bakı.*

**VƏZİYYƏT**
Xalqın başı üstünü almış Yenidənqurma fəlakəti.

## VƏZİYYƏT

Amerika gözləyir ki, SSRİ zəifləsin – onda dişini göstərəcək.
SSRİ gözləyir ki, özü güclənsin – onda dişini göstərəcək.
***Hələlik hər ikisinin dişi qarnındadır.***

## VƏZİYYƏT

Şaumyan rayonunun Xətailəşməsi – süni, kal siyasi oyundur – Vəzirovşinanın xilasına xidmət eləyən.

## VƏZİYYƏT

Azərbaycanın Xətailəşməsinin qabağını almaq üçün Şaumyan rayonunu Xətai adlandırırlar.

## FƏRQSİZLİK

Əzizbəyovun Şaumyandan Fərqi nədəydi?
Vəzirovun Şaumyandan Fərqi nədəydi?
Kommunistlərin Şaumyandan Fərqi nədəydi?

## HADİSƏ

Naxçıvanlılar Mütilik Qapısını sındırdılar, Mütilik Dirəklərini sökdülər.

## ÜMUMBƏŞƏRİ HEYRƏT

Qorbaçovu bəşəri kommunizmdən xilas edən kommunist başçısı sayırlar və heyrətdən gözləri kəllələrinə çıxır adamların.

## HƏQİQƏT

Çauşeskunu güllələyənlər Çauşesku gülləsinə layiq olduqlarını bildirdilər.

*5 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Dəhşətli Rumın Fəlakəti törətdilər Rumın Səadətçiləri.

## VƏZİYYƏT

Ateizmlə Dinin Birliyindən Çoxcəhətli Murdarlıq törəyir.

Kommunizmlə Kapitalizmin Birliyindən Çoxcəhətli Murdarlıq törəyir.

Çoxcəhətli Barışqanlıqdan Çoxcəhətli Murdarlıq törəyir.

## QORBAÇOVŞİNA ƏXLAQSIZLIĞI

Əqidələr biri-birinə qarışanda – Əqidəsizlik yaranır.
Əqidələr biri-biriylə barışanda – Əqidəsizlik yaranır.
***Əqidəsizlikdən böyük Əxlaqsızlıq yoxdur.***

*6 Murad günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Anarxiyasız yaşaya bilməz.
Xaossuz yaşaya bilməz.
Gərginliksiz yaşaya bilməz.
Bu səbəbdən də Qorbaçovşina yaşadıqca, –
Anarxiya yaşayacaq,
Xaos yaşayacaq,
Gərginlik yaşayacaq.

## VƏZİYYƏT

Sosial-kapitalistin sosialistdən böyük düşməni yoxdur.

Qorbaçovun Çauşeskudan qəddar düşməni yox idi – qəddarcasına güllələnən.

## SSRİ–İRAN MÜNASİBƏTLƏRİ

AntiAzərbaycan mahiyyətli.

## SSRİ–TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

AntiAzərbaycan mahiyyətli.

## HƏQİQƏT

Hökumətə yaltaqlanan Xalq Məzlumdur.
Xalqa yaltaqlanan Hökumət Murdardır.

## VƏZİYYƏT

Kapitalistlər Sovet xalqını Qorbaçovlaşmağa çağırırlar.
Sosializmin dərdinə Kapitalistlərdən başqa ağlayan yoxdur daha.

## FƏRQ

Çauşeskunu Əqidəsi öldürdü.
Qorbaçovşinanı Əqidəsizlik yaşadır.

## VƏZİYYƏT

Müharibə təhlükəsinin Məzmunu dəyişməyib, yalnız Biçimi dəyişib.

## VƏZİYYƏT

Qərb Nüvə silahından əl çəkməyəcək – SSRİ var-yoxundan olacaq.

## RUHANİ ÖLÜMLƏR

Xristianlığı bərpa etmək – Ruhani ölümdür.
İslamı bərpa etmək – Ruhani ölümdür.
Kapitalizmin ətəyindən tutmaq – Ruhani ölümdür.
Parlamentarizmdən cuşa gəlmək – Ruhani ölümdür.
SSRİ daxilində Suverenlik – Ruhani ölümdür.
***Qorbaçovşina ölümdən başqa həyat tanımır.***

## QORBAÇOVŞİNA XİLASI

Ruhani ölüm bahasına Cismani ölümdən qurtulmaq.

## VƏZİYYƏT

Cənubi Azərbaycan məsələsini güzəranlaşdırırlar.

“Camaat acdır – ona görə də sərhəd dirəklərini gəmirir” – deyirlər.

Ruhani hiddət tanımırlar – çünki Ruhani ləyaqət tanımırlar.

## QORBAÇOVŞİNA HƏQARƏTİ

“Bugünün kapitalistiyəm, Sabahın kommunisti”.

“Bugünü kapitalistləşdirirəm ki, Sabahı kommunistləşdirəm”.

“Kapitalizmlə əlbir olub kommunizmi qoruyuram”.

***“Ölümlə birləşib həyatlaşıram”.***

## VƏZİYYƏT

Xalq başına uçan cəmiyyətdən başını necə saxlasın?

## VƏZİYYƏT

Amerika öz ***Təqdiriylə*** SSRİ-ni sarsıdır.

İngiltərə öz ***Tərifiylə*** SSRİ-ni sarsıdır.

Fransa ***Ümumavropa Federasiyasıyla*** Şərqi Avropanı SSRİ-nin əlindən alır, Pribaltikanı Qərbə cəlb eləyir, cəzb eləyir.

*7 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Düşmənlər Dostlaşır, Dostlar Düşmənləşir.

Qorbaçovşinanın Buş adlı düşməni yoxdur, Fidel adlı düşməni var.

Qorbaçovşinanın Tetçer adlı düşməni yoxdur, Kim İr Sen adlı düşməni var.

Qorbaçovşinanın Kol adlı düşməni yoxdur, Aliyə adlı düşməni var.

## TƏYİN

Qorbaçovşinanın yaratdığı Xalq Cəbhəsi, Qorbaçovşinanın qudurtduğu və son nəticədə oynatdığı Xalq Cəbhəsi.

## QORBAÇOVŞİNA ŞƏRİ

Şər tanımayan – Xeyir tanımaz.
Xeyiri Şərə calayan – Şər yetirər.
Şərə güzəştə gedən – Xeyirə xain çıxar.
Xeyirlə Şəri barışdıran – Təzə Şər quraşdırar.
Şərlə razılığa gələn – Xeyirlə qarşıya durar.
Şərdə Xeyir axtaran – Şərdə Xeyiri itirər.
Şərlə Xeyirin Birliyindən – İkili Şər yaranar.
Şərsiz Dünya İdeyası – O Dünya Yalanıdır – Bu dünyaya aid edilən.

***Qorbaçovşina cənnət uydurur xalqa – cəhənnəmdən pis.***

## HALIMIZ

"Geri qaldıq!" – deyə bağırdıq, "özümüzdən ayrıldıq!" – deyə fəryad qoparmadıq.

## VƏZİYYƏT

Marksizm aradan qaldırılmır – opportunistləşir (təslimçiləşir).
Sosializm aradan qaldırılmır – kapitalistləşir.
Partiya aradan qaldırılmır – Burjualaşır.
Şər aradan qaldırılmır – Böyüdülür.

## VƏZİYYƏT

Vəzirovşina Qarabağ vasitəsiylə Xalqdan qorunmaq istəyir.

## NƏTİCƏ

Kommunistlərin kommunistlərdən böyük Yağısı yoxdur indi.
Kommunistlərin kapitalistlərdən böyük Arxası yoxdur indi.

## VƏZİYYƏT

Qorbaçovşina gerçəkliyin quludur, gerçəklik Qorbaçovşinanın ağası.

## HƏQİQƏT

Zorun Hökmüylə barışan Dünya – Ruhsuzdur.

## XAOSÇULAR

Xaosçu Federasiya yaradırlar.
Xaosçu Ali Sovet yaradırlar.
Xaosçu Partiya yaradırlar.
Xaosçu Şərqi Avropa yaradırlar.
Xaosçu İiqtisadiyyat yaradırlar.
Xaosçu Mədəniyyət yaradırlar.
Xaosçu respublikalar yaradırlar.
Xaosçu İdarələr yaradırlar.

Xaos fəlakəti yaradırlar xaosçular.

## VƏZİYYƏT

Pribaltika Ayrılığını Qorbaçovşina yaratdı – elə bildi Təzə Birlik yaradır.

Pribaltika Siyasətbazlığını Qorbaçovşina yaratdı – elə bildi Təzə Siyasət yaradır.

Pribaltika Qəddarlığını Qorbaçovşina yaratdı – elə bildi Təzə İnsanilik yaradır.

*12 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Stalini pisləyib Sosializmi tərifləmək – əxlaqsızlıqdır.

## VƏZİYYƏT

Lazım olanda Hökumət öz kölgəsi – Xalq cəbhəsiylə birləşir.

Lazım olmayanda aralanır, bəzən ona sığınır, bəzən onunla döyüşür – kölgəsi ona lazım olduğu dərəcədə kölgəsinə lazım olur.

## VƏZİYYƏT

Nə qədər ki, Sovet Azərbaycanı var – Azərbaycan problemi həll olunmayacaq.

## VƏZİYYƏT

Cənubi Azərbaycanlıların Doğma Duyğularına Sovet Şəri qatırlar, Doğmalığı Yadlaşdırırlar.

## VƏZİYYƏT

Nə qədər sosializm hakimiyyəti var – Qarabağ problemi həll olunmayacaq.

Nə qədər marksizm hakimiyyəti var – Qarabağ problemi həll olunmayacaq.

Nə qədər Partiya hakimiyyəti var – Qarabağ problemi həll olunmayacaq.

Nə qədər yenidənqurma var – Qarabağ problemi həll olunmayacaq.

## SOVET AZƏRBAYCANI

Damğalanan Doğmalıq.

## VƏZİYYƏT

Kommunist Antikommunistlə yalnız Antikommunizm əsasında Dil tapa bilər – Antikommunizm vasitəsiylə kommunizmi xilas eləyirlər kommunistlər.

Ateist Dindarla yalnız Din əsasında Dil tapa bilər – Din vasitəsiylə Ateizmi xilas eləyirlər ateistlər.

Ölüm bahasına yaşayırlar, həyata satılırlar – yaşamaq üçün.

## QORBAÇOVŞİNANIN SÜLH SİYASƏTİ

Sülhə satılmaq.

## VƏZİYYƏT

Birpartiyalı cəmiyyət olub.

Çoxpartiyalı cəmiyyət var.
***Partiyasız cəmiyyət gərək.***

*14 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

**AZƏRBAYCAN HÖKUMƏTİ**

Xalqın arxasında gizlənən xalq ağası.

**VƏZİYYƏT**

Marksistlər Marksın saqqalını qırxdılar – balaca bir üz göründü.

**VƏZİYYƏT**

Qorbaçovşina Qorbaçovşinaya ilişib – Qorbaçovşinanı Qorbaçovşina yıxacaq.

**VƏZİYYƏT**

Pribaltika Ayrılığında Əyrilik var.

**NƏTİCƏ**

Yenidənqurma Dalğasında Milli qırğın yarandı.
Şərqi Avropa Qərbləşdi.
Xaos əsarəti törədi.
Anarxiya müstəbidliyi törədi.

**FƏRQ**

Stalinizm – Ağalıqdır, Qorbaçovşina – Gədalıq.

**QORBAÇOVŞİNA REALİZMİ**

Gerçəkliyi nizamlamasan – Gerçəklik azar.
Qorbaçovşina gerçəkliyin arxasına düşdü – azdı, azdırdı.

*15 Arzu günü, Qar Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

İnqilab bəşəri tərəqqini sürətləndirmir, əksinə ləngidir.

## QORBAÇOVŞİNA SƏVİYYƏSİ

Qorbaçovşina adamların əqidədən bezmək səviyyəsinə uyğun gəlir – bu səbəbdən də alqışlanır.

*16 Ümid günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Həm Xeyirə, həm Şərə xidmət eləyən – Şərə xidmət eləyir.

## VƏZİYYƏT

Xalq Cəbhələrində Baş Ayaqdan fərqlənmir.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti həm Mərkəzə sığınır, həm də xalqın gözündə özünü Mərkəzdən ayırmağa çalışır; həm Xalqı Mərkəzin sərəncamına verir, həm də müstəqil xəlqi qüvvə kimi görünmək istəyir; əslində iflasa uğrayır – Mərkəzə tam gərək olmur, Xalqa tam gərəksiz olur.

## VƏZİYYƏT

Zamanın havasına oynayır Ziyalılar həmişəki kimi: bir vaxt Stalin havasına oynadılar, indi Qorbaçov havasına oynayırlar.., zaman deyəni deyirlər – öz sözləri yoxdur – olmayıb.

## AQİBƏT

Əyilə-əyilə əyildilər, indi ha çalışırlar düzələ bilmirlər.

## VƏZİYYƏT

Təzə Demokratik hərəkatlar – Xalqların uşaq salmaları.

## VƏZİYYƏT

SSRİ-lə dostluq eləyən Türkiyə – Azərbaycanla Dostluq eləyə bilməz – SSRİ-dən çəkinər.

## TƏZƏ MÜDRİKLİK

Kommunizmi xilas eləmək üçün kommunizmdən xilas olurlar.

## İCTİMAİ FƏALLIQ

Nəticədən Qorunurlar, Səbəbi Qoruyurlar.

## QORBAÇOVŞİNA DÜŞÜKLÜYÜ

Camaatın ayağına düşmək – Siyasi Düşüklükdür.

## QORBAÇOVŞİNA NAİLİYYƏTİ

Açdıqları qapılar üzünə bağlanır, bağladıqları qapılar açılmır.

## QORBAÇOVŞİNA ALTERNATİVLİYİ

Qəddar Nizam əvəzinə Qəddar Anarxiya.
Müti Yekdillik əvəzinə Hərcayi Çoxrəylik.
Süni Dostluq əvəzinə Azğın Yağılıq.

## FƏRQ

Stalin boğurdu, Qorbaçovşina boğdurur.

## YUXULAR

Xalqı Stalinizm Yuxusundan ayıltdılar –
Qorbaçovşina Yuxusuna qərq etdilər.

## QARABAĞDA FÖVQƏLADƏ VƏZİYYƏT

Erməniləri Azərbaycanlılardan qorumaq.
SSRİ sərhədlərini qorumaq.
Azərbaycanda Sovet Hökumətini qorumaq.
Azərbaycanı qoruyan görünmək.

## DEYİLƏN

Qorbaçovşina öz dilində ermənilərə deyir:

Azərbaycanın coğrafi tərkibində qalsanız da, Ermənistanın siyasi tərkibində olacaqsınız.

Qorbaçovşina öz dilində azərbaycanlılara deyir: Erməniləşən Qarabağ sizindir.

**QARABAĞDA KOMENDANT SAATI**
Qorbaçovşina Əmin-Amanlığı.

**HƏQİQƏT**
Aşkarlanma İdeyası cəfəngiyyatdır.
Aşkarlıq bəxş olunmur – doğur, yetişir, yetirilir.
Aşkarlıq bəxş olunanda – bədəsil olur.

**HƏQİQƏT**
Yenidənqurma ideyası – cəfəngiyyatdır.
Cəmiyyət qurulumur – doğur, yetişir, yetirilir.
Cəmiyyət qurulanda – qırılır.

**HƏQİQƏT**
Demokratlaşma İdeyası – cəfəngiyyatdır.
Demokratiya tətbiq olunmur – doğur, yetişir, yetirilir.
Demokratiya tətbiq olunanda – təhrif olunur.

**VƏZİYYƏT**
Ruhsuzlar Xalqı Ruhlandırırlar.

**ŞƏRQİ AVROPA QORBAÇOVLUĞU**
Şimşək sürətiylə Dəyişilmə – xalqın başında çaxan şimşəkdir əslində.

**HƏQİQƏT**
Birlik gərək – Sosializmə qarşı, Marksizmə qarşı, Partiyaya qarşı, Yenidənqurmaya qarşı – Yenidənqurma əsasında Birlik xəyanətdir –
Yağılıq əsasında Qurulan – Rəzil!

*17 Dözüm günü, Qar Ayı, 11-ci il. Bakı.*

## BAŞA DÜŞƏN

Pribaltiklər Qorbaçovu sevirlər, çünki Qorbaçov Pribaltika separatçılığını “başa düşür”.

Ermənilər Qorbaçovu sevirlər, çünki Qorbaçov Erməni qəsbkarlığını “başa düşür”.

Qərb Qorbaçovu sevir, çünki Qorbaçov Şərqi Qərbləşdirir.

Yəhudilər Qorbaçovu sevirlər, çünki Qorbaçov onları Rusiyanın başına çıxarıb.

## VƏZİYYƏT

Yenidənqurma adamları Demokratiyadan iyrəndirdi.

Aşkarlıqdan iyrəndirdi, Plüralizmdən (çoxrəylikdən) iyrəndirdi. Parlamentarizmdən iyrəndirdi.

## SİYASƏTBAZLIQ VƏDƏSİ

Mərkəz Respublikalarla Siyasətbazlıq eləyir.
Respublikalar Mərkəzlə Siyasətbazlıq eləyir.
Respublikalar Respublikalarla Siyasətbazlıq eləyir.
Şərqi Avropa ölkələri SSRİ-lə Siyasətbazlıq eləyir.
Şərqi Avropa ölkələri biri-biriylə Siyasətbazlıq eləyir.
SSRİ Şərqi Avropa ölkələriylə Siyasətbazlıq eləyir.

***Sürətli Siyasətbazlıq vədəsidir – Qorbaçovşina dövrü.***

## VƏZİYYƏT

Qorbaçovşina özünü həm Mərkəzin, həm də respublikaların Timsalı kimi aparır; hər ikisindən artıq görünməyə çalışır, hər ikisindən əskik bilinir.

## QORBAÇOVŞİNA YOLU

Sosializm Uçurumundan Sosial-Kapitalizm Uçurumuna.

## VƏZİYYƏT

Tarix mayallaq aşır.

## HƏQİQƏT

Partiyanın nüfuzu Zora və Yalana əsaslanırdı.

Partiyanın nüfuzunu bərpa etməkçin təzə Zor və Yalan lazımdır.

## TƏZƏ SOSİALİZM

Sosialist o dünyası.

*18 Mərhəm günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Azərbaycan Hökuməti Xalqa Xəyanət elədi – onu ayaqçılara tapşırdı.

## HƏQİQƏT

Xalqçılıq – Haqçılıq.

## HƏQİQƏT

Humanizmdən məhrum olan Millətçilik – əslində Beynəlmiləlçilik.

## HƏQİQƏT

***Qarabağ fəlakətinin səbəbkarları:***

I. Daşnaklar.
II. Erməni Diasporu.
III. Qorbaçovşina.
IV. Qərb Dairələri.

## AQİBƏT

Lenin Fəhlədən ***istifadə eləyib*** Çarı yıxdı.
Stalin Fəhlədən ***istifadə eləyib*** Fövqəldövlət yaratdı.
Qorbaçov ***Fəhləni*** atıb – Ziyalını tutdu.
Fəhlə sosializmə ***qurban verildi*** – sosial-kapitalizmə ***yaramadı.***

**HƏQİQƏT**

Dünya Zora əyilir – Müqəddəsliyə tapınır.

**VƏZİYYƏT**

Dünənki canavarlar Quzulaşıb,
Dünənki Quzular canavarlaşıb.

**QORBAÇOVŞİNA SİYASƏTBAZLIĞI**

Qarabağ məsələsini "realistcəsinə" həll etmək:

Ermənilər qələbə çalsa – erməni qələbəsini təsdiq etmək, azərbaycanlılar qələbə çalsa – azərbaycanlı qələbəsini təsdiq etmək.

Gerçəklik nə desə – onu təsdiq etmək.

Gerçəkliyin arxasında gizlənmək.

**VƏZİYYƏT**

Qorbaçovşina Qarabağ Fəlakətinin səbəbini konservatorlarda və möhtəkirlərdə görür, Ermənistan hökumətində görmür və bununla da Fəlakəti alışdırır, sönməyə qoymur.

**FƏRQ**

Stalin qırırdı, Qorbaçov qırdırır.

**VƏZİYYƏT**

Qorbaçovu xaricdə Estrada Ulduzu kimi qarşılayırlar.

**HƏQİQƏT**

Xalq Cəbhəsi – Yenidənqurma töhfəsi.

**QORBAÇOVŞİNA MƏTBUATI**

Azğın əqidəsizlik.

*19 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

**QORBAÇOVŞİNA CİNAYƏTİ**

Xalq Cəbhəsi doğdu.
Xalq Cəbhəsi vasitəsiylə xalqı qırdı.

**VƏZİYYƏT**

Hökumət kiçik olanda – kögəsi böyük görünür.

**HƏQİQƏT**

Xalq Cəbhəsində başçı yoxdur – ayaqçı var.
Xalq Cəbhəsinə başçı gərək deyil – ayaqçı gərəkdir.

*20 Murad günü, Qar Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Xalq Cəbhələri – Qorbaçovşinanın xalqlara elədiyi Zülm.

**VƏZİYYƏT**

Azərbaycan Hökuməti özünün elan etdiyi suverenliyə elə inandı ki, özünü doğrudan da müstəqil saydı və Mərkəzə diş qıcartdı – Mərkəz də onun dişini qırıb qarnına tökdü.

**BAKI HADİSƏLƏRİ**

Azərbaycan Hökuməti – "Xalq Cəbhəsi" – özünü və Xalqı tələyə saldı – "Biri-birinin ardınca", "fəalcasına" kal tədbirlər gördü və Mərkəzə müdaxilə imkanı yaratdı – Şərə xeyir verdi sərsəricəsinə.

**MİLLİ SİYASƏT**

Əgər Millilik – siyasətdirsə, onda o, antimillilikdir, çünki Siyasət Yalan deməkdir əslində.

*21 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

## XALQLAR DOSTLUĞU SİYASƏTİ

Əgər Dostluq siyasətdirsə, o, Yağılıqdır, çünki Siyasət Yalana tapınır.

## FƏLAKƏTİMİZ

Özgələrə yaxşı yarayırıq, özümüzə pis yarayırıq.

## VƏZİYYƏT

Müdafiə Şurası yaradılan məqam cavanların ölüm hökmü verildi.

## HƏQİQƏT

Cavanlara gülləni Rus İmperiyası atdı.
Erməni daşnakları atdı.
Azərbaycan Hökuməti atdı.
Xalq Cəbhəsi atdı.

## HƏQİQƏT

Nəqliyyat Blokadaçılarına atıldı cavanlara dəyən güllə.

Cəlilabadlılara atıldı.
Naxçıvanlılara atıldı.
Lənkəranlılara atıldı.
Tətilçilərə atıldı.
Gəncə adına atıldı.
Xətai adına atıldı.

## QANLI TƏQLİDÇİLİK

Pribaltikləri təqlid edib “Xalq Cəbhəsi” düzəltdilər.
Erməniləri  təqlid edib “cəza dəstələri” düzəltdilər.
Moldavları təqlid edib basqınçılığa qurşandılar.
Qanlı Təqlidçilik Oyununda cavanları güdaza verdilər qanlılar.

## VƏZİYYƏT

"Xalq Cəbhəçiləriylə" dil tapa-tapa Hökumət xalqı Şərin gülləsinə tapşırdı.

## SƏDR MÜRACİƏTİ

***Siyasi Kədər*** yağırdı Nitqindən Mütəllibovun – Yalançı, Yad.

## QORBAÇOVŞİNA QURMALARI

Qanlı Birlik.
Sərbəst Yağılıq.
Azad Anarxiya.
Aşkar Canilik.

## VƏZİYYƏT

SSRİ-dən Qərb quyruğu düzəldirlər Qərb siyasətçiləri – Yenidənqurmaçıları havalandıra-havalandıra.

*21 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Cavanları Ordunun üstünə ölümə göndərənlər – cavanlarla bir yerdə ölməliydilər – onda günahlarını yuya bilərdilər.

## VƏZİYYƏT

Hökumət üçün Matəm günü – Siyasi Tədbirdir; ölümdən də faydalanırlar Siyasətbazlar.

## HAL

Tənha ağlayarlar, birgə gülərlər.

## HƏQİQƏT

Sosializm əslində kapitalizmi aradan qaldırmır – dövlətləşdirir.

## VƏZİYYƏT

Qorbaçovşina Xalq Cəbhələrindən özünə Opriçnina, Xunvenbinlər düzəldirdi, kölgəsindən bəhrələnmək istəyirdi – qəhərləndi.

*22 Arzu günü, Qar Ayı, 11-ci il. Bakı.*

## DEMOKARTİK ƏQİDƏSİZLİK

Əqidə çoxluğu – Yoxluğu.

## CİNAYƏT

Xalqları Yeni Eraya qurban verdilər və Köhnə Eraya qayıtdılar.

## VƏZİYYƏT

Bakı problemi Qarabağ problemini üstələyir – Daşnakların Xeyrinə.

## VƏZİYYƏT

Ərindən küsən xanım qətiyyəti var Azərbaycan Hökumətinin Ayrılmaq Haytasında.

## FƏRQ

Totalitar Siyasət – Canavarlıq.
Demokratik Siyasət – Tülkülük.

## VƏZİYYƏT

Azərbaycan Ali Soveti Mərkəzi ayrılmaqla Qorxuzur, Mərkəz isə Azərbaycanın ayrılmağına inanmır.

*23 Ümid günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina SSRİ-ni öldürür, ancaq həm də Xalqı öldürür; Xalqı yaşatmaq üçün – Qorbaçovşinanı öldürmək gərək.

## VƏZİYYƏT

Dünya bizə ağlamır, çünki bizim Vətəndən başqa Dünyamız yoxdur.

## HƏQİQƏT

Fəhləlik olan yerdə – Ədalət yoxdur.

## HƏQİQƏT

Dünyayla birgə balalrımızı qırdılar Yenidənqurmaçılar.

## VƏZİYYƏT

Bolşeviklər kimi "Xalq Cəbhəçiləri" də xalq bəlasından faydalanırlar.

## XƏYANƏT

Azərbaycan İslam Dövlətinin Azərbaycan Sovet Dövlətindən fərqi yoxdur.

## HƏQİQƏT

Xalq Cəbhəsi – Rəislik əvəzi oldu, Hakimlik əvəzi oldu, Şöhrət əvəzi oldu, Mənsəb əvəzi oldu İddiaçılara – Yağılardan öyrəndilər Yağılığı – Tələyə düşdülər, Təqlidə uydular İdraksızlar – ölümə göndərdilər cavanları – ***ölmədilər.***

***Fəlakətdən qeyri xidmətləri olmadı xalqa.***

## VƏZİYYƏT

Hökumət camaata bildirməliydi ki, müstəqildir; bu səbəbdən də Kirovabadı Gəncə adlandırdı.

Hökumət Mərkəzə bildirməliydi ki, qeyri-müstəqildir; bu səbəbdən də Ordunu köməyə çağırdı.

## VƏZİYYƏT

Dünya Qorbaçovlaşır – Sərsəriləşir.

**SİYASƏT**

Qərb Qorbaçovşinanı böyüdür ki, SSRİ-ni kiçiltsin.

**HADİSƏ**

Cavanları Xalq Cəbhəsi cəngəlliyinə qıyan hökumət.

*24 Dözüm günü, Qar Ayı, 11-ci il. Bakı.*

**SOSİALİZM SƏRVƏTLƏRİ**

Beynəlmiləlçilik Zülmü.
Kollektivçilik Zülmü.
Dövlətçilik Zülmü.
Marksizm Zülmü.

**VƏZİYYƏT**

Qərb Ermənilәri Qorbaçovdan İncimişdilər.
Moskva Erməniləri Qorbaçovdan İncimişdilər.
Ermənistan Erməniləri Qorbaçovdan İncimişdilər.
Cavanlara güllə atılmalıydı.
Qorbaçov inciyənlərlə barışmalıydı.

**QORBAÇOV ƏSARƏTİ**

Əqidəsizlik olan yerdə – Azadlıq yoxdur.
Əqidəsizlik Əsarəti yaratdı Qorbaçovşina.

**QORBAÇOVŞİNA HƏQARƏTİ**

Ateistlər Din təlimçisinə çevrilirlər.

**VƏZİYYƏT**

Bakıdan qaçanlara ağlayır dünya – Bakıda qırılanlara ağlamır.

**LƏYAQƏT**

Dünyaya Bulaşmamaq.

**VƏZİYYƏT**

Yasımız öyüdlərlə, Müraciətlərlə Murdarlandı.

**HƏQİQƏT**

Azərbaycan Hökuməti – Xalq Cəbhəsi Yağının tələsinə düşdü, öz İdraksız Fəallığıyla Yağıya Qırğın imkanı yaratdı – Yağı İstəyinə xidmət elədi, balalarımızı Ölümün ağzına atdı.

*25 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

**LƏYAQƏTSİZLİK**

Dünyanın Balalarımıza ağlamaq ləyaqəti çatmadı.

**CƏSARƏT OYUNU**

Azərbaycan Hökuməti Rus İmperiyasından çıxmaqdan qorxmur, Rusların Bakıdan çıxmalarından qorxur.

**VƏZİYYƏT**

Azərbaycan Hökuməti öz Kölgəsindən – Xalq Cəbhəsindən qorxur.

*26 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

**FƏRQ**

Marksizm – Cəhalət.
Qorbaçovşina – Xəyanət.

**VƏZİYYƏT**

Qorbaçovşina Xaosdan çıxsa – Ölər.
Qorbaçovşina Anarxiyadan çıxsa – Ölər.
Qorbaçovşina Gərginlikdən çıxsa – Ölər.

Ölməməkdən ötrü Qorbaçovşina Xaosdan beşəlli yapışacaq, Anarxiyadan beşəlli yapışacaq, Gərginlikdən beşəlli yapışacaq.

**HƏQİQƏT**

Siyasət – əxlaqın ən aşağı pilləsi, hakimiyyətin ən yuxarı pilləsi.

**HƏQİQƏT**

Maddiyyatçılıqda Azadlıq yoxdur – Maddiyyatçılıq Maddiyyat əsarəti yaradır.

**VƏZİYYƏT**

Hökumət – Suverenlik Xülyasında öldü, Beynəlmiləlçilik İflasında dirildi.

**VƏZİYYƏT**

Qorbaçovşina gülləsi hardasa atılmalıydı, Qorbaçovşina Azərbaycanı hədəf seçdi.

**HƏQİQƏT**

Stalin Zindanlarıyla Qorbaçovşina Mitinqləri arasında mahiyyətcə fərq yoxdur.

**NƏTİCƏ**

Azərbaycan hökumətinin Mərkəzaltılığı artdı.

**HƏQİQƏT**

Çoxrəylik əslində İdraki Bütpərəstlikdir.

**VƏZİYYƏT**

İslahat Yamağıyla İnqilab Yarası sağalmır.

**ÇEVRİLMƏ**

Hökumət əvvəl Mərkəzə Haykırdı, sonra rus əhalisinə yalvardı – öz haykırtısından diksindi.

Əvvəl ayrılmağa dartındı, sonra qardaşlıq ailəsindən beşəlli yapışdı.

## HƏQİQƏT

Sosializm – Dövlətçilik.
Kapitalizm – Varidatçılıq.
Sosial-kapitalizm – Dövlətçilik-Varidatçılıq.

## QORBAÇOVŞİNA HALI

Xəyanət Cəsarəti.

## DEMOKRATİK MEYDAN

Şöhrətpərəstlik Bazarı.

*27 Murad günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Qərb mənfəətli cəmiyyət yaradıb – mərifətli cəmiyyət yaratmayıb.

*28 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Azərbaycana Beynəlmiləlçilik gülləsi dəydi.

## TƏZƏLİK

Rusiyadan Avropa Ayısı düzəldirlər.

*1 Köçəri Ay, Mərhəm günü, 11-ci il. Bakı.*

## HƏQARƏT

Balalrımızı şaxsey-vaxsey murdarlığına bulaşdırdılar – Göz yaşlarına, Qərənfilə, Muğama Yad.

*3 Murad günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## QORBAÇOVŞİNA RƏQQASLIĞI

Həm marksist bilinmək istəyir, həm də antimarksistlərə yarayır.

Həm “konservatorları” “radikallardan” qoruyur; həm “radikalları” “konservatorlardan” xilas eləyir.
Həm zəhmətkeşlərə gərək olur, həm kapitalistlərə.
Həm ateistlərə dayaqdır, həm dindarlara...
Əqidəsizlik rəqsinə qurşanıb – əslində oynadılır.

*7 Köçəri Ay, Dözüm günü, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Partiya Yeniləşsə – Öləcək.
Partiya Yeniləşməsə – Öləcək.

*8 Mərhəm günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Sosialistləşən kapitalizmə bel bağlayırlar kapitalistləşən sosialistlər...

## MÜSTƏQİL İQTİSADİYYAT ŞƏRTLƏRİ

Dövlətdən tam azad olan İqtisadiyyat yaranmalıdır.
Xalqı tam ödəyən iqtisadiyyat yaranmalıdır.
Respublikanın tam sahib olduğu İqtisadiyyat yaranmalıdır.

## TƏZƏ MARKSİZM

Zoraltılıq İdeologiyası.

## SOVET QƏRBÇİLİYİ

Siyasi Dilənçilik.

## VƏZİYYƏT

Mərkəzləşmə Zorakılığı.
Suverenlik Zoraltılığı.

## VƏZİYYƏT

Birpartiyalılıq Zorakılığı.
Çoxpartiyalılıq Zoraltılığı.

**VƏZİYYƏT**

Birmülkiyyətçilik Zorakılığı.
Çoxmülkiyyətçilik Zoraltılığı.

**TƏZƏLƏR**

Ayaz Mütəllibov – Quraşdırılmış.
Həsən Həsənov – Həmişəkal.

**VƏZİYYƏT**

Elə bilirlər ki, Zorakılıq ölür;
Bilmirlər ki, Zorakılıq Zoraltılaşır.

**SOVET PREZİDENTİ**

Zoraltılığı qoruyan.

**QORBAÇOVŞİNA SOSİALİZMİ**

Zoraltı cəmiyyət.

**TƏZƏ XÜSUSİ MÜLKİYYƏT**

Xüsusi Zoraltılıq.

**AZƏRBAYCANIN "İQTİSADİ SUVERENLİYİ"**

Zorakı İqtisadiyyatın Zoraltı İiqtisadiyyatla əvəz olunması.

**VƏZİYYƏT**

İqtisadiyyatı Zordan azad etmədən iqtisadi azadlıqdan danışırlar.

Zorla yaradılmış İqtisadiyyatdan iqtisadi azadlıq quraşdırırlar.

*16 Qismət günü, Köçəri Ay, 11-ci il. Bakı.*

**QORXU**

Balalrımızın Qırılması Azərbaycan Hökumətini qorxutmadı – Rusların Qaçması qorxutdu.

## VƏZİYYƏT

Sosializm – Hakimiyyət Zoru.
Kapitalizm – Varidat Zoru.
Sosial-kapitalizm – Hakimiyyət-Varidat Zoru.

## QARABAĞ PROBLEMİNİN HƏLLİ

Ya Azərbaycanın Dağlıq Qarabağ üzərində səlahiyyəti Formallaşacaq, ya da Dağlıq Qarabağ muxtariyyatı Formallaşmalıdır.

Üçüncü Yol yoxdur.

Qarabağ Erməni Muxtariyyatını Formallaşdırmaq gərək – ***son nəticədə yox etmək...***

İlk addım: Azərbaycan qaçqınlarını Dağlıq Qarabağda yerləşdirmək, demoqrafik vəziyyəti dəyişdirmək.

## VƏZİYYƏT

"Heç kəs sosializmdən əl çəkmədi!" – deyirlər.
"Heç kəs sosializmi qorumadı!" – demək lazımdır.

## VƏZİYYƏT

Cənubi Azərbaycan problemi həll olunmalıdır ki, Yağı Qonşu sınsın.

## VƏZİYYƏT

Dövlət istismarından xüsusi istismar vasitəsiylə xilas olurlar – istismara qarşı İnqilabın davamçıları.

## VƏZİYYƏT

SSRİ sarsılmayınca Cənubi Azərbaycan problemi həll olunmayacaq.

İran sarsılmayınca Cənubi Azərbaycan problemi həll olunmayacaq.

Cənubi Azərbaycan Fəlakətində SSRİ-ylə İran birləşir.

## VƏZİYYƏT

Şərqi Avropa sosial-kapitalizmdə dayanmaq istəmir, birbaşa Kapitalizmə yüyürür.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti Mərkəzə diş qıcarda bilmir, quyruq bulaya bilir.

## AZƏRBAYCAN PROBLEMİ

Kommunizm beynəlmiləlçiliyindən xilas olmaq.
İslam beynəlmiləlçiliyindən xilas olmaq.

## QORBAÇOVŞİNA DƏRSİ

Yenidənqurulan Cəmiyyət – Uçur.

## HƏQİQƏT

Çoxpartiyalılıq – çoxmallıq kimi bir şeydir.
Hansı malı istəyirsən al, hansı partiyanı istəyirsənsə – seç.

*17 Murad günü, Köçəri Ay. 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Azərbaycan kommunist hakimləri Azərbaycana həmişə kiçik xalq mövqeyindən yanaşıblar, bu səbəbdən də Qoltuğu ilahiləşdiriblər.

"Doğma xalq" mövqeyindən yanaşsaydılar – Qoltuğu lənətləyərdilər – kiçik doğmalıq olmur, Doğmalıq həmişə böyükdür.

## VƏZİYYƏT

Sosial-kapitalizm son nəticədə kommunistləri müxalifətçi qüvvəyə çevirəcək, kommunistlər Qorbaçov cəmiyyətiylə döyüşməli olacaqlar.

## HƏQİQƏT

Pambıqçı varsa – Kəndli yoxdur.
Maldar varsa – Kəndli yoxdur.
Tütünçü varsa – Kəndli yoxdur.
İxtisasçı varsa – Kəndli yoxdur...
***Kəndli – Təbiətçidir, ixtisasçı deyil.***

## FƏRQ

"Ruslar olmasa – ölərik!" – deyir Ayaz Mütəllibov; "öləcəm!" – demir.

## HƏSƏNOVŞİNA

Antimilli Bədənə milli Don geyindirmək.

## VƏZİYYƏT

Xalqın bir Sürü başçısı olanda – Xalq başsız qalır.

## VƏZİYYƏT

Ateistlər din tiryəki çəkirlər ki, qabaqcıl görünsünlər.

## VƏZİYYƏT

Ayağımızı yorğanımıza görə uzada-uzada – yorğansız qaldıq.

## VƏZİYYƏT

Sosial-kapitalizm – keçid dövrüdür, ondan sonra kapitalizm gəlir.

## VƏZİYYƏT

Pribaltika Hökuməti Xalqın ayağında gedir ki, başda qalsın.

Azərbaycan hökuməti Xalqın çiyninə dırmaşır ki, böyük görünsün.

## HƏQİQƏT

Demokratik Ziyalılar Cəmiyyəti – Mütəşəkkil Ziyasızlıq.

## QORBAÇOVŞİNA XƏTTİ

Ermənilərə deyirlər: Azərbaycanda qala-qala Ermənistanlaşın.

Azərbaycanlılara deyirlər: Ermənilərə imkan verin Azərbaycanda qala-qala Ermənistanlaşsınlar.

*19 Arzu günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## MÜTƏLLİBOVUN ALİ SOVETDƏ ÇIXIŞI

Əvvəl ağladı, sonra bağırdı, axırda yalvardı.

## MÜTƏLLİBOVŞİNA

Mərkəzə Yalmanma vasitəsiylə "müstəqillik"; Mərkəzə "Müstəqil" Yalmanma.

## QANLI YANVAR AQİBƏTİ

Ölənlər Qalanların əcdadı oldular,
Qalanlar ölənlərin varisi olmalıdırlar.

## HƏQİQƏT

İnsan planetin sonuna çatdı və anladı ki, planetin mənası planet qurtaranda başlayır.

## GÖY YAŞI

Göylər Balalarımıza ağladılar – Muğam yaşıyla.

## QORBAÇOVŞİNA HALI

Əqidə dərdi çəkən yoxdur – hamı can hayındadır.

*20 Ümid günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Beynəlmiləlçilik ləğv olunmayınca xalqlar dostluğu bərqərar olmayacaq.

## FƏRQ

Beynəlmiləlçilik – Siyasi Xətt.
Humanizm – Ruhani Tələb.

## HƏQİQƏT

Beynəlmiləlçilik – Özgələşmə.
Humanizm – Özümləşmə.

## VƏZİYYƏT

Balalrımıza atılan beynəlmiləl güllələr beynəlmiləlçilik fəlakətinə yaradı.

## VƏZİYYƏT

Stalin camaatı Zindana salırdı,
Qorbaçovşina camaatı Küçəyə salır...

## QORBAÇOVŞİNA YALANI

Sosializm – ictimai ədalət təlimi deyil – ictimai ədalət tələb eləməyən siyasi doktrina yoxdur əslində; sosializm – ***ictimai mülkiyyət vasitəsiylə*** təsdiq edilən cəmiyyət haqqında təlimdir – xüsusi mülkiyyətin ləğvini tələb eləyən siyasi doktrinadır.

Qorbaçovşina xüsusi mülkiyyəti bərqərar eləyir və sosializmdən dəm vurur.

## MÜASİR İCTİMAİ DÜNYA

Sosial-demokratiya – Nizamlı kapitalizm.

Demokratiya – Sərbəst kapitalizm.

Sosial-kapitalizm – İbtidai kapitalizm.

Sosializm – Antiinsani antikapitalizm – kapitalizmə təslim olmuş.

Kommunizm – Antiideal – gerçəkliyə təslim olmuş...

***Kapitalizmi təsdiq elədi 20-ci əsr. Buna gücü çatdı.***

## FƏRQ

Stalin Sosializmi – dəhşətli antikapitalizm.
Qorbaçov Sosializmi – İbtidai kapitalizm.

## DİNİ OYUN

Dinə inanmayanları partiyadan çıxaracaqlar.

## VƏZİYYƏT

Şərqi Avropa Qorbaçovşinaya üz tutub. SSRİ-dən üz çevirdi.

## VƏZİYYƏT

Qorbaçovşina Xaossuz bir gün də yaşaya bilməz, Anarxiyasız bir gün də yaşaya bilməz, Gərginliksiz bir gün də yaşaya bilməz, çünki əslində Qorbaçovşina elə Xaos deməkdir, Anarxiya deməkdir, Gərginlik deməkdir.

## YENİDƏNQURMA NƏTİCƏSİ

Dünya yenidən kapitalistləşir.

## HƏQİQƏT

Balalrımızı Ordunun qabağına göndərmək – Siyasi Sərsərilikdir; rusların ətəyindən yapışıb, "getməyin!" demək – siyasi miskinlikdir.

## QORBAÇOVŞİNA QAYDALARI

Nizamlı Xaos, Nizamlı Anarxiya, Nizamlı Gərginlik.

## SOVET PREZİDENTİ

Xaos başı.

## QORBAÇOVŞİNA SEÇKİLƏRİ

Xaosu, Anarxiyanı, Gərginliyi seçmək.

## QORBAÇOVŞİNA HUMANİZMİ

Zorlular hakimiyyətindən – Varlılar Hakimiyyətinə.

## HƏQİQƏT

Çoxpartiyalılıq – Əlvan İdealsızlıq.

## TƏZƏ SİYASİ TƏFƏKKÜR

Vahid kapitalizm dünyası tikən.

## BUGÜNKÜ FƏALLIQ

Beyni doldurmadan ürəyi boşaltmaq.

*23 Qismət günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## ÖLÜM "XİLASI"

Faşistlər əxalqsızlıq bahasına Almaniyanı "xilas eləyirdilər".
Kommunistlər Etiqadsızlıq bahasına SSRİ-ni "xilas eləyirlər".

***Əxlaqsızlıq – ölümdür.***
***Etiqadsızlıq – ölümdür.***

*25 İnam günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## DEMOKRATİK ZİYALILAR BİRLİYİ

Hökumətaltı Quraşdırma.

## VƏZİYYƏT

Amerikanın rəqibi kimi SSRİ Amerikadan bəhrələnə bilmirdi.
Amerikanın əlaltısı kimi SSRİ Amerikadan bəhrələnə bilər.

## VƏZİYYƏT

Pribaltikanın nazını çəkirlər – Vahid Avropa üçün.
Azərbaycanı güllləbaran eləyirlər – Vahid Avropa üçün.

## VƏZİYYƏT

Nikaraqua da "təzə təfəkkürə" qurban verildi, Əfqanıstan da, Kamboca da; son nəticədə Kuba da qurban veriləcək.

*26 Arzu günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## FƏRQ

Stalin Federalizmi – Tabeçilik.
Qorbaçov Federalizmi – Boğuşma.

*27 Ümid günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## QORBAÇOVŞİNA PREZİDENTLİYİ

Nizamlanan Anarxiya.

## QORBAÇOVŞİNA QABAQCILLIĞI

Təqlidçilik sahəsində geriliyi sürətlə aradan qaldırırlar.

## VƏZİYYƏT

Hökumət xalqa yalvarmır, əslində xalqı təzə biçimdə yalvardır.

*28 Dözüm günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Əgər Anarxiya baş tutubsa – deməli Azadlıq baş tutmayıb.

Əgər Xaos baş tutubsa – deməli, Qayda baş tutmayıb.

Əgər Gərginlik baş tutubsa – deməli, Əmin-Amanlıq baş tutmayıb.

Çünki Anarxiya – əks Azadlıq deməkdir.

Çünki Xaos – əks Qayda deməkdir.

Çünki Gərginlik – əks Əmin-Amanlıq deməkdir.

## HƏQİQƏT

Qorbaçovşina Razılığından (Konsensusundan) təzə Yağılıq törəyir.

*1 Mərhəm günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Stalin kapitalistlərə qarşı fitnə törədirdi;
Qorbaçovşina kommunistlərə qarşı fitnə törədir.

*2 Qismət günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Muğam Balalarımızı unutmayacaq, unutdurmayacaq.

*4 İnam günü, Günəş Ayı, 12-ci i. Bakı.*

## ALİ SOVETİN İQTİSADİYYAT QANUNU

İqtisadi Xaos Hüququ.

## SSRİ ALİ SOVETİNİN AZƏRBAYCAN–ERMƏNİSTAN MÜNAQİŞƏSİ HAQQINDA QƏRARI

Qərarsızlıq.

## VƏZİYYƏT

Etiqadla döyüşərlər, Etiqada xəyanət eləməzlər – Etiqada xəyanət vasitəsiylə səadət yaranmaz, fəlakət yaranar.

*6 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əqidəsizlikdən böyük zülmkarlıq yoxdur əslində.
Yenidənqurma – təzə zülmkarlıqdır.

## HƏQİQƏT

Siyasətə yüyürən yıxılır.

## QORBAÇOVŞİNA YÖNÜ

Şərqi Avropanın meyidi üstündən Avropa Evinə doğru.

## VƏZİYYƏT

Qorbaçovşinanın Sülh Siyasəti – əslində Təslimçilik siyasətidir.

## VƏZİYYƏT

70 ildə kommunizm bizi "şaxsey-vaxsey" sərsəriliyinə qaytardı.

## PARTİYA PLATFORMASI

İctimai Sərbəstlik əvəzinə – İctimai Sərməstlik.
Azadlıq əvəzinə – Yolsuzluq.
Yaradıcılıq əvəzinə – Yaraçılıq.
Yenilikçi şablon.
Cəsarətli dönüklük.
Humanizm əvəzinə – Kapitalistləşmə.
Sosializm əvəzinə – Qərbləşmə.
Ümumbəşərilik əvəzinə – Ümumqərb.
Vahid Dünya əvəzinə – Vahid Qərb.
Çoxrəyli Yeknəsəqlik.
Dialektika əvəzinə – İdilliya.
İdeal əvəzinə – Dolanma.
Ruhaniyyat əvəzinə – Dindarlıq.
Razılaşma (konsensus) Pozğunluğu.
İqtisadi Sahiblik əvəzinə – iqtisadi Sahibsizlik.
Mülkiyyət müxtəlifliyi əvəzinə – mülkiyyətsizlik müxtəlifliyi.
İctimaiyyətçilik Zoru əvəzinə – mənafeçilik Zoru.
Plan Zoru əvəzinə – Bazar Zoru.
Xidmət əvəzinə – Mənfəət.
Milli Ədavət İmkanı.
Milli Suverenlik Yalanı.
Təqlidçilik Ləyaqətsizliyi.

*7 Dözüm günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Mitinqlərdə camaat ayağa qalxmadı, ayağa salındı.

*8 Mərhəm günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Stalin Dünyanı barmağına dolamışdı, Qorbaçovşinanı Dünya barmağına dolayıb.

## VƏZİYYƏT

Adamları kommunizm cənnətinə apara bilmədilər, indi kapitalist cənnətinə aparırlar.

## VƏZİYYƏT

Balalarımızı əvvəl rus gülləsi qırdı, sonra şaxsey-vaxsey.

*9 Qismət günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina camaatı Xalq Cəbhəsinin əliylə aldadır, sonra qorxudur.

## QORBAÇOVŞİNA PREZİDENTLİYİ

Yenidənqurma adlanan Anarxiya, Xaos, Gərginliyi qorumaq gərək!

*11 İnam günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Xaosu, Anarxiyanı, Gərginliyi özlərinə Prezident seçdilər.

## HƏQİQƏT

Qorbaçovşina – Qərbin Rusiyaya vurduğu AntiRusiya calağı.

*14 Mərhəm günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## PREZİDENTLİK HƏNGAMƏSİ

Qorbaçovşinanın Xalqdan qorunması.

*19 Arzu günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina "cəsarətinin" arxasında Qorxu dayanır.
Qorxudan "cəsarətlidir" əslində Qorbaçovşina.

## HƏQİQƏT

Allah vergisi olanlara Əzab vergisi düşür Həyatda.

*20 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina kapitalistlərlə bərabər “köhnə sosializmin” ölümünə sevinir.

*24 Murad günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Avropa Pribaltikanı Qorbaçovşinaya qurban verir, çünki Qorbaçovşina Qərbçiliyi ona Pribaltika sərbəstliyindən sərfəlidir.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti Qorbaçovşinadan istifadə eləyib “suverenləşdi”;

Qorbaçovşina Azərbaycan Hökumətinin “Suverenləşməsindən” istifadə edib balalarımıza güllə atdı.

## VƏZİYYƏT

Pribaltika Avropa Evinə ümid bəsləyir, Avropa Evi Qorbaçovşinaya.

*25 İnam günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## İQRAR ƏLİYEVİN “ATROPATENA TARİXİNİN OÇERKİ” KİTABI HAQQINDA

Kitabda Qədim Azərbaycan Türk Dünyasından tam təcrid olunur, bütöv İranlaşır.

Yağılıqdır kitab – ardıcıl, inadlı, iddialı, qəti.

## VƏZİYYƏT

Qərbaçovşina Şərqi Avropanın Qərbə qatılmasına qarşı durmadı – bununla da özünün Qərbə sədaqətini göstərdi.

*26 Arzu günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Litva ayrılmaq üçün ən pis vaxtı seçdi əslində – SSRİ-nin qərbləşməsi məqamını, Qərbə gərəkliyi, köməkliyi vədəsini.

## AMERİKA–SOVET DANIŞIQLARI

Biri-birinə qandırdılar ki, Amerikanın Panamada elədiyini SSRİ Pribaltikada eləyə bilər.

## ÖLÇÜ

Səviyyəli Yalan – Həqiqətə bənzəmək.
Səviyyəsiz Yalan – Həqiqətə bənzəməmək.

## VƏZİYYƏT

Cəfəngiyyatdan böyük Zalımlıq yoxdur əslində, Cəfəng Dövr yaratdı Qorbaçovşina – Zalım.

*27 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## TƏZƏ PRİBALTİKA AQİBƏTİ

Yarı Azadlıq – yarı əsarət.
Yarı müstəqillik – Yarı asılılıq.

## QORBAÇOVŞİNANIN SÜLH NAİLİYYƏTİ

SSRİ – Qərbləşir. Qərb özüylə döyüşmür.

## QAÇQINLAR FƏLAKƏTİ

Stalinin Quraşdırdığı Xalqlar Dostluğundan Qorbaçovun Yenidənqurduğu Yağılıq.

## SSRİ–PRİBALTİKA MÜNASİBƏTLƏRİ

Yenidənqurma çatısı Qorbaçovşinanın boğazına keçib – Qorbaçovşinanı boğur.

Qorbaçovşina Hökmünü boğur.
Qorbaçovşina Əməlini boğur.

Qorbaçovşina Hökmsüzlüyü yaranır.
Qorbaçovşina əməlsizliyi yaranır.

## TƏZƏ BEYNƏLXALQ SİYASƏT

Ölüm vasitəsiylə Ölümdən xilas olmaq.

*8 İnam günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Kütləvi Siyasət – əslində siyasi xurafatdır – Yer cənnətinin siyasi biçimi.

## TƏZƏ SSRİ

Ümumi Bazar əsasında Birləşən – Dəllallar İttifaqı.

## VƏZİYYƏT

Partiyalar – əslində Dəllallardır: Əqidə satıb – Səs alırlar.

## HƏQİQƏT

Hökumət – cəmiyyəti qoruyur, cəmiyyət – oğrudur; Hökumət – Oğrunu qoruyur.

*9 Arzu günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Kommunistləri satan Qorbaçovşina indi kapitalistləri satmağa başlayacaq.

## PARTİYA

Əqidə satıb – hakimiyyət alan.

## VƏZİYYƏT

Seçkidə namizəd ***manekençiləşir:*** əqidəsini təqdim edir, ***kurtizanlaşır:*** özünü təqdim edir.

## ÜMUMBƏŞƏRİ KONSENSUS

Hərtərəfli (Total) satqınlıq.

## FƏRQ

Sosializm – Kapitalistsiz əsarət.
Kapitalizm – kapitalistli Həqarət.

## HƏQİQƏT

Seçki əslində alverdir: istədiyin namizədi al, istəmədiyin namizədi alma.

## HƏQİQƏT

Çoxəqidəlikdə Əqidə Mala çevrilir: istədiyini seç, istədiyini biç.

## HƏQİQƏT

Qərb demokratiyasının əsasında bazar məntiqi durur: çoxmallılıq, rəqabət, alış-veriş.

## FƏRQLƏR

Sosializm – Zindan.
Kapitalizm – Bazar.
Sosial-kapitalizm – həm Zindan, həm Bazar.

## RƏMZLƏR

Qərb azadlığı – Bazar.
Sovet azadlığı – Sürü.

*13 Qismət günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Stalinin qanlı İradəsi.
Qorbaçovun qanlı İradəsizliyi.

*14 Murad günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Sosial-kapitalizm Dövlət kapitalizmini icarələşdirir, təs. hesablaşdırır, “fərdiləşdirir” – ləğv etmir.

Sosial-kapitalizm Dövlət mülkədarlığını icarələşdirir, “fərdiləşdirir” – ləğv etmir.

Kooperativ – əslində Dövlətaltı Mülkiyyətdir.

İcarəçilik, təs. hesabı, “fərdiləşmə”, kooperasiya vasitəsiylə Dövlətçilik qorunur.

*16 Arzu günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Hökumət İslamı dirildir ki, xalqa yalmansın.
Xalqı İslamdan ayırmaq üçün – onu hökumətdən ayırmaq gərək.

Hökumət Suverenitetdən dəm vurur ki, xalqa yalmansın.
Xalqı Yalandan ayırmaq üçün – onu hökumətdən ayırmaq gərək.

Hökumət intibahdan dəm vurur ki, xalqa yalmansın.
Xalqı Siyasi Oyundan ayırmaq üçün – onu hökumətdən ayırmaq gərək.

## VƏZİYYƏT

Avropanın arxasınca düşmək – Sümsüklükdür.

## ERMƏNİ HADİSƏSİ

Məzlumluq biçimində Azğınlıq; İstiqlaliyyət biçimində Qəsbkarlıq, Ədalət biçimində Küdurət; Ləyaqətdən keçmək – Bədniyyətdən keçməmək.

## QARABAĞ PROBLEMİNİN HƏLLİ

***Birinci mərhələ:*** Vilayəti Azərbaycan ərazisində saxlamaq.

***İkinci mərhələ:*** Vilayəti Azərbaycanlaşdırmaq: demoqrafik vəziyyəti kökündən dəyişmək.

***Üçüncü mərhələ:*** Yağıyla döyüşmək.

## XƏTT

Hökuməti – Mərkəzdən qopartmaq, Fəhlədən ayırmaq, Kəndlidən ayırmaq, Ziyalıdan ayırmaq – ləğv eləmək.

## QDLYAN–İVANOV HADİSƏSİ

Qorbaçovşinanın yetirdiyi – yedirtdiyi.

## QORBAÇOVŞİNA DÜNYƏVİLİYİ

Bir Dünya Sabun Köpüyü.

## QORBAÇOVŞİNA GERÇƏKLİYİ

Qanlı cəfəngiyyat.

## HƏQİQƏT

Dəyişilən Əxlaq – Əxlaq deyil.
Şəraitləşən Əxlaq – Əxlaq deyil.
Sinifləşən Əxlaq – Əxlaq deyil.
Zamanlaşan Əxlaq – Əxlaq deyil.
Marksizm – Əxlaqsızlıqdır.

*18 Dözüm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## TƏZƏ İCTİMAİ HADİSƏ

Cəfəngdarlıq.

## YUXULAR.

Qərb Yuxusu – Madiyyatçılıq.
Şərq Yuxusu – Təlqidçilik.

## VƏZİYYƏT

Qorbaçovşina milli şüurlu oyatmır – oynadır.

## VƏZİYYƏT

Qorbaçovşinanın yaratdığı – Xaos, yarağı – Xaos.

## QORBAÇOVŞİNA SÜLHÜ

Qərb Dava vasitəsiylə çatacağı Məqsədə – Sülh vasitəsiylə çatır: SSRİ – Qərbləşir.

*19 Mərhəm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## TƏZƏ KOMSOMOL

Gənclərin sosial – kapitalist təşkilatı.

## QOBAÇOVUN LENİN HAQQINDA NİTQİ

"Yaşasın Yenidənqurma!"
"Yaşasın Qorbaçovşina!"
"Lenin SSRİ-də ilk sosial-kapitalist imiş"

*20 Qismət günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## İNQİLABİ DƏYİŞİKLİK

Fəhlə və Kəndli birliyi əvəzinə – Siyasətbaz və Dəllal birliyi.

## VƏZİYYƏT

Qorbaçovşina çərçivəsində Suverenitet – Xaotik Suverenitet, yəni mahiyyətcə Antisuverenitet.

## VƏZİYYƏT

Qorbaçovşinanı tərifləməklə Qərb öz əzəli xudbinliyini nümayiş etdirir: qərbləşməni tərifləyir, təqlidçilik təlqin eləyir Sovet əhalisinə – məkrcəsinə.

## VƏZİYYƏT

Litva millətçiliyinə göz yumdular ki, Litva SSRİ-dən ayrılmasın.

Litva millətçiliyinə göz yumduqları üçün Litva SSRİ-dən ayrıldı.

## QORBAÇOVŞİNA HƏKİMLİYİ

Imkan yaradır ki, xəstəlik bədəni tam əldən salsın – onda başlayır sağaltma əməlinə.

## QORBAÇOVŞİNA XƏTTİ

Uçuruma cəsarətlə, inamla düşür.
Uçuruma düşməyincə – Uçurumu görmür.
Uçurumçuluğu Quruculuq kimi təqdim eləyir –
Uçurumu qoruyur.

## VƏZİYYƏT

Qorbaçovşina Qeyri-formallardan əl çəkə bilməz – onda demokratiya oyunu pozular.

Qorbaçovşina Qeyri-formallara boy verə bilməz – onda hakimiyyəti itirər.

***Fənalı vəziyyətə salıb özünü – Qorbaçovşina.***

## SİYASİ TEATR

Rejissyor – Qərb.
Aktyorlar: SSRİ-nin başçılığıyla sosialist ölkələri.
Tamaşaçı: Şərq.

## VƏZİYYƏT

Yenidənqurma ətrafında birləşən "bütün sağlam qüvvələr" biri-birini didirlər.

## QİYMƏT

Lenini Sovet Dövlətinin banisi sayırlar və Sovet Dövlətini Totalitar Dövlət adlandırırlar.

Lenini Kommunist Partityasının banisi sayırlar və Kommunist Partiyasını Totalitar Partiya adlandırırlar.

Lenini tərifləyə-tərifləyə inkar edirlər əslində.

## VƏZİYYƏT

Qorbaçovşina Partiyanı Qeyri-Formallarla döyüşməyə qoymur; Qeyri-Formallar Partiyanı döyəndə günahı Partiyanın üstünə yıxır, onu fəalsızlıqda günahlandırır.

## LİTVA HADİSƏSİ

Qorbaçovşina "Sayudis"i Respublika Hökumətindən qorudu, özünü "Sayudis"dən qoruya bilmədi; "Sayudis" Qorbaçovşina vasitəsiylə Litva hökumətini iflic elədi – hakimiyyətə gəldi və Litvanı SSRİ-dən ayırdı: Qorbaçovşina qətiyyətlə aldandı; və hiddətlənib zorakı metodlara əl atmalı oldu. Qorbaçovşina Litvayla oynamaq istədi – oynadıldı, həm "demokratiyanın" iç üzü açıldı; həm də yenidənqurmanın daxili siyasəti iflasa uğradı.

## VƏZİYYƏT

Qorbaçovşina Müstəqillik sözünü qəbul eləyir – müstəqilliyin özünü qəbul eləmir.

Qorbaçovşina Suverenlik sözünü qəbul eləyir – Suverenliyin özünü qəbul eləmir.

Qorbaçovşina İstiqlaliyyət sözünü qəbul eləyir – İstiqlaliyyətin özünü qəbul eləmir.

Qorbaçovşina Müstəqilliyi – müstəqilliyin özünə qədər qəbul eləyir.

Qorbaçovşina Suverenliyi – Suverenliyin özünə qədər qəbul eləyir.

Qorbaçovşina İstiqlaliyyəti – İstiqlaliyyətin özünə qədər qəbul eləyir.

## KÖRPÜ

"Prinsipdə Güzəşt yoxdur!" – deyirlər və Prinsipdə Güzəştə gedirlər.

"Əqidədə güzəşt yoxdur!" – deyirlər və Əqidədə güzəştə gedirlər.

***Xəyanətdən körpü düzəldirlər Konsensus adında.***

## ÖLDÜRÜCÜ MƏNTİQ

.Əgər xüsusi demokratik, humanist sosializm varsa – deməli, sosializm özü-özlüyündə – demokratiya demək deyil, humanizm demək deyil; deməli, antidemokratik, antihumanist sosializm də ola bilər; deməli, Stalinizmin sosializmi təhrif etməsi iddiasi yalanmış, Stalin – antidemokratik, antihumanist soializm yaradıcısıdır.

Öz məntiqindən özünə ölüm yaradır yenidənqurmaçılar – özlərini öldürürlər.

## QORBAÇOVŞİNA ÇEVİKLİYİ

Sədaqəti çevikləşdirib – Xəyanətə çevirdi.
Ləyaqəti çevikləşdirib – Qəbahətə çevirdi.
Qaydanı çevikləşdirib – Anarxiyaya çevirdi.

## VƏZİYYƏT

Camaatı Siyasi Oyunçulara tapşırırlar, Dəllallara tapşırırlar, Dinçilərə tapşırırlar – sonra da Xalq İradəsindən danışırlar.

Xalqı Siyasi Oyunçulardan ayırmadan – Xalq İradəsindən danışmaq – Qəbahətdir.

Xalqı Dəllallardan ayırmadan – Xalq İradəsindən danışmaq – Qəbahətdir.

Xalqı Dinçilərdən ayırmadan – Xalq İradəsindən danışmaq – – Qəbahətdir.

## VƏZİYYƏT

Qorbaçovşinanın özünə inamı əsassızdır – bu səbəbdən də aldanılır.

## YENİDƏNQURMA YOLU

Yalançı Əqidədən – Əqidəsizliyə.
Zorakı Dostluqdan – Yağılığa.
Süni Birlikdən – Ayrılığa.

*21 Murad günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## YALAN

Prinsipial güzəşti rədd edirlər, həm də güzəştə çağırırlar.
Əgər güzəşt prinsipial deyilsə – onda o, Yalandır.
Əgər güzəşt prinsipialdırsa, – o, Təslimçilikdir.

## HƏQİQƏT

Bugünkü fəlakətlərin Baisi – Yenidənqurma.

## VƏZİYYƏT

Camaatı siyasətləşdirdilər – Oyunlaşdırdılar.

## VƏZİYYƏT

Qorbaçovşinanın səyiylə Litva Kompartiyası "Sayudis"dən asılı vəziyyətdə qaldı; və sonra Qorbaçovşina bunu Litva Kompartiyasına bağışlamadı.

## QORBAÇOVŞİNA ÖLÇÜSÜ

Birsifətlik – Gerilikdir.
Minsifətlik – Qabaqcıllıqdır.

## VƏZİYYƏT

Qorbaçovşinanın Sütunu yoxdur – bu səbəbdən də o, Yiyələrinin başına uçur.

## YENİDƏNQURMA ƏXLAQI

Sədaqətlə Xəyanət arasında Sədd götürüldü.
Etiqadla Etiqadsızlıq arasında Sədd götürüldü.
Ləyaqətlə Ləyaqətsizlik arasında Sədd götürüldü.
Əxlaqsızlıq İnqilabı baş verdi – Haytalı!
Çevik Sədaqət yarandı.
Çevik Etiqad yarandı.
Çevik Ləyaqət yarandı.

## VƏZİYYƏT

Cavanlarımız Azan sədası altında marksizm dərsi keçirlər, şaxsey-vaxsey sədası altında nikbinlik öyrənirlər.

## VƏZİYYƏT

Partiyanı Qeyri-Formallara döydürür, sonra Partiyanı döyür.

Güzəşt hökmü verir Partiyaya, sonra onu Güzəştdə təqsirləndirir.

"Gerçəkliyə uyğunlaşın!" – deyir və Uyğunlaşanları Fəalsızlıqda ittiham eləyir.

## VƏZİYYƏT

Millətçiliklə Beynəlmiləlçiliyi "Razılaşdırırlar."

Ateistlərlə Dinçiləri "Razılaşdırırlar."

Sosialistlərlə kapitalistləri "Razılaşdırırlar."

Millətçi Beynəlmiləlçiliklə razılaşanda – millətçi olmur və əksinə.

Ateist Dinçiylə razılaşanda – ateist olmur və əksinə.

Sosialist Kapitalistlə razılaşanda – sosialist olmur və əksinə.

Zəngin Yoxlar yaradırlar Qorbaçovçular – Qəddar.

## VƏZİYYƏT

Aramsız, Ardıcıl, Səxavətli Jestlərlə Litvalıları “Sayudis”ləşdirdilər – indi “antisayudis”ləşdirə bilmirlər.

“Sayudis”ləşməni Qorbaçovlaşma saydılar – indi Qorbaçovşinanı “Sayudis”dən qoruyurlar.

## VƏZİYYƏT

Qorbaçovşina Litva Kompartiyasının yedəyini “Sayudisə” verdi – “Sayudis” atı Qorbaçovşinanın əlindən aldı.

## ƏMƏL

Yenidənqurma fəlakətini yenidənqurmaya qarşı çevirməli – yenidənqurma fəlakətindən xilas olmalı!

## YALAN

“Yenidənqurma məhv olur!” – deyə camaatı qorxuzur.

“Yenidənqurma – məhv olmaqdır!” – demir.

## VƏZİYYƏT

Qorbaçovşina öz “Sayudis”indən inciyib – “Sayudis” gərək litvanı SSRİ-dən çıxarmayaydı, Qorbaçovşinaya xələl gətirməyəydi – Partiyanın başına çıxdığı bəsdir, burjualaşdığı bəsdir, rusların üzünə tüpürməyi bəsdir.

## MÜNASİBƏT

Özünə lazım olduğu dərəcədə Lenini saxlayır.
Özünə lazım olmadığı dərəcədə Lenindən keçir.

## VƏZİYYƏT

Qorbaçovşina təzə Zor – Güzəşt Zoru yaratdı – Təslimçi.

Qorbaçovşina təzə Zor – Uyğunlaşma Zoru yaratdı – Təslimçi.

Qorbaçovşina təzə Zor – Razılaşma Zoru yaratdı – Təslimçi.

***Təslimçilikdən böyük Şər yoxdur - əslində.***

## VƏZİYYƏT

Burjua Litvasına qarşı deyil Qorbaçovşina – Müstəqil Litvaya qarşıdır:

Burjua yağısı deyil Qorbaçovşina – Sosial-kapitalizm Burjuaya mərhəmdir – Ayrılma Yağısıdır: Burjua Litvasına gözü üstə yeri var Qorbaçovşinanın – SSRİ çərçivəsində.

## VƏZİYYƏT

Qorbaçovşina "Sayudis"i özününkü saydı, Litvanı ona tapşırdı; "Sayudis" özgə çıxdı, Litvanı Qorbaçovşinadan aldı; İndi Qorbaçovşina "möhkəm siyasət"ə əl atır ki, Bədnamlıqdan qurtara bilsin.

## VƏZİYYƏT

Əslində Qorbaçovşina Partiyanı atmağa hazırdır, çünki Qorbaçovşinanın özündən başqa Əqidəsi yoxdur.

## SƏBƏB – NƏTİCƏ

Qorbaçovşina əvvəl Partiyanı Fəalsızlaşdırır – sonra Onu Fəalsızlıq üstə Danlayır və beləliklə də Təqsiri özündən uzaqlaşdırır.

## HƏQİQƏT

Qorbaçovşina Hakimiyyəti sevir, Şöhrəti sevir – bundan başqa heç nəyi sevmir.

## VƏZİYYƏT

Qorbaçovşina Ehkamçılığa qarşı döyüşmür – Əqidəçiliyə qarşı döyüşür.

Qorbaçovşina Ehkamsızlıq yaratmır – Əqidəsizlik yaradır.

***Qorbaçovşina Əqidəsizlik Ehkamı yaradır.***

*22 İnam günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## ƏLAQƏ

Vəzifəpərəst Ziyalı – Hökumətpərəst Camaat.

*24 Ümid günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## AZƏRBAYCAN SOVET PREZİDENTLİYİ

Xalqa Müstəqillik Yalanı təqdim etmək, Qoltuğu xalqdan qorumaq, – milliləşdirmək.

*11 Qismət günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Mütəllibovşina Mərkəzi – Mərkəzin adamı kimi tənqid edir.

Mütəllibovşina Xalqı – Mərkəzin adamı kimi qoruyur.

Əslində Mütəllibovşina Mərkəzi Xalqdan qoruyur.

Əslində Mütəllibovşina Mərkəz vasitəsiylə xalqdan qorunur.

## VƏZİYYƏT

Parlamentçilik – Xalqın İradəsini yox, İradəsizliyini ifadə eləyir əslində.

***İradə – birdir, İradəsizlik min.***

## VƏZİYYƏT

Hakimiyyət uğrunda döyüşəcəklər, Mərkəzə döyüləcəklər, camaatı döyəcəklər.

## FƏRQ

Stalinizm – Gerçəkliyi əsir alan.
Qorbaçovşina – Gerçəkliyə əsir düşən.

## VƏZİYYƏT

Qələbə Bayramından Yas günü yaratdı Qorbaçovşina – özünü Yasdan qurtaran göstərmək üçün.

## VƏZİYYƏT

Pribaltika məğlub olsa – Qorbaçovşina demokratiyası məğlub olacaq.

Pribaltika qalib gəlsə – Qorbaçovşina prezidentliyi məğlub olacaq.

***Qorbaçovşinada Prezidentlik Demokratiyanı rədd edir.***

## VƏZİYYƏT

Qorbaçovşinanı yaşadan İflasdır. İflas ölsə – Qorbaçovşina da ölər.

## VƏZİYYƏT

Qarabağ fəlakəti vasitəsiylə Hökumətlə camaatın birliyini yaradırlar hökumətçilər – fəlakət üstünə fəlakət gətirirlər.

## MÜASİR ƏXLAQ

Təvazökarlıq – Xudbinlik Üsulu.
Lovğalıq – Xudbinlik Üsulsuzluğu.

## VƏZİYYƏT

Birləşmiş Almaniya – Sabahın Amerikadan sonra ikinci Fövqəldövləti.

*12 Murad günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Dönüklükdən böyük müdriklik tanımır Qorbaçovşina.

## TƏZƏ İQTİSADİ XİLAS

"Əvvəl ölək ki, sonra dirilək!"

## VƏZİYYƏT

Çoxrəylikdə Həqiqətə Həsəd yaşayır.

## VƏZİYYƏT

Dünəni pisləməkdən böyük qüdrəti yoxdur Qorbaçovşinanın.

## VƏZİYYƏT

Şərqi Avropanın SSRİ-ləşmə imkanı yaranmışdı, indi SSRİ-nin Şərqi Avropalaşma imkanı yaranır.

*13 İnam günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Konservatorlardan əl çəksə – Radikallar onu yeyər, Radikallardan əl çəksə – Konservatorlar onu yeyər.

Bu səbəbdən də o, Konservatorlarla Radikallar arasında gəzişir ki, sağ qalsın.

## MÜTƏLLİBOVUN SEÇKİQABAĞI GƏZİNTİLƏRİ

Camaatın xilaskarı görünür, Mərkəzi camaatdan xilas eləyən bilinir.

*14 Arzu günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina İflasını başa düşən var – Qorbaçovşina İblisliyini başa düşən yoxdur.

*17 Mərhəm günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

28 aprel 28 mayın – Yasıdır.

28 may bayramlaşırsa – 28 aprel yaslaşmalıdır.

Kommunist öz qələbəsinə yas saxlamalıdır – düşmən qələbəsini bayram eləmək üçün.

## HƏQİQƏT

Müsavat Hökumətini kommunistlər devirdilər.

Kommunistləri devirmədən Müsavatı diriltmək – siyasi oyundur.

Qatillikdən Varislik düzəldirlər siyasətbazlar.

## VƏZİYYƏT

Milli görünmək naminə Müsavatı bayramlaşdırır; ermənini, gürcünü təqlid eləyir – xalqla təzə siyasi oyun oynayır ***Yad*** – Yağısına yalmanır indi də.

*28 Arzu günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Azərbaycanda "təzə Türkləşmə" əslində təzə Qərbləşmədir.

*30 Dözüm günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Stalini devirdilər – Yenidənqurmadan təzə Stalin düzəldirlər.

## VƏZİYYƏT

Bir vaxt sosialist idilliyası yaratmışdılar – indi kapitalist idilliyası yaradırlar sosialistlər.

## HƏQİQƏT

Qərb demokratiyası – siyasi bütpərəstlikdir.

*5 Ümid günü, Şölə Ayı, 12-ci il. Bakı.*

## MARQARET TETÇERİN TƏZƏ RUSİYA SƏFƏRİ

Marqaret Tetçer Qorbaçovun əliylə Rusiyanı uçurur.
Marqaret Tetçer öz əliylə Rusiyanı uçurur.

## MÜTƏLLİBOVŞİNA XƏTTİ

"Müstəqil" Mərkəzçilik.
Mərkəzçi "Xalqçılıq".

## QORBAÇOVUN AMERİKA SƏFƏRİ

Özünə Yiyə axtarır Rusiaynın Yiyəsi.

## VƏZİYYƏT

Yelsin Rusiyadan Mərkəzüstü ölkə düzəltmək istəyir – Sərməstcəsinə.

*11 Arzu günü, Şölə Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşinanı Sağdan Sağçılar qoruyur, soldan solçular.

Bu səbəbdən də Qorbaçovşina sağçıları solçulardan qoruyur, solçuları sağçılardan.

## VƏZİYYƏT

Bazar iqtisadiyyatı – Adamın Dəllallıq Haqqını qoruyur.
Çoxpartiyalıq – Cəmiyyətin Xaos Haqqını qoruyur.

## VƏZİYYƏT

Yenidənqurmada əməkçi Mülkiyyətin Sahibi olmur, Mülkiyyətə satılır.

*30 Murad günü, Şölə Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşinada Zor Xaosu ləğv etmir – Yaşadır,
Zorla Xaosun Birliyi Yaranır – Fəlakətli.

## VƏZİYYƏT

Qorbaçovşina Şərqi Avropanı Qərbə qurban verdi – Qərb Evinə daxil olmaq üçün.

***Sovet Münhençiliyi Yarandı – Murdar.***

*3 Ümid günü, Od Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Qorbaçovşina – SSRİ dənizinin Avropa köpüyü.

*12 Mərhəm günü, Od Ayı, 12-ci il. Bakı.*

## 28-ci PARTİYA QURULTAYININ NƏTİCƏSİ

Kommunist – Kapitalist Partiyasının təsis olunması.

## LƏYAQƏT

Azərbaycan Hökuməti – SSRİ tərkibindən çıxacağını haraylayır – Mərkəz buna məhəl qoymur.

Azərbaycan Hökuməti – Mərkəzdən 20 Yanvar hadisələrinə siyasi qiymət vermək tələb eləyir – Mərkəz buna məhəl qoymur.

Azərbaycan Hökuməti – prezidentdən erməni quldurlarına qarşı tədbir görməyi tələb edir – Prezident buna məhəl qoymur.

Azərbaycan nümayəndə heyəti – Partiya Qurultayından erməni caniliyinin siyasi pislənməsini tələb eləyir – Qurultay buna məhəl qoymur.

Respublikanın birinci katibi Qorbaçovşinanı tənqid eləyir – Sumqayıtın birinci katibi Qorbaçovun namizədliyini irəli sürür. – Tarazlıq yaradırlar "qoçaqlıqla" qaçaqlıq arasında.

Ləyaqətsilzikdən "böyük siyasət" düzəldirlər. Əslində ləyaqətsizlik – Mənəvi Həqarət olduğu kimi – həm də siyasi naşılıqdır.

Siyasət Gücə tabe olur – Gücsüzü tapdalayır.

## VƏZİYYƏT

"Təzə sosializm ideologiyası" sosializm qalıqlarıyla döyüşür.

## YENİ HADİSƏ

Yenidənqurmanın Cəfəng mənası.

*13 Qismət günü, Od Ayı, 12-ci il. Bakı.*

## PARTİYANIN GƏNCLİK PROQRAMI HAQQINDA

Gəncliyi Dövlətin ayağına bağlayırlar, partiyanın ayağına bağlayırlar, Gəncliyin aqibətini Gənclikdən ayırırlar, Gəncliyə sədəqə verirlər – Müstəqil Gənclik Birliyi gərək – Dövlətdən, partiyadan asılı olmayan – Özünə arxalanan.

## MÜSTƏQİL GƏNCLİK BİRLİYİ

1. Özünü müdafiə eləmək.

2. Yurdu müdafiə eləmək.

3. Ruhaniyyatı müdafiə eləmək.

**VƏZİYYƏT**

SSRİ-dən cəfəngistan düzəldir Qorbaçovşina.

**CƏFƏNG VƏZİYYƏT**

"İnternasional" himninin Sədaları altında kapitalizmə qatıldılar kommunistlər Qurultayda.

**TƏZƏ NİTQ ÜSULU**

Əvvəl diş qıcardır ki, sonda quyruq bulasın.

**VƏZİYYƏT**

Yenidənqurma əməkhaqqıyla yaşayanlara gülür.

**VƏZİYYƏT**

"İkinci sosialist inqilabında" – sosialistcəsinə deyilsə – burjua parlamentarizmi və burjua iqtisadiyyatı bərqərar olundu...

İkinci sosialist inqilabi əslində kapitalist əksinqilabı oldu.

**SİYASİ TƏNZİM**

Konservator – sosializm qalıqlarını qoruyan.

Radikal – sosializm qalıqlarından qorunan.

**VƏZİYYƏT**

Kapitalizm başçıları Qorbaçovşina sosializmini qardaşcasına alqışlayırlar.

**VƏZİYYƏT**

Qorbaçovşina sosializmi – kapitalizmin müttəfiqi, sosializmin düşməni.

## VƏZİYYƏT

Ölkəni yedirdən Kəndli – Özünə Sahib ola bilməz. Özünü yedirən Kəndli – Özünə Sahib ola bilər.

Ölkəni saxlayan Fəhlə – Özünə Sahib ola bilməz. özünü saxlayan Fəhlə – Özünə Sahib ola bilər.

## VƏZİYYƏT

Qorbaçovşina Kəndliyə cəmiyyətin nökəri kimi baxır. Nökəri yaxşı saxlamağa çağırır.

Qorbaçovşina Fəhləyə cəmiyyətin nökəri kimi baxır. Nökəri yaxşı saxlamağa çağırır.

Kəndli, Fəhlə siyasətin ünsürünə çevrilir.

## VƏZİYYƏT

Qorbaçovşina – Kapitalizmin xeyrinə olan sosialist inqilabı...

## VƏZİYYƏT

Bazar İqtisadiyyatında Tələbatçı – Ağadır, Əməkçi – Nökər: Tələbatçı hökm eləyir, Əməkçi Hökmə əməl eləyir.

## HƏQİQƏT

İqtisadi İslahat – Əməkçini Plan məngənəsindən çıxarıb – Bazar Həngaməsinə salır.

## HƏQİQƏT

Dəllalxana – özü də Zindanxanadır.

## VƏZİYYƏT

Bazar iqtisadiyyatı vasitəsiylə əməyi səmərələşdirmək – əməyi dəllallaşdırmaqdır – bunun mənəvi zərəri maddi faydasını üstələyəcək və son nəticədə heçə endirəcək.

## VƏZİYYƏT

Bazar İqtisadiyyatında Bazar Əməkçidən yox, Əməkçi Bazardan asılı olur:

***Bazar Əməkçini İdarə edir.***

## VƏZİYYƏT

Bazardan asılı olan Əməkçi ya özü Dəllal olmalıdır, ya da Dəllaldan asılı olmalıdır.

## VƏZİYYƏT

Stalinizm əməkçini Dövlətin ayağına bağlayırdı, Qorbaçovşina Əməkçini Dəllalın ayağına bağlayır.

*14 Murad günü, Od Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əqidə olan yerdə – Düşmən var.
***Düşmənsizlik – Əqidəsizlikdir.***

## VƏZİYYƏT

Qorbaçovşinanın açıq demədiyini Televiziya açıq deyir: "Kapitalizmdən əskiyik: erotikamız yoxdur, varidatçılığımız yoxdur, kommersantlığımız yoxdur – yeni yol axtarmaqda səhv eləmişik – kapitalizmə qayıtmalıyıq."

## VƏZİYYƏT

Qurultayın Proqram Bəyanatında sosializm bərabərdir:

1. Parlamentarizmə.
2. İqtisadi Plüralizmə.
3. Siyasi plüralizmə – yəni əslində Kapitalizmə.

Ümumrifah cəmiyyətinə havalanırlar "təzə kommunistlər" – Amerika sayağı – kapitalist tərəqqisinə.

## ƏXLAQSIZLIQ ÖLÇÜSÜ

Qabaqcıl həyasızlar, gerilikçi həyalılar.

## HƏQİQƏT

Həqiqətçinin Həqiqətdən başqa müttəfiqi yoxdur.

## HƏQİQƏT

Marksizm – Utopik “Elm”.
Qorbaçovşina – Utopik Elmsizlik.

## VƏZİYYƏT

Mütəllibovşina gözünü Mərkəzə dikib, üzünü Avropaya tutub, əlini İslama uzadıb.

## HƏQİQƏT

Barışqan adam – Sürüşkən adam.

## NİKBİNLİK

“Əxlaqsızlıq Avropanı öldürmədi – səni də öldürməz!”

## “VƏZİYYƏT”

Kommunistlərin Proqram Bəyanatında “Bütün dünya kapitalistləri birləşin!” şüarı çatışmırdı.

## VƏZİYYƏT

Təzə Federasiya – Vahid Dövlət kimi düşünülüb. O həm də Müstəqil Dövlətlər Birliyi kimi təqdim olunur.

Deməli, Dövlətlər Dövləti yaranır – Xalqlar İki Dövlətliyi – əslində Dövlətsizliyi bərqərar olunur.

İkibaşlı Bədən eybəcərliyi görünür. Xalqın çiyninə iki Yük düşür birdən.

## VƏZİYYƏT

Əgər Federasiya Vahid Dövlət deyilsə, o, nəyə lazımdır?

Əgər hər Dövlət müstəqildirsə, ona Federasiya nəyə lazımdır?

## QORBAÇOVŞİNA STEREOTİPLƏRİ

Konsensus (Razılaşma) – Kapitalistləşmək.
Mənafe Balansı – Kapitalistləşmək.
Təzə Siyasi Şüur – Kapitalistləşmək.
Ümumbəşərilik Prioriteti – Kapitalistləşmək.

## VƏZİYYƏT

Qorbaçovşinanın "Vətəndaşlıq Razılığı" – Vətəndaşların Kapitalizmlə razılaşması siyasətidir əslində – cəmiyyəti kapitalizmə çağırmaqdır mahiyyətcə.

## VƏZİYYƏT

Qorbaçovşina "siyasi qüvvələri" kapitalizm əsasında birləşdirir – həm də kapitalizmə qayıtmaq təmayülünə qarşı çıxır – riyakarlıq Qorbaçovşinanın əsas Atributudur – bunsuz o, yaşaya bilməz.

## QORBAÇOVŞİNA YOLU

Totalitarizmdən (Dövlətçilikdən) – Kapitalizmə: Hüquqsuzluqdan – Ruhsuzluğa.

## VƏZİYYƏT

Şərqi Avropa Qorbaçovşinanın arxasına düşüb – kapitalizmə doğru yüyürür.

## HƏQİQƏT

"Konkret şəraitin konkret təhlili" – ideoloji Postulat (Müddəa) deyil, ibtidai özünümühafizə xəttidir...

## VƏZİYYƏT

Əgər Qorbaçovşina Qərbi aldadırsa – o, Səfehdir.
Əgər Qorbaçovşina Ölkəni Qərbləşdirirsə – o, Xaindir.

## HƏQİQƏT

Xeyirin Şərlə döyüşü – əbədidir, təbiidir.

Şərin Şərlə döyüşü – keçicidir, sünidir.

Şər Şərlə birləşməlidir – Qorbaçovşinanı bu tələb yaratdı, Qorbaççovşina bu tələbi həyata keçirir.

***Xeyir Şərə qarşı durmasa – Dünya Şərləşər.***

## QORBAÇOVŞİNA ƏMƏLİ

Kapitalizmə sığınırlar, bağlanırlar, kapitalizmə yarayırlar, kapitalizm tərəfindən qorunurlar kommunistlər – Kapitalistlərin qoruduğu sosializm qururlar.

## VƏZİYYƏT

Qorbaçovşina “sosializm nicatı” əsatirini “kapitalizm nicatı” əsatiriylə əvəz etdi.

## VƏZİYYƏT

“Demokratik hərəkat” – kapitalizm istəyir.

“Sosial-demokratlar” – kapitalizm istəyirlər.

“Demokartik platforma” – kapitalizm istəyir.

Qorbaçovşina – kapitalizm istəyir.

***Bu səbəbdən də Qorbaçovun siyasi rəqibi yoxdur əslində – hakimiyyət rəqibi var.***

## HƏQİQƏT

Əsil antisosializm – həm də antikapitalizmdir.

Bu səbəbdən də Qorbaçovşinanın kapitalist antisosializmi – dəhşətli murdarlıqdır.

Əsil antimarksizm – həm də antikapitalizmdir.

Bu səbəbdən də Qorbaçovşinanın kapitalist antimarksizmi dəhşətli murdarlıqdır.

## HƏQİQƏT

Marksizmdə Ehkamçılıqla döyüşmək – Qorbaçovşina əməlində Marksizmin antikapitalistçiliyiylə döyüşmək deməkdir.

Marksizmdən Praqmatik prinsip götürür Qorbaçovşina – kapitalizmə yarayan – əslində marksizmi inkar edir "marksist" – çünki marksizm antikapitalist kommunizm deməkdir – Qorbaçovşina isə ***cəfəng,*** kapitalist kommunizmdir.

## QORBAÇOVŞİNA İNAMI

Kapitalizmlə sosializm əl-ələ verib – kommunizmə gələcəklər.

## HƏQİQƏT

Qarşıdurma siyasətindən əl çəkmək – Dünyanı kapitalizmə tapşırmaqdır.

## VƏZİYYƏT

Kapitalist Əxlaqı – ayda 4000 manat maaş.

## VƏZİYYƏT

İki prezidentlik – ikiatalıq kimi bir şeydir.

## VƏZİYYƏT

Əgər Respublika Suveren olacaqsa – Federasiya (Konfederasiya) onun nəyinə lazımdır?

Əgər Respublika Suveren olacaqsa o, Federasiyanın (Konfederasiyanın) nəyinə lazımdır?

## VƏZİYYƏT

"Biz Amerikanı özümüzə düşmən saymırıq!" – deyir Qorbaçov.

Bu "Biz özümüzü kommunist saymırıq!" – deməkdir əslində.

"Biz SSRİ-ni özümüzə düşmən saymırıq!" – deyir Buş.

Bu "Sizi kommunist saymırıq!" – deməkdir əslində.

## VƏZİYYƏT

Sosialist yeniləşməsi – kapitalist köhnəlməsi oldu əslində.

## VƏZİYYƏT

Kommunizmi yeganə magistral yol sayanlar – indi kapitalizmi yeganə magistral yol sayırlar.

Yol müxtəlifliyindən qaçırlar.

*15 İnam günü, Od Ayı, 12-ci il. Bakı.*

## QORBAÇOVŞİNA İQTİSADİYYATI

1. Dövlət Mülkiyyəti – Əməkçi Mülkiyyətinə çevrilmir, əməkçi Mülkiyyəti təsəvvürünə çevrilir.

2. Kooperativ Mülkiyyət – əslində Xüsusi mülkiyyətdir – İctimai Mülkiyyətdən Fərqli.

3. Əməkçi Xüsusi Mülkiyyəti Dövlət Mülkiyyətinin artığı kimi, Dövlət Zəkatı kimi bəxş olunur zəhmətkeşə.

***Kapitalistləşmənin əsas İqtisadi mənbəyi – Kooperativ Mülkiyyətidir – Əməkçini soyan.***

*16 Arzu günü, Od Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Mütəllibovşinanın İslamçılarla Seçkiqabağı Məscid Görüşü – mahiyyətcə Siyasi iflasdır.

*19 Mərhəm günü, Od Ayı, 12-ci il. Bakı.*

## MƏRHƏLƏLƏR

Lenin partiyası – Demaqoq.
Stalin partiyası – Qəddar.
Qorbaçov partiyası – Riyakar.

## MƏRHƏLƏLƏR

Lenin Rusiyanı Təhlükəyə saldı.
Stalin Rusiyadan Dünya üçün Təhlükə yaratdı.
Qorbaçov Riyakar Rusiya yaradır.

## VƏZİYYƏT

Qorbaçovşinanın Avropa siyasəti – Avropalaşma.
Qorbaçovşinanın Şərq siyasəti – Avropalaşma.

*20 Qismət günü, Od Ayı, 12-ci il. Bakı.*

## QORBAÇOVŞİNA SABAHI

Anarxiya artdıqca – Zor artacaq.
Anarxiya Zoru artacaq.
Zor Anarxiyası artacaq.

## HƏQİQƏT

Həyat ölümə apardığı dərəcədə çirkindir.
Həyat ölümdən ayırdığı dərəcədə gözəldir.

## QORBAÇOVŞİNA KONFEDERASİYASI

Yalançı Suverenitet + Anarxiya və Xaos.

## SSRİ-nin QORBAÇOVŞİNA SABAHI

On beş Müstəqil Dövlətdən ibarət olan bir Müstəqil Dövlət cəfəngiyyatı.

On beş ikibaşlı Dövlət cəfəngiyyatı.

## QORBAÇOVŞİNA "İDEOLOGİYASI"

Kapitalistləşmənin İdeallaşması.

## VƏZİYYƏT

Konfederasiya – SSRİ tərkibində qalmağı Cəfəng eləyir.

## VƏZİYYƏT

Çox Qan tökəcək Cəfəngiyyat, çox Qan töküləcək Cəfəngiyyatdan.

## VƏZİYYƏT

Sosializm – Zorakı Ruhsuzluq.

Kapitalizm – Könüllü Ruhsuzluq.
Sosial-Kapitalizm – Zorakı-Könüllü Ruhsuzluq.

*23 Arzu günü, Od Ayı, 12-ci il. Bakı.*

**VƏZİYYƏT**

Qarşılıqlı əlaqə əslində – Qarşılıqsız asılılıq deməkdir.

**VƏZİYYƏT**

Ümumi Ev – Evsizlik.
Ümumi Avropa Evi – ÜmumAvropa Evsizliyi.

**VƏZİYYƏT**

İqtisadi İnteqrasiya (Birlik) – İqtisadi Təcavüz.

**VƏZİYYƏT**

Vahid Sivilizasiya – Vahid Ruhsuzluq.

**VƏZİYYƏT**

Əməkçi İqtisadiyyatı yaratmırlar – Dəllal İqtisadiyyatı yaradırlar – Yenidənqurmaçılar.

Əməkçini Dövlətdən alıb Dəllala tapşırırlar.

Zora tapınanlar – indi Dəllallığa tapınırlar.

**VƏZİYYƏT**

Dəllallıq artımında Mənəvi qıtlıq bollanacaq.

**VƏZİYYƏT**

Kilsə – Qorbaçovşina kapitalizmini qoruyacaq, Məscid – Qorbaçovşina kapitalizmini qoruyacaq – Ruhsuzcasına.

**VƏZİYYƏT**

Mütəllibovşina – Mərkəzlə “döyüşən” və respublikanı Mərkəzə bağlayan siyasət.

*27 Qismət günü, Od Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Millətçiliyi yaradan Beynəlmiləlçilikdir.
Beynəlmiləlçilik olmasa – millətçilik olmaz.

## FƏRQ

Lenin milli siyasəti – antimilli birlik.
Qorbaçovşina milli siyasəti – antimilli ədavət.

## VƏZİYYƏT

Sosializm – Ehkamçılıqdır: Ehkamçılıqla döyüşmək – Sosializmlə döyüşmək deməkdir.

Sosializm çərçivəsində Ehkamçılıqla döyüşmək – cəfəngiyyatdır.

## FƏRQ

Vəzirovşina – Yeyin Mərkəzçi.
Mütəllibovşina – Asta Mərkəzçi.

## VƏZİYYƏT

Şərqi Avropada kapitalistləşmə – kommunistləri rədd etdi; – kommunist riyakarlığı baş tutmadı.

SSRİ-də kommunist riyakarlığı baş alıb gedir: kommunistlər kapitalistləşməyə “rəhbərlik eləyirlər”...

Şərqi Avropada kommunizm uçdu, SSRİ-də kapitalistləşdi.

## VƏZİYYƏT

Kapitalizmin alternativini sosializmdə görənlər – indi sosializmin alternativini kapitalizmdə görürlər.

*28 Murad günü, Od Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Demokratiya – Totalitarizmin kölgəsi.
Plüralizm – Rəysizliyin kölgəsi.
Aşkarlıq – Qapalılığın kölgəsi.

## VƏZİYYƏT

***Dövlət İqtisadiyyatında*** – əməkçi Dövlətə tapşırılır.
***Bazar İqtisadiyyatında*** – əməkçi Dəllala tapşırılır.

*29 İnam günü, Od Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Kubaya qarşı Amerika–Sovet birliyinin yaranmasına az qalıb.

## HƏQİQƏT

Xalqa arxalanmaq – xalqı arxasız qoymaqdır.

## İRAQ–KÜVEYT MÜNAQİŞƏSİ

Ərəb ilk dəfə Amerika–Sovet birgə hökmranlığına qarşı çıxdı.

*6 Arzu günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Daxili vəziyyət pisləşdiyi dərəcədə xarici vəziyyət "yaxşılaşır".

Xarici "yaxşılaşma" daxili pisləşməyə xidmət eləyir əslində.

*7 Ümid günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## ERMƏNİ MƏSƏLƏSİ

1. Erməninin Türkiyə daxilində milli dövlət yaratması – əslində Rusiyanın və İngiltərənin Türkiyəyə daxil olması demək idi.

***Türkiyə özünü qorumalıydı və erməni məqsədini rədd etməliydi.***

2. Erməninin "Böyük Ermənistan" iddiası – əslində dünyanın bir hissəsinin zəbt edilməsi deməkdir...

***"Dənizdən Dənizə" şüarı – təzə Reyx iddiası kimi bir şeydir – cəfəng və qəddar.***

3. Erməni kapitalizmi, sərmayəçiliyi təmsil eləyir – kapitalizm isə antiinsanidir, o cümlədən yenidənqurma kapitalizmi.

4. Erməni mənəvi eybəcərliyə təbii surətdə qovuşur, ruhani həqarətdən çəkinmir, xəyanətdən bəhrələnir.

Bu səbəbdən də Ermənинin Sabahı yoxdur – erməni dirilmir, ölür – haytalı, riyakar, pozğun ölüm gözləyir ermənini.

*8 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Demokratiya – Daxili Diplomatiya.

## HƏQİQƏT

Kapitalizm – Bəşəriyyətin Ruhani məğlubiyyəti oldu.
Yenidənqurma – həmin məğlubiyyətin təkrarıdır.

## KRASNOYARSK HADİSƏSİ

20 yanvarın davamı.

*9 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Stalin camaatın başına nə gətirdisə – Marks da fəlsəfənin başına onu gətirdi.

*15 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

İraq–Amerika münaqişəsində Qorbaçovşina Amerikanın qoltuğunda göründü.

*16 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Stalin Qayda Zülmü yaratmışdı – Qorbaçovşina – Qaydasızlıq Zülmü yaradır.

*21 Ümid günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Qorbaçovşinanı alqışlayan Dünya köpüyü.

## VƏZİYYƏT

Hökumət Qarabağı Daşnakların əlindən ala bilmir və Qarabağı verməmişik" – deyə bar-bar bağırır.

## QORBAÇOVŞİNANIN BEYNƏLXALQ FƏNDİ

Amerika Qoltuğunda Müstəqil görünmək.

## VƏZİYYƏT

Cənubi Azərbaycan problemini həll etmədən – Qarabağ problemini həll etmək olmaz.

Əslində Qarabağ problemi Cənubi Azərbaycan probleminin bir hissəsidir.

## VƏZİYYƏT

Aqibətimizi Özgəyə tapşırdıq, indi ondan geri ala bilmirik.

## VƏZİYYƏT

Müasir Türkiyə–Azərbaycan əlaqələri – Türkiyə SSRİ əlaqələri çərçivəsindədir – yəni mahiyyətcə AntiAzərbaycan çərçivəsindədir.

## VƏZİYYƏT

Erməni–Azərbaycan döyüşündə Qorbaçovşina erməninin tərəfində olacaq. Bu səbəbdən də Erməniylə döyüş – Qorbaçovşinayla döyüş demək olacaq.

## VƏZİYYƏT

Qazax hakimi özünü "rus qazağı" kimi aparır.

Özbək hakimi özünü "özbək rusu" kimi aparır.

Azərbaycan hakimi "Avropa Türkçülüyü"nə meyl eləyir.

***Heç kəs özü olmaq istəmir.***

## VƏZİYYƏT

Azərbaycan ekranlarını türk parnoqrafik filmləriylə doldururlar – gözümüzün qabağında Türkiyəmizi çirkə bulayırlar.

## VƏZİYYƏT

Cənubi Azərbaycanın İslamlaşması – onun İranlaşması deməkdir.

Bu səbəbdən də Cənubi Azərbaycan uğrunda döyüş – İslama qarşı döyüş olmalıdır.

## VƏZİYYƏT

Azərbaycanda İslamı dirçəltmək – əslində İrançılığı dirçəltməkdir – İdraksız, İnamsız bir siyasətdir – Fəlakətli.

## MÜSAVAT PROBLEMİ

Avropa yönlü millətçilik kommunist beynəlmiləlçiliyindən yaxşıdır, ancaq son nəticədə millətin süqutuna aparan yoldur; bu səbəbdən də müsavatçılıq ilk addım kimi məqbul idi; yalnız sonradan o, millətin inkişafında əngələ çevriləcəkdi – ***ancaq hər halda kommunist eksperimentindən qurtaracaqdı Yurdu – dəhşətli Zülmdən.***

## VƏZİYYƏT

Mütəllibovşinaya elə gəlir ki, o, İslamçıları oynadır; əslində isə İslamçılar Mütəllibovşinanı oynadırlar.

## VƏZİYYƏT

İraq–Amerika münaqişəsində Ozal Türkiyəsi Amerikaya qahmar çıxdı – bununla da özünün antiŞərqliyini göstərdi.

## TƏZƏLİK

Millətləri biri-biriyilə qovuşduranlar – indi millətləri biri-biriylə döyüşdürürlər.

Bir cür qırılan millətlər – indi başqa cür qırılır...

Kommunist antimilliliyinin təzə mərhələsi başlayır.

*23 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Həyat Şəhvət vasitəsiylə Məhəbbəti gözdən salmağa çalışır – həqarətcəsinə.

**HƏQİQƏT**

Həyatiləşmək – əslində Murdarlaşmaq, Haramlaşmaq, Yalanlaşmaq, Yamanlaşmaq deməkdir.

**HƏQİQƏT**

Müharibəni yaradan – ***Siyasətdir.*** Nə qədər ki, ***Siyasət*** yaşayır – Müharibə yaşayacaq.

Müharibəni öldürmək üçün – ***Siyasəti*** öldürmək gərək.

*24 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**VƏZİYYƏT**

Mütəllibovşina azərbaycanlılardan "yazıq xalq" uydurur ki, xilaskar görünsün.

*25 Murad günü, Qürub Ayı, 12-ci il. Bakı.*

**HAL**

Cəsarətlərini Qorxaqlıqla tənzim edirlər.

*1 Ata Ayı, Murad günü, 12-ci il Bakı.*

**VƏZİYYƏT**

***Kapitalizmdə-Sosializmdə*** – Canavar olmasan, səni yeyərlər.

Tülkü olmasan – səni aldadarlar. İlan olmasan səni çalarlar.

***Kapitalizm-Sosializm*** İnsandakı canavarı qoruyur, tülkünü qoruyur, ilanı qoruyur.

Bu səbəbdən də canavarla, tülküylə, ilanla döyüş – Kapitalizmlə-Sosializmlə döyüş demək olur.

## HƏQİQƏT

Kapitalizm Həqiqəti – Varidatçılıq Həqiqətsizliyi.
Sosializm Həqiqəti – Zorçuluq Həqiqətsizliyi.

*2 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Stalinizm – Sadizm.
Qorbaçovşina – Mazoxizm.

## TARİXİ DƏRS

İnqilabi xilaskarlıq Əməlində ən şiddətli xudbinlik yaşaya bilər.

## HƏQİQƏT

Xalq təsərrüfatı olan yerdə ***Xalqın təsərrüfatı*** olmur.
***Xalqın təsərrüfatı əslində Fərdin təsərrüfatıdır.***

## "AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ İQTİSADİ MÜSTƏQİLLİYİNİN ƏSASLARI" HAQQINDA

I. Respublika səviyyəsində "iqtisadi müstəqillik" – kirayəçilik səviyyəsindədir: "iqtisadiyyat sənindir", ancaq onun strategiyasını mərkəz təyin eləyir, demək – mahiyyətcə o sənin deyil.

II. Müəssisələr səviyyəsində iqtisadi "müstəqillik" formal xarakter daşıyır – çünki respublika iqtisadiyyatının strategiyasını hökumət təyin eləyir – müəssisə strateji yöndən məhrum olur.

III. Əməkçinin Hökumətdən asılılığı azalmır: sosial məsələlərin həlli Hökumətin sərəncamındadır – mahiyyətcə Dövlətçilik (Totalitarizm) aradan qalxmır, biçimini dəyişir.

IV. Demoqrafiya problemi – kənddən şəhərə axınla mübarizə dairəsinə ilişib qalır, əsas təhlükə – beynəlmiləlçi miqrasiya – “unudulur”.

V. Kapitalistləşmədə cəsarətlidir Qanun – muzdlu əməyə əsaslanan xüsusi mülkiyyət təqdir olunur.

VI. Əmək qarantiyası adlanan əsas haqq ləğv olunur, İşsizlik təhlükəsi üçün geniş imkanlar yaranır – içtimai təbəqələşmə az qala yeridilmə səviyyəsindədir.

VII. Tarixi nailiyyət kimi qələmə verilən bu Sənəddə Mərkəz İdeyalarından bir qarış ayrılma, irəli getmə yoxdur: təqlidçilik dairəsində yazılıb bu Müstəqillik Bəyanı.

VIII. Qeyri-müstəqil kapitalistləşmə yoludur Sənəd – İnsaniliyə zidd.

*3 Arzu günü, Ata Ayı, 12-ci il. Bakı.*

**ERMƏNİSTANDA TƏZƏ HADİSƏLƏR**

Daşnak Hökuməti Azərbaycanla qeyri-qanuni müharibəni qanuni müharibəni qanuni müharibəyə çevirir.

**FƏRQ**

Əvvəllər Əqidə adıyla – Amansızlıq, Biclik, Vicdansızlıq.
İndi Rəqabət adlı – Amansızlıq, Biclik, Vicdansızlıq.

**ÇEVRİLMƏ**

Proletariatı mədh eləyənlər indi burjuaziyanı mədh edəcəklər...

**SOSİALİZM AQİBƏTİ**

“Milyonlar hakimiyyətindən” – milyonerlər hakimiyyətinə...

**HƏQİQƏT**

Sosializmə Vicdan mane olurdu, kapitalizmə Vicdan mane olur.

Sosializm Vicdanın üzərindən keçə bilirdi, Kapitalizm Vicdanın üzərindən keçə bilir.

**HƏQİQƏT**

Dəllal əvvəl Vicdanını satır, sonra malını.

**YALAN AXTARIŞI**

Leninin sosializmdən "üz döndərdiyini" "tapdılar", indi Marksın "kommunizmdən üz döndərdiyini" "tapacaqlar".

**HƏQİQƏT**

Sosialist Bazar münasibətləri – Rüşvət...

*5 Dözüm günü, Ata Ayı, 12-ci il. Bakı.*

**HAL**

Cinayətkarlar cinayətkarlarla döyüşənlərə cinayətkarlıq təlqin edirlər.

**HƏQİQƏT**

Fərd olan yerdə – Sinif olmur.
Sinif – Fərdiyyətsizlikdir əslində.

**HƏQİQƏT**

Milliyyətdən asılı olmayan nə varsa – Antimillidir.

**HƏQİQƏT**

Göyçəni Azərbaycan saymayan – milli şüurdan məhrumdur.
Borçalını Azərbaycan saymayan – milli şüurdan məhrumdur.

**VƏZİYYƏT**

Sovet xalqı yox idi – buna görə də indi millətlər biri-birini qırır.

*7 Qismət günü, Ata Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Xristian Hökuməti – əslində Antixristian Hökuməti – çünki Xristianlıq – hakimiyyət deyil, Ruhaniyyatdır.

Xristian Partiyası – əslində Antixristian Partiyası – çünki Xristianlıq – Hakimiyyət Döyüşü deyil, Ruhaniyyat Döyüşüdür.

*9 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

## İRAQ BARƏSİNDƏ AMERİKA–SSRİ BƏYANATI

Dünya Hegemonluğu uğrunda döyüşənlər – Dünya hegemonluğunda birləşirlər.

## (SİFƏT)

Qorbaçovşina Amerikanın qoltuğunda müstəqil görünmək istəyir.

*12 Dözüm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Xalq Hakimiyyətə cəlb olunur ki, rəiyyətçiliyə cəzb olunsun.

## FƏRQ

***Monarxiya*** – Birşəxsli Diktatura.
***Demokratiya*** – Çoxşəxsli Diktatura.

## HƏQİQƏT

Xalq iclasları – Xalq üzərində iclaslar.
Xalq Seçkiləri – Xalq üzərində seçkilər.

## HƏQİQƏT

Demokratiya – kütlə müstəbidliyi deyil – kütlə üzərində müstəbidlikdir: – ibtidai müstəbidlik əvəzinə – mahir müstəbidlikdir.

## HƏQİQƏT

İnsanı Xüsusiləşdirmək üçün ***İnsan üzərində İctimaiyyət Ağalığını*** ləğv etmək lazımdır.

Demokratiya İctimai Ağalığı ləğv eləmir, – ***plüralistləşdirir – çoxbiçimləşdirir.***

Demokratiyada Xüsusi mülkiyyətlə İctimailəşdirilən İnsan arasında dəhşətli ziddiyyət var – bu səbəbdən Demokratik Humanizm – Xülyadır.

## HƏQİQƏT

***Totalitarizm*** **–** Hüquqsuz Rəiyyətləşmə.

***Demokratiya*** **–** Hüquqlu Rəiyyətləşmə.

## HƏQİQƏT

Xalq Hakimiyyəti – Xalqı Hakimiyyət aşiqlərinin Hakimlik uğrunda döyüşünə qoşur.

Xalq hakimiyyətində Xalq “demokratikcəsinə” alətləşir.

## HƏQİQƏT

Siyasət – İnsanı qorumur, özünü qoruyur.

Siyasət – Ləyaqət tanımır, nailiyyət tanıyır.

## HƏQİQƏT

Cəmiyyyət İnsana hüquq verə bilməz – İnsan cəmiyyətə hüquq verə bilər.

## HƏQİQƏT

***Parlament*** – Xalqın adından hakimiyyət uğrunda dartışanlar tamaşası.

## HƏQİQƏT

Partiya – Hakimiyyətsevərlər Birliyi.

## HƏQİQƏT

Bazar İqtisadiyyatı – Bazar Cəmiyyəti deməkdir – yəni Dəllallaşan İqtisadiyyat – Dəllallaşan Cəmiyyətdir.

## HƏQİQƏT

İqtisadiyyat – Əməkçidən asılı olduğu dərəcədə azaddır – Dövlətdən, Bazardan, Dəllaldan asılı olduğu dərəcədə - azadlıqdan məhrumdur.

## VƏZİYYƏT

Qorbaçovşina Dini dirçəldir, əslində isə onun Allahı – Puldur.

## HƏQİQƏT

Demokratiya Hökmdar – Rəiyyət Təzadını aradan qaldırmır – "xəlqiləşdirir".

## HƏQİQƏT

Xalq Hakimiyyəti – əslində xalq üzərində hakimiyyətdir.

***Xalqı Xalq Hakimiyyətindən azad etmək gərək.***

## HƏQİQƏT

***Cəmiyyət İnsana xidmət edir – deyirlər.***

Cəmiyyət Qanunlarının heç biri Xidmət Qanunları deyil – hamısı Hakimiyyət Qanunlarıdır.

## HƏQİQƏT

Demokratiya – Xalq üzərində Seçki Ağalığı, Parlament Ağalığı, Prezident Ağalığı.

## HƏQİQƏT

Azad Bazar İqtisadiyyatı – Azad Dəllal Hakimliyi.

## HƏQİQƏT

Maddi Varidat – İnsanı dəyərsizləşdirir.

## HƏQİQƏT

Seçkidə Xalq İradəsi təsdiq olunmur – Xalq İradəsizliyi təsdiq olunur.

Seçki Həngamələrində Xalq İradəsizləşir –
***seçki həngamələrinin İradəsinə təslim olur.***

## HƏQİQƏT

Siyasi Həyat – Süni Həyat. Siyasətləşmə – süniləşmə.

Siyasi Həyat – Mexaniki həyat. Siyasətləşmə – mexanikləşmə.

Siyasi Həyat – Oyun. Siyasətləşmə – oynadılma.

Siyasi Həyat – Yalançı Həyat. Siyasətləşmə – Yalanlaşma.

## HƏQİQƏT

Rəqabət – Yırtıcılıqdır. Burada biri ölməsə, o biri yaşamır.

"Sağlam Rəqabət" – sağlam Qəddarlıq deməkdir – cəfəng, iyrənc.

## HƏQİQƏT

Bazar İqtisadiyyatında Maddiyyat var – İnsaniyyat yoxdur – ***İqtisadiyyatı əxlaqdan ayırırlar – İnsansızlaşdırırlar.***

## HƏQİQƏT

Özünü idarə edən İqtisadiyyat – Dəllalların idarə etdiyi İqtisadiyyatdır əslində.

## HƏQİQƏT

İqtisadiyyatın Dəllallaşması – Əməkçinin satılmasıdır.

## VƏZİYYƏT

Soljenitsın Rusları Qərb demokratiyasından Rus demokratiyasına çağırır: əslində isə Rus demokratiyası Qərb demokratiyasının kölgəsidir.

## HƏQİQƏT

Demokratiya çoxhakimliyi – xalqın üzərində hakimiyyət çoxluğu.

*30 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Kapitalizm – Maddi Bolluq səviyyəsində İtaət.
Sosializm – Maddi Qıtlıq səviyyəsində İtaət.

## HƏQİQƏT

Hakimiyyət İnsana xidmət eləmir – hakimiyyətə xidmət eləyir.

## FƏRQ

***Totalitarizm –*** Xalqa Dövlətin əliylə Ağalıq eləyir.
***Demokratiya*** – Xalqa Xalqın əliylə Ağalıq eləyir.

## HƏQİQƏT

Hakimiyyət ehtirası – Xidmət Yanğısından yaranmır, Ağalıq Qayğısından yaranır.

## HƏQİQƏT

Ruhani Kamillik Borcundan başlanmalıdır İnsan hüquqları.

## HƏQİQƏT

Parlament – özü Bürokratiyadır.
Mərkəzi Komitə – özü Bürokratiyadır.
Raykom – özü Bürokratiyadır.
Rayispolkom – özü Bürokratiyadır.
Kəndsovet – özü Bürokratiyadır.
Bürokratiyadan azad olmaq üçün – Sovet Hakimiyyətindən azad olmaq gərək.

## SİYASİ RƏQABƏT

Ağalıq naminə Gədalıq.

## HƏQİQƏT

Cəmiyyət İnsanı qorumalıdır – İdarə etməməlidir.
İnsanı İnsanın özü idarə etməlidir.

## HƏQİQƏT

Ağalığı yaşadan – İmtiyazdır.

Demokratiya İmtiyazı öldürmür – bu səbəbdən də Ağalığı yaşadır.

## HƏQİQƏT

Sovet Hakimiyyəti sözündə Yalan var.
Sovet – Birlik ifadə eləyir; Hakimiyyət – Ağalıq.
***Ağalıqla Birlik biri-birinə Ziddir.***

## HƏQİQƏT

Mərkəzi Komitə – Ağalıq Evi.
Raykom – Ağalıq Evi.
İcrakom – Ağalıq Evi.
Təhlükəsizlik Komitəsi – Ağa qoruyan.

## VƏZİYYƏT

Ağalar çoxalanda – Ağalıq da çoxalır.

Rayonun iki Ağası var indi: Raykom, Rayispolkom – Rayon üzərində Ağalıq iki dəfə artıb.

Şəhərin iki Ağası var indi: Şəhərkom, Şəhərispolkom – Şəhər üzərində Ağalıq iki dəfə artıb.

Respublikanın dörd Ağası var indi: Prezident, Mərkəzi Komitə, Nazirlər Soveti, Ali Sovet.

## HƏQİQƏT

Marksizm – Elmi Peyğəmbərlik Xurafatı.

## HƏQİQƏT

Hökumət öz nökərlərindən Xalqa Ağalıq düzəldir: Mükafatlar, Titullar, Vəsiqələr, Vəzifələr, İmtiyazlar vasitəsiylə nökər Ağalar Təbəqəsi yaradılır – ***Hökumətə nökərliyin dərəcəsi Xalqa Ağalığın dərəcəsini müəyyən eləyir.***

***Nökərlik Ağalığın Təməli olur.***

## HƏQİQƏT

Zülm Məxluqu yaşadır, Adamı öldürür, İnsanı öldürə bilmir – başını kəssə də.

## VƏZİYYƏT

Milis Xalqı qorumadı, Ağalığı qorudu – bu səbəbdən də Gədalıq sayıldı.

## VƏZİYYƏT

Qurmaçılar islamçılardan hökumət mollaları quraşdırırlar – xalqın canına daraşan.

## HƏQİQƏT

Siyasət – Oyundur. Bu səbəbdən də əxlaqlı Siyasət – Əxlaq Oyunudur.

## ELİTA

Hökumətaltı Ağalar.

## HƏQİQƏT

Dövlət Yükdaşıyanları – Xalqın çiyninə düşən Yükdürlər əslində.

## HƏQİQƏT

Qərbdə adamlar biri-birinə Ağa deyə müraciət eləyirlər – Ağa sözündən utanmırlar – Xalq Hakimiyyətindən dəm vuranlar.

*1 Arzu günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Sovetlər – Xalqın adından Xalq üzərində Ağalıq Üsulu.

## HƏQİQƏT

Siyasət İnsanı cəmiyyətdən qorumur, cəmiyyəti İnsandan qoruyur.

## HEYDƏR ƏLİYEVİÇİN DEPUTAT SEÇİLMƏSİ

Novruzəlilərin öz Xanına məhəbbəti.

“Sumqayıt sindromuna” “Naxçıvan sindromu” qatıldı – Yağıların xeyrinə.

*2 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## HƏQİQƏT

Həyat Qeyri-kamil olduğu üçün amansızdır.

## SSRİ –nin GƏLƏCƏYİ

Amerikanın Qoltuğunda – Avropanın Arxasında.

## HƏQİQƏT

Cəmiyyətçilik tərbiyə eləmək – tərbiyəsizlik “tərbiyə eləməkdir”.

## VƏZİYYƏT

Ailə – Rəiyyət yetirir.
Məktəb – Rəiyyət yetirir
Institut – Rəiyyət yetirir
Pioner – Rəiyyət yetirir
Komsomol – Rəiyyət yetirir
Partiya – Rəiyyət yetirir.

***Tərbiyə Rəiyyətləşməyə – Tərbiyəsizliyə bərabər olur.***

## RUHANİ MƏQSƏD

Cəmiyyətdən təmizlənmək.

**HƏQİQƏT**

Çoxpartiyalılıq – Siyasi Bazar.

**VƏZİYYƏT**

Sovet cəmiyyətində Ailə başçısı Dövlət çinovnikinə çevrilir.

**HƏQİQƏT**

Cəmiyyətçilik – mahiyyətcə Ailəsizlikdir.

**VƏZİYYƏT**

Türkiyə Hökumətiylə münasibət – əslində Qərblə münasibətdir, Şərqlə münasibət deyil.

**İCTİMAİ HADİSƏ**

Ailə – Dövlət müəssisəsi.

*3 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı*

**HƏQİQƏT**

Xalq Elçisi – əksər hallarda Xalq Elçisizliyi demək olur.

**HƏQİQƏT**

Qanunlar – mahiyyətcə Cəmiyyətin İnsan üzərində Ağalığını qanunlaşdırırlar.

**VƏZİYYƏT**

Siyasi oyun naminə xalqı Dinçilərin cənginə keçirirlər Qurmaçılar – Dinçilər vasitəsiylə öz Ağalıqlarını möhkəmləndirirlər.

**VAZGEN– QORBAÇOV GÖRÜŞÜ**

Vazgen Qorbaçovdan erməni qəsbkarlığına xristian lütfü dilədi.

Qorbaçov Vazgenə erməni qəsbkarlığına xristian lütfü vəd etdi.

## HƏQİQƏT

Cəmiyyəti idarə eləmək olar, – İnsanı idarə eləmək olmaz.

## HƏQİQƏT

İctimai Həyat – İnzibati Həyat.
İctimai Şüur – İnzibati Şüur.
İctimai Təşkilat – İnzibati Təşkilat.
İctimai Tədbir – İnzibati Tədbir.
İctimai Münasibət – İnzibati Münasibət.

## VƏZİYYƏT

Qobaçovşinada daxili siyasət xarici siyasətə tabedir.

Bu səbəbdən də Qorbaçovşina ermənipərəstliyi Qərbləşmə təzahürüdür.

## VƏZİYYƏT

“Soyuq müharibəyə son qoyuldu” – deyirlər.

“Soyuq müharibənin təzə mərhələsi başlandı!” – demək gərək.

## TƏZƏ SSRİ –İSRAİL MÜNASİBƏTİ

Qorbaçovşina siyasətinin labüd nəticəsi – fələstinlilərin Amerikanizmə satılması.

## İCLAS

Rəiyyətləşmə Yığıncağı.

## SEÇKİ

Azad Rəiiyyətçilik.

## VƏZİYYƏT

Dünya Siyasətində Amerika – SSRİ monopolizmi yaranır – “balaca xalqların” çiynində dayanan.

## MƏKR

Daşnaqlar Türkiyəni AntiAzərbaycanlaşdırmaq, Amerikanı AntiTürkiyələşdirmək istəyirlər; Pantürkizm Ehtimalından qorxurlar – Türkiyənin NATO-çuluğundan bəhrələnmək istəyirlər.

## YÜKSƏLİŞ

Dartışa-dartışa Hakimiyyətə dırmaşırlar ki, xalqın canına daraşsınlar.

## HƏQİQƏT

"Böyük Xalq"a güvənən "Balaca Xalq" böyüməz.

## VƏZİYYƏT

SSRİ – Rus xalqına heç nə vermədi, ancaq Rus siyasətinə Hər şey verdi: buna görə də Qorbaçovşina SSRİ-dən qopmaq istəmir.

Qərbə – müstəqil respublikalar gərək deyil – təzə Qorbaçovşina SSRİ-si gərəkdir; Dövlət çoxluğu Qərbin ziyanınadır; O, Dünya üzərində Qərb Hakimliyini sarsıda bilər.

## VƏZİYYƏT

Qarabağ problemi – Ümumtürk problemidir.
Bunu unudan türk özünü tanımır.

*4 Mərhəm günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## TƏZƏ İTTİFAQ MÜQAVİLƏSİ

"Suverenlik" Boyunduruğu.

## İCTİMAİ HADİSƏ

Mükafatla Möhürlənmək.

## OXŞARLIQ

Tarla Əməkçisi – Plantasiya Qulu.

*5 Qismət günü, Xəzan Ayı, 12-ci il. Bakı*

**HƏQİQƏT**

Rəqabət – Əməlləşən Həsəd.

**HƏQİQƏT**

Siyasi Rəhbərlik – Ruhani Rəhbərsizlik.

**FƏRQ**

Siyasətin Məqsədi – Mənfəət.
Ruhaniyyatın Məqsədi – Məhəbbət.
***Ruhani Siyasət olmur – çünki Təmənnalı Məhəbbət olmur.***

**HƏQİQƏT**

Şəhvətdə Təbiət adamı oynadır, Məhəbbətdə İnsan Təbiəti....

**DİPLOMATİYA**

Qədim Siyasi İdman Növü.

**FƏRQ**

Adam – Siyasətçi, İnsan – Ruhaniyyatçı.

**HƏQİQƏT**

Ruhaniyyat Bəşərin Daxilində Bitir, Siyasət Bəşərin Üstündə Tikilir.

**HƏQİQƏT**

Siyasi Xadim – Adam Hakimi, İnsan Məhkumu.

**HƏQİQƏT**

Siyasət – İdman.
Ruhaniyyat – İnam.

**HƏQİQƏT**

Siyasəti yaşadan naqislikdir. Naqislik ölsə siyasət də ölər. Bu səbəbdən də siyasət naqisliyi yaşadır.

## HƏQİQƏT

İnsanların Siyasətə ehtiyacı olmaz. Bu səbəbdən də Siyasət Adamlığı göz bəbəyi kimi qoruyur.

*6 Murad günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## HƏQİQƏT

Səthilik – Dərin Quyudur, ona düşən çıxa bilmir.

## DƏYİŞİKLİK

Amerika – Böyük Qardaş, SSRİ – kiçik qardaş, Respublikalar – kiçik kiçik qardaşlar.

## HƏQİQƏT

Həqiqət Varlığı Təsdiq edir – Yalan Yoxluğu.

## HƏQİQƏT

Hakimiyyətçilikdə Sadizm yaşayır – Rəiyyətçilikdə Mazoxizm.

## HƏQİQƏT

Gerçəkliyi Mahiyyətə bərabər sayanda Gerçəklik Mahiyyətini itirir.

## FƏRQ

Kapitalizm – Hüquqlu Yırtıcılıq.
Sosializm – Hüquqsuz Yırtıcılıq.

## HEYDƏR ƏLİYEVŞİNA

Despotçuluq.
Tayfabazlıq.
Beynəlmiləlçilik.

## HƏQİQƏT

Özündən narazılıq cöx vaxt özündən razılığın ifadəsi olur.

## VƏZİYYƏT

Leninin nüfuzunu Qorbaçovcasına sındırırlar.

*9 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## VƏZİYYƏT

Yaponiya – mahiyyətcə Şərqi Avropadır.
Türkiyə – mahiyyətcə Şərqi Avropalaşır.
Misir – mahiyyətcə Qərb Ərəbistanıdır.

*30 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## HƏQİQƏT

Utopiya – Xəyali Mahiyyətsizlik.
Opportunizm (Təslimçilik) – Gerçək Mahiyyətsizlik.

*11 Mərhəm günü, Xəzan Ayı, 12-ci il. Bakı*

## HƏQİQƏT

İqtisadiyyatçı cəmiyyətlərin Göyü – Bazardır.

## VƏZİYYƏT

Vahid sivilizasiya ideyası millətlərin biri-birinə Qovuşması ideyasını əvəz eləyir.

Kapitalizm sosializmin bacarmadığını bacarmaq istəyir.

## HƏQİQƏT

Sosializm – Hamılaşma Mənasızlığı.
Kapitalizm – Dəllallaşma Mənasızlığı.

## HƏQİQƏT

Əmək Birjası – Mahiyyətcə Qul Bazarıdır.

## VƏZİYYƏT

Çiçəklənən ölkələr – Çirkli ölkələr.

*14 İnam günü, Xəzan Ayı, 12-ci il. Bakı*

### VƏZİYYƏT

Qorbaçovşina – Kapitalizmə qayıtmaqdır, yəni Mürtəce təmayüldür, ancaq sosializmi uçurduğu üçün radikal sayılır – Uçurumçuluğu Radikalizmlə eyniləşdirirlər.

### HƏQİQƏT

Cəmiyyət Təbəqələrə bölünür, çünki Mənasızdır.

### İQTİSADİ DİRÇƏLİŞ YOLU

Bakı neftindən SSRİ nə yaradırsa – onu respublikada yaratmaq. Azərbaycan pambığından SSRİ nə yaradırsa – onu respublikada yaratmaq.

### BAKIDA BİZNES KONQRESİ

Azərbaycanı qəddarcasına SSRİ-ləşdirdilər, indi Hərcayicəsinə Xariciləşdirirlər.

### HƏQİQƏT

Azərbaycan İdtisadiyyatını yaratmaq lazımdır, satmaq yox.

### HƏQİQƏT

Qorbaçovşina – Kapitalizm gerçəkliyiylə Həmrəydir, çünki Həqiqətsizdir.

### HƏQİQƏT

Qorbaçovşina sosializmin kapitalist potensiyasından yaranıb.

*15 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı*

### VƏZİYYƏT

Bazar İqtisadiyyatına keçə biləcəklər – Bazar İqtisadiyyatından çıxa bilməyəcəklər.

*19 Qismət günü, Xəzan Ayı, 12-ci il. Bakı*

### VƏZİYYƏT

Qərbləşmə – Şərqin öz qapısını öz üzünə bağlamasıdır.

**FƏRQ**

***Şəxsi*** Amal.
***İctimai*** Həyat.

*31 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı*

**VƏZİYYƏT**

Qorbaçovşina Xaricdə Daxil üçün danışır, Daxildə Xaric üçün.

**VAHİD SİVİLİZASİYA**

Demokratik Ekspansiya üsulu.

**İNTEQRASİYA NİCATI**

Demokratik İmperializm.

**VƏZİYYƏT**

Azərbaycan Hökuməti Respublikanın adından Sovet sözünü çıxarır ki, Ali Sovetdən beşəlli yapışsın.

**TƏZƏ AZƏRBAYCAN KOMSOMOLU**

Gənclərin Kommunist – yəni Antimilli "Milli Tərəqqi" Təşkilatı.

**KEÇİD DÖVRÜ**

Suverenlik uğrunda döyüş – SSRİ-dən ayrılmağı hazırlamalıdır.

Konfederasiya uğrunda döyüş – SSRİ-dən ayrılmağı hazırlamalıdır.

**VAHİD AVROPA EVİ**

Demokratik Hegemonçuluq.

**VƏZİYYƏT**

SSRİ-dən çıxmaq üçün SSRİ-likdən çıxmaq gərək.

## İTTİFAQ SAZİŞİ HAQQINDA

Konfederasiya – Dövlətlər İttifaqı deməkdir.

Federasiya – İttifaq Dövləti deməkdir.

Konfederasiya – Zəif Mərkəz – Güclü Pesublikalar deməkdir.

Federasiya – Güclü Mərkəz – Zəif Respublikalar deməkdir.

Sazişin quraşdırdığı İttifaq – həm Konfederasiya, həm də Federasiyadır: Güclü Mərkəz naminə Federasiya – "Güclü respublikalar naminə" Konfederasiya; – Konfederativ Federasiya, Federativ Konfederasiya yaradırlar – cəfəng, xaotik; Mərkəzlə Respublikaların ardıcıl dalaşmalarını hazırlayırlar – əslində Federasiyanı qoruyurlar – Konfederasiya tələsinə salırlar Respublikaları.

## VƏZİYYƏT

Konfederasiya Böyük Dövlətə yaramır.

Böyük Dövlət – Böyük Siyasət deməkdir.

Qorbaçovşina – Böyük Siyasət qurmaçısıdır.

Bu səbəbdən də o, Konfederasiyaya əksilməz, Federasiyadan əl çəkməz.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti Qeyri-formalların məqsədlərinə yiyə durubdur, çünki Qeyri-formalların əslində hökumətdən Fərqli Məqsədləri yoxdur – Yenidənqurma səddinə ilişibdir, çıxa bilmir.

## VƏZİYYƏT

Azərbaycan "öz doğma hökumətindən" ayrılmalıdır ki, SSRİ-dən ayrılsın.

## YELSİN– QORBAÇOV MÜNASİBƏTLƏRİ

Yelsinə Konfederativ Prezident gərəkdir.

Qorbaçova Federativ Respublika başçısı gərəkdir.

## HƏQİQƏT

Xudafərin körpüsündə tikilən birgə Sovet–İran bəndi Azərbaycan ikiləşməsini rədd eləmir, təsdiq eləyir; ***ikiləşmə mərhəmləşir.***

## QORBAÇOVA NOBEL MÜKAFATI

Kommunizm qıran kommunistin antikommunistlər tərəfindən şərəfləndirilməsi.

## PARİS MÜŞAVİRƏSİ. 2-ci HELSİNKİ

Siyasi cənnət tamaşası.

## VƏZİYYƏT

Dünyaya əlini açıb dilənir – Dünyanın xilaskarı.

*29 Mərhəm günü, Yağış Ayı, 12-ci il. Bakı*

## QORBAÇOVŞİNA REALİZMİ

Ölümcül gerçəklik yaratdılar, indi ona uyğunlaşa bilmirlər.

## QORBAÇOVŞİNA NAİLİYYƏTİ

Soyuq müharibəyə qalib gəlmədilər əslində – məğlub oldular.

## BİRLİK

Kapitalist Plüralizminin Mənası – Yaşasın kapitalizm.
Sosialist Plüralizminin Mənası – Yaşasın kapitalizm.
Kapitalist Demokratiyasının Mənası – Yaşasın kapitalizm.
Sosialist Demokratiyasının Mənası – Yaşasın kapitalizm.
Kapitalist Aşkarlığının Mənası – Yaşasın Kapitalizm.
Sosialist Aşkarlığının Mənası – Yaşasın kapitalizm.

## VƏZİYYƏT

Millətçiliyi dəbləşdirirlər – qərbləşdirirlər.
Türkçülüyü – dəbləşdirirlər – qərbləşdirirlər.
Dinçiliyi – dəbləşdirirlər – qərbləşdirirlər.

### HƏQİQƏT

Dəbləşmək – Özgələşmək.

### VƏZİYYƏT

Müsavat Hakimiyyətini Bayram eləyirlər ki, Sovet Hakimiyyətinə Yas tutmasınlar.

### RİYA XƏTTİ

Millətçiləşirlər ki, Hakimiyyətdə qalsınlar.
Türkçüləşirlər ki, Hakimiyyətdə qalsınlar.
Dinçiləşirlər ki, Hakimiyyətdə qalsınlar.
***Riyadan böyük həya tanımırlar.***

### VƏZİYYƏT

Müsavatı alqışlayırlar ki, alqışlansınlar.
Tağıyevi dirildirlər ki, ölməsinlər.

### YENİDƏNQURMA İDEOLOGİYASI

Əqidəsizlik Əqidəsi.

### QORBAÇOVŞİNA LƏYAQƏTİ

Kapitalistdən maddiyyat dilənirlər, dindən ruhaniyyat.

### VƏZİYYƏT

Azərbaycan hökumətinin millətçiliyi – mahiyyətcə millətçiliyə qarşıdır.

Azərbaycan hökumətinin türkçülüyü – mahiyyətcə türkçülüyə qarşıdır.

Azərbaycan hökumətinin dinçiliyi – mahiyyətcə inama qarşıdır.

### XAOS YÖNÜ

"Demokratik" Diktatura.

*30 Qismət günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## SSRİ-nin GƏLƏCƏYİ

Uzun müddət nə Var olan kimi Var olacaq, nə də Yox olan kimi Yox olacaq.

Nəticədə ya Diktatura yaranacaq, ya da Yoxluq.

## VƏZİYYƏT

***I. SSRİ-nin qalması şərtləri:***

Qorbaçovşinanın tam süqutu.
Respublikalar parlamentlərinin tam süqutu.
Qərbin SSRİ-yə qarşı təzə siyasətinin tam süqutu.

***II. SSRİ-nin ölməsi şərtləri:***

Qorbaçovşinanın tam süqutu.
Respublikalar parlamentlərinin tam süqutu.
Qərbin SSRİ-yə qarşı təzə siyasətinin tam süqutu.

Nə qədər ki, Qorbaçovşina tam süquta uğramayıb, Respublikalar parlamentləri tam süquta uğramayıb, Qərbin SSRİ-yə qarşı təzə siyasəti tam süquta uğramayıb – SSRİ nə qalan kimi qalacaq, nə ölən kimi öləcək.

## HƏQİQƏT

Azərbaycanın bugünü yoxdur – Sabahı var.

## VƏZİYYƏT

Qorbaçovşinanın başçılığı altında Kommunist partiyası ayağa düşdü.

## KOMMUNİST TƏKAMÜLÜ

Zorakılıqdan Riyakarlığa.

## HƏQİQƏT

Hökumət camaatı islamçıların caynağına keçirdi ki, camaatın caynağına keçməsin.

**TƏZƏLƏŞƏN İTTİFAQ**
Genişlənən boyunduruq.

**TƏZƏLƏŞMƏ**
Riya Bayrağına sarılma.

**İSLAM TƏMƏLÇİLİYİ**
Müqəddəsləşən Mütilik.

**HALLAR**

Pribaltika SSRİ-dən ayrılıb, – ***həm də ayrılmayıb***.

Gürcüstan SSRİ-dən ayrılıb, – ***həm də ayrılmayıb.***

Moldaviya SSRİ-dən ayrılıb, – ***həm də ayrılmayıb.***

Pribaltika İttifaq Sazişinə qol çəkməsə də, SSRİ-dən ayrıla bilməyəcək.

Gürcüstan İttifaq Sazişinə qol çəkməsə də, SSRİ-dən ayrıla bilməyəcək.

Moldaviya İttifaq Sazişinə qol çəkməsə də, SSRİ-dən ayrıla bilməyəcək.

**VƏZİYYƏT**

Dağlıq Qarabağın muxtar respublikaya çevrilməsi – Azərbaycanın muxtar respublikaya çevrilməsi kimi bir şeydir.

Dağlıq Qarabağın icmalaşması – Azərbaycanın icmalaşması deməkdir.

*2 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

**CƏNNƏTÇİLƏR**

Stalin adamları kapitalist cəhənnəmindən çıxarıb sosialist cəhənnəminə saldı.

Qorbaçov adamları sosialist cəhənnəmindən çıxarıb kapitalist cəhənnəminə saldı.

## ÖLÜMCÜL DİRÇƏLİŞ

Qərbləşmə Yoluyla Dirçəliş Ölümü.
Kapitalistləşmə Yoluyla Milli Dirçəliş Ölümü.
İslamlaşma Yoluyla Milli Dirçəliş Ölümü.

## VƏZİYYƏT

Stalinin vaxtında adamlar canlarını qoruyurdular, Qorbaçovşinanın vaxtında sifətlərini qoruyurlar.

*3 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## QORBAÇOVŞİNA KƏNDİ

Kolxozaltı xüsusi təsərrüfat, sovxozaltı xüsusi təsərrüfat.

*4 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## TƏZƏ UCALIQ

Ölkənin Ağlını Əqidəsizliyə çatdırdılar.
Xalqın Ürəyini Xurafata çatdırdılar.
Xalqın Əlini Dilənçiliyə çatdırdılar.

## VƏZİYYƏT

Qorbaçovşinanın Təzə Xarici Siyasətinə Dilənçilik də üzvi surətdə daxil olur.

## RİYA XƏTTİ

Müsavat Partiyasının Bayrağından yapışır ki, Hakimiyyətdən qopmasın.

Respublikanın adını dəyişir ki, Hakimiyyət dəyişilməsin.

20 Yanvarı Matəm Günü elan edir ki, hakimiyyəti sağ qalsın.

## TƏZƏ SİYASİ XƏTT

Riyalaşma.

## VƏZİYYƏT

Konfederasiya – Mərkəzə yaramır – Mərkəzə güclü hakimiyyət gərəkdir.

Konfederasiya – Respublikalara yaramır – Respublikalara güclü Müstəqillik gərəkdir.

Federasiya – Mərkəzə yarayır – Mərkəzə güclü Hakimiyyət gərəkdir.

Federasiya – Respublikalara yaramır – Respublikalara güclü Müstəqillik gərəkdir.

***Nə Konfederasiya, nə Federasiya Respublikalara yaramır.***

## QORBAÇOVŞİNA YÖNÜ

Totalitar Azğınlıqdan – Demokratik Pozğunluğa.

## FƏRQLƏR

Gürcüstan Hökuməti – Millətçi.
Ermənistan Hökuməti – Qəsdçi.
Azərbaycan Hökuməti – Mərkəzçi.

*5 Dözüm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qərb Səddama qarşı birləşə bildi, Şərq İsrailə qarşı birləşə bilmədi.

## ARDICIL MƏQSƏD

Hökumətətrafı Oppozisiya yaratmaq vasitəsiylə Oppozisiyanı ləğv eləmək.

## RƏSMİ XƏTT

Azərbaycan Hökuməti Oppozisiyanın görmək istədiyi İşi özü görür; bununla da Oppozisiyanı fəalsızlaşdırır, gərəksizləşdirir.

Xalq Cəbhəsinin əvəzinə respublikanı "suverenləşdirir".

Yeni Müsavatın əvəzinə respublikanı "milliləşdirir".

Sosial-demokratların əvəzinə respublikanı "demokratikləşdirir".

## HƏQİQƏT

Yenidənqurmadan böyük həqiqət tanımırlar – əslində Yenidənqurmadan böyük Yalan yoxdur.

*6 Mərhəm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VAHİD SİVİLİZASİYA İQBALI

Dünyanın qoltuğunda Səadət yoxdur, Ləyaqət yoxdur – Əsarət var.

## HƏQİQƏT

Rəiyyətçilik – Hökumətçilik.
Təqlidçilik – Özgəçilik.
***Camaata Hökumətçilik aşılayıblar, ziyalıya Özgəçilik.***

## HƏQİQƏT

İslamçılar camaatı əslində paklığa çağırmırlar – hökumətçiliyə çağırırlar.

## TƏZƏ HAL

Əqidəsizlik Əxlaqsızlığından utanan yoxdur!

## QORBAÇOVŞİNA ƏMİN-AMANLIĞI

Sülhdən böyük Dava yoxmuş.

## HƏQİQƏT

Səddam Hüseyn Amerika – SSRİ Qərbinin Şərq Aqibətinə yazdıqları Qismətə qarşı çıxdı.

## QORBAÇOVŞİNA YURDÇULUĞU

Əcnəbiçilik.

## HƏQİQƏT

Oktyabr İnqilabı çarizmi yıxdı – ancaq çarizmin Alternativi olmadı.

Totalitarizm – sosial-demokratizmi yıxdı, ancaq sosial-demokratizmin Alternativi olmadı.

Yenidənqurma Totalitarizmi yıxdı – ancaq Totalitarizmin Alternativi olmadı.

***Şər ölmədi, yaşadı – Şərin cəmiyyətdə Alternativi tapılmadı.***

## VƏZİYYƏT

Ermənilərin Azərbaycanlılarla barışması Gürcü əyanlığına ziddir: – iki döyüşən tərəf arasında Arbitr rolu Gürcü iddiasına uyğundur.

## HƏQİQƏT

Oktyabr İnqilabının Alternativi yoxdur! – dedilər.

Totalitarizmin Alternativi yoxdur! – dedilər.

İndi də Yenidənqurmanın Alternativi yoxdur! – deyirlər.

***Alternativsizlik tələsinə salırlar camaatı materialist Qismətçilər – dövr-dövr, zaman-zaman.***

## FƏRQ

Əsrin əvvəllərində Dünyanın baxtına Sovetləşmə Qisməti yazırdılar, indi Qərbləşmə Qisməti yazırlar.

*7 Qismət günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əqidə – Təzələnmir, çünki Köhnəlmir.

Partiyanın təzələnməsi adı altında ***Qorbaçovşina əqidəni təzələyir – partiyanı Əqidəsizləşdirir.***

## TƏZƏ KOMMUNİST

Təzə Kommunistlər Azərbaycan adından sosializm sözünü silirlər.

Əgər kommunist sosializmə xidmət eləmirsə, o, nəyə xidmət eləyir və onun nəyi kommunistdir?

Təzə kommunistlər hakimiyyətə xidmət eləyirlər, əqidəyə xəyanət eləyiblər – ***əqidəyə xəyanət vasitəsiylə hakimiyyətə xidmət eləyirlər*** – xəyanət çevikliyi nümayiş etdirirlər – ***xəyanətdən çəkinmirlər ki, hakimiyyətdən çəkilməsinlər***.

Təzə kommunistlər Azərbaycan adından "Sovet" sözünü silirlər.
Əgər Sovet deputatı Sovetə xidmət eləmirsə, o nəyə xidmət eləyir və onun nəyi Sovet deputatıdır?

Təzə kommunistlər Sovetə xəyanət eləyirlər ki, hakimiyyətdə qalsınlar – Sovetdən keçirlər ki, hakimiyyətdən keçməsinlər.

Təzə kommunistlər Müsavat Bayrağına sarılırlar.
Əgər kommunist Müsavat Bayrağına sarılırsa – onun nəyi kommunistdir?
Təzə kommunistlər "Müsavatlaşırlar" ki, hakimiyyətdə qalsınlar, – Müsavatlaşma vasitəsiylə hakimiyyətdə qalırlar – ***əqidədən keçirlər ki, hakimiyyətdən keçməsinlər*** – xəyanət əxlaqı yaradırlar – çevik, demokratik, aşkar.

## VƏZİYYƏT

Əqidəsini təzələyən partiya yox olur.
Əslində Kommunist Partiyası yoxdur!

*9 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## BİRLİK

Həm sosializm, həm kapitalizm – Zəhmətkeş üzərində Ağalıqdır –
Sosializm – Dövlət Ağalığı, kapitalizm – Maddi Sərvət Ağalığı.

## HƏQİQƏT

Dünyaya bel bağlamaq – Allaha bel bağlamaq kimi bir şeydir: – Ateistlərin təzə fatalizmidir (Qəzavü-Qədəridir).

## HƏQİQƏT

Milyonçunu dirildirlər ki, milyonçuluğu – soyğunçuluğu diriltsinlər.

## VARÇI MƏNTİQİ

Maddi Sərvət Varlığından – Varlıq yaradırlar.
Maddi Sərvət Yoxluğundan – Yoxluq yaradırlar.

## FƏRQ

Sosializm – Dövlət Quldarlığı.
Kapitalizm – Xüsusi Quldarlıq.

## FƏRQ

İdeal – Gerçəkliyi Ötür.
Xülya – Gerçəklikdən qaçır.

## HƏQİQƏT

Abır – Azadlıqdır, Abırsızlıq – Əsarət.
Abırdan azad olmaq – Abırsızlıq əsarətinə düçar olmaqdır.

*10 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Qərbdən xalqa çörək dilənmir, özünə kömək dilənir əslində.

*11 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əgər Dünya Qorbaçovşinanı başa çıxarırsa, deməli, Dünya başsızdır.

*12 Dözüm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

SSRİ–Türkiyə əlaqələri – SSRİ–Qərb əlaqələri.

*14 Qismət günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Müasir Şərqin Məkkəsi əslində Qərbdir.

*15 Murad günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Qorbaçovşina istismar sözünü dilinə gətirmir: əslində istismar müasir quldarlıqdır – kapitalizmin və sosializmin əsası olan.

## HƏQİQƏT

"Əvvəl Qərbləşək, sonra Qərbi ötərik" – iddiası, "əvvəl özgələşək, sonra Doğmalaşarıq!" – ümidi qədər cəfəngdir.

## QORBAÇOVŞİNA HƏDƏSİ

"Sizi Qərbsizləşdirərəm!"

## HƏQİQƏT

Marksizm İctimai Mülkiyyət istismarını görə bilmədi; əslində Sosializm istismarı kapitalizm istismarından daha dəhşətli oldu – total, hərtərəfli, İstismar yaratdı sosializm, təkcə İzafi dəyər yox, Fəhlə əməyinin çox hissəsi mənimsənildi, Dövlət Kapitalizmi bərqərar oldu – amansız.

## HƏQİQƏT

Qərbə kapitalistləşən SSRİ gərəkdir, SSRİ-dən xilas olmuş azad millətlər gərək deyil – Qərbin əzəli hakimlik nəfsinə təzə SSRİ uyğundur – Qərb siyasətində millətlər uğrunda döyüş həmişə hakimiyyət uğrunda döyüş olub – bu səbəbdən də Qərbə bel bağlayan millət Qəbrə bel bağlayır.

## QORBAÇOVŞİNANIN ŞƏRQ SİYASƏTİ

Şərqin Qərbləşməsindən bəhrələnmək.

## VƏZİYYƏT

Gürcüstan SSRİ-dən azad olmaq istəyir.

Cənubi Osetiya Gürcüstandan azad olmaq istəyir.

Mərkəz – Gürcüstanı SSRİ-də saxlamaq üçün Cənubi Osetiya odunu alışdırır – Cənubi Osetiya azadlığından Gürcüstan əsarəti üçün Yaraq düzəldir.

## VƏZİYYƏT

Azərbaycan hökuməti "bütün sağlam qüvvələri" birliyə çağırır, bu, yalançı, formal oppozisiya istəyidir – hökumətə yarayan, hökuməti qoruyan.

## ARALIQ DƏNİZİ ÖLKƏLƏRİ İTTİFAQI

Qərbləşən Türkiyənin Qərb Təmsilçisi səviyyəsinə artması.

*16 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Qərbdən SSRİ-yə sığınacaq diləyir əslində.

*17 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## GÜRCÜ FACİƏSİ

Gürcü millətçiliyi Abxaz millətçiliyinə, Osetin millətçiliyinə qarşıdır.

*18 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Respublikalara suverenitet verirlər, həm də Güclü Mərkəz yaradırlar: əslində Respublikalara Güclü Mərkəz verirlər – Suverenitet adlı.

## VƏZİYYƏT

Qorbaçovşina ölkəni təzələşdirmədi – köhnələşdirdi.

## HƏQİQƏT

Demokratiya – Parlamentarizm, Plüralizm (çoxrəylik), Bazar iqtisadiyyatı – yəni Kapitalizm deməkdir.

Demokratik Sosializm anlayışı – Cəfəngiyyatdır – Siyasətbazlığa yarayan.

## HƏQİQƏT

Qorbaçovşina özünütənqidi – əslində özünüöymədir.

Özünütənqidlə də öyünür Qorbaçovşina.

## HƏQİQƏT

***Sovet Sosialist Respublikaları İttifaqına*** daxil olurlar, həm də Azərbaycan adından "Sovet", "Sosialist" sözünü silirlər: camaatla siyasi oyun oynayırlar: milli görünürlər, müstəqil görünürlər, cəsarətli görünürlər.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti İttifaq Sazişinə qol çəkəcək – onun Mərkəzlə döyüşü Camaatın nəzərində üzüağlı görünmək üçündür.

## VƏZİYYƏT

Yenidənqurmanı Böyük Əməl sayır Qorbaçovşina – əslində isə o, Böyük Bədəməldir – Qərbləşmə, Kapitalistləşmə Bədəməli.

## HƏQİQƏT

Qorbaçovşina Qarabağı ermənilərdən qorumayacaq, erməniləri azərbaycanlılardan qoruyacaq.

## VƏZİYYƏT

Yenidənqurmada Yenidənqurmayla döyüş imkanı var: Qorbaçovşina ondan qorxur, ondan qorunur: – Yenidənqurmanın özünə etibar eləmir – hakimiyyətini möhkəmləndirir.

## VƏZİYYƏT

Qorbaçovşinanın məğlubiyyətinə gülmək, Diktaturanın qələbəsinə ağlamaq.

*26 Dözüm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Qorbaçovşina ümumbəşəriliyindən Dilənçilik Müdrikliyi törədi.

*27 Mərhəm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Radikallara Qorbaçovşina gərək deyil.
Konservatorlara Qorbaçovşina gərək deyil.
Radikallar Qorbaçovşinaya gərəkdirlər.
Konservatorlar Qorbaçovşinaya gərəkdirlər.

## ŞEVARDNADZENİN İSTEFASI

Əqidə alveri baş tutmur.

*28 Qismət günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## YENİ İL İMTİYAZI

Biz Qərbin Şaxtasını bayram eləyirik, Qərb bizim günümüzü bayram eləmir.

*31 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Kapitalizmə ümid bağlamaq – əslində ümidsizlikdir.

## VƏZİYYƏT

Bütün ölkələr varlansa – Dünya liderliyinə ehtiyac qalmaz.

Bütün ölkələr güclənsə – Dünya liderliyinə ehtiyac qalmaz.

Bu səbəbdən də Dünya Liderləri ölkələrin varlanmasını istəməz, güclənməsini istəməz.

## VƏZİYYƏT

Dünyanın Amerikanlaşması Amerikaya baha başa gələcək. Dünya Amerikanlaşmadan bezəcək və onu çiynindən atacaq; – Şərqi Avropa Sovetləşməni çiynindən atan kimi.

*1 Ümid günü, Qar Ayı, 12-ci il. Bakı.*

## MÜTƏLLİBOVŞİNA ÜSULU

Mərkəzçi millətçilik.

## HƏQİQƏT

Həyat Həyatdakıları öldürür ki, özü sağ qalsın.

*2 Dözüm günü, Qar Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Erməni millətçiliyi – Oğru.
Gürcü millətçiliyi – Əyan.
Azərbaycan millətçiliyi – Ruhaniyyatçı.

*4 Qismət günü, Qar Ayı, 12-ci il. Bakı.*

## XARİCİLƏŞMƏ SİYASƏTİ

Şərikli Müəssisə – əslində Şərikli Ölkə deməkdir.

*14 Arzu günü, Qar Ayı, 12-ci il. Bakı.*

## LİTVA HADİSƏSİ

I. Qorbaçovşina Ordudan qorunur, bu səbəbdən də Ordu istədiyini eləyir.

II. Landsbergisin canavarlığı özünü yedi;
Prunskenenin tülkülüyü özünü aldatdı.

III. "Sayudis" hakimləri rus dilli əhalidən özlərinə qarşı möhkəm, mütəşəkkil Üsyançı Qüvvə yaratdılar, törətdikləri Zülm öz başlarına uçdu.

IV. Qorbaçovşina Litva tapdağına atdığı Rusların xilaskarı kimi görünmək istəyir – xalq hiddətindən yayınmaq üçün.

V. Litvada və ümumən Pribaltikada Başçı yoxdur; Başçılıq həvəsinə haytalanan, iddialı həvəskarlar var; Litva və ümumən Pribaltika xalqları Başsızdırlar, bu səbəbdən də Milli Səy, Enerji hədər gedir, heç olur.

VI. Demokratik Xilas Dumanı çəkilir, Yalançı Nailiyyətlər Puçluğu görünür; Suverenlik Oyunu aşkarlanır, əslində Qorbaçovşinanın özü tərəfindən quraşdırılmış "Demokratik hərəkat"ın tam iqtidarsızlığı bilinir, Parlamentarizmin milli azadlığa Yararsızlığı sübut olunur; – Ahılların ucbatından Cavanlar qırılır.

VII. Yelsinşina Rusiyanı Qorbaçovşinanın əlindən almaq niyyətindədir: Pribaltika siyasətbazlıq Şahmatının Piyadası rolu oynayır Rəqabət Döyüşündə.

VIII. Müasir Dünya Yekənin tərəfindədir: Milli azadlıq uğrunda Döyüş – əslində Dünyayla Döyüşdür: – Uzunömürlü, Aramsız, Gərgin, Təhlükəli, Qeyri-Adi.

## VƏZİYYƏT

Pribaltikada Sosializm uğrunda Döyüş – Qorbaçovşinaya qarşıdır.

Rusiyada Antisosializm uğrunda Döyüş – Qorbaçovşinaya qarşıdır.

## QORBAÇOVŞİNA ƏMƏLİ

Erməniyə deyir ki, SSRİ-dən çıxsan – Qarabağdan əlin çıxacaq.

Azərbaycanlıya deyir ki, SSRİ-dən çıxsan – Qarabağı itirəcəksən.

*16 Dözüm günü, Qar Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Səddam Hüseyn Qərb Hakimliyinə qarşı tək vuruşur – Qərbləşən Şərq Qərbin tərəfindədir.

## VƏZİYYƏT

İslamçı İran İraqın zəifləməsini istəyir, Şərqin zəifləməsinin qeydinə qalmır.

## VƏZİYYƏT

Turqut Ozal Qərbə Antişərq Sədaqəti göstərir – Qəti, Möhkəm.

## ALVER

Qorbaçovşina İraqı Amerikaya satdı – Amerika Pribaltikanı Qorbaçovşinaya satmaqdadır.

## SİYASƏT

Qorbaçovşina Azərbaycanlılara başsağlığı vermir – İraqlılara başsağlığı verir əslində.

## AMERİKA–İRAQ MÜHARİBƏSİ

I. Ərəb Qərbləşməsinin nəticəsi və davamı.
II. Qorbaçovşina sülhünün nəticəsi və davamı.
III. Şərq Qərbləşməsinin nəticəsi və davamı.

*18 Qismət günü, Qar Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Mütəllibovşina lisanında milli suverenlik – əslində Mərkəzçilik deməkdir.

Milli Dirçəliş – əslində Mərkəzçilik deməkdir.

Milli Birlik – əslində Mərkəzçilik deməkdir.

## HƏQİQƏT

Cəmiyyət əslində Dünyanı İnsandan gizləyir.

## VƏZİYYƏT

Matəmdən İslamçılar özlərinə Bayram düzəldirlər əslində.

*19 Murad günü, Qar Ayı, 12-ci il. Bakı.*

## MATƏM TƏDBİRİ

Kommunistlərlə İslamçıların birliyindən Qismətçilik Ruhsuzluğu yaranır, Kədərdən İtaət Yoğururlar Syasətçilər – Matəmdən Siyasi Qazanc götürürlər, Camaatı Mərkəzlə barışdırırlar.

## VƏZİYYƏT

İsrail Qəsbkarlarından Qurban düzəldirlər, Qatilləri Dünyaya Doğmalaşdırırlar.

*20 İnam günü, Qar Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

İraqla döyüş – əslində Ərəb Dünyasıyla Döyüşdür – lakin Ərəb Dünyasının bundan xəbəri yoxdur elə bil.

## HƏQİQƏT

"Ayağımızı Yorğanımıza görə uzadaq!" halsızlığına çağırdı camaatı Matəm Tədbiri.

## PRİBALTİKA DƏRSİ

Demokratiya həşirindən havalanmamaq.

## HƏQİQƏT

Təbiət İnsanda çaşıb, İnsan cəmiyyətdə.

## VƏZİYYƏT

Azad Federasiya Qurğusunda SSRİ-dən çıxmaq SSRİ-də qalmağa bərabər olur.

## İTTİFAQ SAZİŞİ HAQQINDA ÜMUMXALQ REFERENDUMU

Əlacsızlıq Güzgüsü.

**VƏZİYYƏT**

Qərb Qorbaçovşinanı Ovcunun içində saxlayır.

**VƏZİYYƏT**

Yelsinşina Mərkəzsizlik istəyir ki, özü Mərkəz olsun.

**VƏZİYYƏT**

Yelsinşina Qorbaçovşinaya qarşı Üsyan eləyir – Qorbaçovşina Qorbaçovşinaya qarşı Üsyan eləyir.

**VƏZİYYƏT**

Qorbaçovşina Xalqlara Tələ qurur, ancaq İdrak azlığından özü də Tələyə düşür.

**HƏQİQƏT**

Panislamizm – Pantürkizmin Qənimi.

**VƏZİYYƏT**

Qərb SSRİ-nin ölməsini istəyir, ancaq millətlərin dirilməsini istəmir.

**HƏQİQƏT**

Hökumətlə Birlik – ölülükdür.
Hökumətə qarşı Birlik – Dirilikdir.

**BİRLİK**

Hökumət İslamçı Yalanında camaatdan qorunur.
İslamçılar Hökumət Yalanında camaatdan qorunurlar.

*21 Arzu günü, Qar Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Sosializmi sevmək – köləlikdir.
Kapitalizmi sevmək – yırtıcılıqdır.

## HƏQİQƏT

Kapitalizmi vəsf edən şair, filosof olmayıb.
***Kapitalizmi Qorbaçovşina kommunistlərindən başqa vəsf eləyən olmayıb.***

## KOMMUNİST TƏKAMÜLÜ

Stalinçi Zorakılar.
Qorbaçovçu Riyakarlar.

## VƏZİYYƏT

Qorbaçovşina ordudan qorxur, – Orduyla Xalq arasında nifaq yaradır: Ordudan bəhrələnir, həm də Ordunu sarsıdır: Ordunun əliylə bədniyyətini həyata keçirir və günahı Ordunun üstünə yıxır: həm xalqa ziyan verir, həm də Orduya: Xalq hiddətini Orduya qarşı yönəldir, özünü təmizə çıxarır: Riyakarlığa tapınır.

## DAİRƏ

Əvvəl Qorbaçovşina sağçıları solçulara satmışdı, indi solçuları sağçılara satır, bir azdan sağçılar satılacaq, sonra solçular....

## VƏZİYYƏT

Amerika Küveyti qorumur, Ərəb Dünyasındakı Hakimliyini qoruyur.

Səddam Hüseyn Küveyt uğrunda döyüşmür, Amerika Hakimliyinə qarşı döyüşür.

Qorbaçovşina Ədalətə çalışmır, Amerikaya qulluq göstərir.

Misir Küveyti qorumur – öz Qərbçiliyini qoruyur.

Suriya Küveyti qorumur, öz Səddam Hüseynlə Rəqabətini qoruyur.

Avropa Küveyti qorumur – Ərəb Birliyi sabahından qorunur.

Humanizmdən dəm vururlar mənafeçilər, Humanizmə bürüyürlər mənafelərini, insan haqqına mindirirlər təmənnalarını, tamahlarını.

**HƏQİQƏT**

Lenin NEPi – Riyakar Kommunizmin Başlanğıcı.

**ANTİMİLLİ "MİLLƏTÇİLİK"**

Milli Kapitalizm olmur – Kapitalizm Beynəlmiləlçidir.
Milli Milyoner olmur – Milyoner Beynəlmiləlçidir.
Milli Tacir olmur – Tacir Beynəlmiləlçidir.
Milli Kommersant olmur – Kommersant Beynəlmiləlçidir.

***H.Tağıyev ətrafında Quraşdırılmış Siyasi Oyun*** "antikapitalist" kommunistlərin "demokratik" əxlaqsızlığıdır – ***qəti*** və ***abırsız.***

**TOTAL ƏXLAQSIZLAŞMA**

Kapitalistləşən Kommunist.
Daşnaqlaşan Kommunist.
Müsavatlaşan Kommunist.
İslamlaşan Kommunist.
Xristianlaşan Kommunist.

**HƏQİQƏT**

Dünənki Hami – Bu gün Qənimə çevrilir.
Gizli Qənim – Açıq Qənimə çevrilir – çünki Hamilik – əslində Qənimlikdir.

## VƏZİYYƏT

Yelsin Qorbaçova qarşı dura bilmir, çünki özü elə Qorbaçovşinadır.

Qorbaçov Yelsinə qarşı durmur, çünki Yelsinin Qorbaçovşinalığına şübhə etmir.

Afanasyevi bağırtdırırlar.

Popovu oturtdururlar.

Sobçakı fısqırdırlar....

Hamının İpi Qorbaçovşinanın əlindədir, o cümlədən Qorbaçovun...

*24 Mərhəm günü, Qar Ayı, 12-ci il. Bakı.*

## CƏFƏNGÇİLİK

Sübut etmək istəyirlər ki, Tağıyevlər milyonları xalq üçün yığırmışlar, maarif-mədəniyyət üçün yığırmışlar.

Yəni Tağıyevlər Zəhmətkeşlərdən qazandıqlarını Xalqa xərcləyirmişlər, maarif-mədəniyyətə xərcləyirmişlər.

Deməli, zəhmətkeşlər Xalqa aid deyilmişlər, maarif-mədəniyyətə aid deyilmişlər.

***Cəfəngiyyata sığınırlar milyonerçi –kommunistlər, cəfəngçilik yaradırlar.***

## MİLYONÇULUQ HAVASI

Fəhlə Ağalarından Xalqa Ata düzəldirlər –
Fəhləni təhqir eləyirlər “Fəhləçilər”.

## PULÇULUQ ƏXLAQSIZLIĞI

Pulçuluğa çağırırlar, Pulçuluq ehtirasını alışdırırlar, Pulçuluqdan məbəd düzəldirlər, Pulçuluğa bel bağlayırlar, Pulçuluq ləyaqəti təlqin edirlər, Pulçuluq Əqidəsi Yaradırlar, Pulçuluq adlı Ruhani İflasa çatıblar – İrəliçilər.

## “XALQÇILIQ”

Xalq Şairi var.

Xalq Yazıçısı var.
Xalq Rəssamı var.
Xalq Artisti var.

***Bir Xalq milyoneri çatışmırdı – onu da tapdılar – "xalqçılar" – H.Z.Tağıyev.***

*25 Qismət günü, Qar Ayı, 12-ci il. Bakı.*

**YAZI**

Qorbaçovşina xalqların aqibətinə Matəm günləri yazdı.

*26 Murad günü, Qar Ayı, 12-ci il. Bakı.*

**MİLLİ NİCAT KOMİTƏLƏRİ**

Qorbaçovşinanın irəli atdığı və satdığı.

**VƏZİYYƏT**

Qorbaçovşina çox vaxt dişini göstərmir.
Bu səbəbdən də onun dişini qırmaq çətin olur.

**TƏZƏ KOMMUNİST SİYASƏTİ**

Antikommunistləş – ancaq sağ qal!

**QORBAÇOVŞİNA HAKİMİYYƏTİ**

İqtidarsız Totalitarizm.

**FƏRQ**

İslam Əxlaqı – İtaət Ləyaqəti.
Qərb Əxlaqı – Sırtıqlıq Azadlığı.

**HƏQİQƏT**

Lovğalıq – Vüqarsızlıqdır. Vüqarlı – lovğalığı öz Vüqarına sığışdırmaz.

## RİYA ƏMƏLİ

Ordunu camaatı qırmağa göndərən də özüdür, qırğından üz döndərən də.

## HƏQİQƏT

Kapitalizm – Antiinsani cəmiyyətdir.

Ona qarşı Döyüş – Ruhani Borcdur.

Sosializm – Kapitalizmi məğlub edə bilmədi, çünki özü antiinsani oldu.

Sosializm – Antiinsani idealdır.

Ona qarşı Döyüş – Ruhani Borcdur.

Kapitalizm–Sosializm idealını məğlub edə bilməz, çünki özü antiinsanidir.

***Qorbaçovşina Kapitalizmə yalmanır – antiinsaniliyə yarayır.***

## VƏZİYYƏT

Ordunun tənqidi – Qorbaçovşinanın ürəyindəndir.

Ordunun tənqiddən sonra tərifi – Qorbaçovşinanın ürəyindəndir.

Inzibati Orqanların tənqidi – Qorbaçovşinanın ürəyindəndir.

İnzibati orqanların tənqiddən sonra tərifi – Qorbaçovşinanın ürəyindəndir.

Sağçıların tənqidi – Qorbaçovşinanın ürəyindəndir.

Sağçıların tənqiddən sonra tərifi – Qorbaçovşinanın ürəyindəndir.

Solçuların tənqidi – Qorbaçovşinanın ürəyindəndir.

Solçuların tənqiddən sonra tərifi – Qorbaçovşinanın ürəyindəndir.

Qorbaçovşinanı yaşadan İkilikdir, İkilik ölsə – Qorbaçovşina da ölər.

## QORBAÇOVŞİNA TƏMAYÜLÜ

Təzə Siyasi Təfəkkür – Riya.
Güzəşt – Riya.
Çeviklik – Riya.
Konsensus – Riya.
Suverenlik – Riya.
Birlik – Riya.

Qorbaçovşina – aramsız, ardıcıl Riyakarlıqdır, onun Riyadan üstün Yarağı yoxdur; Qorbaçovşina – Riyakarlıq Təmayülüdür – ölkənin üstünü alan.

## VƏZİYYƏT

İctimai Sabitlik – Qorbaçovşinanın əleyhinədir. Sabitləşmə – Qorbaçovşinaya qarşı Birləşmə yarada bilər.

İctimai Hərc-Mərclik – Qorbaçovşinanın əleyhinədir, o, Sabitləşmə Tələb edə bilər, Qorbaçovşinaya qarşı Birləşmə Tələb edə bilər.

Aşkarlıqda Qorbaçovşina Riyakarlığı Aşkarlandı.

Demokratiyada Qorbaçovşina Riyakarlığı əleyhinə Döyüş başlandı.

Bu səbəbdən də Qorbaçovşina Aşkarlıqdan Qorxur, Qorunur; Demokratiyadan Qorxur, Qorunur.

## PRUNSKENE SÜQUTU

Qorbaçovşina yanında "Sayuds"çiydi – "Sayudis" yanında – Qorbaçovşinaçı.

Qütblərin heç birinə yaramadı.

## HƏQİQƏT

***İdeologiyasızlıq – əslində İdealsızlıqdır.***

Yalançı İdeologiyanı – Həqiqi İdeologiyayla əvəz etmək gərək, İdealsızlıq Fəlakətində Xilas aramamaq!

## HƏQİQƏT

Totalitarizmdə Xalq Rəiyyətləşir.

Demokratizmdə – Xalq  Cəmiyyətləşir.

***Cəmiyyətləşmə – Azad Rəiyyətləşmədir əslində.***

Bu baxımdan, Demokratizm Totalitarizmin "xəlqi biçimidir"...

## FƏRQ

Totalitarzim – Zorakı Təbəəlik.
Demokratiya – Azad Təbəəlik.

## ƏMƏLİYYAT

Ermənilərdən Yazıq düzəldənlər indi də İsraillilərdən Yazıq düzəldirlər.

## "ÜZAĞARTMA" ƏMƏLİYYATI

Qorbaçovşina satdığı İraqa qahmar çıxacaq.

Buş satdığı Pribaltikaya qahmar çıxacaq.

## QORBAÇOVŞİNA LƏYAQƏTİ

Avropadan Dilənmək.
Küveytdən Bəhrələnmək.

## RIJKOV FACİƏSİ

Qorbaçovşinanın ayağı altında Top olmuşdu, gah Sağa, gah Sola ötürürdülər: az-çox ləyaqəti vardı, – ürəyi dözmədi.

*27 İnam günü, Qar Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Hansı Quruluşu qoruyurlar SSRİ İnzibatçıları? – Sosializm Quruluşu yoxdur, Kapitalizm Quruluşu Tam deyil – Quruluşsuzluğumu qoruyurlar? Kimdən qoruyurlar Quruluşsuzluğu?

Kapitalistdənmi? Kapitalist Quruluşsuzluğu alqışlayır.

Sosialistdənmi? Sosialistin qorumağa bir şeyi qalmayıb.

Qorbaçovşinanı qoruyurlar – Quruluş əvəzinə; sonra Qorbaçovşinanın əvəzinə kimlər gəlsə, onu qoruyacaqlar – ***Ağanı qoruyurlar – Quruluş bəhanədir.***

## RİYA QƏTİYYƏTİ

Ateistlər Dinə qarşı çıxanları dabanından soyacaqlar.

## VƏZİYYƏT

Qorbaçovşina əslində Güclünün – Amerikanın tərəfindədir, ancaq özünü Gücsüzün – Küveytin tərəfində olan kimi göstərir.

## DEMOKRATİK AZADLIQLAR

Demokratiyada Xalq Seçki vasitəsiylə öz Ağalarını dəyişdirə bilər.

Mətbuat vasitəsiylə öz Ağalarını tənqid edə bilər.

Mitinqlər vasitəsiylə öz Ağalarının üstünə çığıra bilər.

***Demokratik Azadlıqlar Demokratik Ağalığı qoruyurlar.***

## DEMOKRATİK SEÇKİ

Demokratiyada Xalq öz Ağalarını seçir.

## HADİSƏ

Prezidentlik – demokratik Monarxiya.

## FƏRQ

Despotizm – İnsanı alçaldır.
Demokratiya – İnsanı oynadır.

## HƏQİQƏT

Bəşəri İnsanlaşdırmadan Sülhə çağırmaq – Cəfəngiyyatdır.

## VƏZİYYƏT

Milis Xalqı Hökumətdən qorumur, Hökuməti Xalqdan qoruyur, bu səbəbdən də sevilmir.

*Milis Xalqı Hökumətdən qorusa – Sevilər.*

*28 Arzu günü, Qar Ayı, 12-ci il. Bakı.*

**ŞƏHƏRLƏRDƏ ORDU PATRULU**

Şəhərlərdə hərbi vəziyyət elan edilməsi.

**VƏZİYYƏT**

Özlərini elə qoruyurlar ki, qorumalı bir şey qalmır.

**HADİSƏ**

Pulla Tarixə də düşmək olurmuş.

**HƏQİQƏT**

Fəlsəfə – Həqiqətçilikdir, Siyasət – Mənafeçilik.

Bu səbəbdən də Siyasi Fəlsəfə olmur – Siyasət Fəlsəfəyə daban-dabana ziddir.

*29 Ümid günü, Qar Ayı, 12-ci il. Bakı.*

**QORBAÇOVŞİNANIN AQRAR SİYASƏTİ**

Kəndlinin xilası haqqında düşünmürlər – Təsərrüfatın xilası haqqında düşünürlər – bu səbəbdən də Təsərrüfatı xilas edə bilmirlər.

**FƏRQ**

Kompartiyanın köhnə üsulu – hamılaşmaq.

Kompartiyanın təzə üsulu – Özgələşmək.

**TƏZƏ KOMMUNİST TƏŞƏBBÜSKARLIĞI**

***Kapitalistlə*** Təmasda deyir – "elə mən Kapitalistəm".
***Millətçiylə*** Təmasda deyir – "elə mən Millətçiyəm".
***Dinçiylə*** təmasda deyir – "elə mən Dinçiyəm".
***Riya təşəbbüsündə Fəaldırlar!***

**FƏALİYYƏT**

Əqidələrini əqidəsizlik bahasına genişləndirirlər.

**VƏZİYYƏT**

Sağlam Düşüncə əsasında Ölkəni ölümcül vəziyyətə saldılar.

**QORBAÇOVŞİNA MAKKİAVELÇİLİYİ**

Özgələş ki, Ölməyəsən!

**QORBAÇOVŞİNA HƏKİMLİYİ**

Ölkə xəstəydi, – həkim onu öldürür.

**HƏQİQƏT**

Emosionallığın inkarı adıyla Əlacsızlığı təsdiq edirlər ağıl dəryaları.

**YALAN YARAĞI**

İttifaq Müstəqil Dövlətlərin Bərpası üçün yaradılmır, Bərpasına qarşı yaradılır əslində.

SSRİ daxilində Müstəqil Dövlətlər vədi – Yalandır – Azərbaycan Hökumətinin Yaraqlandığı.

**HƏQİQƏT**

Qorbaçovşina lisanında Realizm – Əlacsızlıq deməkdir.

Əlacsızlıq siyasəti yeridirlər və İnamdan dəm vururlar.

**VƏZİYYƏT**

Dialoq – Yeni Monoloq.

**VƏZİYYƏT**

Mütəllibovşina qeyri-formallara deyir ki, bizlə birləşməkdən başqa Əlacınız yoxdur.

## VƏZİYYƏT

Cilddən-cildə girirlər – Milyonçulaşırlar, Dinçiləşirlər, Müsavatlaşırlar, – Əxlaqsızlaşırlar və Milli Dirçəlişdən dəm vururlar – Kommunist İyezuitləri.

## İMKANLAR

Stalinçilik – Kommunizmin Zülmkarlıq İmkanını nümayiş etdirdi; Qorbaçovşina – Riyakarlıq İmkanını.

## VƏZİYYƏT

Azərbaycan Hökuməti Demokratik Plüralizmin təzə Modelini – Dinc Oppozisiya Modelini hazırlayır.

Oppozisiya – Hökumətin Strateji Xəttiylə razılaşmalıdır – “plüralistik birlik” yaranmalıdır hökumətlə Oppozisiya arasında, çərçivəli çoxrəylikdən siyasi əməkdaşlıq törəməlidir; Hökumət Oppozisiyadan bəhrələnməlidir; Oppozisiya Hökumətlə Partnyorlaşmalıdır.

## QORBAÇOVŞİNA MEYARI

Kim Hökumətlə birləşirsə – o, Sağlam Qüvvədir.

Kim Hökumətlə birləşmirsə – o, Qeyri-sağlam Qüvvədir.

***Sağlamlıq Meyarı – Hökumətdir – Özünü Meyar elan eləyən.***

## YÖN

Gerçəklik Həddində: Ya kapitalizm, ya diktatura, ya da kapitalizmlə diktaturanın qarışığı.

Gerçəklikdən Üstün: Ruhani Cəmiyyət.

## MÜSTƏQİLLİK YOLU

Yenidənqurmadan ayrıla bilmək.
SSRİ-dən ayrıla bilmək.
Qərbləşmədən ayrıla bilmək.

## VƏZİYYƏT

Mütəllibovşina separatçılığın əleyhinədir, milli dirçəlişin lehinə.

Əslində Separatizm elə milli dirçəliş deməkdir.

Deməli, Mütəllibovşina milli dirçəlişin həm lehinədir, həm əleyhinə.

## VƏZİYYƏT

Ümumittifaq Bazarı – Milli İqtisadiyyat üzərində Ümumittifaq Hakimliyi deməkdir əslində.

Ümumittifaq Dövləti – Milli Respublikalar üzərində Ümumittifaq Hakimliyi deməkdir.

## YENİ KOMMUNİST TAKTİKASI

"Millətçiləşək, dinçiləşək, müsavatlaşaq – sağ qalaq, sonra kommunistləşərik!".

## VƏZİYYƏT

Marksist Mollalar Kommunistlər üçün Riyakarlıq Duaları hazırlamalıdırlar.

## YAXIN GƏLƏCƏK

***Siyasi Kentavr:*** Həm Demokratiya, həm Diktatura.

## VƏZİYYƏT

Əslində Mütəllibovşinanın Məqsədi – qeyri-formallarla əməkdaşlıq yox, ***qeyri-formallar üzərində Çevik Hakimlikdir.***

## İTTİFAQ SAZİŞİ ÜZRƏ REFERENDUM

I. SSRİ öz İdeoloji Əhəmiyyətini tam itirib – Marksizm Süquta uğrayıb.

II. SSRİ öz Siyasi Əhəmiyyətini tam itirib – Sosializm Süquta uğrayıb.

III. SSRİ Respublikalar üçün İqtisadi Buxova çevrilib əslində.

Bu səbəbdən də SSRİ-də qalmağın heç bir Mənası yoxdur.

***Ancaq indiki vəziyyətdə SSRİ-də qalmamaq SSRİ-də qalmağa bərabərdir.***

Ona görə də ən doğru Yol – referendumda iştirak etməmək – məsələni açıq qoymaqdır.

## HƏQİQƏT

Sosializmin Həqiqəti – Zor.
Kapitalizmin Həqiqəti – Var.

## VƏZİYYƏT

Mütəllibovşina Partiya İdarəçilərinə tapşırır ki, millətçiləşsinlər.

Millətçiləşirlər ki, Beynəlmiləlçiliyi saxlasınlar.

*30 Dözüm günü, Qar Ayı, 12-ci il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovşina Demokratiyası Moskvanı Radikal cümlələr Ustası Popova tapşırdı.

Qorbaçovşina Demokratiyası Leninqradı Radikal cümlələr Ustası Sobçaka tapşırdı.

Qorbaçovşina Demokratiyası Bürokratiyanı Filokratiyayla (Söz Hakimliyiylə) əvəz etdi.

## VƏZİYYƏT

Qorbaçovşina Pribaltikanı Avropaya açılan qapı sayırdı, Pribaltika qapısını Qorbaçovşinanın üzünə bağladı: indi Qorbaçovşina üzünə bağlanan qapını Zorla açmaq istəyir.

## VƏZİYYƏT

Mütəllibovşina öz məruzəsində naxçıvanlılara çatdırdı ki, Əliyevşina keçməyəcək, – xam xəyallara düşməyin!

## VƏZİYYƏT

Oppozisiya Partiyaları çoxaldıqca – Oppozisiya azalır.

## VƏZİYYƏT

Bütün Böhranların Səbəbi ***Qorbaçovşina:*** –

Yeni Təfəkkür Böhranı, Konsensus (Razılaşma) Böhranı, Parlamentçilik Böhranı, Güzəşt Böhranı, Plüralizm Böhranı, Demokartiya Böhranı.

Yaranandan Böhrandadır Qorbaçovşina: Böhran yaradandır – ***Böhrandan başqa heç nə yarada bilmir.***

## VƏZİYYƏT

"Yenidənqurmanın Alternativi yoxdur!" şüarı altında – Yenidənqurmanın Totalitarizmin Alternativi ola bilməməsi həqiqətini gizlətdilər...

Yenidənqurma Totalitarizmin astarı oldu.

Yenidənqurmayla Döyüşmədən heç bir məsələni həll etmək mümkün olmayacaq...

Yenidənqurmadan böyük maneəsi yoxdur Tərəqqinin əslində.

## VƏZİYYƏT

Sosializmdən ayrılmaq Zəruridir, ancaq kapitalizmə qayıtmaq Zəruri deyil, əslində camaatı güclə kapitalizmə qaytarırlar, ***əslində kapitalizmlə təzədən döyüşmək lazım gələcək***, Fəlakətli xalqın çiyninə Yük üstündən Yük düşəcək: sosializmə şükür oxuyacaqlar.

## VƏZİYYƏT

Sosializmdən kapitalizmə qayıtmaq yox, həm sosializmdən, həmdə kapitalizmdən Fərqlənən Cəmiyyət yaratmaq gərəkdir.

Təslimçilik avantürası yox, gerçəklik Səddini Aşmaq gərək idi.

Yenidənqurma – Fəlakətli Eksperimentdir – İddiaçılıq, Naşılıq, Volyuntarizm səviyyəsində, Dəhşətli Yanlışlıq və Azmadır;

Qəzet çoxluğu, Təşkilatlar Bolluğu, parlament Sözbazlığı – Fəlakəti azaltmır...

İnqilabçılıq Şöhrətpərəstliyi – ***Qorbaçovşina adlı eybəcərlik yaratdı:*** – Opportunist Volyuntarizm – ***Təslimçi Zorakılıq.***

## VƏZİYYƏT

Sosializmə qayıtmaq – Ölümdür, Kapitalizmə qayıtmaq – İflas. Yenidənqurma Ölümlə İflas arasında gəzişir.

## VƏZİYYƏT

***Yenidənqurma çərçivəsində milli suverenlik iddiası – cəfəngiyyatdır.***

Yenidənqurma – milli suverenlik adı altında Təzə, Çevik İmperiya yaradır, respublikalara Güzəştə gedir ki, Boyunduruqda saxlasın, Mahiyyətcə Yenidənqurma – ***milli suverenliyi vəd edə-edə rədd edir.***

***Yenidənqurma çərçivəsində Azad İqtisadiyyat İddiası – cəfəngiyyatdır.***

Azad iqtisadiyyat – Zəhmətkeş Mülkiyyəti deməkdir – ***Yenidənqurma – Plutokratiya – Pulçular Mülkiyyətidir*** – Zəhmətkeşə Yad.

***Yenidənqurma çərçivəsində Demokratiya iddiası – cəfəngiyyatdır.***

Xaos və Anarxiya – mahiyyətcə Antidemokratizmdir; Yenidənqurma – Xaos və Anarxiyadan çıxa bilməyəcək, çünki özü İdeoloji Xaos və Anarxiyadır.

***Yenidənqurma çərçivəsində Aşkarlıq iddiası – cəfəngiyyatdır.***

Çünki Yenidənqurma Aşkarlığında əsas Həqiqət – Yenidənqurma haqqında Həqiqət – gizlədilir.

### VƏZİYYƏT

Konservatorlar Sosializmin dərdini çəkmirlər, öz köhnə hakimliyinin dərdini çəkirlər.

Radikallar Kapitalizmin dərdini çəkmirlər, öz təzə hakimliyinin dərdini çəkirlər.

### VƏZİYYƏT

Ermənilər SSRİ-dən çıxsalar da – Qorbaçovşinaya Doğmadırlar.

Azərbaycanlılar SSRİ-də qalsalar da – Qorbaçovşinaya Özgədirlər.

Çünki Qorbaçovşinanın nəzərində Erməni Qərbi təmsil eləyir, Azərbaycanlı – Şərqi.

### VƏZİYYƏT

Təşəbbüskarlığın Kapitalistləşmədən başqa çarəsini tapmadılar.

Əmək məhsuldarlığının Kapitalistləşmədən başqa çarəsini tapmadılar.

Güzərançılığın Kapitalistləşmədən başqa çarəsini tapmadılar.

İşgüzarçılığın Kapitalistləşmədən başqa çarəsini tapmadılar.

Çarəsizlikdən beşəlli yapışdılar.

*1 Qismət günü, Köçəri Ay, 12-ci il. Bakı.*

### VƏZİYYƏT

Əgər Respublika Qarabağ problemini özü həll edə bilmirsə, Mərkəzdən kömək gözləyirsə – onun suverenliyindən danışmaq gülüncdür.

Əgər Respublika özünü qonşu təcavüzündən qoruya bilmirsə, Mərkəzə bel bağlayırsa – onun suverenliyindən danışmaq gülüncdür.

**ORDU PATRULU TƏDBİRİ**

Məqsəd: I. Xalqla Ordu arasında nifaq salmaq.
II. Ordunun Qorbaçovşinaya hiddətini azaltmaq.
III. Xalqı Qorxuda saxlamaq.

**HƏQİQƏT**

Qorbaçovşina xalqı qorumur, xalqdan qorunur.

*2 Murad günü, Köçəri Ay, 12-ci il. Bakı.*

**AZƏRBAYCANDA PARLAMENT AÇILIŞI**

Birlik Zəruriliyi tamaşası – Kommunistlərin İslamçı çuxalarına sığınması.

**ALLAHŞÜKÜR PAŞAZADƏNİN PARLAMENT XEYİR-DUASI**

"Kim ki, hökumətlə birləşmir – onun ürəyində şeytan var; kim ki, hökumətlə birləşir – onun ürəyində Allah var!"

*5 Ümid günü, Köçəri Ay, 12-ci il. Bakı.*

**AZƏRBAYCAN PARLAMENTİ**

Köhnə Ali Sovet üstəgəl Müsavatlaşma Oyunu.

**FƏRQ**

Pribaltika – Rusdilli Oppozisiya.
Azərbaycan – Rusdilli hökumət.

**VƏZİYYƏT**

Müsavat Bayrağı – Sovet Bayrağını saxlamaq üsulu.

**VƏZİYYƏT**

Mütəllibovşina lisanında Ağsaqqala hörmət – Hökumətə itaət deməkdir.

İctimai Konsensus – Hökumətləşmək deməkdir.

Oppozisiya – Rəsmiləşmək deməkdir.

*6 Dözüm günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Səddam Hüseynin Amerika Ağalığına qarşı Döyüşü – Dünyanın Varlığıdır.

Dünyanın Səddam Hüseynə qarşı Döyüşü – Dünyanın Yoxluğudur.

## MÜTƏLLİBOVŞİNA ƏMƏLİYYATI

Marksist Nərimanovu antimarksist Rəsulzadəylə barışdırır ki, riyakar kommunistliyi qorusun.

Antiparlament Sovetçiliyini Antisovet parlamentçiliyiylə barışdırır ki, riyakar kommunistliyi qorusun.

Bəsti Bağırovadan ictimai xadim quraşdırır ki, riyakar kommunistliyi qorusun.

## HƏQİQƏT

Azərbaycan parlamenti – Riya Hakimiyyəti.

## AZƏRBAYCANDA PARLAMENT SEÇKİSİ

Riyaçılar İddiaçılara qalib gəldi.

## AZƏRBAYCAN PARLAMENTİ

Camaatın boynuna salınan Riya Boyunduruğu.

## VƏZİYYƏT

Demokratik Blokun Mütəllibovşinaya qarşı Bəyanatında mahiyyətcə Mütəllibovşinaya qarşı heç nə yox idi.

## VƏZİYYƏT

H.Əliyev Azərbaycana Əliyevşinanı xilas eləmək üçün gəlib: Tayfabazlığı, Beynəlmiləlçiliyi, Müstəbidliyi.

## PARLAMENT HALI

"Demokratik Blok" – mahiyyətcə Mütəllibovşinadır, bu səbəbdən də Mütəllibovşinayla döyüşə bilmir.

"Demokratik Blok" – Mütəllibovşinadan küsür – bu, mahiyyətcə Mütəllibovşinayla barışmaq deməkdir.

Əliyevşina Mütəllibovşinayla köhnə kommunist Yırtıcılığı üsuluyla döyüşmək istəyir – bu səbəbdən də mahiyyətcə Mütəllibovşinaya yarayır.

## "DEMOKRATİK BLOK" FƏALLIĞI

Ölü çaxnaşma.

## QOHUMLUQ

Mütəllibovşinanı Qorbaçovşina yaratdı.

"Demokratik Blok"u Qorbaçovşina yaratdı.

Bu səbəbdən də Demokratik Blok Mütəllibovşinayla irsən qohumdur.

## HƏQİQƏT

Suverenitet problemini həll eləyəndə – Azərbaycan Hökumətinin Yoxluğu bilinəcək.

Milli Dirçəliş problemini həll eləyəndə – Azərbaycan Hökumətinin Yoxluğu bilinəcək.

Qarabağ problemini həll eləyəndə – Azərbaycan Hökumətinin Yoxluğu bilinəcək.

## VƏZİYYƏT

"Demokratik Blok" Mütəllibovşina parlamentindən nəsə qoparmaq istəyir – Mütəllibovşina parlamenti isə qopmur.

## GEDİŞAT

Parlament Riyakar kommunistlər hakimiyyətini təsdiq edir.

## VƏZİYYƏT

Marksistlər üçün Dindən böyük İblis yoxdur.

Təzə, Riyakar kommunistlər İblisləşməkdən çəkinmirlər, – təki hakimiyyətdən çəkilməsinlər.

## HƏQİQƏT

Dünyanın Varlığı da var, Yoxluğu da.

***Azərbaycan parlamenti Bugünün Varlığını yox, Yoxluğunu ifadə eləyir.***

*8 Qismət günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## NƏTİCƏ

Azərbaycan Parlamenti İttifaq Sazişinə Qol çəkdi.

## QORBAÇOVŞİNANIN İRAQLA BAĞLI BƏYANATI

“Amerikanın Qoltuğunda – Müstəqiləm”.

*10 İnam günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## KONSENSUS SƏYİ

Hökumət ətrafında Riyakarlar Birliyi istəyi.

## TƏZƏ HƏMRƏYLİK

Riyayla Birləşənlər.

## VƏZİYYƏT

Parlament Üzvlüyü – əslində Üzsüzlükdür.

## YERLƏR

Hökumət – Riyakarlığın Başında.
Oppozisiya – Riyakarlığın Ətəyində.
İslamçılar – Riyakarlığın Ortasında.
Camaat – Riyakarlığın Tələsində.

## FƏRQ

Marksizm – Dalaşqanlıq Utopiyası.
Qorbaçovşina – Barışqanlıq Utopiyası.

## VƏZİYYƏT

Bayrağı dəyişdirir – "Əqidəmi dəyişdirmirəm!" – deyir.
Respublikanın adını dəyişdirir – "Əqidəmi dəyişdirmirəm!" – deyir.

***Əqidəni dəyişdirmirsənsə – kimi aldadırsan?***
***Əqidəni dəyişdirirsənsə – kimsən?***

## DEMOKRATİK ZOR

Kommunistlər Müsavatçıların Bayrağına Yiyələndilər.

## FƏRQ

Həyanı Riyaya dəyişdirənlər.
Həyanı Riyayla barışdıranlar.

*11 Arzu günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Pantürkizm – Türkün Türkləşməsi – Özümləşməsi.
Panislamizm – Türkün Müsəlmanlaşması – Özgələşməsi.

## VƏZİYYƏT

Novruz Bayramından Hökumətçi Mərasim düzəldirlər Hakimlər.
Novruz Bayramından İslamçı Mərasim düzəldirlər İslamçılar.
Hər ikisində Novruz Bayramı Matəmləşir.

## AMERİKA – İRAQ DAVASININ NƏTİCƏSİ

Ərəb Qərbləşməsinin İfşası.

## ŞİƏ- SÜNNİ DAVASI

Əslində Şiənin Allahı – Sünnünün Ölümüdür.
Əslində Sünnünün Allahı – Şiənin Ölümüdür.

## HƏQİQƏT

Əvvəlki Panislamizm – Ərəbləşmə Əməli.
İndiki Panislamizm – Farslaşma Əməli.

## HƏQİQƏT

Azərbaycan İslamçılarının Yönü – əslində Fars şovinizminə tərəfdir. İndi İslamlaşma – İranlaşma deməkdir mahiyyətcə.

## HƏQİQƏT

Harada Ölüm aşdır, orada Molla başdır.

## HƏQİQƏT

İslamlaşma – Mütiləşmə – Antitürkləşmə.
Avropalaşma – Təqlidçilik – Antitürkçülük.

***Həm İslamlaşma, həm Avropalaşma – Müti, Təqlidçi Antitürkçülük.***

## HƏQİQƏT

Kommunistlərlə İslamçıların birliyindən Zorakı Mütilik yaranır.

## HƏQİQƏT

Şimali Azərbaycanı İrana qatmaq həqarəti görünür islamçıların can-fəşanlığında.

## HƏQİQƏT

Marksistlərin İqtisadi Fatalizmi (Qisməti) və İslamçıların İlahi Fatalizmi (Qisməti) mahiyyətcə Birdir – hər ikisi İnsanın taleyini İnsandan kənardakı Qüvvəyə bağlayır.

Marksizm – materialist qismətçilikdir, İslamçılıq – idealist qismətçilik; hər ikisi İnsanı alçaldır, hər ikisi İnamsızlıqdır əslində.

**REFERENDUMUN NƏTİCƏSİ**

Camaatın Oppozisiyadan bezməsi.

**TURQUT OZALIN AZƏRBAYCANA SƏFƏRİ**

SSRİ-çilik Əməli.

**SSRİ – XONEKKER ƏMƏLİYYATI**

Qorbaçovşina üzüqaralığının üzüağlıq səyi.

**QORBAÇOVUN AZƏRBAYCANA MÜRACİƏTI**

Azərbaycan Referendumçularına qılıq.
Erməni Antireferendumçularından giley.

*19 Ümid günü, Günəş Ayı, 13-cü il.*

**HƏQİQƏT**

Əqidə ayrılığı əsasında birlik – əslində Ayrılıqdır.

**İSLAM RESPUBLİKASI**

Müsəlman Qərbçiliyi.

**FƏRQ**

Siyasət lisanında Dünyanı xilas eləmək – Dünyaya hakim olmaq deməkdir.

Ruhaniyyat lisanında Dünyanı xilas eləmək – Özündən keçmək deməkdir.

**VƏZİYYƏT**

Əslində Referendumun nəticəsini bayram elədilər, elətdilər – Rəsmiçilər.

## HƏQİQƏT

Kommunizm Birliyi – Ölülük.
İslam Birliyi – Ölülük.
Kommunizmlə İslamı Ölülük Birləşdirir.

## HƏQİQƏT

Xristian Dünyası yoxdur – Qərb kapitalizmi var.
İslam Dünyası yoxdur – Şərq Qərbi var.

## VƏZİYYƏT

İslamçı Haytasında Cənubi Azərbaycanın Şimali Azərbaycanla birləşməsi görünmür, Şimali Azərbaycanın İrana qatılması görünür.

## HƏQİQƏT

Müsəlmançılıq – Bu dünya mütiliyi, O dünya cəhaləti.

## MÜDRİK HAL

Ömür keçir, Gün keçir –
Nadan olmam bir də mən.

## ÖZGƏLƏŞMƏ MÖMİNLİYİMİZ

İslam – Ərəbliyimiz.
Kommunizm – Rusluğumuz.

*21 Mərhəm günü, Günəş Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

“Geriyə yol yoxdur!” – deyən Qorbaçovşina – Geridən başqa (Kapitalizmə qayıtmaqdan başqa) Yol görmür.

## VƏZİYYƏT

Sosialist Quruluşu yoxdur, kapitalist Quruluşu yaranmayıb.
Hansı Quruluşu dağıdır Oppozisiya?
Hansı Quruluşu qoruyur Hökumət?

## HƏQİQƏT

Totalitarizm – camaatı kölələşdirir.
Demokratiya – camaatı körpələşdirir.

## AZƏRBAYCAN HÖKUMƏTİNİN YENİ SİYASƏTİ

Kommunist Müsavatçılığı.
Mərkəzçi Millətçilik.

## YÖNLƏR

Əqidəli Kommunistlər – həm Qorbaçovşinaya, həm də Oppozisiyaya Zidd.

Əqidəsiz Kommunistlər – Qorbaçovşina tərəfdarı, Oppozisiyaya Zidd.

Oppozisiya – həm Əqidəli, həm də Əqidəsiz Kommunistlərə Zidd.

Qorbaçovşina – Əqidəli kommunistlərə Zidd, əqidəsiz kommunistlərə arxalanan.

## TƏZƏ DAMĞALAR

Yenidənqurmaya qarşı çıxanları Qorbaçovşina mürtəce adlandırır.

Qorbaçova qarşı çıxanları Qorbaçovşina Macəraçı adlandırır.

## VƏZİYYƏT

Qorbaçovşinaya Qorbaçovşinayla birləşən Oppozisiya lazımdır – yəni Yalançı Oppozisiya lazımdır.

İctimai Konsensus harayının əsil Məqsədi budur.

## YENİDƏNQURMA QƏTİYYƏTİ
Təslimçilik Fanatizmi.

## VƏZİYYƏT

Yelsinşina Pribaltiklərlə Saziş bağlayır ki, Pribaltikanı Rusiyaya bağlasın.

Pribaltiklər Yelsinşinayla Saziş bağlayırlar ki, Müstəqil olsunlar.

Yelsinşina Gürcülərlə Saziş bağlayır ki, Gürcüstanı Rusiyaya bağlasın.

Gürcülər Yelsinşinayla Saziş bağlayırlar ki, Müstəqil olsunlar.

Əks Məqsədlər ətrafında birləşirlər Rusiya və Respublikalar.

Əks Məqsədlər Birliyi yaranır Rusiya – Respublikalar Sazişlərindən.

## NƏTİCƏLƏR

Qorbaçovşinanın xarici siyasəti – SSRİ-nin bütünlüklə Qərbdən asılı qalması.

Qorbaçovşinanın Daxili Siyasəti – SSRİ-nin bütünlüklə Qərbdən asılı qalması.

Qorbaçovşinanın Milli Siyasəti – SSRİ-nin bütünlüklə Qərbdən asılı qalması.

*1 Arzu günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçovun pambığı öz başını kəsir.
Yelsinin toxmağı öz başında çatlayır.

*5 Qismət günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## KÜRD – İRAQ DAVASI
Qərb Tələsi.

**FƏRQ**

Kapitalist mülkiyyəti – Zəhmətkeşüstü Mülkiyyət.
Sosialist Mülkiyyəti – Dövlətaltı Mülkiyyət.

**QORBAÇOVUN YAPONİYA SƏFƏRİ**

Qorbaçovşinanın Yaponiyaaltılıq Şövqü.

**DİAMAT QANUNLARI**

Dustaqxana Qaydaları.

**FƏRQ**

Kapitalizmdə İnsan Haqqı – Ağalığı Qoruyan.
Sosializmdə İnsan Haqsızlığı – Zorakılığı Qoruyan.

**HƏQİQƏT**

Kapitalizm – Hüquqi Quldarlıq.
Sosializm – Zorakı Quldarlıq.

*9 Ümid günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

**ƏLAQƏ**

Soyuq müharibə Qızğın müharibəni əvəz eləyir – Qızğın müharibə Soyuq müharibəni əvəz eləyir.

**ƏLAQƏ**

Arvadımızla o qədər dalaşırıq ki, Şərə hiddətimiz qalmır.
Qardaşımızla o qədər dalaşırıq ki, Şərə hiddətimiz qalmır.
Əməkdaşımızla o qədər dalaşırıq ki, Şərə hiddətimiz qalmır.

*29 Arzu günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Həyat – Ölümə möhtacdır.
Həyatın gücsüzlüyü elə bundadır.

## HƏQİQƏT

Həyatın ölməzliyi naminə – Həyatdakılar ölməlidir.
Həyat bu Mənasızlıq əsasında yaşayır.
***Mənasızlıq ölsə – Həyat ölər.***

## HƏQİQƏT

Həyat Həqiqətləri – Həqiqətsizlikləri.

## HƏQİQƏT

Nağıl – Gerçəkliyi Mənayla bərabərləşdirir; –
Gerçəkliyi Yalandan Mənalandırır.

## HƏQİQƏT

Qorxu – Həyatidir.
Həyatı ötmədən – Qorxudan qurtarmaq olmaz.
Yaltaqlıq – Həyatidir.
Həyatı ötmədən – Yaltaqlıqdan qurtarmaq olmaz.
Harınlıq – Həyatidir.
Həyatı ötmədən – Harınlıqdan qurtarmaq olmaz.
Yırtıcılıq – Həyatidir.
Həyatı ötmədən – Yırtıcılıqdan qurtarmaq olmaz.
Riya – Həyatidir.
Həyatı ötmədən – Riyadan qurtarmaq olmaz.
Ağalıq – Həyatidir.
Həyatı ötmədən – Ağalıqdan qurtarmaq olmaz.
Gədalıq – Həyatidir.
Həyatı ötmədən – Gədalıqdan qurtarmaq olmaz.
***Şər – Həyatidir.***
***Həyatı ötmədən – Şərdən qurtarmaq olmaz.***

*30 Ümid günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## QORBAÇOVŞİNA 1 MAYI

Zəhmətkeşlərin Kapitalistlərlə Həmrəylik günü.

## DÜNYANIN SƏVİYYƏSİ

Zərdüşt səviyyəsindən aşağı.
Babək səviyyəsindən aşağı.
Dədə Qorqud səviyyəsindən aşağı.
Hürufi səviyyəsindən aşağı.
Füzuli səviyyəsindən aşağı.
Muğamat səviyyəsindən aşağı.
Saz səviyyəsindən aşağı.
***Azərbaycan səviyyəsindən aşağı.***

## HAL

Əlini Zamanın çiyninə qoy ki, Zaman uçmasın.
Zamanın əlini çiynindən götür ki, uçmayasan.

## QORBAÇOVŞİNA SABAHI

Kommunizm cənnəti əvəzinə – Dünyəvi İnteqrasiya (Birlik) cənnəti.

## QORBAÇOVUN YAPONİYA SƏFƏRİ

Siyasi Dilənçilik.

*1 Dözüm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Türk Estradası İngilis dilində oxunmalıdır, çünki Türk dilinə uyuşmur.

## VƏZİYYƏT

Müasir Türkiyə dəbi – Türkçülüyün qənimi.

## QƏRARLAR QURUMU

Camaata kağız yedizdirirlər Qurmaçılar.

*2 Mərhəm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## YENİDƏNQURMA İDEALSIZLIĞI

Konsensus adlı İdeal yoxdur.
Plüralizm adlı İdeal yoxdur.
Parlamentçilik adlı İdeal yoxdur.
Bazar İqtisadiyyatı adlı İdeal yoxdur.
Mənafe Balansı adlı İdeal yoxdur.

Yenidənqurma – İdealsızlıq "İnqilabı"dır.

## FƏRQ

Bir zaman beşik başında Zor laylası oxunardı, indi Riya laylası oxunur.

## VƏZİYYƏT

Zor haqqını Riya haqqıyla əvəz eləyirlər Qurmaçılar.

## 20 ƏSRİN NƏTİCƏSİ

İdealsızlığa Yetmək.

## VƏZİYYƏT

Leninçilər Dünyəvi İnqilab vasitəsiylə Vahid bəşər yaratmaq istəyirdilər, indi Qorbaçovçular Yenidənqurma vasitəsiylə Vahid sivilizasiya yaratmaq istəyirlər.

Məqsəd birdir: Xalqlara yiyələnmək.

## HƏQİQƏT

İdealsızlıq – Mahiyyətsizlik.

## HƏQİQƏT

Qorxu – İnsanın Ömründə gəzən ***ölümdür.***
Sonradan o, İnsanın ömrünü əlindən alır.

## HƏQİQƏT

Qorxa-qorxa yaşamaq – ölə-ölə ölmək deməkdir.

*3 Qismət günü, İşıq Ayı, 13-cü il. Bakı.*

**DEMOKRATİYA**

Çoban sürüsü.

*5 İnam günü, İşıq Ayı, 13-cü il. Bakı.*

**QORBAÇOVŞİNA SÜLHÜ**

SSRİ urvatsız qalana qədər Dava olmayacaq,
SSRİ urvatsız qalmayan kimi Dava başlanacaq.

**VƏZİYYƏT**

Qərb hələlik SSRİ-ylə oynayır, sonra o, SSRİ-ni oynadacaq.

*7 Ümid günü, İşıq Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Cəmiyyət Adamdakı Heyvanı öldürmür, ona İnsani don geyindirir.

**HƏQİQƏT**

Yenidənqurma – Riyayla nizamlanan Xaos, Anarxiya, Gərginlik.

**AZƏRBAYCAN ALİ SOVETİNİN TƏZƏ SESSİYASI**

Hökumət şappıltıları.
Oppozisiya şıqqıltıları.

**XƏTT**

Azərbaycana qandırırlar ki, yalançı kommunistdirlər.
Mərkəzə qandırırlar ki, yalançı Müsavatçıdırlar.

**VƏZİYYƏT**

Təzə kommunistlər kapitalizmdən kommunizmin birinci fazasını düzəldirlər.

**VƏZİYYƏT**

***SSRİ – Yoxdur.***

Müstəqil Respublikalar da Yoxdur.
***Əslində SSRİ-də Yoxluqdan başqa Var olan Yoxdur.***

*24 Qismət günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Qorbaçov ermənilərə indi yiyəlik eləmir ki, sonra yiyəlik eləsin.

Yelsin ermənilərə indi yiyəlik eləyir ki, sonra yiyəlik eləməsin.

## HƏQİQƏT

Siyasət – gerçəkliyi qoruyur, gerçəklikdə həqiqət yoxdur; ***siyasət – həqiqətsizliyi qoruyur.***

## HƏQİQƏT

Cəmiyyət – Həqiqətin üzünə bağlanan qapıdır.

Cəmiyyət başçıları – əslində həqiqətsizlik başçılarıdır.

Cəmiyyəti qorumaq – əslində Həqiqətsizliyi qorumaqdır.

## İCTİMAİ HƏQİQƏTSİZLİK

Cəmiyyət – Gerçəkliyin tərəfindədir, Həqiqətin tərəfində deyil.

Dövlət - cəmiyyətin tərəfindədir, Həqiqətin tərəfində deyil.

***İctimai Həqiqət olmur, ictimai həqiqətsizlik olur.***

## HƏQİQƏT

Marksizm ictimai antiinsaniliyin günahını istehsalatın boynuna qoyur: bütün bəlaların səbəbi və əlacı – istehsal münasibətləridir: insan gözünü istehsalata dikməlidir; dərd də odur, dərman da: istehsal münasibətlərinin müəyyən səviyyəsində dərd yaranır, müəyyən səviyyəsində dərman: ***istehsalata tabedir Tale – marksizm Allahına.***

## HƏQİQƏT

Marksizmdə İstehsalatdan başqa Var olan yoxdur.

*25 Murad günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## YENİDƏNQURMA SƏSLƏRİ

Ateist – Dinçi səsləyir, kommunist – milyonçu.

## SİYASİ XƏTT

Təzə Azərbaycan Kompartiyası özünü reformaçılar partiyası adlandırır: bununla o demək istəyir ki, mən Xalq Cəbhəsiyəm, sosial-demokratam, Müsavatçıyam – bütün siyasi hərəkatların – hamısıyam; yəni əslində Xalq Cəbhəsi, sosial-demokratlar, Müsavatçılar mən olan yerdə gərək deyil.

## HƏQİQƏT

Doğma Cəmiyyət – Doğma Ağa deməkdir – cəfəng Yalan.

## HƏQİQƏT

Din Müqəddəsliyi cəmiyyətləşdirməklə – əslində cəmiyyəti "müqəddəsləşdirir" – yəni antiinsaniliyi "müqəddəsləşdirir".

## HƏQİQƏT

Kapitalist İstehsalatının məqsədi – Kapitalist gəliri.
Sosialist İstehsalatının məqsədi – Dövlət gəliri.

## HƏQİQƏT

Ağalıqdan azad cəmiyyət yoxdur,
Nökərlikdən azad cəmiyyət yoxdur,
İmtiyazdan azad cəmiyyət yoxdur,
Təbəqədən azad cəmiyyət yoxdur –
azad cəmiyyət yoxdur.

## ÜMUMBƏŞƏRİLİK

Kapitalizmə Zidd.
Sosializmə Zidd.

## FƏRQ

Diktatura – Ağalığı Zorla təsdiq edir.
Demokratiya – Ağalığı Xoşla təsdiq edir.

## HƏQİQƏT

"Hamılıqla rifah" cəmiyyəti Ağalığı rədd etmir, təmin edir.

## İNSAN HAQQI

Ağalığı ləğv etmir, Nökərçiliyi ləğv etmir, Təbəqəçiliyi ləğv etmir, İmtiyazçılığı ləğv etmir – əslində İnsansızlıq haqqı, İnsafsızlıq haqqı...

## HƏQİQƏT

Sosialist Dövləti – Dövlətçiliyi qoruyur;
Kapitalist Dövləti – kapitalistçiliyi;
Yenidənqurma Dövləti – yeni kapitalizmi.

## SİYASİ ƏXLAQ

Milli görünmək üçün Müsavata sığınır,
Şərqi görünmək üçün İslama sığınır,
Qərbi görünmək üçün milyonçuya sığınır.

*26 İnam günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Müsavatçıların əməkçi-kapitalist-mülkədar münasibətləri haqqında İdeyaları yox idi; bu səbəbdən də əməkçilər Müsavatı qorumadı, bolşevizmə uydu.

## HƏQİQƏT

***Milli Müsavat Hökumətinin elan edilməsi – tarixi rəmzdir.***

Müsavatçılar Avropasayağı millətçiliyə, İslamsayağı Şərqçiliyə ümid bəsləyirdilər – bu isə Ümidsizliklə nəticələnməliydi.

## HƏQİQƏT

Müsavatçılar ***Rusiya Ziyalıları*** idilər;

Bu səbəbdən də Rusiyadan siyasətcə ayrılsalar da, mədəniyyətcə ayrıla bilməzdilər.

## HƏQİQƏT

Şimali Azərbaycanın Rusiyaya qatılması – kapitalizmin inkişafını sürətləndirdi, milli şüurun inkişafına zərbə vurdu:

Beynəlmiləl ruslaşma – avropalaşma girdabına düşdü millət –çıxa bilmir...

## HƏQİQƏT

Milli burjuaziya olmur; burjuaziya – milli şüur daşımır, beynəlmiləl şüur daşıyır, mahiyyətcə milli şüura qarşıdır – “Tağıyevlər mədəniyyəti” – ruslaşmaya xidmət edirdi əslində.

## DİNİ RUHSUZLUQ

O dünya Ruhsuzluğu, Cənnət Ruhsuzluğu, Cəhənnəm Ruhsuzluğu, Huri-pəri Ruhsuzluğu, Qəzavü Qədər Ruhsuzluğu.

## HƏQİQƏT

Köhnə kommunistlər Müsavatı devirdilər ki, Hakimiyyətə gəlsinlər.

Təzə kommunistlər Müsavatı dirildirlər ki. Hakimiyyətdə qalsınlar.

## HƏQİQƏT

Ateizm – Allahsızlıq Dini.

## TƏZƏ RUSÇULUQ

Müsavat – vasitədir; məqsəd – SSRİ-də qalmaqdır;
İslam – vasitədir; məqsəd – SSRİ-də qalmaqdır;
Tağıyev – vasitədir; məqsəd – SSRİ-də qalmaqdır;

*27 Arzu günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Qorbaçovşina lisanında Xəyanət – Çeviklik, Güzəşt, Mənafe balansı, yeni siyasi şüur, Vahid sivilizasiya, Ümumbəşərilik adlanır.

## HƏQİQƏT

Qorbaçovşina Qərbə deyir ki, mənə kömək etməsən SSRİ dirilər və səni yeyər.

## HƏQİQƏT

Müsavat Hakimiyyətinin Sovet Hakimləri tərəfindən bayram edilməsi – ən böyük Yasdır əslində.

*28 Ümid günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Nə qədər ki, Kapitalizm var – "balaca xalqların" suverenliyindən danışmaq olmaz.

Nə qədər ki, sosializm var – "balaca xalqların" suverenliyindən danışmaq olmaz.

***Kapitalizm – "böyük xalqlar" dünyasıdır.***

***Sosializm – "böyük xalqlar" dünyasıdır.***

"Böyük xalqlar" dünyasında "balaca xalqlara" yer yoxdur.

## VƏZİYYƏT

***Beynəlmiləlçilik*** – Xalqlar üzərində Kapitalist Ağalığı, Sosialist Ağalığı.

***Millətçilik*** – Xalqların Kapitalizmlə döyüşü, Sosializmlə döyüşü.

*21 İnam günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Dünya iqtisadiyyatı – Qərbin Dünya üzərində İqtisadi Ağalığı.
Dünya sivilizasiyası – Qərbin Dünya üzərində Siyasi Ağalığı.

## HƏQİQƏT

Demokratik Qərb – Milli Suverenliyə qarşıdır.
Demokartikləşən Şərq – Milli Suverenliyə qarşıdır.

***Demokratiya Milli Suverenliyə qarşıdır.***

## VƏZİYYƏT

Qərb "Suveren respublikalar" vasitəsiylə Mərkəzə təzyiq göstərir; Mərkəz vasitəsiylə "Suveren respublikalara" təzyiq göstərir.

Məqsəd – Demokratik Müdaxilə.

## HƏQİQƏT

Milli Müstəqillik – Yüksək Ruhanilik – Təcrid Qətiyyəti tələb eləyir.

## VƏZİYYƏT

Qərbə Demokratik İmperiyalar gərəkdir – Müstəqil Respublikalar gərək deyil.

## İNTEQRASİYA (BİRLİK) ƏSARƏTİ

İqtisadi Azadlıqdan dəm vururlar və Xalqları İqtisadi Birlik əsarətinə sürükləyirlər.

Siyasi Azadlıqdan dəm vururlar və Xalqları Siyasi Birlik əsarətinə sürükləyirlər.

Mədəni Azadlıqdan dəm vururlar və Xalqları Mədəni Birlik əsarətinə sürükləyirlər.

## VƏZİYYƏT

Qərbaltı SSRİ; Qərbaltı "müstəqil respublikalar"; Qərbaltı, SSRİaltı müttəfiq respublikalar...

*23 Ümid günü, Od Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Böyük "xalqlar" "kiçik xalqların" Böyüməsindən qorxurlar.

Bu səbəbdən də "böyük xalqlar" "kiçik xalqların" böyüməsinə qarşı birləşirlər.

## VƏZİYYƏT

***Qorbaçovşina*** Respublikalar üzərində Ağalığı qorumaq istəyir. Qorbaçovşinaya müstəqil respublikalar gərək deyil.

***Qərb*** dünya üzərində Ağalığa can atır.

***Qərbə Müstəqil ölkələr gərək deyil.***

***Qorbaçovşinaya "Müstəqil respublikalar" Siyasəti gərəkdir.***

***Qərbə "Müstəqil ölkələr" Siyasəti gərəkdir.***

***Qorbaçovşinayla Qərbin "Müstəqillik Siyasəti" xalqların müstəqilliyinə qarşıdır.***

## DEMOKRATİKLƏŞMƏ "XİLASI"

Totalitar əsarətin Demokratik əsarətlə əvəz olunması.

## VƏZİYYƏT

Qorbaçovşina Qərbdən inciyib: Qərb Qorbaçovşina Qərbaltılığını layiqincə qiymətləndirmir.

Millətçilər Qərbdən inciyiblər: Qərb millətçilərin Qərbaltılığını layiqincə qiymətləndirmir.

Qəsdçilər Qərbdən inciyiblər: Qərb qəsdçilərin Qərbaltılığını layiqincə qiymətləndirmir.

## QORBAÇOVŞİNA SÜLHÜ

Soyuq müharibənin Məqsədi – SSRİ-nin ölümüydü.
Soyuq müharibə Məqsədinə nail oldu: SSRİ öldü.

## MÜSTƏQİLLİK İMPERATİVİ

***Dünyadan asılı olmamaq.***

***Dünyadan təcrid olmaq.***
***Dünyadan artıq olmaq.***

## VƏZİYYƏT

SSRİ öldü.

Totalitar İmperiyaların biri azaldı, Demokratik İmperiyaların biri çoxaldı.

*25 Mərhəm günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Fəlsəfəsiz İdrak – Mənasız İdrakdır.
Marksizm İdrakı Mənasızlaşdırdı.

*28 İnam günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Gerçəklikdə Var olan – Var olmayandır.
Gerçəklikdə Var olmayan – Var olandır.

*29 Arzu günü, Od Ayı, 13-cü il. Bakı.*

## GÜRCÜSTAN – AZƏRBAYCAN SAZİŞİ

Azərbaycan Rəhbərliyinin Müstəqillik Tamaşası.
Gürcüstan Rəhbərliyinin Bölgə Liderliyi Tamaşası.

## ƏQİDƏ SİYASƏTİ

Əqidə Hakimiyyətə yaramayanda – ondan keçirlər; Hakimiyyətə yarayan Əqidəni seçirlər.

## SSRİ–AMERİKA TƏRKSİLAH SAZİŞİ

SSRİ-nin Təslim aktı.

## YELSİNİN PARTİYASIZLAŞDIRMA SİYASƏTİ

Qorbaçovşina Antikommunizminin labüd nəticəsi.

## HƏQİQƏT

Cəmiyyət əzəldən quraşdırılıb – qurulmayıb, bu səbəbdən də sünidir.

*30 Ümid günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət Dünyanı adamın başına dar eləyir.

## HƏQİQƏT

Əməl – özü qələbədir: nəticəsindən asılı olmayaraq...

## HƏQİQƏT

Birləşmiş Millətlər Təşkilatı – "Böyük ölkələr"in "kiçik ölkələr" üzərində birləşmiş hakimliyi.

*30 Dözüm günü, Od Ayı, 13-cü il. Bakı.*

## AZADLIQLAR

***Kapitalizm Azadlığı***: Hamı biri-birini alıb-satmaqda azaddır.
***Sosializm Azadlığı***: Hamı azadlıqdan keçməkdə azaddır.

## FƏRQ

Qərb özünə bənzəyir, bu səbəbdən də Var olur.
Şərq Qərbə bənzəyir, bu səbəbdən də Yox olur.

## HƏQİQƏT

Biznes əslində Adam alıb, Adam satır – Əşya şəklində.

## HƏQİQƏT

Cəmiyyətdə İnsan – mənimsənilir;
Siyasətdə – oynadılır, Ruhaniyyatda – təsdiq olunur.

## HƏQİQƏT

Cəmiyyət Adamları fərqləndirmir – Ayırır; Birləşdirmir – Asılı eləyir.

### HƏQİQƏT

Kommunizm – Mütləq Antifərdilik, Mütləq Antixəlqilik – yəni Antiinsanilik.

### HƏQİQƏT

İnsanı qurmaq olmaz; cəmiyyət İnsanı qurur – bu səbəbdən də qırır.

*1 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

### VƏZİYYƏT

Qərbə müstəqil Xorvatiya, müstəqil Sloveniya gərək deyil, qeyri-müstəqil Yuqoslaviya gərəkdir,

Qərbə müstəqil Gürcüstan, müstəqil Moldova gərək deyil, qeyri-müstəqil SSRİ gərəkdir.

### HƏQİQƏT

Adamlar İblisi İblis libasında görməyəndə onu Mələk sayırlar.

### HƏQİQƏT

***Demokratiya*** – Xüsusi mülkiyyətə əsaslanan Hamılaşmadır.

***Sosializm*** – İctimai mülkiyyətə əsaslanan Hamılaşmadır.

Hər ikisi Şəxsiyyətə qarşı çevrilmiş ***cəmiyyətçilikdir.***

### VƏZİYYƏT

Müasir İqtisadi tərəqqi – Təbiətin ölümünü yaxınlaşdırır.

Müasir İctimai tərəqqi – Şəxsiyyətin ölümünü yaxınlaşdırır.

***Müasir tərəqqi mahiyyətcə ölümçüdür.***

### VƏZİYYƏT

Kapitalizm Təbiəti öldürməkdən əl çəkməz – Təbiəti öldürməkdən əl çəksə, özü ölər.

Sosializm Təbiəti öldürməkdən əl çəkməz – Təbiəti öldürməkdən əl çəksə, özü ölər.

***Təbiət ölsə – Bəşər ölər.***
***Kapitalizm və Sosializm Bəşər ölümü təhlükəsi yaradırlar.***

## HƏQİQƏT

Hamılaşma, Özgələşmə, Əşyalaşma – Müasir sivilizasiyanın İnsana bəxş etdiyi Aqibət.

## HƏQİQƏT

Kapitalizm uzaqdan gözəl görünür: bizə yaxınlaşdıqca eybəcərliyi görünəcək.

## HƏQİQƏT

Kapitalizm İnsan Haqqından danışır – ancaq Şəxsiyyəti Hamılaşdırır, Özgələşdirir, Əşyalaşdırır;
Kapitalizm – ***şəxsiyyətsizləşmə*** haqqını qoruyur əslində.

## VƏZİYYƏT

Plüralizm Söz Azadlığı yaradır, ancaq Söz yaratmır, çünki çoxrəylikdə həqiqət itir.

## VƏZİYYƏT

İqtisadi Tərəqqi dayanmasa – Təbiət ölər.
İqtisadi Tərəqqi dayansa – Kapitalizm sivilizasiyası ölər.
***Kapitalist Sivilizasiyası – Təbiətə qarşıdır.***

## HƏQİQƏT

Hamılaşmada – İnsan özünü itirir; Özünü itirmişlər birliyindən Yoxluq törəyir;
***Hamılaşma – Yoxluqdur əslində.***
Hamılaşma – Sinif Fərqini, Təbəqə Fərqini saxlayır, ancaq şəxsiyyət fərqini aradan qaldırır; ***bərabərsizlik yaşayır – bərabər şəxsiyyətsizlik bərabərsizliyi yaşadır.***

## HƏQİQƏT

Nikbinlik – Qismətə inanmamaq.

## HƏQİQƏT

Bütün cəmiyyətlər Ağa-Nökər Qaydası əsasında quraşdırılıb.

Demokratiyanın gizlətdiyini Faşizm aşkarlayır.

## HƏQİQƏT

Sosializm – cəmiyyətçilik –
Yəni antişəxsiyyətçilik.
Kapitalizm – cəmiyyətçilik –
Yəni antişəxsiyyətçilik.
Hər ikisi mahiyyətcə - antiinsanilik.

## HƏQİQƏT

Cinayətkarlıq – mahiyyətcə antiinsanilikdir – antiictimailik deyil.

Cinayətkarlığı Hamılaşma, Özgələşmə, Təbəqələşmə – yəni İctimailəşmə yaradır.

## HƏQİQƏT

Kosmosa meyildə Yerdən bezmək var.

## İCTİMAİ AZADLIQLAR

Könüllü səs verirsən, ancaq Könlün cəmiyyətin əlindədir: əslində Könülsüz səs verirsən.

Könüllü söz söyləyirsən, ancaq Könlün cəmiyyətin əlindədir: əslində Könülsüz söz söyləyirsən.

Könüllü çıxışlar eləyirsən, ancaq Könlün cəmiyyətin əlindədir: əslində Könülsüz çıxışlar edirsən.

*3 Murad günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Demokratiya Kapitalizmi qoruyur, Demokratiya olmasaydı kapitalizm çoxdan məhv olardı.

***Kapitalizm – Antiinsanilikdir.***

Demokratiya Antiinsaniliyi qoruyur əslində.

***Kapitalizm–Demokratik Antiinsanilikdir.***

## HƏQİQƏT

Adamlar Şəri özlərindən kənarda axtardılar, bu səbəbdən də Şərdən kənara çıxa bilmədilər.

*5 Arzu günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Hiylə ölsə – Siyasət ölər.
Riya ölsə – Siyasət ölər.
Yalan ölsə – Siyasət ölər.
Oyun ölsə – Siyasət ölər.
***İblis ölsə – Siyasət ölər.***
***İblis siyasəti yaşadır – Siyasət İblisi.***

## HƏQİQƏT

Cəmiyyətin Başı Siyasətdir: Hiylədir, Riyadır, Yalandır, Oyundur.

***Cəmiyyətin Başı – İblisdir.***

## HƏQİQƏT

Şər – Xeyirin kölgəsi deyil, ləkəsidir.

## MARKSİZM ÖLÜMÜ

İstehsalat – Bazisləşəndə – Ölür.
İdrak – Üstqurumlaşanda – Ölür.

## İCTİMAİ TƏRBİYƏ

İblis tərbiyəsi.

*7 Dözüm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Dünya Birliyindən "balaca xalqlara" qarşı Jandarm düzəldirlər.

## YUQOSLAVİYA HADİSƏSİ

Sosialist imperiyaları dağılır; demokratik imperiyalar möhkəmlənir.

## QƏRB YETİMLİYİ

Varidatdan özünə Ata düzəldir.
Güzərandan özünə Ata düzəldir.
Seksdən özünə Ata düzəldir – Yetim.

## ŞƏRQ YETİMLİYİ

Qərbdən özünə Ata düzəldib – Yetim.

## HƏQİQƏT

İndiki Siyasətçilər Bugündə oturub Sabahın qismətini yazırlar – Allahlıq iddiasına düşüblər.

*8 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Adamların qəlbində İblisə məftunluq yaşayır – İblisi yaşadan elə budur.

## HƏQİQƏT

Əgər bu Günahkar dünyanı Allah yaradıbsa – onda ən böyük günahkar Allah özüdür.

## HƏQİQƏT

Nisbi Varlıq Yoxdur – Nisbilik – Yoxluqdur.

*11 İnam günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Ermənistan Azərbaycanla Müharibə eləyir,
Azərbaycan Ermənistanla Müharibə eləmir...

## ƏLAQƏ

Nə qədər kapitalizm yaşayır – Sosializm təhlükəsi var.
Nə qədər sosializm yaşayır – Kapitalizm təhlükəsi var.

## HƏQİQƏT

Dissidentlər olanı gördülər, olmayanı görmədilər, bu səbəbdən də Kapitalizmdən kənara çıxa bilmədilər.

Saxarovlar, Soljenitsınlar sosializmlə döyüşməyi bacardılar, ancaq kapitalizmlə döyüşməyi bacarmadılar – çünki İdealsız oldular.

## HƏQİQƏT

Ağalıq ölsə – cəmiyyət ölər.

Bu səbəbdən cəmiyyət dişiylə-dırnağıyla Ağalığı saxlayır, saxlamalıdır ***– o cümlədən demokratiya biçimində.***

*14 Dözüm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Totalitar Diktatura əvəzinə – Demokratik Diktatura yaranır.

## LENİNİN HEYKƏLİNİN DAĞIDILMASI

Leninçilərin Ruhani Bicliyi.

## AZƏRBAYCAN ALİ SOVETİNİN SESSİYASI

Hakimiyyət, Şöhrət, Yadlıq, Yağılıq Həşiri – İnam, İdrak, Mənəviyyat, İradə Sükutu.

## MÜSTƏQİL AZƏRBAYCAN ELANI

Qəsd Süqutu Dairəsində Seçkiqabağı Tamaşa.

## QƏSDDƏN SONRAKI ALİ SOVET

Qorxudan sərsəriləşənlər Yığıncağı.

## AVQUST QƏSDİ

Yenidənqurma Sağçıları – Sosial-kapitalistlər – Yenidənqurma Solçularına – Kapitalistlərə qarşı çıxdılar və məğlub oldular.

## QƏSD SÜQUTUNUN SƏBƏBİ

Qəsdçilərin əlləri əsirdi.

## HƏQİQƏT

Sosializmi Zor qoruyurdu, Kapitalizmi – Var qoruyur.

Var Zordan güclüdür, bu səbəbdən də Kapitalizm hələ yaşayır.

*2 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

***Zorakı*** İttifaqlarla ***Könüllü*** İttifaqlar arasında Fərq: birinci itaətə əsaslanır, ikinci əlacsızlığa.

## QARABAĞIN RESPUBLİKA ELAN EDİLMƏSİ

Qorbaçovşinanın Mütəllibovşinadan aldığı intiqam.

## VƏZİYYƏT

Əgər SSRİ-dən Birləşmiş Millətlər Təşkilatı düzəldirlərsə – Birləşmiş Millətlər Təşkilatı nəyə lazımdır?

Əgər Sovetlərdən Yevroparlament düzəldirlərsə – Yevroparlament nəyə lazımdır?

***SSRİ-dən Yalançı Birləşmiş Millətlər Təşkilatı düzəldirlər.***

***Sovetlərdən Yalançı Yevroparlament düzəldirlər.***

## VƏZİYYƏT

Siyasi İttifaqlar vasitəsiylə Vahid Bəşəriyyət yaradırlar – əslində bəşəriyyət üzərində Siyasət Ağalığı yaradırlar.

Biznes vasitəsiylə Vahid Bəşəriyyət yaradırlar – əslində bəşəriyyət üzərində Dəllal Ağalığı yaradırlar.

## HƏQİQƏT

İqtisadi İnteqrasiya vasitəsiylə İqtisadi Böhrana düşmək olar, İqtisadi Böhrandan çıxmaq olmaz.

Siyasi İnteqrasiya vasitəsiylə Siyasi Böhrana düşmək olar, Siyasi Böhrandan çıxmaq olmaz.

***İnteqrasiya Xilası – Fəlakətdir.***

## QORBAÇOVŞİNA HALI

***Böyüklük Yoxdur – Böyüklük Oyunu var.***
Siyasi Xadim yoxdur – Siyasi Xadim Oyunu var.
Xalq Elçisi Yoxdur – Xalq Elçisi Oyunu var.
***Böyüklük yoxdur – Böyük Oyun var.***

## HEYDƏR ƏLİYEVİN NAXÇIVAN BAŞÇISI SEÇİLMƏSİ

Naxçıvan xanlığının yaranması.

*4 Dözüm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## İCTİMAİ ƏXLAQ

Tənzimlənmiş Əxlaqsızlıq.

## VƏZİYYƏT

Demokratiyanı Diktaturadan qorumaq Diktaturası yaranır.

## HƏQİQƏT

SSRİ dəli oldu və öz ***Başsızlığıyla*** özünü boğub öldürdü.

## VƏZİYYƏT

Ölkəsiz ölkə Prezidenti.
Ölkəsiz ölkə Parlamenti.

## YENİDƏNQURULAN ƏXLAQ

Dönük olmayanı Sadiq saymırlar.

## HƏQİQƏT

Milyonçunun ətəyindən tutmaq – Mənəvi Dilənçilikdir.
Dindardan İnam diləmək – Mənəvi Dilənçilikdir.

## HƏQİQƏT

Xalq Cəmiyyət Səddinə düşüb – Özünə çatmır.

*7 Murad günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İctimai Münasibətlər – Qeyri-Həqiqi münasibətlər.
İctimai Birlik – Qeyri-Həqiqi Birlik.
***İctimailik – Qeyri-Həqiqilik.***

## HƏQİQƏT

İctimai Həqiqət olmur, çünki cəmiyyət Həqiqətsizlik əsasında yaranıb.

## HƏQİQƏT

İctimai şüurun cəmi bir Forması var – Siyasət.

Sənət – Həqiqətçidir, bu səbəbdən də mahiyyətcə Antiictimai Şüurdur.

Fəlsəfə – Həqiqətçidir, bu səbəbdən də mahiyyətcə Antiictimai Şüurdur.

## HƏQİQƏT

Cəmiyyət Ağalıq – Nökərlik əsasında qurulub.
Ağalıq-Nökərlik münasibətində Həqiqət yoxdur.
***Cəmiyyət Şüuru – Həqiqətsizdir.***

## HƏQİQƏT

Birləşmiş Millətlər Təşkilatına daxil olmaq – Müstəqilliyi itirməkdir.

Vahid İqtisadiyyat Təşkilatlarına daxil olmaq – Müstəqilliyi itirməkdir.

Vahid Siyasət Təşkilatlarına daxil olmaq – Müstəqilliyi itirməkdir.

***Dünyaya qatılmaq – Müstəqilliyi itirməkdir.***

*8 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Bəşərin Fəlakəti – İqtisadi Mənafenin İnsaniyyətə Zidd olmasındadır: İqtisadi Mənafe xatirinə Muzdlu əmək yarandı – İnsan Əmtəələşdi.

## AZAD SAHİBKARLIQ

Xüsusi Sahibkarın Əməkçi üzərində Azad Ağalığı.

## DƏSTƏDƏN GERİYƏ QALMAMAQ ÜÇÜN...

Dünən Balalarının adını "Raykom" qoyanların varisləri bugün Balalarının adını "Biznes" qoyacaqlar...

## FƏRQ

Cəmiyyət – Zahiri Aləmdir; Psixologiya – Daxili Aləm.
Bu səbəbdən də İctimai Psixologiya anlayışı – Yalandır.

## HƏQİQƏT

İctimai psixologiya olmur – ***İctimai AntiPsixologiya olur, Antiictimai Psixologiya olur*** – Fərdi Psixologiya olur, Xəlqi Psixologiya olur.

*11 Dözüm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Siniflərin yaranmasının Səbəbi – İnsani Naqislik.
Siniflərin aradan qaldırılmasının Yolu – İnsanlaşma.

*12 Mərhəm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Hökumət ətrafında birləşmənin bircə yolu var – Rəiyyətçilik.

*13 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət – maddiyyatçılıq əsasında qurulub, bu səbəbdən də İnsaniliyə yaramır.

## HƏQİQƏT

Milli Şüur Ağaları Nökərlərlə barışdırmır – Ağalığı, Nökərliyi inkar edir.

***Bu səbəbdən də Milli şüur – antiictimai şüurdur.***

*15 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Pasport – vətəndaşlığı ifadə eləmir,
Cəmiyyətdaşlığı ifadə eləyir.

*16 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İnsanilik bahasına yaranan Firavanlıq – Səfalətdir.
***Kapitalizm – Ruhani Səfillikdir...***
***Xalqı Ruhani Səfilliyə qaytarır Qorbaçovşina.***

## XƏLQİ YÖN

Sosializm qalıqlarına qarşı, Kapitalizmə qarşı, Xurafata qarşı Ruhani Döyüş.

## VAHİD SİVİLİZASİYA

SSRİ var olanda – Qərb ölkələri və Yaponiya SSRİ-yə qarşı birləşmişdilər – biri-birini yemirdilər.

***SSRİ yox olanda onlar biri-birini yeyəcəklər.***

## HƏQİQƏT

Tarix – Bəşərin düşdüyü və çıxa bilmədiyi Ağalıq–Nökərlik Dairəsi.

## İNSANSIZLIQ

Marksizm – tarixdə Şəxsiyyətin rolunu heçə endirir – ***əslində kütlənin də rolunu heçə endirir; – Marksizmdə tarixi insandan asılı olmayan istehsalat qanunu yaradır...***

## İCTİMAİLİK

İctimai Ədalət – Ağa-Nökər Ədalətsizliyi.
İctimai Əxlaq – Ağa-Nökər Əxlaqsızlığı.
İctimai Həqiqət – Ağa-Nökər Həqiqətsizliyi.
***İctimailik – Ədalətsizlik, Əxlaqsızlıq, Həqiqətsizlik.***

## HƏQİQƏT

Bəşər Ağalıq–Nökərlik Dairəsindən çıxmasa, məhv olacaq.
Bəşər Cəmiyyət Dairəsindən çıxmasa, məhv olacaq.
Bəşər Tarix Dairəsindən çıxmasa, məhv olacaq.

*18 Dözüm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Tarixi İnsanilik səviyyəsi yaradıb – ***İnsaniliyin aşağı səviyyəsi.***

## HƏQİQƏT

***Ruhaniyyat – Məna.***
***Maddiyyat – Təzahür.***

Materializm Təzahürdən başqa Məna tanımır, bu səbəbdən də Dünyanı mənasızlaşdırır.

## BƏŞƏR AQİBƏTİ

Ruhani, İnsani Məna – İctimai, Antiinsani Mənasızlıq.

## HƏQİQƏT

Şərait Düha yetirmir, Düha Şəraitsizlikdə yetişir.

**HƏQİQƏT**

Tarix – Xalq İdeyasına çatmır. Bu səbəbdən də Xalqı tarixin yaradıcısı saymaq – Xalqı əskiltməkdir.

**MARKSİZM QİSMƏTÇİLİYİ**

"Cəmiyyət insanların İradəsindən və Şüurundan asılı olmayan qanunlar əsasında inkişaf edir", həm də: "cəmiyyət insanların fəaliyyətləri nəticəsində inkişaf edir" – yəni insan öz Şüurundan asılı olmayan Şüur əsasında, öz İradəsindən asılı olmayan İradə əsasında fəaliyyət göstərir ***– İctimai Qanun adlanan Allaha bəndəlik eləyir.***

**MARKSİZM YALANI**

"Tarixi insanlar və ancaq insanlar yaradırlar", həm də: "Tarix insanların şüurundan və iradəsindən asılı olmayan qanunlar əsasında yaranır" – yəni əslində İnsanlar tarixi özlərindən asılı olmadan yaradırlar, – tarix insanlardan kənarda yaranır.

**HƏQİQƏT**

***İnsanilik – Məna.***
***Cəmiyyət – Təzahür...***

Cəmiyyətçilər Cəmiyyətdən başqa Məna tanımırlar, bu səbəbdən də Bəşəri Mənasızlaşdırırlar.

**HƏQİQƏT**

Siyasətçini Zaman yetirir, Ruhaniyyatçı Zamanla Döyüşdə yetişir.

**HƏQİQƏT**

Şərait çərçivəsində Siyasət olur, şərait çərçivəsində Ruhaniyyat olmur – Ruhaniyyat çərçivəyə sığmır.

**HƏQİQƏT**

Siyasətçi Zamanın arxasınca gedir, Ruhaniyyatçı Zamanı ötür.

## HƏQİQƏT

Siyasətçini Dövr yaradır – Ruhaniyyatçını Əbədiyyət.

*19 Mərhəm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Kapitalizmin üzünü sosializm ağardırdı: sosializmlə müqayisədə kapitalizm abırlı görünürdü: sosializm yoxluğunda kapitalizmin qaraüzlüyü görünəcək.

## MÜSTƏQİLLİK DÖYÜŞÜ

Siyasi Müstəqillik – heç bir Dövlətdən asılı olmamaq.

İqtisadi Müstəqillik – heç bir Dövlətin İqtisadiyyatından asılı olmamaq.

Mədəni Müstəqillik – heç bir Dövlətin Mədəniyyətindən asılı olmamaq.

Müstəqilləşən Respublikaların Qərb Dövlətlərindən asılılığı gerçəkləşir.

Müstəqilləşən Respublikaların Qərb Dövlətləri İqtisadiyyatından asılılığı gerçəkləşir.

Müstəqilləşən Respublikaların Qərb Dövlətləri Mədəniyyətindən asılılığı gerçəkləşir.

Müstəqilləşən respublikalar Siyasi Müstəqillik uğrunda Qərb Dövlətləriylə döyüşməli olacaqlar.

Müstəqilləşən respublikalar İqtisadi Müstəqillik uğrunda Qərb ölkələriylə döyüşməli olacaqlar.

Müstəqilləşən respublikalar Mədəni Müstəqillik uğrunda Qərb dövlətləriylə döyüşməli olacaqlar.

## HƏQİQƏT

Kapitalizm adamları İnsanlaşma Haqqından məhrum edir əslində.

## HƏQİQƏT

Marksizmin "Mücərrəd İnsana" qarşı döyüşü əslində İnsan Mahiyyətinə qarşı döyüşdür – İnsanı Mahiyyətdən ayırmaq cəhdidir.

***Marksizm – mahiyyətsiz İnsan Təlimidir; Mahiyyətsiz İnsandan – ictimai münasibətlər məcmuu quraşdırmaqdır.***

## TARİXİ GEDİŞAT

İctimai Quruluşlar dəyişir: Ağalıq təkmilləşir, Nökərlik təkmilləşir.

## SİYASİ ƏXLAQ

Kommunizm başçılarının kommunizmə qarşı döyüşü kommunist əxlaqının təntənəsidir.

## HƏQİQƏT

Dünyaya sosialist eksportu məğlub oldu, dünyaya kapitalist eksportu genişlənir...

## VƏZİYYƏT

SSRİ-nin Süqutu – Rus Siyasətinin məğlubiyyətidir, Qərb Siyasətinin Qələbəsidir, Respublikaların Qərb Yönlü müstəqilliyidir, Dünyanın Qərbə qatılmasıdır.

## VƏZİYYƏT

Qorbaçovşina Əməlindən yeni Siyasi Dünya yaranır:

Amerikanın başçılıq etdiyi Vahid, kapitalist Qərb – ***Şərq də daxil olmaqla.***

## HƏQİQƏT

İttifaq daxilində Müstəqillik – Formal.
İttifaqdan ayrı Müstəqillik – Nisbi.
Qərbdən ayrı Müstəqillik - Əsil.

## HƏQİQƏT

Tərəqqinin Meyarı – Vicdan olmayınca –
Tərəqqinin Tənəzzüldən Fərqi olmayacaq.

## HƏQİQƏT

Cəmiyyəti – Nisbi İnam, yəni İnamsızlıq yaradıb; Nisbi İdrak, yəni İdraksızlıq yaradıb; Nisbi Mənəviyyat, yəni Mənəviyyatsızlıq yaradıb; Nisbi İradə, yəni İradəsizlik yardıb.

*20 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

## MÜASİR HAL

Fransız Əxlaqı.
Amerika İqtisadiyyatı.
İngilis Siyasəti.

## HƏQİQƏT

Müasir Tərəqqi ***Vicdanı*** nəzərə almır.
Bu səbəbdən də o, ***Mənəviyyatsızdır.***

## CƏMİYYƏT YALANI

Cəmiyyət maddiyyatı birinci, ruhaniyyatı ikinci sayır.

***Materializm həyata cəmiyyətin gözüylə baxır, bu səbbədən də onu görmür.***

## HƏQİQƏT

***Adamın*** Təbiət üzərində Ağalığı – onun ***İnsansızlığına*** dəlalət edir.

## DÜZƏLİŞLƏR

Partiyaaltı Həmkarlar İttifaqından –
Hökumətaltı Həmkarlar İttifaqı düzəldirlər.
Partiyaaltı Kommunist Gənclər İttifaqından –
Hökumətaltı Gənclər İttifaqı düzəldirlər.

## HƏQİQƏT

***Əməkçinin Əməyinə Sahib olmaq gerçəklikdə onun özünə Sahib olmaqdır.***

Bu baxımdan sosializm də, kapitalizm də mahiyyətcə quldarlıqdır.

***Qula Sahib olmaq – vəhşi quldarlıqdır, fəhlə əməyinə Sahib olmaq – mədəni quldarlıqdır.***

## HƏQİQƏT

Bəşər İnsanlaşma dövrünə qədəm qoymasa – məhv olacaq.

## HƏQİQƏT

Nisbi Müstəqillik – Asılılıq növü.

## NƏTİCƏ

Tarixdə Maddi Tərəqqi olub.
İctimai Tərəqqi olmayıb.
Ruhani Tərəqqi olmayıb.
Çünki Ağa–Nökər münasibətləri aradan qalxmayıb.

## NƏTİCƏ

Maddi Tərəqqi Ruhani Tərəqqini dayandırdı, bunu Antiinsanilik tələb etdi; ***çünki Adamlar maddi tərəqqi naminə İnsanilikdən keçdilər.***

## HƏQİQƏT

Quldarlıqdan Feodalçılığa keçid – Maddi Tərəqqi sayılar – ancaq Ruhani Tərəqqi sayılmaz.

Feodalçılıqdan Kapitalçılığa keçid – Maddi Tərəqqi sayılar – ancaq Ruhani Tərəqqi sayılmaz.

***Bəşər tarixi – Maddi Tərəqqi tarixi sayılar – ancaq Ruhani Tərəqqi Tarixi sayılmaz.***

## İKİTARİXİLİK

***Məhsuldar qüvvələr daim artıb, İnsanilik artmayıb.***

Maddi Tərəqqi Ruhani Tərəqqidən asılı olmayıb, mahiyyətcə Ruhani Tərəqqiyə qarşı olub:

***İki tarix yaşayır bəşər tarixində biri-birinə Zidd: Maddiyyat Tarixi, Ruhaniyyat Tarixi.***

## QƏRB ƏZƏMƏTİ

Antimənəvi mədəni tərəqqi.

*21 Murad günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Marksizm – ***rasional kortəbiilik*** təlimidir.

Marksizmdə Tarix insanlardan asılı olmayan – yəni əslində kortəbii şəkildə cərəyan edən – ***Qanunlar*** hökmranlığıdır.

## HƏQİQƏT

Marksizmdə İnsanlar nə çağırırlarsa çağırsınlar – Qanunlar öz çağırdıqlarını çağırır.

## HƏQİQƏT

Marksizmdə Tarixi İnsanlar yaradırsa da – Tarix İnsanlardan asılı olmayan Qanunlar əsasında inkişaf eləyir.

Yəni əslində Tarixin yaradıcısı İnsanlar deyil, Qanunlardır; deməli, ***İnsanlar Tarixi yaradırlarsa da, tarixin yaradıcıları deyillər.***

***Keçilməz bir cəfəngiyyat səddi çəkir Marksizm Həqiqətin qarşısına.***

## HƏQİQƏT

Marksizmdə Tarix İnsanlardan asılı deyil, İnsanlar özlərindən asılı deyil – tarixdən asılıdırlar; İnsanları Tarixi Qanunlar İdarə eləyir; İnsan Fəallığı, əslində Fəalsızlıqdır; ***Qanunlar Fəallığı hökm sürür Tarixdə – İnsanlardan asılı olmayan.***

## HƏQİQƏT

Marksizmdə İnsan öz Əməlinə sahib olmur.

Əməlin Yönünü də, Nəticəsini də İctimai Qanunlar müəyyən eləyir.

Əslində Marksizmdə İnsan nə elədiyini özü bilmir, ***İctimai Qanunlar İdrakı, İradəsi ifadə olunur İnsan əməlində – İnsan İdrakından, İradəsindən asılı olmayan.***

## HƏQİQƏT

"Tarixi insanlar yaradır" deyəndə Marksizm "İctimai Qanunlar insan fəaliyyəti nəticəsində həyata keçir" – demək istəyir; ***bu, mahiyyətcə "Allah Hökmü bəndələr vasitəsiylə həyata keçir" – deməkdir.***

## HƏQİQƏT

***Marksizmdə Tarix İnsandan asılı olmayan Qanunlar İfadəçisidir.***

Marksizmdə Tarix İnsandan asılı deyil, Cəmiyyət İnsandan asılı deyil, İstehsalat İnsandan asılı deyil. – ***İnsan Tarixdən asılıdır, Cəmiyyətdən asılıdır, İstehsalatdan asılıdır.***

***Marksizm Total Asılılıq Nəzəriyyəsidir əslində.***

## HƏQİQƏT

Marksizmə qədər İdealist Dinlər var idi; Marksizm materialist Din yaratdı: ***İstehsalat Allahı, Əməkçi Bəndəsi, Kommunizm Cənnəti.***

## HƏQİQƏT

İqtisadi Münasibətləri İnsan Münasibətlərinin əsası saymaq – İnsanı Heyvandan Fərqləndirməməkdir.

## HƏQİQƏT

***İndustrial cəmiyyət*** – Sənaye cəmiyyəti – Sənayenin Əməkçi üzərində Ağalığı oldu.

***Postindustrial cəmiyyət*** – Sənayedənsonrakı cəmiyyət – Texnikanın əməkçi üzərində Ağalığı olacaq.

***Kapitalist Tərəqqi – İnsanilik Tənəzzülü əsasında irəliləyir.***

## HƏQİQƏT

***Tərəqqinin meyarı – İnsanlaşma olmalıdır.***

Müasir Tərəqqinin Meyarı – İstehsalatlaşmadır.

***Bu səbəbdən də Müasir Tərəqqi – Tənəzzüldür əslində.***

## HƏQİQƏT

Cəmiyyət – Xalq birliyi deyil, qruplar, strukturalar, idarələr birliyidir.

## HƏQİQƏT

Cəmiyyətin təməli – İstehsalatdır.

***İstehsalatın İnkişafı – İnsaniliyə ziddir.***

Bu səbəbdən də cəmiyyət Antiinsanilik dairəsindən çıxa bilmir.

## HƏQİQƏT

Cəmiyyətin Təməli İnsanilik olsa – İstehsalatın inkişafı ləngiyər.

Bəşər bu geriliyə dözə bilməsə, məhv olacaq.

## HƏQİQƏT

İstehsalat – Əməkçi Nökərçiliyi əsasında inkişaf eləyir.

***Əməkçi Nökərçiliyi – Antiinsanilikdir.***

Antiinsanilik aradan qalxsa, İstehsalatın inkişafı zəifləyər.

***Bəşər bu addımı atmasa, İnsanilik yoluyla irəliləyə bilməyəcək.***

## HƏQİQƏT

"Demaqoq" – "Xalqın Səsi" – Anlayışı bugün nə urvatdadırsa – "Demokratiya" – "Xalq Hakimiyyəti" Anlayışı da sabah həmin urvatda olacaq.

## KAPİTALİZM HALI

Total (hərtərəfli) Konveyerçilik.

*22 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İqtisadi Tərəqqinin Şərti və Nəticəsi – Antiinsanlıq.
İctimai Tərəqqinin Şərti və Nəticəsi – Antiinsanlıq.
Ruhani Tərəqqinin Şərti və Nəticəsi – İnsanlıq.

## HƏQİQƏT

Sosializmi əslində Siyasət yıxmadı, Ruhaniyyat yıxdı.
***Kapitalizmi də Ruhaniyyat yıxacaq.***

## HƏQİQƏT

Demokartiya – Totalitarizmin Astarı.
Totalitarizm – Demokratiyanın Astarı.

## HƏQİQƏT

Kapitalizmi əslində Sosializm yaşadırdı; İndi Sosializm yoxa çıxdı – Kapitalizmin də yoxa çıxması başlanır.

## DÜNYA SİYASƏTİ

Dünyəvi Ruhsuzluq.

## HƏQİQƏT

Kapitalizm ölməsə – Sosializm dirilər.

## HƏQİQƏT

Söz əməldən Fərqlənəndə ölür.
***Bu səbəbdən də Əməllərin çoxu Söz Qatilləridir.***

## SİVİLİZASİYALI MÜNASİBƏTLƏR

Pambıqla baş kəsmək.

## HƏQİQƏT

SosializmAdamları mütiləşdirir, Kapitalizm əhliləşdirir – hər ikisi kölələşdirir.

## MÜASİR SİVİLİZASİYA QAYDASI

Fəhlə – Texnikaya əlavə, İnsan – cəmiyyətə əlavə.

## MÜASİR SİVİLİZASİYA MANŞIRI

Maşınlanmış istehsal qüvvələri,
maşınlanmış istehsal əlaqələri,
maşınlanmış ictimai əlaqələr,
maşınlanmış insani əlaqələr.

## HAQSIZLIQ

Sosializmdə İnsan haqqı yoxdur. Kapitalizmdə İnsan haqqı – Varidatçılıq haqsızlığını qoruyur.

## HƏQİQƏT

Milli Azadlıqlar Düşməninin biri – Sosializm öldü, ikincisi – Kapitalizm sağdır.

İki Düşmən biri-biriylə Döyüşürdü və xalqlar bundan qazanırdı.

***İndi Düşmənin biri Yoxdur – o biri Güclənib.***

## FƏRQLƏR

Sosializm – Totalitar Kapitalizm.
Kapitalizm – Demokratik Sosializm.

## HƏQİQƏT

Əxlaqı mükafatlandırmaq – Əxlaqsızlıqdır.

## HƏQİQƏT

Bəşər – İstehsalın Zirvəsində, İnsaniliyin Ətəyində.

## HƏQİQƏT

İnsan – gerçəklikdən artıqdır, bu səbəbdən də Elm onu dərk eləyə bilməz.

## HƏQİQƏT

***İxtisasdan*** artıq nə varsa – İnsan odur,
***Sinifdən*** artıq nə varsa – İnsan odur,
***Təbəqədən*** artıq nə varsa – İnsan odur,
***İfadə olunandan*** artıq nə varsa – İnsan odur.

## HƏQİQƏT

Yol çoxluğu əslində Yol Yoxluğudur.
***Yol – Birdir, Yolsuzluq – Min.***

## AZƏRBAYCANA YELSİN–NAZARBAYEV SƏFƏRİ

I. Yelsin öz Mərkəzçilik iddiasını Təsdiq eləyir.
II. Nazarbayev Yelsinlə yaxınlığını möhkəmlədir.
III. Mütəllibov Yelsinin qarşısında Günahını yuyur.

*23 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

## MÜASİR İCTİMAİ HƏYAT

Qərb Oyunu.

## HADİSƏ

Şərq avropasentrizmi.

*27 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Xülyanı yaradan – Gerçəklikdir.
***Xülyadan azad olmaq üçün – Gerçəkliyi ötmək gərək.***

## FƏRQ

İnsan Adamın yaratdığı Yağı Dünyayla döyüşür.

*30 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

**KÜTLƏVİ SİYASƏTLƏŞMƏ**
Demokratik Alətləşmə.

**HƏQİQƏT**
Diktatura – camaatın açıq Korluğu, Karlığı, Lallığı.
Demokratiya – camaatın gizli Korluğu, Karlığı, Lallığı.

**PARLAMENTÇİLİK**
Camaat adlı Taxtanın üstündə Hakimiyyət oyunu.

**HƏQİQƏT**
Cəmiyyətdaşlıq – mahiyyətcə Yoxdaşlıqdır.

**FƏND**
Cəmiyyət ictimai fəallıq vasitəsiylə Adamları fəalsız eləyir.

*8 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**SATQINLIQ USTALIĞI**
Qorbaçov Siyasi Ustalıq göstərdi – Kommunistləri satdı.
Mütəllibov Siyasi Ustalıq göstərdi – Kommunistləri satdı.
Qorbaçov Siyasi Ustalıq göstərdi – Solçulara yalmandı.
Mütəllibov Siyasi Ustalıq göstərdi – Solçulara yalmandı.

**SİYASİ FƏALLIQ**
"Xalq Yolunda" – Hakimiyyət uğrunda amansız döyüş.

**VƏZİYYƏT**
Prezident özünə Prezidentaltı Oppozisiya düzəldir.
Oppozisiya özünə Oppozisiyaaltı Prezident düzəldir.
Hər ikisi özlərinə camaatüstü hakimiyyət düzəldir.

**HƏQİQƏT**
Prezidentin böyüklüyü Oppozisiyanın kiçikliyi qədərdir.
Oppozisiyanın böyüklüyü Prezidentin kiçikliyi qədərdir.

*9 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## İNQİLABİ RUH

Ali Sovetin Blokadasında bircə Leninin şəkli çatışmırdı.

## MÜTƏLLİBOVŞİNA ALVERİ

Kommunistləri Satır, Oppozisiyanı Alır.

*10 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## GÖRMƏ

Təbiətdəki – Maddiyyatı görürlər,
Ruhaniyyatı görmürlər.

*21 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Xeyirdən Fayda götürmək – Şərdir.
Müasir Dünya Xeyirdən Fayda götürür,
Bu səbəbdən də Dünya Şərlə dolub.

*23 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Qərbçilikdən üz döndərmədən – Türkçülüyə dönmək xülyadır.

*29 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İnsandan asılı olmayan Qanunlar – Adam naqisliyindən asılı olan Qanunlar.

## FƏRQ

***Cəmiyyət*** – Maddiyyatçılıq əsasında yaranmış Ağalıq–Nökərlik əlaqələri.

***Ruhaniyyat*** – İnamçılıq əsasında yaranmış Atalıq – Evladlıq əlaqələri.

## HƏQİQƏT

Din adamları Qorxuyla tərbiyələndirir.
Əslində Qorxaqlıq – tərbiyəsizlikdir.

## HƏQİQƏT

Adamlar cəfəngiyyata inandıqları dərəcədə – İnamsızdırlar.
***Din – Mahiyyətcə İnamsızlıqdır.***

## HƏQİQƏT

Dinə qarşı – İnam.

*30 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət İnsanı buxovlayır –
Marksizm həmin Buxovu Qanunlaşdırır.
Maddiyyatçılıq İnsanı buxovlayır –
Marksizm həmin Buxovu Qanunlaşdırır.
Tarixi Gedişat İnsanı buxovlayır –
Marksizm həmin Buxovu Qanunlaşdırır.
Marksizm İnsanı İctimai, İqtisadi, Tarixi Qanunlar Buxovunda saxlayır.

## HƏQİQƏT

Adam – İnsan ola bilmədi, bu səbəbdən də onun Əməllərinin heç biri Zəruri deyil...

## HƏQİQƏT

İnsan Fərdiyyətdə yaşayır, Xalqda yaşayır; Təbəqə, Sinif Fərdiyyətə qarşıdır, Xalqa qarşıdır – yəni İnsana qarşıdır.

## HƏQİQƏT

Tarixi Labüdlük ideyası – Qismətçilik əfsanəsidir – əslində.

## EHKAM

Toxunulmaz Yalan.

## HƏQİQƏT

Şübhəçilik – Mənasızlıqdır.
Şübhəçi – Mütləq Məna tanımır.

## HƏQİQƏT

Din Yalanı Müqəddəsləşdirir...

## HƏQİQƏT

Adam İnsan ola bilmədi, bu səbəbdən də Özünə Sahib axtardı.

## HƏQİQƏT

Zaman Adamı mücərrədləşdirir, yəni Zamanlaşdırır.
Mühit Adamı mücərrədləşdirir, yəni Mühitləşdirir.
Şərait Adamı mücərrədləşdirir, yəni Şəraitləşdirir.

## HƏQİQƏT

Zaman daxilində Konkretlik yoxdur – Məhdudluq var.
Mühit daxilində Konkretlik yoxdur – Məhdudluq var.
Şərait daxilində Konkretlik yoxdur – Məhdudluq var.
***Əslində Konkretlik – Mütləqilikdir.***

## HƏQİQƏT

Kor İnam olmur – Kor İnamsızlıq olur.
Dini İnamlar əslində İnamsızlıqdır.

## QƏRB SOSİALİZMİ

Kapitalizmə zidd olmayan Sosializm – əslində Kapitalizmdir.

## DÖVLƏT

Ağa–Nökər birliyi.

*5 Ümid günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət Qanunları – Haqsızlığı qoruyur, İctimai Qanunlar – Qismətçiliyi.

## CƏMİYYYƏT – İSTEHSALAT

Cəmiyyət Ağa–Nökər münasibətləri əsasında inkişaf edir.

Ağa–Nökər münasibətləri istehsalata yarayır.

## HƏQİQƏT

İstehsal münasibətləri – istehsalatdan kənarda – Cəmiyyətdə yaranır və istehsalata şamil edilir; bu səbəbdən də Cəmiyyət istehsalatdan yox, istehsalat Cəmiyyətdən asılı olur.

Cəmiyyət istehsalat qanunları əsasında yox, istehsalat Cəmiyyət Qanunları əsasında inkişaf eləyir...

## TARİXİ TƏRƏQQİ

Ağalığın, Nökərliyin Biçimi dəyişir, Özü qalır.

## HƏQİQƏT

Cinayət Daxildə yetişir, cəza Zahirdə.
Cəza cinayətkara çatır, cinayətə çatmır.

*6 Dözüm günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

“Dünyanı Allah yaradıb!” – demək Dünyaya inanmamaqdır.
“İnsanı Allah yaradıb!” – demək İnsana inanmamaqdır.

## HƏQİQƏT

İdealizm – Maddiyyatdan artıq Dünya İdeyası.
Materializm – Maddiyyata bərabər Dünya İdeyası.

*8 Qismət günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Səssiz xanəndələr o qədər çoxalıb ki, səsli xanəndələri bəyənmirlər.

*10 İnam günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## 20 NOYABR FACİƏSİ

I. Rəzilcəsinə, Azğıncasına düşünülmüş Qətl: Azərbaycanlıları sarsıtmaq Məqsədi.

II. Qərbə arxalanmaq, Qorbaçovşinaya arxalanmaq, Yelsinşinaya arxalanmaq.

Əməl:

I. Dağlıq Qarabağı erməni rəzillərindən, azğınlarından, qansızlarından azad etmək, ***erməni muxtariyyatını ləğv eləmək***.

II. Qərbi eşitməmək, Qorbaçovşinanı eşitməmək, Yelsinşinanı eşitməmək.

*22 Yağış Ayı, 13-cü il. Bakı.*

## MÜASİR HAL

Aldatmayanda özünü aldanmış sayır.

## HƏQİQƏT

Göydə Zülmət yoxdur – Zülmət Yerdədir.

*10 Ümid günü, Sərt Ay, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Tək yaşamağa qadir olmayan Xalqın Dünyada yeri yoxdur.

*28 Murad günü, Sərt Ay, 13-cü il. Bakı.*

## YÖN

Ateizmdən Dindarlığa – İnamsızlıqdan İnamsızlığa.

*7 Ümid günü, Qar Ayı, 13-cü il. Bakı.*

## HAL

Dönüklük ənənəsinə sədaqət.

*9 Mərhəm günü, Qar Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Avropa əslində Xristianlığı qəbul eləmədi – Maddiyyatçılığa qurşandı.

Şərq İslamı qəbul elədi – Qismətçiliyə qurşandı.

*10 Qismət günü, Qar Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

Ermənilər Müharibə qanunları əsasında hərəkət eləyirlər, biz Sülh qanunları əsasında.

Ermənilər bizə aman vermirlər, biz ermənilərə aman veririk.

## MÜTƏLLİBOVUN TÜRKİYƏ SƏFƏRİ

MDB-çinin Şərqi Qərbə Səfəri.

*30 Mərhəm günü, Qar Ayı, 13-cü il. Bakı.*

## YELSİNİN VAŞİNQTON SƏFƏRİ

Rusiya Amerikaaltılığının Rəsmi Təsdiqi.

## YELSİNŞİNA SƏDAQƏTİ

Rusiya Raketləri Amerika Düşmənlərinə tuşlanacaq.

## XİLAS

İqtisadiyyatı Zəhmətkeş Mülkiyyəti xilas edəcək, Cəmiyyəti – Xalq Birliyi xilas edəcək; Ruhaniyyatı – Mütləq İnam xilas edəcək.

## VƏZİYYƏT

Bazar İqtisadiyyatına keçmədilər – əslində İqtisadiyyatsızlığa keçdilər; indi Allah olmalıdırlar ki, Yoxdan Var yaratsınlar.

## İQTİSADİ İNQİLAB

İqtisadiyyatı Yox elədilər – Qiymətləri İqtisadiyyat buxovundan azad elədilər.

## VƏZİYYƏT

Kapitalizmə Keçid Dövlətsizlik yaratdı.

Bazar İqtisadiyyatına Keçid – İqtisadiyyatsızlıq yaratdı.

Dövlətsizlikdən Dövlətçiliyə (Totalitarizmə) bir addımlıq yol var.

İqtisadiyyatçılıqdan Sosialist İqtisadiyyatına bir addımlıq yol var.

## GÜRCÜSTAN HADİSƏSİ

Demokratlar Millətçiləri devirdilər.

## MÜTƏLLİBOVŞİNA MÜSTƏQİLLİYİ

Rusiyaltılıq. Qərbaltılıq. Türkiyəaltılıq. İranaltılıq. İslamaltılıq.

*5 Dözüm günü, Köçəri Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Açıq Ölkə – Böyük Açıq Şəhər.

## MÜTƏLLİBOVŞİNA – İRAN MÜNASİBƏTLƏRİ

İrana arxalanan – Cənubi Azərbaycana arxa çevirir.

*19 Dözüm günü, Köçəri Ayı, 13-cü il. Bakı.*

## ƏTƏKLİK

***Xarici Siyasət*** –Himayədar Ətəyi aramaq.
***İqtisadi Siyasət*** – Sahibkar Ətəyi aramaq.
***Ətək aramaq Azadlığına çatıblar.***

## QARABAĞDA İRAN SÜLHÜ

Böyük Qonşu Səlahiyyəti.

## SİYASİ XƏTLƏR

***Qərb Xətti:*** Qərbaltı Rusiya –
Rusiyaaltı Müstəqil Respublikalar.
***Türkiyə Xətti***: Qərbyönlü Türkiyə –
Türkiyəyönlü Türk Respublikaları.
***İran Xətti:*** Qərbistəkli İran –
İranyönlü müsəlman respublikaları.

***Mahiyyətcə: Qərbçilik – yəni Açıq Qərbçilik, Türkçülük Biçimində Qərbçilik, İslamçılıq Biçimində Qərbçilik.***

## HƏQİQƏT

Adamlar Cəzadan qorxduqları dərəcədə Cinayətdən qorxmurlar.

Gərək Cinayətdən qorxasan – Cəzadan yox.

## HƏQİQƏT

Qərbin Panislamizmdən Qorxması – Siyasi Oyundur.
***Əslində Panislamizm Qərbə lazımdır:***
***O, Qərbin Şərq xilaskarı Roluna lazımdır.***

## XOCALI FƏLAKƏTİ

Beyniyalın Sərkərdəlik.
Əliyalın Əsgərlik.

*28 Qismət günü, Köçəri Ayı, 13-cü il. Bakı.*

## VƏZİYYƏT

1. Ali Sovet Mütəllibova Xocalıda heykəl qoymağı unutdu – Ayda on min manat təqaüdlə, şəxsi maşın və mühafizə dəstəsiylə yanaşı.

2. Diplomları başlarından Yekə olanlar taxta çıxdılar.

3. Partokratların Demokratlaşma imkanı əksilmədi, Demokratların Partokratlaşma imkanı artdı.

4. Məğlubiyyətdən bir baş Sülhə yüyürürlər – Məğlubiyyətdən Məğlubiyyətə yüyürürlər Sovet başçıları.

**XOCALI FƏLAKƏTİ**

Erməni – Rusiya Sevdasının bəhrəsi.

**ŞEVARDNADZE SƏYİ**

Gürcüstandan Rusiyaya Müttəfiq düzəltmək istəyirlər.

*10 Ümid günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**MÜTƏLLİBOVŞİNA AQİBƏTİ**

Partiyasını satdı, Rəhbərini satdı, Əqidəsini satdı, Silahdaşlarını satdı, Prezidentliyini satdı...

*11 Dözüm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**VƏZİYYƏT**

***Hamilik vasitəsiylə Birlik Yaranmaz.***
Müasir Rəsmi Türkiyə Azərbaycanı hamiliyə götürür.
Müasir Rəsmi İran Azərbaycanı Hamiliyə götürür.
***Hamilik vasitəsiylə Ağalıq-Nökərlik yaranar.***

**VƏZİYYƏT**

Xristian – Müsəlman davası – cəfəng uydurmadır.

Dünya üzərində Qərb Ağalığı var və erməni Rəzaləti həmin Ağalığa yarayır.

**VƏZİYYƏT**

Qərb – Mədəni Ağa.
Şərq – Mədəni Nökər.

**SİYASİ BİRALLAHLIQ**

Qərb – Qərbdən başqa Dünya tanımır.
Şərq – Qərbdən başqa Dünya tanımır.

## HƏQİQƏT

Əgər Müharibə Siyasətin davamıdırsa, deməli, Siyasət özü də Müharibədir.., bu səbəbdən də nə qədər ki Siyasət var – Soyuq Müharibə də var.

Soyuq Müharibənin bitməsi haqqında hay-həşir Avamlar üçündür.

## VƏZİYYƏT

Rus hakimlərindən Demokratiya Qəhrəmanları quraşdırırlar – Demokratik Rusçuluq yayırlar.

## VƏZİYYƏT

Rusiya Ermənilərdən özünə MDB müttəfiqi düzəldir – digər MDB-çilərin müttəfiqliyinə bel bağlamır.

Ermənilər Rusiya havadarlığından havalanırlar...

***MDB daxilində Rusiya – Erməni Sevdası yaranır.***

## VƏZİYYƏT

Qərb Ərəb Birliyindən qorxdu – Bu səbəbdən də İsrail–Ərəb Yağılığını alışdırdı.

Qərb Türk Birliyindən qorxur – ***Bu səbəbdən də Erməni – Azərbaycan Yağılığını alışdırır.***

***Qərb Ermənilərdən Qafqaz İsraili düzəldir.***

## HƏQİQƏT

Siyasətdə Böyük Qardaş olmur, Böyük Ağa olur.
Siyasətdə Böyük Qardaş axtaran – Böyük Ağaya çatır.

## TƏHLÜKƏLƏR

***Demokartiya*** – Rus Təhlükəsi, Qərb Təhlükəsi.
***İslam*** – Fars Təhlükəsi.

## GÜRCÜSTANDA ŞEVARDNADZE HAKİMLİYİ

Demokartların Millətçilər üzərində qələbəsi...

Sosialist Rusçuluğunun Demokratik Rusçuluqla əvəz olunması.

*12 Murad günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Rəsmi İran Şimali Azərbaycanı sevə bilməz, çünki Cənubi Azərbaycanı itirə bilməz.

## VƏZİYYƏT

Totalitarizm Dövründə Dövlət camaatı qırırdı.
Demokratiya Dövründə Dövlətsizlik camaatı qırır.

## FƏRQLƏR

Millətçilik – Millətə sevgi.
Şovinizm – Qeyri-millətə nifrət.
Beynəlmiləlçilik – Antimillilik.
***Millətçilik – Şovinizmə qarşıdır, Beynəlmiləlçiliyə qarşıdır.***

## TÜRK BİRLİYİ

İnam Birliyi.
İdrak Birliyi.
Mənəviyyat Birliyi.
İradə Birliyi.

*13 Qismət günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Dünyanın Qarabağ Davasına qatılması – Dünyanın üzərimizə yeriməsidir.

*14 Murad günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Əksinqilab – İnqilabın davamı.

## HƏQİQƏT

Slavyan – Türk birliyinə çağırış – Təzə Rusçuluq havasıdır.

Türklərə Slavyan – Türk birliyi yox – Türk birliyi, Şərq Birliyi gərəkdir *– Rusçuluğa qarşı duran, Qərbçiliyə qarşı duran.*

**HƏQİQƏT**

Dünya indiki Vəziyyətində – Kapitalizm-Sosializm, Demokratiya-Totalitarizm, Din-Ateizm Dairəsində – qalsa, məhv olacaq.

*15 İnam günü, Günəş Ayı, 14-cü il. Bakı.*

**ƏLAQƏLƏR**

Rusçulaşdıqca Qərbçiləşirsən.
Qərbçiləşdikcə Rusçulaşırsan.
Rusçulaşdıqca, Qərbçiləşdikcə Özündən Ayrılırsan.

İslamlaşdıqca Qərbçiləşirsən.
Qərbçiləşdikcə İslamlaşırsan.
İslamlaşdıqca, Qərbçiləşdikcə Özündən Ayrılırsan.

**HƏQİQƏT**

Qərbçilik – Şərq xalqlarının Qərb kirayəsində yaşamasıdır.

**HƏQİQƏT**

Qərbçiliyin Qənimi – Millətçilikdir.
İslam – Millətçiliyə qarşıdır.
***Buna görə də o, Qərbçiliyə yarayır.***

**HƏQİQƏT**

Müstəqillik – Qərbçiliyə qarşıdır.
Demokratiya – Qərbçilikdir.
***Bu səbəbdən də Demokratiya Müstəqilliyə qarşıdır əslində.***

**HƏQİQƏT**

Azərbaycan Dünyalaşdıqca – Təklənib.
Təkləndikcə Dünyalaşacaq.

*16 Arzu günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## DAVAMLAR

Sosializm – Kapitalizmin Davamı.
Demokratiya – Totalitarizmin Davamı.
Ateizm – Dinin Davamı.

*20 Qismət günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## MÜNASİBƏTLƏR

Rəsmi İranın bizə münasibəti:
İrandan asılı olduğu dərəcədə Müstəqil Azərbaycan.
Rəsmi Türkiyənin bizə münasibəti:
Türkiyədən asılı olduğu dərəcədə Müstəqil Azərbaycan.
Rəsmi Qərbin bizə münasibəti:
Qərbdən asılı olduğu dərəcədə Müstəqil Azərbaycan.
Rəsmi Rusiyanın bizə münasibəti:
Rusiyadan asılı olduğu dərəcədə Müstəqil Azərbaycan.
Dünya Birliklərinin bizə münasibəti: –
Birliklərdən asılı olduğu dərəcədə Müstəqil Azərbaycan.

## HƏQİQƏT

Sosializmin yaşaması Kapitalizmin Ömrünü uzadırdı.
Sosializmin ölümü Kapitalizmin Ömrünü azaldır.

*24 Ümid günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## ƏLİYEVŞİNA HƏDƏSİ

Məni Azərbaycana Başçı qoymasanız –
Naxçıvanı Azərbaycandan ayıracam.

## FÖVQƏLADƏ ALİ SOVET ƏMƏLİ

Hakim Partokratlar və Hökumətə düşən Demokratlar Cəmliyi.

*25 Dözüm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

"Qarabağnamə"ləri "Yaşasın Rusiya!" – adlandırmaq lazım idi əslində.

*29 İnam günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Hərb – Açıq Həyat.
Sülh – Gizli Həyat.

*3 Qismət günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## SOVET AQİBƏTİ

Sosializmi Kapitalizmdən betər;
Kapitalizmi Sosializmdən betər.

*11 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## TƏZƏ RUSİYA SİYASƏTİ

Daxili Siyasət: Qərbaltı Ağalıq.
Xarici Siyasət: Qərbaltı Ağalıq.

## SİYASƏT

Rəsmi İrana Ermənistan lazımdır:
çünki Cənubi Azərbaycan lazımdır.
Rəsmi İrana Şimali Azərbaycan lazımdır:
çünki Cənubi Azərbaycan lazımdır.

*15 Dözüm günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## RUSİYA SOVETLƏR QURULTAYI

Məğlublar Toplanışı.

## ƏFQAN DAVASININ NƏTİCƏSİ

Rusçuluq Məğlubiyyəti.
Qərbçilik Qələbəsi.

**HƏQİQƏT**

Dünyanın bir Təhlükəsi var – Qərbçilik.
Qərbçiliyin bir Düşməni var – Türkçülük.

**KÜRD-TÜRK MÜNAQİŞƏSİ**

Qərbin Rəsmi Türkiyəyə göz ağartması.

**HƏQİQƏT**

Güclü Qərb – Zəif Şərq deməkdir.
Müasir Şərq Qərbi gücləndirir.
Müasir Şərq Şərqi zəiflədir.

**HƏQİQƏT**

Müasir Rəsmi Türkiyə – Türk respublikalarında Qərb valisi rolu oynamaq istəyindədir.

Müasir Rəsmi İran – Müsəlman respublikalarında Qərb valisi rolu oynamaq istəyindədir.

**HƏQİQƏT**

Müasir İranda Qərbçilik siyasətləşir.
İslamçılıq – Şüarlaşır.
Müasir İran Siyasəti erməninin tərəfindədir.
Müasir İran Şüarçılığı azərbaycanlının tərəfindədir.

**HƏQİQƏT**

Türkçülük–Qərbçilik Birliyi – Qərbçiliyin qələbəsidir; Türkçülüyün – məğlubiyyəti.

*23 Mərhəm günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

**DEMOKRATİYA NAİLİYYƏTİ**

Sərçələr Bülbülsayağı oxumağa başlayıblar.

*24 Qismət günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Hökumət elə iş görmək istəyir ki, Müxalifətin ziyanına olsun.
Müxalifət elə iş görmək istəyir ki, Hökumətin ziyanına olsun.
***Nəticədə görülən işlər xalqın ziyanına olur.***

*25 Murad günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

## FƏRQLƏR

Turqut Özal – Yeyin Qərbçi.
Süleyman Dəmirəl – Asta Qərbçi.

## SÜLEYMAN DƏMİRƏLİN TÜRK RESPUBLİKALARINA SƏFƏRİ

Qərbaltı Türkçülük.

*1 Qismət günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## RƏSMİ TÜRKİYƏ – TÜRK RESPUBLİKALARI MÜNASİBƏTLƏRİ

Türk Ellərində Türk dilli Qərb elçiliyi.

*2 Murad günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## SİYASİ FƏALLIQ

Balacaların Böyüklük fürsəti yaranıb, onu əldən vermək istəmirlər.

## SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCANA SƏFƏRİ

Təzə böyükqardaşlıq.

*4 Arzu günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Ölkə Yenidənqurma köpüyündə boğulur.

*12 Ümid günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## FÜRSƏTDƏN İSTİFADƏ DÖYÜŞÜ

1. Azərbaycanda Hakimiyyət uğrunda döyüşün Yağıyla döyüşü üstələdiyini görən ermənilər Şuşanı almaq fürsətini əldən vermədilər.

2. Mütəllibovşina həmin Fürsətdən istifadə edib hakimiyyətə gəlmək istədi.

3. Xalq Cəbhəsi həmin Fürsətdən istifadə edib hakimiyyətə gəldi.

4. Fəlakətli Fürsətdən İstifadə döyüşündə Xalq Cəbhəsi Mütəllibovşinaya qalib gəldi.

*17 İnam günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## İNDİKİ VƏZİYYƏT

Təzə Hökumət aşağıdakı vəzifələri yerinə yetirməlidir:

I. Qarabağda Müdafiə Taktikasından hücum Taktikasına keçməli, erməni qatilləri üzərində qəti qələbə qazanmalı.

II. Azərbaycanı Müstəqil Dövlətlər Birliyindən çıxarmalı.

III. Partokratların Təzə Hakimliyinə son qoymalı.

IV. Bazar İqtisadiyyatına Keçidi Nizamlamalı.

Bu vəzifələr yerinə yetirilməsə, təzə hökuməti Mütəllibovşina aqibəti gözləyir.

*23 Murad günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## MÜASİR RUSİYA

Qərbaltı İmperializm.

## GÜRCÜ–ABXAZ MÜNAQİŞƏSİ

Hakimiyyətçi Şevardnadzenin Seçkiqabağı Millətçilik oyunu.

## TETÇERİN BAKIYA SƏFƏRİ

18-ci il havası.

## RUSİYA–YAPON SEVDASI

Rusiya Yaponiya qoltuğunda Böyümək istəyir.
Yaponiya Rusiya üzərində Yüksəlmək istəyir.

## VƏZİYYƏT

MDB üzərində Yeni SSRİ kabusu qanad çalır.

## QARABAĞ YOLU

Qələbədən sonra – Sülh.
***Qələbəyə qədər Sülh – məğlubiyyətdir.***

## GÖRÜNƏNLƏR

Təzə kapitalizm Möhkəm İqtisadiyyat yarada bilməyəcək – bu səbəbdən də Sosial-Kapitalizmə keçəcəklər.

Təzə Kapitalizm Möhkəm Siyasət yarada bilməyəcək – bu səbəbdən də Sosial-Kapitalizmə keçəcəklər.

Təzə Kapitalizm Milli Birlik yarada bilməyəcək – bu səbəbdən də Sosial-Kapitalizmə keçəcəklər.

***Sosial-Kapitalizm Diktaturası yaranacaq.***

## VƏZİYYƏT

1. Təzə Kapitalizm Köhnə sosialist ölkələrini Viran qoydu.
***Köhnə sosializm Təhlükəsi baş qaldırıb.***
2. Ölkə Azadlığı əvəzinə – Ölkəsizlik Azadlığı.
3. İqtisadiyyat Azadlığı əvəzinə – İqtisadiyyatsızlıq Azadlığı.
4. Siyasi Azadlıq əvəzinə – Siyasətbazlıq Azadlığı.
5. Müstəqillik əvəzinə – Özgəçilik.
6. Vicdan Azadlığı əvəzinə – Vicdansızlıq Azadlığı.

## HALLAR

Türkçülük Köpüyü.
Müsavatçılıq Köpüyü.
Millilik Köpüyü.
Partokrat Riya.
Demokrat Hayta.

*9 Dözüm günü, Ata Ayı, 14-cü il. Bakı.*

## SİYASİ BUGÜN

1. Qərbçilik.
2. MDB-çilik.
3. Kapitalistçilik.
4. Dinçilik.
5. Demokratlaşan Partokratiya.
6. Partokratlaşan Demokratiya.
7. Zahiri Türkçülük.
8. Zahiri Millətçilik.

## QƏRBYÖNLÜ MİLLƏTÇİLİK

Milli Təhsil – Qərb Yönlü Təhsil.
Milli Siyasət – Qərb Yönlü Siyasət.
Milli İqtisadiyyat – Qərb Yönlü İqtisadiyyat.

## GƏRƏKLİK

Azərbaycan Talışına Talış Türkçülüyü gərək.
Azərbaycan Kürdünə Kürd Türkçülüyü gərək.
Azərbaycan Lahıcına Lahıc Türkçülüyü gərək.
Azərbaycan Tatına Tat Türkçülüyü gərək.

*10 Mərhəm günü, Ata Ayı, 14-cü il. Bakı.*

## HAL

Leyli sözü Məcnunun dilindən düşmədiyi kimi –
Hakimiyyət sözü Təzə Hakimlərin dilindən düşmür.

*16 Dözüm günü, Ata Ayı, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Demokratiya (“Xalq Hakimiyyəti”) Plutokratiyanı (“Varlılar Hakimiyyətini”) qoruyur.

Demokratiya vasitəsiylə Plutokratiya qorunur.

Indiki Demokratların İctimai Özülü yoxdur; onlar sürətlə “Milli” Plutokratiya yaratmalıdırlar, yoxsa məhv olarlar; “Milli” Plutokratiya isə ləng yaranır; – bu səbəbdən də demok-

ratlar cəzbedici siyasi şüarlardan yapışıblar, filokratlıq (söz hakimliyi) tüğyan eləyir.

### HƏQİQƏT

Kommunizmi Yelsinşina yıxmadı, ***Əqidəsizlik yıxdı.***

Kommunistlər Əqidəni Mənsəblə əvəz etmişdilər; bu səbəbdən də əqidəni müdafiə edən olmadı: Əqidəni kommunistlərin gözü qabağında uçurdular; ***Əqidəyə yanan olmadı, əqidəsizin əqidəyə canı yanmadı.***

### VƏZİYYƏT

Qərb Şərq ölkələrini İslamla qorxudur, İslamı Şərq ölkələriylə.

### SƏVİYYƏLƏR

Türkçülüyün İnam səviyyəsi – Şərqçilik.
Şərqçiliyin İnam səviyyəsi – İnsançılıq.

### VƏZİYYƏT

Yenidənqurmaya qarşı İnqilabçılıq törəyir.
Yenidənqurmaya qarşı İntibahçılıq yaranmalıdır.

### HƏQİQƏT

Kapitalizm – Xudbinlər kollektivçiliyidir əslində – Fərdiyyətçiliyə zidd.

### HƏQİQƏT

Qərb özünə qapılıb və Şərqi özünə qatıb.
Şərq özündən ayrılıb və Qərbə qatılıb.

*12 Ümid günü, Ata Ayı, 14-cü il. Bakı.*

### HƏQİQƏT

***Xaos*** – Əsarətin Davamıdır.
***Gərginlik*** – Əsarətin Davamıdır.
***Anarxiya*** – Əsarətin Davamıdır.

*8 Arzu günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## ÇEŞİDLƏR

Sosializm Gədalığı – Zorçuluq.
Kapitalizm Gədalığı – Pulçuluq.
Ziyalı Gədalığı – Əcnəbilik.

## RƏSMİ TÜRKİYƏ TÜRKÇÜLÜYÜ

Türkçülük Biçimində Qərbçilik.

*13 Murad günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Ermənistanın Türkiyədən Yardım istəməsi –
Türkiyəyə qarşı Diplomatik Döyüşdür.

***Türkiyə*** Ermənistana Yardım etsə – Azərbaycana Ziyan vermiş olur; Yardım etməsə, Qərbi qəzəbləndirir.

***Hər iki halda Türkiyə Uduzur, Ermənistan Udur.***

*14 İnam günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Müasir Siyasi Dünya "balaca xalqların" müstəqilliyinə qarşıdır. O dəyişməsə, "balaca xalqlar" müstəqilliyə çatmayacaq.

## MÜASİR MÜSTƏQİLLİK

Müstəqil qeyri-müstəqillik.
Müstəqil surətdə qeyri-müstəqil olmaq.
Mərkəzdən asılı olmayan qeyri-müstəqillik.
Könüllü qeyri-müstəqillik.

## YENİ DÖVLƏTÇİLİK

Köhnə kapitalizm.

## İCTİMAİ HADİSƏ

Qərbçilik – millətçilik; Antimilli millətçilik.
İslamçılıq –millətçilik; Antimilli millətçilik.

## HƏQİQƏT

Rusiya İmperiyası Qərb imperializminin başına uçmadı, SSRİ xalqlarının başına uçdu; bu uçma Qərbçiliyə xeyir verdi; xalqlara Ziyanı Xeyirindən az olmadı.

## HƏQİQƏT

Qorbaçovşina – Rus imperializminin Qərb imperializminə təslim olmasıdır.

Demokratlar – Qorbaçovşina balalarıdır – Qərb imperialistçiləridir.

Rus millətçiləri – Rus imperialistçiləridir.

***Müstəqilçi hər ikisinə qarşı durmalıdır.***

## HALLAR

Fitri Hakimiyyətçi Şevardnadze millətçi bilinmək üçün qan tökür.

Fitri Diktator Yeltsin demokrat bilinmək üçün iqtisadiyyatı sərsəriləşdirir.

Fitri İntriqaçı Xasbulatov ölkəçi bilinmək üçün Prezidentçiliyi uçurur.

## VƏZİYYƏT

Qələbəsiz Sülh siyasəti davam etdikcə Sülh olmayacaq.

Sülhün bircə Yolu var – Düşmən üzərində Qələbə.

*25 Mərhəm günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## VƏZİYYƏT

Birləşmiş Millətlər Təşkilatı Birləşmiş Ştatlar Təşkilatına çevrilir.

## VƏZİYYƏT

Fövqəlsəltənət (superderjava) – Dünyanın Ağasıdır əslində.

Dünyanın Ağası olanda Müstəqilliyin Sahibi kim olur?

## VƏZİYYƏT

SSRİ adlanan ölkə imperializmindən çıxıb Qərbçilik adlanan dünya imperializminə düşdük.

## HƏQİQƏT

Dünya – Məmləkət; Amerika – Ağası; Avropa – Darğası; Şərq – Nökəri; Rusiya – Yersiz.

*27 Murad günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## HƏQİQƏT

Qərbə qarşı İslamçılıq – Qaranlığa qarşı Qaranlıq deməkdir.

Dinə qarşı Ateizm – Qaranlığa qarşı Qaranlıq deməkdir.

## SİYASƏT HƏQİQƏTSİZLİYİ

***Sağçılar*** – Həqiqətdən Sağa Dönənlər.

***Solçular*** – Həqiqətdən Sola Dönənlər.

***Mərkəzçilər*** – Həqiqətin Ortasında Dayananlar.

*1 Arzu günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Kapitalizmə qayıtmaq – əslində Kapitalizmin süqutudur; O, İntibah deyil – İntihardır.

Dinə qayıtmaq – əslində Dinin süqutudur; O, İntibah deyil – İntihardır.

## HƏQİQƏT

Kapitalizm üstündə Müstəqillik – Əsarət altında Müstəqillik.

Din üstündə Müstəqillik – Əsarət altında Müstəqillik.

## HƏQİQƏT

Milyonçunu müqəddəsləşdirmək – müqəddəsliyi pulla satın almaq deməkdir əslində.

*7 İnam günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## RUSİYADA DEMOKRATİK HƏNGAMƏ

Demokratik Parlament Demokratik Prezidentin Demokratiya əməlinə mane olur.

Demokratik Prezident Demokratik Parlamentin Demokratiya əməlinə mane olur.

Demokratik Prezident Demokratiya xatirinə Prezident Diktaturasına can atır.

Demokratik Parlament Demokratiya xatirinə Parlament Diktaturasına can atır.

Demokratik Prezident Demokratiyanı Demokratik Parlamentdən xilas eləyir.

Demokratik Parlament Demokratiyanı Demokratik Prezidentdən xilas eləyir.

## VƏZİYYƏT

Hakimiyyət – Qələbə havasındadır, Camaat – Məğlubiyyət Yasında.

## İQTİDARSIZLIQ YÖNÜ

***Xarici Siyasət:*** Dünyadan asılı olduğum dərəcədə Müstəqiləm.
***Daxili Siyasət:*** Dünyadan asılı olduğum dərəcədə Müstəqiləm.
***Asılılığımda Müstəqiləm!***

## GENİŞ YOXLUQ

Həm İslamçıdırlar, həm Qərbçidirlər, həm Millətçidirlər.
İslamçılıq – Antimillilikdir.
Qərbçilik – Antimillilikdir.
***Antimilli Millətçidirlər.***

*8 Arzu günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

SSRİ-də bərqərar olan Sərsəri Kapitalizm əslində Kommunizmi ölümdən xilas elədi.

**HADİSƏ**
Sosialist Rusçuluğu Demokratik Rusçuluqla əvəz olunur.

**HƏQİQƏT**
Kommunizm – Antiinsani Antikapitalizm.
Kapitalizm – Antiinsani Antikommunizm.
Amal – Antikommunizm, Antikapitalizm.

**VƏZİYYƏT**
Xristian Qərbi – cinsiyyətə qatılıb.
İslam Şərqi – Qərbçiliyə.

**HƏQİQƏT**
Tacikistan Hadisələri – Təzə Qılınc Müsəlmanlığı.

**HƏQİQƏT**
***Qərbçilik*** – Maddiyyatçılıq biçimində İmperializm.
***İslamçılıq*** – Dinçilik biçimində İmperializm.

**YOL**
Dinçilik yox – İnamçılıq.
Osmançılıq yox – Türkçülük.
İslamçılıq yox – Şərqçilik.

*9 Ümid günü, Günəş Ayı, 15-ci il. Bakı.*

**HƏQİQƏT**
Demokratik Hərəkat – Siyasi Xurafat.

**DEMOKRATİK DÖVLƏT**
Pulçuluq Hakimiyyəti.
Dinçilik Hakimiyyəti.
Qərbçilik Hakimiyyəti.

## SİYASİ İQTİDARSIZLIQ

Xarici Siyasət – Əlacsızlıq Siyasəti.
Daxili Siyasət – Əlacsızlıq Siyasəti.

## ƏSARƏTDƏN ƏSARƏTƏ

Marksizm Əsarətindən İslam Əsarətinə.
Sosializm Əsarətindən Kapitalizm Əsarətinə.
Rusçuluq Əsarətindən Qərbçilik Əsarətinə.

## RUSİYADA SOVETLƏR QURULTAYI

Parlament Ağalığının Prezident Ağalığı üzərində Qələbəsi.

*13 Murad günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

SSRİ-ni Daxili Qərbçilik yıxdı.
Rusiyanı da Daxili Qərbçilik yıxa bilər.

## FƏRQ

Kapitalizm Dünyanı Pulla satın alır.
Sosializm Dünyaya Zorla yiyələnir.

## HƏQİQƏT

Rusiya əzəldən İmperiya kimi qurulub.

Bu səbəbdən də Rusiya İmperiyanı bərpa etməyə çalışacaq, çalışmalıdır.

*15 İnam günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## SİYASİ DƏYİŞİKLİK

Siyasətdə Günəş də yerini dəyişir. İndiki Şevardnadzedə Gürcüstan Günəşi Qərbdən doğur; əvvəlki Şevardnadzedə o, Şimaldan doğurdu.

## HƏQİQƏT

İndiki Siyasətçilər meydanda Toz oynadılar.

## VƏZİYYƏT

Həyatda dərin Siyasətləşmə Boşluğu yaranıb.

## SİYASƏT HƏQİQƏTİ

“Yalansız Düşmənin olsun!”

## DƏLİLİK

Sosializm adamları dəli elədi – adamlar kapitalizmə qayıtdılar.

Ateizm adamları dəli elədi – adamlar dinə qayıtdılar.

## HƏQİQƏT

Kapitalizmin sonuncu cahanşümul qələbəsi onun məğlubiyyətidir əslində.

## HƏQİQƏT

Elçibəyin Yeltsini müdafiə etməsi – onun Məğlubiyyəti müdafiə etməsidir.

## HƏQİQƏT

Dinin Qənimi – İnam.
Kapitalizmin Qənimi – Ruhani Cəmiyyət.

## HƏQİQƏT

***Kapitalizm*** – Pulçuluq azadlığı.
***Sosializm*** – Zorçuluq azadlığı.

## HOLLİVUD FİLMLƏRİ

Amerikada kapitalist realizmi yaranıb – cəmiyyəti vəsf eləyən.

## VƏZİYYƏT

Camaat öz Başçılarına Başçılıq eləməlidir.

*16 Ümid günü, Günəş Ayı, 15-ci il. Bakı.*

**HƏQİQƏT**

İslam əsasında Birlik – Ölülük əsasında Dirilik.
Qərbçilik əsasında Birlik – Özgəlik əsasında Özümlük.

**HƏQİQƏT**

Qərbdə Xristianlıq – əxlaqsızlığı qoruyur;
Şərqdə İslam – Mütiliyi.
Qərb Əxlaqsızlığıyla İslam Mütiliyi qoşalaşır.

**VƏZİYYƏT**

Müasir Türkiyəçilik – Qərbçilik.
Müasir İslamçılıq – İrançılıq.

**QÜRRƏ**

Qərb özünü "Xristian Dünyası" adlandırmır, – ancaq Şərqin mühüm hissəsini "İslam Dünyası" adlandırır.

**VƏZİYYƏT**

İslam Təməlçiliyi Qərbi Şərqin xilaskarına çevirir; bu baxımdan, Qərbə xeyir verir.

Qərb İslamçılıqda həm Rəqibini, həm də Köməkçisini görür.

**VƏZİYYƏT**

İslamçılıqla döyüşmədən Qərbçilikdən yaxa qurtarmaq olmaz.

*19 Qismət günü, Günəş Ayı, 15-ci il. Bakı.*

**HADİSƏ**

Hökumətüstü Dinçilər və hökumətaltı Ziyalılar Birliyi.

**İSLAM TƏMƏLÇİLİYİ**

Dini Faşizm.

**TƏZƏLƏNMƏ**

Sosializm əvəzinə – Kapitalizm.

Marksizm əvəzinə – Din.
Beynəlmiləlçilik əvəzinə – Qərbçilik.

## VƏZİYYƏT

Sosializm çürüdü və demokratlar yaratdı.
Demokratlar çürümədən yarandılar.

## HƏQİQƏT

Sosializm Ədalət tanımır. Zorçu Ədalət olmur.
Kapitalizm Ədalət tanımır. Pulçu Ədalət olmur.

## RUSİYADA VƏZİYYƏT

***Yelsinşina Yönü***: Könüllü Kapitalizmi Zorakı Kapitalizmlə əvəz etmək.

***Xasbulatovşina Yönü:*** Könüllü Kapitalizmi Sosial-Kapitalizmlə əvəz etmək.

***Hər iki Xilas – Uçurumdur.***

## YOXLUQ

Kapitalizmdən başqa İdealı yoxdur.
Dindən başqa İnamı yoxdur.
***Yoxluqdan başqa Varlığı yoxdur.***

## FƏRQ

***Sosialist İqtisadiyyatı*** – Zorakı İqtisadiyyat.
***Kapitalist İqtisadiyyatı*** – Zorakılıq İqtisadiyyatı.
Sosializmdə Zor varidat yaradır.
Kapitalizmdə Varidat Zora çevrilir.

## HƏQİQƏT

Kapitalizmə qarşı çevrilməyən Antikommunizm – Uçurumdur.
Dinə qarşı çevrilməyən İnamçılıq – Uçurumdur.

## ÖLÜ DİRİLİK

Kapitalizmi Diriltmək – Ölülükdür.
Dini Diriltmək – Ölülükdür.
Kapitalizmi öldürən Sosializmə rəhmət oxuyurlar indi.
Dini öldürən Marksizmə rəhmət oxuyacaqlar indi.

*25 Mərhəm günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Xocalı İqtidarı hakimiyyətə gətirdi, Kəlbəcər İqtidarı Hakimiyyətdə saxlayır.

*5 Arzu günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## AZƏRBAYCANDA FÖVQƏLADƏ VƏZİYYƏT

Hakimlərin Özünüqoruma Tədbiri.

## YELSİN – KLİNTON GÖRÜŞÜ

Yelsin Klintona Qərbçilik Andı içdi, Klinton Yelsinin Qərbçilik Andını qəbul elədi.

## SİNFİ MÖVQE

Amerika Kapitalistləri Yelsini Rus kommunistlərindən qoruyurlar.

## HƏQİQƏT

SSRİ sosializmi Zorla yeridirdi; Amerika kapitalizmi Varla yeridir.

## İCTİMAİ HADİSƏ

Təpikbaşlar.

## HƏQİQƏT

SSRİ-ni Qərbçilik Partlatdı – Daxildən.
Qərbin özünü də Qərbçilik Partladacaq – gec-tez.

## VƏZİYYƏT

Bizdə Kapitalizmə Qayıdışı – Rüşvət hazırladı, Dinə Qayıdışı – Marksizm.

*6 Ümid günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Qərbin Sinfi İnstinkti – onu erməniyə tərəf çəkir: erməni – fitri pulçudur.

*8 Mərhəm günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## QƏRBÇİLİK XİLASI

Demokratiya – Pulçuluq Hakimiyyəti.
İnsan haqqı – Pulçuluq haqqı.
Bazar İqtisadiyyatı – Pulçuluq İqtisadiyyatı.

*9 Qismət günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## DEMOKRATİYA HƏNGAMƏSİ

***Yelsinşina*** Prezidentlik Demokratiyasını Parlamentlik Demokratiyasından qoruyur.

***Xasbulatovşina*** Parlamentlik Demokratiyasını Prezidentlik Demokratiyasından qoruyur.

***Yelsinşina*** Sürətli İqtisadi Fəlakəti Asta İqtisadi Fəlakətdən qoruyur.

***Xasbulatovşina*** Asta İqtisadi Fəlakəti Sürətli İqtisadi Fəlakətdən qoruyur.

***Demokratlar Demokratiyanı Demokratiyadan Qoruyurlar.***

*13 Ümid günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Sosializmə qarşı Kapitalizm – Qaranlığa qarşı Qaranlıq.

Ateizmə qarşı Dinçilik – Qaranlığa qarşı Qaranlıq.

Rusçuluğa qarşı Qərbçilik – Qaranlığa qarşı Qaranlıq.

**TÜRK MÜSƏLMANÇILIĞI**

Türk Antitürkçülüyü.

**KƏLBƏCƏR MƏĞLUBİYYƏTİ**

İqtidarsızlıq Fəlakəti.
Ordusuzluq Fəlakəti.
Siyasətsizlik Fəlakəti.

**VƏZİYYƏT**

Dağlıq Qarabağ Respublikasını tanımaq – Azərbaycanı tanımamaq deməkdir.

**HƏQİQƏT**

Camaatı Kapitalizmə – Pulçuluq Hakimiyyətinə qaytarırlar – ***əslində sosializmə qayıdırlar.***
Pulçuluq hakimiyyəti Sosializmi doğruldur.

Camaata Mülkiyyət payı verirlər ki, Milyardçılara yarasın: – ***əslində Marksizmə qayıdırlar:***
Milyardçılar Marksizmi doğruldurlar.

Parlament Filokratiyası – Söz hakimliyi – Tüğyan eləyir: – ***əslində totalitarizmə qayıdırlar:***
Filokratiya totalitarizmi doğruldur.

**RUSİYA HADİSƏLƏRİ**

1. Kapitalizmə keçid Diktatura tələb edir.
2. Kommunistlər Antidiktator Biçimində görünürlər.
3. Yelsinşinaya qarşı Liberallar, Millətçilər, Kommunistlər Birliyi yaranır.

4. Qərb Diktaturanın tərəfindədir, çünki Diktatura Qərb Demokratiyasına yarayır.

## VƏZİYYƏT

İslam Konfransı Şərqdən keçər, Qərbdən keçməz.

## ŞƏRQƏ QARŞI

İslam Təməlçiləri Şərqi VII əsrə qaytarırlar.
Qərbçilik Şərqi Qərbə qatır.

## VƏZİYYƏT

Demokratiyaya Demokratiya mane olur.
Demokratiyaya Diktatura gərək olur.

## TƏZƏ TOTALİTARİZM

Kapitalist ölkələrində Bazar İqtisadiyyatı Dövlət tərəfindən yaradılmadı, İqtisadiyyatın özündən yarandı.

Keçmiş sosialist ölkələrində Bazar İqtisadiyyatı Dövlət tərəfindən yaradılır; əslində təzə İqtisadi Totalitarizm yaranır.

## HƏQİQƏT

Dünyanın Ağası varsa – Nökəri də olmalıdır.

## HƏQİQƏT

Nə qədər ki, Dünya üzərində Qərb Hakimliyi var – Milli Suverenlikdən yalnız şərti mənada danışmaq olar.

## TARİXİ XƏTA

İslamçılığı Rəsmi surətdə alışdırmaq – Tarixi Xətadır.

Camaatı İtaətçiliyə, Qismətçiliyə, Cənnətçiliyə, Cəhənnəmçiliyə qatmaqdır.

Qərbin və Rusiyanın Azərbaycana müdaxilə imkanını artırmaqdır – İslam Təməlçiliyiylə Mübarizə bəhanəsinə yaramaqdır.

## ƏLAQƏ

Totalitarizm Azğınlığı, Demokratiya Pozğunluğu.

## HƏQİQƏT

Ermənilər Böyük Ermənistan iddiasından əl çəksələr – Qərbin gözündən düşərlər.

## SİYASİ GƏRGİNLİK

Türkiyə Qərbə Qərb hegemonluğuna gərək olduğu dərəcədə gərəklidir.

Qərb Türkiyənin Türk dilli ölkələr üzərində Qəyyumluğunu qəbul eləyər, – bir şərtlə ki, o, Qərb hegemonluğuna mane olmasın.

***Qərb Türk Birliyini heç vəchlə qəbul etməz, çünki bu, onun hegemonluğuna ziddir.***

*19 Arzu günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Qərbə Qərbçi Şərq gərəkdir.
Təməlçilərə İslamçı Şərq gərəkdir.
Qərbçi Şərq – Özgəçilikdir.
İslamçı Şərq – Köləçilikdir.
***Hər ikisi Mahiyyətcə Birdir...***
***Özgəçilik elə Köləçilikdir.***
***Köləçilik elə Özgəçilikdir.***

## MÜASİR TÜRKİYƏ

Ölkəni Qərbçilik sıxır; Türkçülük Qərbçiliyə sığmır. Qərb bunu duyur...

## TÜRKİYƏDƏ İSLAM

Qərbçiliyin geydiyi "Şərqi libas".

## HƏQİQƏT

Türkiyə çiynindən Qərbçilik Yükünü atmayınca –
Qəddini düzəltməyəcək.
Türk ölkələri çiyinlərindən Qərbçilik Yükünü atmayınca – Qədlərini düzəltməyəcəklər.
Türkiyə, Türk ölkələri Qədlərini düzəltsələr –
Qərb hakimliyinin Qəddi əyiləcək.

## MÜASİR ŞƏRQ

Allaha əl uzadır ki, Qərbdən kömək alsın.

## QƏRBDƏ XRİSTİANLIQ

Qərbçilik Xassəsi.

## HƏQİQƏT

Millətlər sosializm yuxusundan oyandılar – kapitalizm yuxusuna qərq oldular.

## HƏQİQƏT

Qərbin Dünya üzərində Ağalığı yaşadıqca – erməni murdarlığı yaşayacaq.

## SİYASİ LİSAN

"Bəşər Demokratiyadan yaxşı heç nə yaratmayıb" – demək: "Bəşər Qərbdən yaxşı heç nə yaratmayıb" – deməkdir Qərb Lisanında.

## SİYASİ ƏLİUZUNLUQ

Zəif ölkələrə kömək əli uzadanların əlləri uzun olur.

## FƏRQ

Sosialist Rusçuluğu – Antiqərbçilik.
Kapitalist Rusçuluğu – Qərbçilik.

*20 Ümid günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## RUSİYADA REFERENDUMUN NƏTİCƏLƏRİ

Kapitalizm İflasını Sosializmdən xilas sayır camaat.

*27 Ümid günü, Çiçək Ayı, 15-ci il. Bakı.*

## HAKİMİYYƏTÇİLİK NƏRƏLƏRİ

**AXC bəyanatı**

1. "Azərbaycan Dövlətçiliyi bizik!" – Nərəsi.
2. "Ölərik – Hakimiyyətdən getmərik!" – Nərəsi.
3. "Bizə qarşı çıxanlar Azadlıq düşmənləridir!" – Nərəsi.
4. "Qan tökərik – Hakimiyyəti vermərik!" – Nərəsi.

***37-ci il Üsulunda Nərə.***

***Mərkəzi Komitənin Qərarları Üsulunda Nərə.***

***Sosialist Dövlətçiliyi Üsulunda Nərə.***

## VƏZİYYƏT

Milli Televiziya Millətin aşağı səviyyəsini qoruyur – İqtidarın Xeyrinə.

## VƏZİYYƏT

Camaatın Aşağı səviyyəsinə əsaslanıb Başa çıxdılar.

Camaatın Aşağı səviyyəsinə əsaslanıb Aşağı düşmək istəmirlər.

## TƏZƏ AZƏRBAYCAN HÖKUMƏTİ

Prezidentaltılıq.

## DÜNYƏVİ ŞƏXSİYYƏT

Əgər Pənah Hüseynov yüksək intellekt sahibidirsə, onda Dünyada yüksək intellekt sahibi olmayan yoxdur.

## DEMOKRATİK HƏNGAMƏ

İqtidar Hakimiyyət Davasıyla döyüşür.

Əslində isə Demokratiya elə Hakimiyyət uğrunda Döyüş deməkdir.

*1 İşıq Ayı, Murad günü, 15-ci il. Bakı.*

## FƏRQ

***Stalin*** – İnsaniliyə Zidd, Möhtəşəm Ölkə yaratdı.
***İndikilər*** – İnsaniliyə Zidd, Zəlil ölkə yaradırlar.
***Stalin*** – İnsaniliyə yaramadı – Tarixə yaradı.
***İndikilər*** – İnsaniliyə yaramadılar – Tarixə yaramırlar.
***Stalin*** – Faşizmə Qələbə çaldı.
***Qorbaçovşina*** – Qərbə təslim oldu.

*2 İnam günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Qərbə Rusiyadan asılı olmayan Respublikalar gərəkdir, ancaq Müstəqil Respublikalar gərək deyil.

## VƏZİYYƏT

Qərb Rusiyanı zəiflədən Türkçülüyü sevər, ancaq güclü Türkçülüyü sevməz.

Qərb Qərbçi Türkiyəni sevər, ancaq Güclü Türkiyəni sevməz.

## 37-ci il

Qanlı Kaliqulaçılıq.

## VƏZİYYƏT

İslamçılıq, Qərbçilik və Türkçülük birləşəndə çevrilib olur Rusçuluq.

## VƏZİYYƏT

Qərb Demokratiya vasitəsiylə Dünyanı zəiflədir.

## VƏZİYYƏT

Demokartik Rusiyaya Güclü Qərb lazımdır ki, ondan kömək alsın.

Demokartik Qərbə Zəif Rusiya lazımdır ki, ondan kömək istəsin.

*5 Dözüm günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## BİRLİK

Kommunist Beynəlmiləlçilər Millətçiliyə qarşıdırlar.
Demokratik Qərbçilər Millətçiliyə qarşıdırlar.
***Kommunistlər və Demokratlar Millətçiliyə qarşı Birdirlər.***

*6 Mərhəm günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Rusiyada Qərbçilərlə Rusçular döyüşür.

## VƏZİYYƏT

Təzə Rusçuluq yaranır – Qərbaltı.

## VƏZİYYƏT

Yelsinşinanın Rusiyaya münasibəti – Qərbçi münasibətidir; Müstəqil Respubliakalara münasibəti – Rusçu münasibətdir.

*7 Qismət günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## SATA-SAT ÇATA-ÇATI

Bir də gördün Bulağı satdılar.
Çayı satdılar.
Dağı satdılar.
Göyü satdılar.

*9 İnam günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Sosializm Kapitalizmi yaşatdı, Kapitalizm Sosializmi öldürdü.
Pulçuluq Zorçuluğa qalib gəldi.
***İnsançılıq Pulçuluğu öldürəcək.***

*14 Qismət günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Hakimiyyət Ucalıq olsaydı – Hakimlər orada özlərini Böyük görməzdilər, Kiçik görərdilər.

## VƏZİYYƏT

Müstəqillik – asılı olmamaq deməkdir əslində.
İndi təzə müstəqillik – müstəqil asılılıq yaranıb.

## HƏQİQƏT

İqtidar Vicdan Azadlığını qorumur;
Yalan Əsarətini qoruyur.

## İCTİMAİ HADİSƏ

Avamqallar.

## VƏZİYYƏT

Beynəlxalq Təşkilatlar artdıqca – Beynəlxalq Birlik azalır.

## VƏZİYYƏT

Beynəlxalq Birliklər – Ağalığı qoruyur, Ağaları qoruyur.

Beynəlxalq Birliklər Sıraviləri – Ağalığı qoruyur, Ağaları qoruyur.

Beynəlxalq Birliklər Vəkilləri – Ağalıqdan bəhrələnir, Ağalardan bəhrələnir.

## RƏSMİ TÜRKİYƏ TÜRKÇÜLÜYÜ

Qərb Hakimliyi və Türkiyə Valiliyi ətrafında Türk ölkələrini birləşdirmək.

## FƏRQ

Əvvəl Qərb İmperializminə qarşı – ***SSRİ*** dururdu.

İndi Qərb İmperializminə qarşı Millətçilik durur.

SSRİ-ni Qərbçilik vasitəsiylə uçurdular; indi Milllətçiliyi də Qərbçilik vasitəsiylə uçururlar.

## HƏQİQƏT

Demokratlar Partokratlarla barışa bilərlər –
Özümçülər Özgəçilərlə barışa bilməzlər;
İnamçılar Dinçilərlə barışa bilməzlər;
Həqiqətçilər Mənfəətçilərlə barışa bilməzlər.

*17 Arzu günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

İndiki fəal ziyalıların Bayrağı – imperiya vəsiqələridir.

*24 Arzu günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## TARİX

Əsrlər boyu ziyalı təbəqəsi Ziyalıyla döyüşüb.

## HƏQİQƏT

Cəmiyyət cinayətlə döyüşməkdən daha çox Ədalətlə döyüşüb tarix boyu.

## VƏZİYYƏT

Dünyanı məhv etməyə qadir olan Bəşər yetişib.

*26 Dözüm günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Hamı Dövlət Adamı olmaq istəyir, Siyasət Adamı olmaq istəyir, Ticarət Adamı olmaq istəyir – heç kəs İnsan olmaq istəmir.

*28 Qismət günü, İşıq Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Demokratlaşan Partokratlar Azərbaycana 16-cı Bayraq hazırlayırlar.

## VƏZİYYƏT

Milli Birlik əvəzinə – Pulçular, Hakimiyyətçilər, Dinçilər Birliyi yaranır – Xalq üstü.

*5 Murad günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## 28 APREL ÜSLUBUNDA

Xalq Cəbhəsinin Milli Məclisə Girov Ultimatumu – Milli Məclisin Təslimi.

*11 Qismət günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## VƏZİYYƏT

Azərbaycan Xalq Cəbhəsinin indi Üç əsas Silahı var: ***Hərbi Silah, Təpik və Prezident Müdrikliyi Yalanı.***

## HƏQİQƏT

"Camaatı qızışdırmayın!" çağırışında Balalarımızın qanını batırırlar.

## MÜDRİKLİK HƏNGAMƏSİ

Hədiyyələr Muzeyindən başlanan Yeriş.

"2 ayda qaytarılan" Şuşa.
İqtisadi Cəhənnəm.
Baş-ayaq Kadrlar.
Cinayət Tüğyanı.
Kəlbəcər Bədnamçılığı.
Gəncə Qırğını.
***Siyasi Teleqramlar Şöhrəti.***
Terrora dırmaşan AXC.
***Zəngin Yalan.***

*12 Murad günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## MİSİLSİZLİK

Tarixdə ilk dəfə: Qorxaq Fədakarlıq!

**AYAQ TƏDBİRİ**

Xalqı xilas etmək üçün Qorxaq olmaq lazımmış!

**HAL**

Ayağın Başçılığı altında Ayağa düşmək.

**HADİSƏ**

Baş itəndə Ayaq olur.

**AYAQÇILIQ**

Baş Əməli əvəzinə – Ayaq Əməli.
Başqanlıq əvəzinə – Qaçağanlıq.

*20 İnam günü, Şölə Ayı, 15-ci il. Bakı.*

**ÇOXATALIQ YALANI**

Əgər Prezident Xalqın Atasıdırsa, onda hər beş ildən bir Xalqın təzə Atası olmalıdır.

*21 Arzu günü, Şölə Ayı, 15-ci il. Bakı.*

**VƏZİYYƏT**

Camaat Qaçağan Uşağını axtarıb tapmalıdır ki, ona Başçılıq eləsin.

*22 Ümid günü, Şölə Ayı, 15-ci il. Bakı.*

**ƏSATİR ƏSARƏTİ**

Ali Şəxsiyyət əsatiri yaradanlar camaatı Yalan əsarətinə saldılar.

*23 Dözüm günü, Şölə Ayı, 15-ci il. Bakı.*

**TƏHLÜKƏYƏ QƏDƏR CƏSARƏT**

Təhlükə var olduğundan – Cəsarətləri yox olub;
Təhlükə yox olan kimi – Cəsarətləri var olacaq.

**HƏQİQƏT**

Prezidentin Legitimliyi (Qanunçuluğu) Gəncə Qırğınında Bitdi.

## HƏQİQƏT

Prezident Üsul-İdarəsi Xalqa yaramadı, İqtidara yaradı.

## BİRLİK

***Prezident və İqtidar – Birdir.***

Bu səbəbdən də İqtidarı atıb, Prezidenti tutmaq – Siyasi Oyundur – Yurdçuluğa dəxli olmayan – ***Hakimiyyət Döyüşüdür, Siyasət Döyüşü deyil.***

## VƏZİYYƏT

Qərb Prezidenti müdafiə eləyir – əslində Qərbçiliyi müdafiə eləyir; ***Qərb – Yurdçuluğu müdafiə eləməzdi, Türkçülüyü müdafiə eləməzdi.***

Rəsmi Rusiya Prezidenti müdafiə eləyir – ***Qərb ayaq qoyan yerə o, baş qoyur.***

## MÜSTƏQİLLİK TÜĞYANI

Özgələr Bizi Özümlüyümüzdən qoruyur.

## İCTİMAİ HADİSƏ

Elqanlıq.

*24 Mərhəm günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## HƏQİQƏT

Tarixə düşənlərin sayı çoxaldıqca, tarix özü balacalanır.

## HADİSƏ

Özlərini o qədər aldatdılar ki, axırda özlərinə inamlarını tam itirdilər.

## HƏQİQƏT

Ağalarına İfrat Nökərçilik elədilər – Ağasız qaldılar.

## HƏQİQƏT

85-ci ildən başlayan və bu günə qədər davam edən Qorbaçovşina dövrü əslində Qanlı Məzhəkə dövrü oldu.

## HƏQİQƏT

Qorbaçovşina Gedişatı Qəhrəman yaratmadı – Gülünc Qəhrəman olmur.

## HƏQİQƏT

Camaat Qorbaçovşinanı ***yorğun başla*** qavradı – bu səbəbdən də aldandı.

## RUHANİ ÖLÇÜ

SSRİ-ni Xəyanət yıxdı, əslində isə onu Ləyaqət yıxmalıydı.

## FƏRQ

Partokrat Xadimlər SSRİ-çilik icraçısıydılar, Demokrat Xadimlər Müstəqillik şüarçısı.

## VƏZİYYƏT

Elan olunmuş Müstəqillik – ***İqtisadi Dəhşət Uçurumuna düşüb*** – çıxa bilmir.

***Siyasi Təqlidçilik Uçurumuna düşüb*** – çıxa bilmir.

***İctimai Yadlıq, Yağılıq Uçurumuna düşüb*** –çıxa bilmir.

## VƏZİYYƏT

Sosializmə Ağlayan olmadı, Demokratiyaya gülməyən yoxdur.

## VƏZİYYƏT

Ziyalıların Xalqla təmasında Çənə Əməli Beyin Əməlini üstələyir.

## MÜASİR İDEOLOGİYA

Kommersiya Reklamları.

*27 İnam günü, Şölə Ayı, 15-ci il. Bakı.*

**ERMƏNİ ALVERİ**

"Kəlbəcəri verirəm – Dağlıq Qarabağ Respublikasını alıram.

**İCTİMAİ HAL**

Hakimiyyətdən başqa Xidmət tanımırlar, bacarmırlar.

**TARİXİ YALAN**

***Ziyalının*** gördüyü işi ***Ziyalıların*** adına yazmaq.

**SEMANTİK ARAŞDIRMA**

Çoxları üçün Xalq Mənsəb sözünün sinonimidir.

**UNİVERSALLIQ**

Arağından da qalmır – Duasından da.
Xalqçılığından da qalmır – Pulçuluğundan da.
Türkçülüyündən də qalmır – Qərbçiliyindən də.
Özünü də aldada bilir – Başqalarını da.

**HƏNGAMƏ**

***Millət vəkilləri*** milləti kimdən müdafiə eləyirlər? Milli Dövlətdən? Milləti kim ittiham eləyir? ***Milli Dövlət?***

**HƏQİQƏT**

Partokratlar "Yoldaş" sözünü nə günə qoydularsa, demokratlar da "Bəy" sözünü o günə qoydular.

**HƏQİQƏT**

Hakimiyyətə ***Varlanmaq üçün, Kübarlanmaq üçün, Ağalanmaq üçün*** gəldilər – ***Xalqlanmaq üçün gəlmədilər.***

**MİLLİ BİRLİK**

Siyasi Özgəçiliyə qarşı – ***Qərbçiliyə qarşı...***
İctimai Özgəçiliyə qarşı – ***Pulçuluğa qarşı...***
Ruhani Özgəçiliyə qarşı – ***Dinçiliyə qarşı...***

*28 Arzu günü, Şölə Ayı, 15-ci il. Bakı.*

## NƏTİCƏ

Əsatirçi, Kal, Səriştəsiz, Dəyanətsiz İqtidar Hakimiyyətdən getdi.

Təzə Rusçuluğa, Təzə Tayfaçılığa, Təzə Partokratçılığa qarşı dayanmaq gərək.

*1 Od Ayı, Mərhəm günü, 15-ci il. Bakı.*

## AMERİKANIN İRAQA RAKET CƏZASI

Dünya üzərində Bütöv Ağalıq Ədası.

*3 Murad günü, Od Ayı, 15-ci il. Bakı.*

## SİYASİ SƏRİŞTƏ

Yalanı Doğru Biçimində quraşdırmaq.

*8 Mərhəm günü, Od Ayı, 15-ci il. Bakı.*

## İCTİMAİ HAL

Mənəmliyin Mənlik üzərində qələbəsi.

*21 Dözüm günü, Od Ayı, 15-ci il. Bakı.*

## XASİYYƏTNAMƏLƏR

Qırğınçı Qaçağan.

Həm Şahdır, həm Vəzir.
Həm Canavardır, həm Tülkü.
Həm Öküzdür, həm Balıq.

*23 Qismət günü, Od Ayı, 15-ci il. Bakı.*

## HAL

İddiaları özlərindən böyükdür, bu səbəbdən də onu gizlədə bilmirlər.

*28 Dözüm günü, Od Ayı, 15-ci il. Bakı.*

**DEMOKRATİK DİKTATURA**

Demokratiyanın Əlacı – Diktatura.

*9 Murad günü, Xəzan Ayı, 15-ci il. Bakı.*

**TƏZƏLİKLƏR**

Təzə Azərbaycan – Rusiya münasibətləri – Təzə Rusçuluq.
Təzə Azərbaycan – MDB münasibətləri – Təzə SSRİ-çilik.
Təzə Azərbaycan – Qərb münasibətləri – Təzə Qərbçilik.

*12 Ümid günü, Xəzan Ayı, 15-ci il. Bakı.*

**HAL**

Ziyalılarda Söz Fikirdən qaçır.

*17 Dözüm günü, Yağış Ayı, 15-ci il. Bakı.*

**TƏZƏ GEDİŞAT**

Kapitalizmə Qayıdış – XIV əsrə doğru getməkdir.
İslama Qayıdış – IX əsrə doğru getməkdir.
***Təzə Gedişat – Köhnəliyə Qayıdışdır.***

**HAL**

Ermənilərlə Döyüşdən əvvəl Azərbaycanlılar biri-biriylə döyüşürdülər.

Ermənilərlə Döyüşdə bu Təcrübə Yaramadı.

**KEÇİD DÖVRÜ**

Köhnə Rusçuluqdan – Təzə Rusçuluğa.
Köhnə Qərbçilikdən – Təzə Qərbçiliyə.
***Köhnə Özgəçilikdən – Təzə Özgəçiliyə.***

**BİLİNƏNLƏR – BİLİNMƏYƏNLƏR**

Elə bilirlər ki, Kapitalizm Tüğyan eləyir;

əslində Kapitalizm ölür; Kapitalizmi yaşadan Sosialzim idi: Sosializm öldü – kapitalizm də öləcək.

Elə bilirlər ki, Din Tüğyan eləyir; əslində Din ölür – Siyasətləşmək – Dinin ölümüdür.

Elə bilirlər ki, Siyasət Tüğyan eləyir; əslində Siyasət ölür – Kütləviləşmək – Siyasətin ölümüdür.

*3 Qismət günü, Sərt Ay, 15-ci il. Bakı.*

## FƏRQ

***İntibah*** – əvvəl əkir, sonra biçir.
***İnqilab*** – əvvəl biçir, sonra əkir.

*4 Murad günü, Sərt Ay, 15-ci il. Bakı.*

## MİLLİ MƏCLİSİN TƏZƏ QƏRARI

(20 Yanvarla bağlı)

Gurultulu-Çığırtılı Həngamədən Heçlik yarandı: Şərə ziyanı dəyməyən, Xeyirə Xeyri olmayan.

## MİLLİ MƏCLİSİN TƏZƏ SƏVİYYƏSİ

Lovğaxana, Qeybətxana, Söyüşxana, Yalmanxana, Yalanxana.

*28 Arzu günü, Günəş Ayı, 16-cı il. Bakı.*

## TÜRKİYƏDƏ VƏZİYYƏT

Qərbçilik – İslamçılığı yaşadır.
Qərbçilik artdıqca – İslamçılıq artır.
***Qərbçilik yaşadıqca – İslamçılıq yaşayacaq.***

*31 Mərhəm günü, Günəş Ayı, 16-cı il. Bakı.*

## DÜNYƏVİ TƏLƏ

Həm sərhədlərin toxunulmazlığı Qaydası.

Həm milli özünütəyin haqqı.

İkinci Birincini inkar edir.

Gərək Dünyəvi Tələyə düşməyəsən – Dünyəvi xilasa bel bağlamayasan.

*17 İnam günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## VƏZİYYƏT

Rusiyanın Sülh layihəsi – əslində Təslim aktıdır.

İqtidar onu qəbul etmir, həm də Rusiyanın hiddətindən qorxur, bu səbəbdən də Parlament nümayəndələri Moskvaya göndərilir.

## MÜASİR HAL

Şərqi Qərbsayağı atıb-tuturlar və İslamın qucağına tullayırlar.

*29 Qismət günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## MÜASİR TÜRKİYƏ

Qərbçiliyin caynağında – İslamçılığın cəngində.

## VƏZİYYƏT

Rusiya Azərbaycan iqtidarına qəzəblənib.

Özününkü saydığı hökumət – onunla siyasi oyuna başlayıb, müstəqillik nümayiş etdirir – nankorluq göstərir.

Azərbaycan iqtidarı qəzəbə düçar olub, başını itirib – ***"Vüqarı" Yalmanmayla birləşdirir;*** ağlamalı-gülməli vəziyyətə düşüb, geriyə irəliləyir.

*30 Murad günü, Çiçək Ayı, 16-cı il. Bakı.*

## VƏZİYYƏT

"Bişkek protokolu" – təslim aktıdır.

Onu 1985-ci ildə başlayan Demokratik Hərəkat hazırlayıb əslində.

*17 Ümid günü, İşıq Ayı, 16-cı il. Bakı.*

## HAKİM MÖMİNLİYİ

Kəfənə bürün – camaatı sürü!

*15 Qismət günü, Od Ayı, 16-cı il. Bakı.*

## AZƏRBAYCANDA OKTYABR HADİSƏLƏRİ

İqtidar S.Hüseynovu yıxmağa macal tapdı.

S.Hüseynov iqtidarı yıxmağa macal tapmadı.

İqtidar özünü camaata Müstəqilçi kimi təqdim edə bildi.

İqtidar S.Hüseynovu camaata Müstəqillik düşməni kimi təqdim edə bildi.

**TÜRK DÖVLƏTLƏRİNİN ZİRVƏ TOPLANIŞI**

Türk Dövlətçilərinin Qərbaltı Türkiyə Nizamı.

**NAZARBAYEV AVROASİYASI**

Keçmiş SSRİ Dövlətləri üzərində Rusiya–Qazaxıstan Hakimliyi.

**GÖZLƏMƏLƏR**

Müxalifət iqtidardan Hakimiyyət gözləyir.
İqtidar Müxalifətdən İtaət gözləyir.

**XÜSUSİYYƏT**

Kapitalizm bizdə Rüşvətlə başladı, indi Rüşvətlə də davam eləyir.

**TƏZƏ ZORLAR**

Qərb Zoru – Bazar İqtisadiyyatı.
Rusiya Zoru – Sülh Məramı.

**NEFT MÜQAVİLƏSİ**

Azərbaycanda Qərb İqtisadi Bazasının yaradılması.

**TARAZLI XARİCİ SİYASƏT**

Qərblə Rusiya arasında siyasi oyun – əslində oynadılma.

**DÜNYƏVİ İNTEQRASİYA (Birlik) YOLU**

Dünyada itmək Təhlükəsi.

## ÇEÇENİSTAN HADİSƏLƏRİ

Çeçenistanda Rusiya həm Dudayevi, həm də Xasbulatovu məğlub etmək istəyir.

## HƏQİQƏT

Şəraiti Adamlıq yaradır – İnsanlıq dəyişdirir.

*24 Arzu günü, Xəzan Ayı, 16-cı il. Bakı.*

## GEDİŞATA QARŞI

Kapitalizmə qayıdış Zamanında Kapitalizmlə Ruhani Döyüş.
Zamanın Sərsəri gedişatına qarşı Ruhani Döyüş...

*31 Arzu günü, Xəzan Ayı, 16-cı il. Bakı.*

## ƏLAQƏ

Sülh – gizli dava, yarımdava olduqca – Dava yaşayacaq.

## CİNAYƏT QANUNLARI

Cəmiyyət Ağalıq adlanan Cinayəti Qanunlaşdırır.
Nökərlik adlanan Cinayəti Qanunlaşdırır.
Təbəqəlik adlanan Cinayəti Qanunlaşdırır.
Özgələşmə adlanan Cinayəti Qanunlaşdırır.
***Cəmiyyət Qanunları – əslində Cinayət Qanunlarıdır.***

## GENİŞ SİMA

Həm Dinçi – həm Dünyaçı; həm İslamçı – həm Qərbçi; həm Türkçü – həm İrançı; həm Millətçi – həm Rusçu; əslində – Hakimiyyətçi.

## SİYASİ GEDİŞAT

Sülhü qoruyan sosializm yalanından – sülhü qoruyan kapitalizm yalanına.

***Əslində kapitalizmi qoruyan sülh – yəni davanı qoruyan sülh.***

*2 Dözüm günü, Yağış Ayı, 16-cı il. Bakı.*

**BOLLUQ**

Dünyada ən bol şey – Yalan.

**DÜNYANIN HALI**

Rəqabət – gizli Qarşıdurma.
Qarşıdurma – açıq Rəqabət.

**TÜRKİYƏDƏ FÜZULİ YUBİLEYİ**

Qərbçilərin Türkçülük tamaşası.

**HAL**

Demokratiya cəzbi – Antikommunizm.
Kommunizm cəzbi – Antikapitalizm.

**RUSİYA – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ**

Rəqabət Həddində Əməkdaşlıq; Əməkdaşlıq Həddində Rəqabət.

**QƏRB–RUSİYA MÜNASİBƏTLƏRİ**

Tərəfdaşlıq həddində Rəqabət; Rəqabət həddində Tərəfdaşlıq.

**AZƏRBAYCANDA ANTİRUS DALĞASI**

Rusçuların Antirus tamaşası.

*4 Qismət günü, Yağış Ayı, 16-cı il. Bakı.*

**ƏLAQƏ**

Əşyaların qiyməti artdıqca – Adamların qiyməti azalır.

**DEMOKRATİK İSLAHATLARIN NƏTİCƏSİ**

Fəhlə – Zavodu kapitalistin əlindən almalı olacaq.
Kəndli – Torpağı Mülkədarın əlindən almalı olacaq.

**HƏQİQƏT**

Varçının Varlığı – Vardır.
Varçı Varı itirəndə – Varlığını da itirir.

## GEDİŞAT

Əgər Demokratiya Dəhşəti aradan qaldırılmasa –
Sosializmə qayıdış baş verəcək.
Əgər Pulçuluq Dəhşəti aradan qaldırılmasa –
Zorçuluğa qayıdış baş verəcək.

## GEDİŞAT

İqtidar – Qərbin qucağına atılır, Qərb – İqtidarı Rusiyanın qucağına qaytarır.

## MÜASİR AZADLIQLAR

Yırtıcılıq Azadlığı.
Təqlidçilik Azadlığı.
Cəfəngçilik Azadlığı.

## DÜNYA HALI

Təlqinçi Qərb.
Təqlidçi Şərq.

*6 İnam günü, Yağış Ayı, 16-cı il. Bakı.*

## FƏRQ

Kamil Azadlığı – Xeyir.
Naqis Azadlığı –Şər.

## YOXLUQ

***Ağalıq*** olan yerdə – Azadlıq yoxdur.
***Pulçuluq*** olan yerdə – Azadlıq yoxdur.
***Zorçuluq*** olan yerdə – Azadlıq yoxdur.
***Hakimiyyətçilik*** olan yerdə – Azadlıq yoxdur.
***Dinçilik*** olan yerdə – Azadlıq yoxdur.
***İndiki Azadlıqlarda – Azadlıq yoxdur***.

## ƏSARƏT QORUYAN

İndiki Azadlıqlar – Ağalığı qoruyur, Pulçuluğu qoruyur, Zorçuluğu qoruyur, Hakimiyyətçiliyi qoruyur, Dinçiliyi qoruyur.

***İndiki Azadlıqlar – Əsarəti qoruyur.***

## TARİXİN İSTEHZASI

Kapitalizmdən azad olmaq üçün döyüşənlər –
kapitalizm azadlığına çatdılar.

## TORPAQ İSLAHATI

1. Torpağın satılması vasitəsiylə mülkədarlığın bərpası.
2. Təzə "könüllü" kolxozların yaradılması.
3. Kəndli Sahibkarlığı əvəzinə – Kəndli Təminçiliyi.
4. Kəndlinin "Ümumi mənafe"yə qurban verilməsi.

*7 Arzu günü, Yağış Ayı, 16-cı il. Bakı.*

## XARİCİLƏŞMƏ MÜSTƏQİLLİYİ

Xarici Şirkətlər İqtisadiyyatı.
Xarici Birliklər Siyasəti.
Xarici Ölkələr Mədəniyyəti.

## AĞALIQLAR

***İnteqrasiya*** (Birlik) – Mədəni Ağalıq.
***Ekspansiya*** (Müdaxilə) – Zorakı Ağalıq.

*9 Dözüm günü, Yağış Ayı, 16-cı il. Bakı.*

## DÖVLƏT QURUCULUĞU

Din Ağalığı qururlar.
Pul Ağalığı qururlar.
Hakim Ağalığı qururlar.

## ÖZƏLLƏŞMƏ QAYIDIŞI

Zavodu kapitalistə qaytarırlar.
Torpağı mülkədara qaytarırlar.
Kapitalist Zavodundan Fəhləyə Aksiya payı verirlər.
Mülkədar torpağından Kəndliyə Təsərrüfat payı verirlər.

## FƏRQ

Bugünün Təzahürü özgələrindir –Mənası bizim.

## VƏZİYYƏT

Azərbaycanda Dünyəvi Dövlət yox, Dünyəvi-Dini Dövlət yaranır.

Bu Dünyanın Hakimləriylə o Dünyanın Hakimləri birləşib Cənnət adlı Cəhənnəm yaradırlar.

## HƏQİQƏT

***Din Dünyası – cəfəngiyyatdır;*** çünki Dinin Bu Dünyası yoxdur, O Dünyası var.

***Müsəlman Dünyası – cəfəngiyyatdır;*** çünki itaət Dünyası olmur, Qismət Dünyası olmur, Cənnət Dünyası olmur, Cəhənnəm Dünyası olmur.

***Müsəlman Ölkəsi – cəfəngiyyatdır;*** çünki İtaət ölkəsi olmur, Qismət ölkəsi olmur, Cənnət Ölkəsi olmur, Cəhənnəm Ölkəsi olmur.

***Müsəlman Mədəniyyəti – cəfəngiyyatdır;*** çünki İtaət Mədəniyyəti olmur, Qismət Mədəniyyəti olmur, Cənnət Mədəniyyəti olmur, Cəhənnəm Mədəniyyəti olmur.

***Qərb Xristian Dünyası tanımır;*** Din Dünyası cəfəngiyyatını Şərqə bəxş edir.

***Qərb Xristian Ölkəsi tanımır;*** Din Ölkəsi cəfəngiyyatını Şərqə bəxş edir.

***Qərb Xristian Mədəniyyəti tanımır***; Din mədəniyyəti cəfəngiyyatını Şərqə bəxş edir.

***Din Dünyası – Dünyasızlıqdır – Şərqin öz boynuna sarıdığı.***

*14 Dözüm günü, Sərt Ay, 16-cı il. Bakı.*

**20 YANVAR CİNAYƏTİ**

Rusiya öz hakimiyyətini qorumaq üçün azərbaycanlıları qırdı.

Azərbaycan rəhbərliyi öz hakimiyyətini saxlamaq üçün azərbaycanlıları qırdırdı.

Müxalifət hakimiyyətə gəlmək üçün azərbaycanlıları qırğına göndərdi.

*20 Qismət günü, Qar Ayı, 16-cı il.Bakı.*

**SOSİALİST KOOPERASİYASI**

Dövlət artığı.
Çılpaq Dəllallıq – Təbəqələşən.

**MAHİYYƏT**

Əslində Pribaltiklər Mərkəzdən Müstəqillik dilənirlər.
Əslində Gürcülər Mərkəzdən Müstəqillik dilənirlər.
Pribaltiklər Ribbentrop–Molotov paktı harayında dilənirlər.
Gürcülər Tiflis Qırğını Ağlaşmasında dilənirlər.

**ANTİXƏLQİLİK**

Sosializm Xalqı cəmiyyətin ayağına bağlayır.

**FƏRQ**

Kapitalizmdə İqtisadiyyat – İctimai Varidat yaradır.
Sosializmdə İqtisadiyyat – İctimai Zor yaradır.
Kapitalizmdə İqtisadi İnkişaf – Varidata əsaslanır.
Sosializmdə İqtisadi İnkişaf – Zora əsaslanır.
***Kapitalizm – Varidatçıdır.***
***Sosializm – Zorçu.***

*1 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

## MARKSİZM ƏXLAQSIZLIĞI

"Kimin ki, itirməyə heç nəyi yoxdur – o, döyüşməyə ən çox qadirdir!" iddiasında mübarizə ruhani mahiyyətini itirir – əxlaqsızlaşır.

## MARKSİZM İNSANSIZLIĞI

İctimai münasibətlərin məcmuu sayılan İnsan – cəmiyyətin alətinə çevrilir; – marksizm fəlakətli İnsansızlığı doğruldur: daxili, üzvi antihumanizm yaşayır marksizmdə.

*2 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Güclü Mərkəz – Güclü Respublika ideyası yalandır.

Güclü Mərkəz – Gücsüz Respublika deməkdir və əksinə. Güc Gücə Hakim olmur, Güc Gücsüzə Hakim olur.

## QORBAÇOVUN TELEVİZİYA ÇIXIŞI

1. "Bir-birinizlə dalaşmayın, yoxsa hamınızı qıraram".

2. "Məndən müstəqillik ummayın, SSRİ-ni uçuran deyiləm".

3. "Səbrlə, Diqqətlə, Demokratikcəsinə, Aşkarlıqcasına sizi Boyunduruqda saxlayacağam".

4. Elə eləyəcəm ki, özünüzü qeyri-müstəqil "respublikalarda" müstəqil hiss eləyəsiniz.

## VƏZİYYƏT

***Yelsin*** deyən olsa, SSRİ dağılar və Rusiya böyük Dövlət səlahiyyətini itirər.

***Liqaçov*** deyən olsa, SSRİ bir yerdə sayar və Rusiya böyük Dövlət səlahiyyətini itirər.

***Odur ki, hamı Qorbaçovun ətəyindən yapışır.***

## VƏZİYYƏT

İndi sosializm kapitalizmi öldürmək istəmir – deyirlər.

İndi sosializm ölmək istəmir – deyirik.
İndi sosializm Dünyaya hakim olmaq istəmir – deyirlər.
İndi sosializm Dünyaya Hakim ola bilmir – deyirik.

**VƏZİYYƏT**

Sosializm kapitalizmlə əməkdaşlıq eləyir – düşmənçilik eləmir – deyirlər.

Sosializm kapitalizmlə əməkdaşlıq eləyə-eləyə düşmənçilik eləyir – deyirik.

**AQİBƏT**

Faciə Müşviqi Süleyman Rüstəmlik həqarətindən qurtardı.

**TƏZƏ XƏTT**

Xalqı sosializmin dünəninə ağladırlar ki, xalq sosializmin bugününə ağlamasın.

**VƏZİYYƏT**

Latışlar SSRİ-dən Müstəqil Dövlət istəyirlər, Müstəqil İqtisadiyyat istəyirlər, Müstəqil Aqibət istəyirlər – əslində SSRİ-lik istəyirlər.

**VƏZİYYƏT**

Müasir şeiri müasir azərbaycanlıya tiryək kimi çəkdirmək istəyirlər.

**HƏQİQƏT**

SSRİ – Zülmdür, Zülm daxilində Zülmdən xilas olmaq olmaz – ***Zülmü aradan qaldırmayınca Zülmdən xilas olmaq olmaz.***

**HƏQİQƏT**

İqtisadiyyatına Sahib olan Respublika SSRİ-yə lazım deyil.
İqtidarına Sahib olan Respublika SSRİ-yə lazım deyil.
İqbalına Sahib olan Respublika SSRİ-yə lazım deyil.

## ZOR BAĞBANLIĞI

Sosializm Zindanında Gül bitmədi.

## VƏZİYYƏT

Əslində Respublikalar SSRİ-ylə Yox olmaq sazişi bağlayıblar.

## MƏRHƏLƏLƏR

Pioner – Özgələşən Uşaqlıq.
Komsomol – Yadlaşan Gənclik.
Partiya – Yağılaşan Yetkinlik.

## VƏZİYYƏT

Latviyalıların istəyinə əsasən Respublika birinci, İttifaq ikinci olanda SSRİ ləğv olar, – çünki SSRİ-ni saxlayan elə İttifaqın birinci, Respublikanın ikinci olmasıdır.

## POLŞA PİNOÇETİ

General Yaruzelski – Əvvəl demokratiyanı devirdi, sonra lovğalandı – demokratiyaya boy verdi və məğlub oldu, indi əməldaşlarını qoyub qaçır.

## VƏZİYYƏT

SSRİ-dən ***Müstəqil Ölkə Haqqı*** istəyirlər Pribaltiklər – ***Müstəqil Dövlət Haqqı*** istəyirlər.

Unudurlar ki, SSRİ-də bir müstəqil ölkə var və ola bilər – SSRİ.

Unudurlar ki, SSRİ-də bir müstəqil Dövlət var və ola bilər – SSRİ.

Müstəqil ölkəni SSRİ-dən kənarda axtarmaq lazımdır.

Müstəqil dövləti SSRİ-dən kənarda axtarmaq lazımdır.

## TƏZƏ MİLLİ SİYASƏT

Millətlərin biri-birinə qovuşması Tələbini millətlərin biri-birinə yaxınlaşması, beynəlmiləlləşməsi Qaydasıyla əvəz

eləyiblər ki, bu mahiyyətcə eyni şeydir: biçim dəyişilib, məna saxlanılıb.

Onu demirlər ki, Qovuşma Tələbinin yaradıcısı Lenindir, o, Qovuşmanı tərəqqinin mühüm nailiyyətlərindən sayıb həmişə və bu bir daha sübut eləyir ki, Leninizm və Stalinizm eyni şeydir.

## TƏƏSSÜRAT

Əgər desələr ki, Qorbaçov Amerikaya qaçıb, İngiltərəyə qaçıb – inanaram.

## ÇEVİK SİYASƏT

Aldadılmaqdan daha çox Aldatmaq.

## HƏQİQƏT

Millətini sevən kommunist əslində kommunizmə xəyanət eləyir, çünki kommunizmin məqsədi – millətsizlikdir.

## MƏQSƏD

SSRİ kommunizm üçün quraşdırılmışdı:

Millətlər biri-birinə qovuşmalıdır, bir xalq, bir dil, bir mədəniyyət yaranmalıdır müxtəlif əriyənlərdən...

## VƏZİYYƏT

SSRİ-nin ölkə Bütövlüyü – Respublikalar ölkəsizliyiylə bağlıdır.

Respublikalar ölkələşərsə, SSRİ ölkəliyini itirər.

SSRİ Bütövlüyünü saxlarsa, Respublikalar ölkəsizliyində qalarlar.

## XARİCİLƏR MƏSƏLƏSİ

SSRİ xaricilərdən özünə ***Rəğbətçi*** hazırlayır.

Respublikalar xaricilərdən özlərinə ***Müstəqilçi*** hazırlayırlar.

Deməli, xaricilər həm SSRİ-ni möhkəmlətməli, həm də Respublikaları müstəqilləşdirməlidirlər; yəni iki biri-birinə daban-dabana zidd iş görməlidirlər.

## OLMAYAN

Məsələ ondadır ki, 15 ölkələr ölkəsi olmur, 15 dövlətlər dövləti olmur – bu səbəbdən də Müstəqil Respublikalar ölkəsi, Dövləti – Tarixi Yalandır – xalqların boynundan zəncir kimi asılan.

## SSRİ–PRİBALTİKA MÜNASİBƏTİ

Pribaltika SSRİ-dən müstəqil Respublika tələb eləyir – bu SSRİ-nin ləğvi deməkdir – SSRİ öz ləğvinə qərar verməz – SSRİ müstəqil Dövlətlər Birliyi yox, ***Bir Müstəqil Dövlətdir və bu səbəbdən də Dünyəvi Səltənət rolu oynayır.***

Bu səbəbdən də Pribaltika ya SSRİ-dən çıxmalı, ya da formal Müstəqilliklə barışmalıdır.

## LENİN YALANI

Ömrünün axırına kimi Lenin Fəhlə Hakimiyyəti dedi, Fəhlə dövləti dedi, Fəhlə diktaturası dedi – Partiya hakimiyyəti demədi, Partiya dövləti demədi, Partiya diktaturası demədi – Yalan dedi.

*2 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Yalnız Müstəqil Dövlət – Müstəqil Hakimiyyətə malik ola bilər.

SSRİ – Müstəqil Dövlətdir, bu səbəbdən də Müstəqil Hakimdir, Respublikalar Müstəqil Dövlət deyillər, bu səbəbdən də Müstəqil Hakimiyyətdən məhrumdurlar.

## QOŞMAQ

“SSRİ xalqı siyasətə qoşdu” – deyirlər.
“SSRİ xalqı ***öz siyasət arabasına*** qoşdu” – deyirik.

## NƏTİCƏ

Zorakı Qardaşlıq – Yağı Zorakılığı yaratdı.

## QORXAQLIQ

Qərb SSRİ-dən qorxmadığı dərəcədə SSRİ-yə gərək olacaq unudacaq ki, əslində SSRİ-dən ***qorxmamaqdan*** böyük qorxaqlıq yoxdur.

## ƏLAQƏ

Partiyanın dayağı – SSRİ-dir.
SSRİ uçsa – Partiya uçar.

SSRİ-nin dayağı – Partiyadır.
Partiya uçsa – SSRİ uçar.

## SOVET ANTİXƏLQİLİYİ

Sovet – Dövlətsizlik və ölkəsizlik deməkdir əslində.

Sovet xalqı ölkəsiz və dövlətsiz xalq – yəni Antixalq deməkdir.

Xalqları ***sovet xalqı xalqsızlığından xilas etmək lazımdır!***

## BÖYÜKLÜK

"Kiçik xalqın" Böyüklüyü "Böyük Xalqın" Böyüklüyündən Böyük olur.

## ŞƏRT

Müstəqilliyə can atan Xalq – Təklənməkdən qorxmamalıdır.

## BİRLİK

"Böyük xalqlar" bir nöqtədə daim birləşirlər:
***kiçik xalqları ram eləmək səyində.***
***Əslində böyük xalqlar ən çox kiçik xalqlardan qorxurlar.***

## VƏZİYYƏT

Avropa SSRİ-nin uçurulmasını istəyir, ancaq təzə ***Müstəqil Dövlətlərin*** yaranmasını istəməz, bu səbəbdən Avropaya bel bağlayan uduzar.

## BALTA

SSRİ milli kökləri baltaladı: Türkləri biri-birndən ayırdı, Türkiyəyə qarşı qoydu; Pribaltikləri almanlardan ayırdı – Almaniyaya qarşı qoydu, tatarları şaqqaladı, osetinləri şaqqaladı.

Balta yarandı SSRİ köklərə.

## VƏZİYYƏT

Deyirlər ki, SSRİ olmasa, sosialist ölkələri ölər.
Deyirik ki, SSRİ olmasa, sosialist ölkələri yaşayar.

## XALQLAR QIRĞINI

Deyirlər ki, SSRİ olmasa – xalqlar biri-birini qırarlar.
Unudurlar ki, SSRİ olduğu üçün – xalqlar biri-birini qırırlar.

## ANLAQ SƏVİYYƏSİ

Avropa ağlı – zahiri ağıldır.

O, 17-ci ildə nə baş verdiyini anlamadı, 45-ci ildə nə baş verdiyini anlamadı, indi də 85-ci ildə nə baş verdiyini anlamır.

## HƏQİQƏT

"SSRİ kommunizmdən əl çəkib!" – deyirlər.
"Kommunizmdən əl çəksə, SSRİ yaşamaz!" – deyirik.

"SSRİ kapitalizmə qoşulur!" – deyirlər.
"SSRİ kapitalizmə qoşulsa, yaşamaz!" – deyirik.

SSRİ Dünya Hegemonluğundan əl çəkib deyirlər.
"Dünya Hegemonluğundan əl çəksə, SSRİ yaşamaz" – deyirik.

***SSRİ yaşamaq üçün çalışır, ölmək üçün yox.***

**VƏZİYYƏT**

Rus Sovet imperiyası Rus xalqının çiyninə Zindan kimi düşdü, başqa xalqları ölümə sürüklədi.

**RESPUBLİKA BAŞÇILARI**

Xalqına Ağalıq eləyən İmperiya nökərləri.

**VƏZİYYƏT**

SSRİ milli özünü təyin etmə əsasında yaranmayıb, milli özündənkeçmə əsasında yaranıb.

**AQİBƏT**

Pribaltiklər SSRİ-dən müstəqil Qanunvericilik haqqı tələb eləyirlər – Dövlətsizin, Ölkəsizin buna haqqı olmadığını unudurlar.

**HƏQİQƏT**

SSRİ – Rus xalqını əsarətdə saxlayan, başqa xalqları xalqsızlaşdıran Rus Sovet imperiyasıdır.

**VƏZİYYƏT**

Respublikalar öz Torpaqlarının Sahibləri deyillər, Respublikalar Torpaqlarının Sahibi SSRİ-dir; əslində Respublikalar Mülkiyyətdən məhrumdurlar. Torpaqlarına Sahib olmaq Respublikalara qadağandır – ***Konstitusiya buna ziddir.***

**HƏQİQƏT**

SSRİ-də heç bir respublika özünü təyin etmir, SSRİ-də yalnız SSRİ özünü təyin eləyir.

**SSRİ MÖVQEYİ**

Amerika SSRİ-yə lazım olduğu dərəcədə Avropaya gərəkdir.
Avropa SSRİ-yə lazım olduğu dərəcədə Amerikaya gərəkdir.

*3 Arzu günü, Od Ayı, 11-ci il. Bakı.*

## AQİBƏT

Rusiya Sovet imperiyası Rusu Özüylə Yadlaşdırdı, Dünyayla Yağılaşdırdı.

Rusu əydilər, Rus Dünyanı əydi.

## RUSİYA FƏLAKƏTİ

Bu boyda Rusiyada bir nəfər tapılmır ki, Qorbaçovun qulağından tutub yerində oturtsun!

## BİRLİK

Mütiliklə Lotuluq birləşəndə Sovet adamı yaranır.

## SOVET ORDUSU

Ölkəsizlik, Dövlətsizlik qoruyucusu, ölkəsizlik, Dövlətsizlik Zorçusu.

## NƏTİCƏ

Qurultay Sovet Ağası seçdi – Partiya Hakimindən.
Qurultay Sovet Nökəri seçdi – Partiya Hakiminə.

## XÜSUSİYYƏT

Xaos – Qarışıqlıq Qorbaçovun eşqidir.
Onsuz Qorbaçov yaşaya bilməz.

## QURULTAY ƏHVALI

Yaralı ilan kimi biri-birini çalırlar.

## İXTİYARSIZLIQ

Birləşmiş Millətlər Təşkilatında kiçik xalqların ixtiyarı böyük xalqlara verilib.

## SON ALLAH

Əslində İyirminci əsr Nüvə Silahından Allah düzəltmişdi – Qorxunc, Möhtəşəm Allah; indi son Allahından imtina eləyir.

## CƏSARƏTSİZLİK

Təhlükəsiz Cəsarət – cəsarətin ölümüdür.
Müasir Cəsarətdə Cəsarət ölür...

## SSRİ-nin QƏRBƏ MÜNASİBƏTİ

Öyrənir ki, – öyrətsin.

## SOVET AZƏRBAYCANININ HİMNİ

Ölkəsizlik, Dövlətsizlik mahnısı.

## VƏZİYYƏT

"Xalqçılar" xalqsızlığı "xəlqiləşdirirlər".

## OLAN – OLMAYAN

İsveçdə sosializm axtarırlar, Finlandiyada sosializm axtarırlar, Kanadada sosializm axtarırlar – unudurlar ki, İsveç – ölkəsiz deyil, Dövlətsiz deyil, Finlandiya – ölkəsiz deyil, Dövlətsiz deyil, Kanada – ölkəsiz deyil, Dövlətsiz deyil.

## FƏRQ

Bir vaxt deyirdilər ki, istismar olan yerdə demokratiya olmur.
İndi az qala deyirlər ki, istismar olmayan yerdə demokratiya olmur.

*4 Ümid günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Mətbuatlaşan Dil – quruyur.

## SOVET AZƏRBAYCANI RƏHBƏRLİYİ

Mərkəzaltılar.

## YENİDƏNQURMA YALANLARI

Guya milli müstəqillik SSRİ-nin ziyanına deyil.
Guya sosializm – humanizm deməkdir.

Guya beynəlxalq siyasətdə əqidədən keçmirlər.
Guya Kommunist Partiyası sosial-demokratlaşmır.
Guya indiki daşnaklar yenidənqurmanın əleyhinədir.
Guya kooperativ sosialistləşir.
Guya təsərrüfat hesabı, icarəçilik – iqtisadi müstəqillikdir.
Guya Partiya hakimiyyəti Xalqa verib.
Guya çoxbayraqlıq – siyasi fəlakət deyil.
Guya Dini dirçəltmə – İntibahdır.
Guya dünyada sosializmə rəğbət artır.
Guya Əfqanıstanı yağışdan çıxarmadan – yağmura salmadılar.
Guya Lenin – Qorbaçovmuş.
Guya təcavüzkar həyasızlıqda yetkinlik var.
Guya Qarabağ məsələsini sahmana salacaqlar.
Guya Zülm azalıb.
Guya bağırmaq haqqı azadlıqdır.
Guya qeyri-formal təşkilatlar azaddır.
Guya Respublika Mərkəzi Komitələri Xəlqiləşir.
Guya Bugün Dünəndən yaxşıdır.
Guya Akademiya Elmçiləri ölkəni xilas eləyəcəklər.
Guya xalq daha qırılmayacaq!

*5 Dözüm günü, Od Ayı, 11-ci il. Bakı.*

## ƏLAQƏ

Milli Dövlətin olacaqsa – milli dilin yaşayacaq, Milli Dövlətin olmayacaqsa – milli dilin yaşamayacaq – Dövlət dili elan edilsə də.

## HƏQİQƏT

***15*** ölkədən bir ölkə olmaz – ***Bir*** ölkə olanda ***15*** ölkə olmaz.

## HƏQİQƏT

Sosializm – cəmiyyətçilikdir, cəmiyyətin İnsan üzərində Ağalığıdır, Təzə sosializm, humanist sosializm – Yalandır;

Sosializm mahiyyətcə birdir: ***O, Möhtəşəm dövlət yarada bilir – İnsana Zidd, İnsanlıq Bahasına.***

## VƏZİYYƏT

Əvvəl Dünya SSRİ-yə Qorxu bacı verirdi, indi Qorxusuzluq bacı verir.

## SOVET AZƏRBAYCANININ "VƏTƏN" CƏMİYYƏTİ

Qürbətyayan.

## RAZILIQ

Sosializm Avropalılar üçün Təcavüz deməkdir.

Sosializmin kapitalistləşməsi Avropanın təhlükəsizliyi sayılır.

Sosializmin bu hünərinə görə Avropa sosialist ölkələrini avropalaşdırmağa razıdır.

## SOVET VƏTƏNPƏRVƏRLİYİ

Dövlətsizlik vüqarı.

## SİYASİ YÖN

Demokratiya bayrağı altında – yəni əslində Antikommunizm bayrağı altında birləşmiş Vahid Avropa – Kommunist Rusiyayla Birlikdə.

## SOVET AZƏRBAYCANI – TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

Yadlaşdıran.

## HƏQİQƏT

Total, hərtərəfli barışqanlıq – total, hərtərəfli dalaşqanlıq yarada bilər – cənnətdən pis cəhənnəm yoxdur əslində.

**MÜASİR QABAQCILLIQ**
Kapitalistləşmək.

**VƏZİYYƏT**
Avropanı Amerikaya qarşı birləşdirirlər.
Asiyanı Amerikaya qarşı birləşdirirlər.
Birləşmələrin Yönü Amerikaya qarşıdır.

**AZƏRBAYCAN XALQ CƏBHƏSİ**
Antiazərbaycan, Antixalq cəbhəsi – Şərə yarayan Xeyir.

**MƏQSƏD**
SSRİ Avropayla birləşir ki, Avropadan artıq olsun.
SSRİ Asiyayla birləşir ki, Amerikadan artıq olsun.
SSRİ Amerikayla sazisləşir ki, Amerikadan artıq olsun.

**VƏZİYYƏT**
Avropa SSRİ-ni öz içində ram eləmək istəyir.
Asiya SSRİ-ni öz içində ram eləmək istəyir.
Amerika SSRİ-ni öz sazişində ram eləmək istəyir.
SSRİ Dünyanı öz siyasətində ram eləmək istəyir.
***SSRİ Dünyəvi liderliyini nəinki zəiflətmək istəmir, əksinə daha da möhkəmləndirmək istəyir.***

**VƏZİYYƏT**
SSRİ nə rus xalqı deməkdir, nə də respublikalar xalqı deməkdir – SSRİ – xalqsızlıq xalqı deməkdir.

**TƏZƏLİKLƏR**
Sovet xristianlığı – Avropaya atılan təzə Tilov.
Sovet İslamçılığı – Şərqə atılan təzə Tilov.

## SİYASİ YÖN

Əqidə bahasına, Quruluş bahasına – nəyin bahasına olursa-olsun – Dünyəvi liderliyi saxlamaq və möhkəmləndirmək.

## RESPUBLİKA DÖVLƏT DİLLƏRİ

Dövlət olmayan yerdə Dövlət Dili möcüzəsi.

## AVROPA EVİ İDEYASI

Kommunist liderinin səyiylə kommunizm təhlükəsindən qurtarmış vahid Avropa.

## FRANSA-SSRİ MÜNASİBƏTLƏRİ

Fransa SSRİ vasitəsiylə Amerikanın cilovunu yığmaq istəyir.

SSRİ Fransanın vasitəsiylə Amerikanı yola gətirmək istəyir.

Fransa – SSRİ münasibətləri əslində Fransa-SSRİ-Amerika münasibətləridir.

*6 Mərhəm günü, Od Ayı, 11-ci il. Bakı.*

## TƏZƏ İNAM İSTƏYİ

Kapitalizmi öldürmədən – sosializmi yaşadacağam – deyir Qorbaçovşina.

Sosializmi kapitalistləşdirmədən – yaşada bilməyəcəksən! – deyir Qərb.

Qorbaçovşina kapitalizmdən sosializmə İnam diləyir.

Qərb sosializmdən kapitalizmə İnam diləyir.

Qorbaçovşina kapitalizmi aldatmaq istəyir, Qərb sosializmi aldatmaq istəyir.

***Aldatmaq Yarışı gedir Siyasi Aləmdə – sürətli.***

## VƏZİYYƏT

Avropanı quruda bilməyən SSRİ – Avropanı bulandırmağa çalışır.

## TƏZƏ XƏTT

Dünyaya fəth olunmaqla – Dünyanı fəth etmək niyyəti.

## VƏZİYYƏT

Dünyanı Qərbləşdirirlər – Qəribləşdirirlər.

## QARŞILIQLI ƏLAQƏ

Sosializm kapitalizmin hesabına ömrünü uzatmaq istəyir.

Kapitalizm sosializmin ömrünü azaltmaq istəyir.

## SOSİALİZM TƏHLÜKƏSİ

"Sosializm aradan qalxmır, ancaq sosializm təhlükəsi aradan qalxır" – deyə bağırır Qorbaçovşina.

***Sosializm təhlükəlidir; sosializm yaşayırsa təhlükə yaşayır.***

## İCTİMAİ RƏY DƏYİŞKƏNLİYİ

Mahiyyətsizlik.

## SOSİALİZM-KAPİTALİZM SAZİŞİ

"Kapitalizmi öldürməyən təzə sosializm yaradıram – gərək kapitalizm mənə yarasın!"

"Sosializmi öldürmək üçün əlimdən gələn köməyi təzə sosialistlərə eləyəcəm!"

## VƏZİYYƏT

"Soyuq müharibə" "İsti müharibəni" əvəz edirdi.

İndi "soyuq müharibə" yox olur, "isti müharibə"ni əvəz eləyən qalmır.

## FƏRQ

Bir vaxt deyirdilər ki, kapitalizm ölməsə – sosializm yaşamaz.

İndi az qala deyirlər – kapitalizm ölsə – sosializm yaşamaz.

*7 Qismət günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Stalinə oxşamadığı üçün, Stalinin yaratdığını uçurtduğu üçün Stalinin kölgəsi kimi sayılır Qorbaçovşina.

***Stalinə minnətdar olmalıdır – Antistalinist.***

## VƏZİYYƏT

"Sosialist sərvətlərini təsdiq edirəm!" – deyə-deyə kapitalist sərvətləri döşürür – sosial-kapitalist.

## DÜNYA ALQIŞI

Kommunist Partiyasının başçısını – Dünyanı kommunist təhlükəsindən qurtaran – yəni əslində antikommunist kimi – alqışlayır Dünya.

## VƏZİYYƏT

Əqidə hər addımda Qorbaçovşinaya mane olur, ancaq Qorbaçovşina əqidədən əl çəkmir – ***Hakimiyyətsizlikdən qorxur.***

## VƏZİYYƏT

Qorbaçov çıxışlarında kommunizmi müdafiə eləmir, əslində – rədd eləyir.

Yəni Qorbaçov kommunizmi elə müdafiə eləyir ki, rədd eləmək yaranır.

## VƏZİYYƏT

Köpükdə Dəniz olmaq istəyirlər.

## VƏZİYYƏT

Kommunizmi Fəhlənin boynuna qoydular – Fəhlənin boynu sındı.

## HƏQİQƏT

Fəhlə sinfinin bir İdeologiyası var:
Zavoda Sahib olmaq.

Kəndlinin bir İdeologiyası var:

Torpağa Sahib olmaq.

Ziyalının bir İdeologiyası var:
Fikrə Sahib olmaq.

## FƏHLƏ FƏLAKƏTİ

Kommunizm – Fəhlə Sinfinin ayağına yazılan, Fəhlə Sinfini Xurafata çağıran, calayan, alətləşdirən Fəlakətdir.

Fəhləni kommunizm Yalanına sürdülər, sürüdülər; ideologiya sahibi adlandırıb ideologiya köləsinə çevirdilər.

***Fəhlə ideologiyası anlayışından böyük Yalan yoxdur.***

Kommunizm – Yer cənnəti haqqında əfsanədir – İnsana Zidd – dəhşətli idraki azmadan yaranan.

***Fəhləni Yalana Sahib etdilər; Yalana qoşdular, Yalana məsul elədilər – Yalanı Yalan Qurbanının ayağına yazdılar.***

## HƏQİQƏT

Xalq tarixdə ən çox Özgə sözünü deyib, Öz sözünü deməyib.

## QORBAÇOVŞİNA ƏXLAQSIZLIĞI

Gəlin Yüz oyundan çıxaq – təki ölməyək!

## QORBAÇOVŞİNA MƏNTİQİ

“Qeyri-müəyyənlikən böyük müəyyənlik yoxdur!”
“Barışmazlıqdan böyük satqınlıq yoxdur!”
“Əqidəsizlikdən böyük əqidə yoxdur!”
“Təslimçilikdən böyük hünər yoxdur!”

## XİDMƏT

Yenidənqurmaçılar Kapitalizmi böhrandan qurtardılar, bu xidməti kapitalizm unutmaz.

**VƏZİYYƏT**

Yenidənqurmaçılar sosializmə kapitalizm calayırlar, sosial-demokratlar kapitalizmi yaşadırlar; yenidənqurmaçılarla sosial-demokratiyanın birliyində kapitalizm iki dəfə artıq yaşayır.

**HƏQİQƏT**

Dünyanı əqidəsizləşdirirlər – Mənasızlaşdırırlar.

**HƏQİQƏT**

Zamanın Tələbi – əslində Zamanın Tələsidir.

**QORBAÇOVŞİNA BÖLGÜSÜ**

Köhnə fikirli Əqidəlilər.
Təzə fikirli Əqidəsizlər.

**QEYRİ-FORMAL TƏŞKİLATLAR**

Formal Təşkilatlar.

**VƏZİYYƏT**

Soljenitsin SSRİ-ylə barışsa – Saxarovlaşar.

**PRİBALTİKA TƏRƏQQİSİ**

Əgər kolxoz varsa – kəndli təsərrüfatı nəyə lazımdır?
Əgər kəndli təsərrüfatı varsa – kolxoz nəyə lazımdır?

**PRİBALTİKLƏR HALI...**

Öldürülənlərin təcavüzkar məğrurluğu.

**PRİBALTİKA NAİLİYYƏTİ**

Mərkəzi Komitədən Zahirən asılı olmayan, Mərkəzi Komitədən asılı olduğu dərəcədə asılı olmayan, Mərkəzi Komitədən mahiyyətcə asılı olan Xalq Cəbhəsi.

## HƏQİQƏT

Ölkənin taleyini dünya həll eləyəndə – ölkənin ölkəsizliyi meydana çıxır.

## QORBAÇOVŞİNA XƏTTİ

Xalqı yerindən oynadır ki, – Oynatsın!

## ANTİXALQ CƏBHƏSİ

Xalq cəbhəsi kimə qarşıdır?
Hökumətəmi?
Hökumət öz əliylə özünə Düşmənmi yaradır?

Xalq cəbhəsi hansı əks cəbhəyə qarşıdır?
Hökumətəmi?
Hökumət öz əliylə özünə əks cəbhəmi yaradır?

***Şər oyunudur Xalq Cəbhəsi.***

Xalqı Məqsəddən – Boyunduruğu qırmaqdan yayındırmaq üçün.

Xalqın nifrətini, hiddətini bağırtdılar, çığırtdılar, jestlər, tədbirlər vasitəsiylə yatırtmaq üçün.

Mahiyyətcə Antidemokratik olduğu halda Demokratik görünmək üçün.

## "XALQÇILIQ" SİYASƏTİ

"Xalq nə desə – Odur!" – deyirlər və Xalqa öz dediklərini dedizdirirlər.

*8 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

## TƏZƏ AYAQ

Hökumətin ayağı axsayır, Xalq Cəbhəsindən özünə təzə ayaq düzəldir hökumət.

**KÖHNƏLƏŞMƏ**

Qorbaçovşina Təzələşməsi – əslində Köhnələşmədir – Qərbləşmə, Kapitalistləşmədir.

**ƏLAQƏ**

Üzlərində özlərinin tüpürmədikləri yer qalmadı – bu səbəbdən də Dünya üzlərinə tüpürmür.

**MÖVQE**

Sosialist potensiyasından danışır –
Kapitalist potensiyasından yapışır.

**VƏZİYYƏT**

Kapitalist ölkələri sosialist ölkələrini sosilizm uçurumundan xilas eləyirlər.

Əvəzində sosializm ölkələri kapitalist ölkələrinə yaşamaq haqqı verirlər.

**HƏQİQƏT**

Hamıyla dil tapmaq səyi – əslində diligödəklik əlamətidir.

**DƏLLAL QARDAŞLIĞI**

Sosialist ölkələri arasında əlaqələr Dəllallaşır.
***Dəllalların qardaşlığından olmaz!***

**VƏZİYYƏT**

Ermənini havalandıran Qorbaçovşinadır, haraylayan Daşnaklar.

**POLŞA SEÇKİLƏRİ**

Xalqla Doğmalaşmaq istədilər – Xalq Yadlığından sarsıldılar.

**AŞKARLIQ YALANI**

Aşkarlıq İşığında marksizm-leninizm Yalanı yaşayır.
Sosializm Yalanı yaşayır.

Partiya Yalanı yaşayır.
***Aşkarlıq özündə Böyük Yalan gizlədir.***

## DEMOKRATİYA YALANI

Demokratiya özündə marksizm-leninizm Yalanı gizlədir.
Sosializm Yalanı gizlədir.
Partiya Yalanı gizlədir.
***Demokratiya özündə dəhşətli Antidemokratiya gizlədir.***

## BARIŞQANLIQ MƏNTİQİ

Özündəki Düşmənçiliklə də barışır barışqan.

## HƏQİQƏT

Jurnalist həyasızlığının artması –
Ölkədə həyasızlığın artmasına sübutdur.
***Jurnalizm – Həyasızlıq barometridir ən çox.***

## TƏZƏ KOMMUNİSTLƏR

Əqidədən bezənlər.

## QORBAÇOVŞİNA KOMMUNİSTLİYİ

Əqidəni bölürlər, parçalayırlar, paralayırlar və əqidə bütövlüyü tələb eləyirlər tabeçilərdən.

*9 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## TELEVİZİYA

Mənəvi Antisanitariya.

## DEPUTAT

Hökumət Xalqçılığı.

*10 Arzu günü, Od Ayı, 11-ci il. Bakı.*

## NƏTİCƏ

Meşəni sosializmə tapşırdılar – Meşə qırıldı.

Torpağı sosializmə tapşırdılar – Torpaq çürüdü.
İnsanı sosializmə tapşırdılar – İnsan məhv oldu.

*11 Ümid günü, Od Ayı, 11-ci il. Bakı.*

**KÜTLƏVİ CANİLİK**

Sosialist Zorakılığının davamı.

**VƏZİYYƏT**

Sosializm – mərkəzləşmə deməkdir. Mərkəzləşmə komanda – inzibati idarə üsulu tələb edir.

***Bu səbəbdən sosializm komanda – inzibati idarə üsulu deməkdir əslində; komanda – inzibati üsulu ləğv eləmək üçün sosializmi ləğv eləmək lazımdır.***

Yenidənqurmaçılar "sosializmi saxlamaq naminə" komanda – inzibati üsulu ləğv eləmək istəyirlər; əslində isə komanda – inzibati üsul qalır, iqtisadiyyatı buxovlayır; ***qeyri-mərkəzləşmə antisosializm deməkdir mahiyyətcə,*** bu səbəbdən də sosialist iqtisadiyyatı komanda – inzibati üsulsuz yaşaya bilməz.

***Ya sosializmin ləğvi, ya komanda – inzibati idarə üsulu – üçüncü yol xaosdur, yəni əslində yoxdur.***

**SOSİALİST ÖZÜNÜİDARƏÇİLİYİ**

Özünü idarə edən iqtisadiyyat yaradırlar Dövlət iqtisadiyyatından; ***Dövlətin idarə etdiyi*** "özünüidarə" quraşdırırlar yenidənqurmaçılar.

**YANLIŞ XƏTT**

Pribaltiklər ruslarla döyüşürlər və Rus imperiyasını möhkəmləndirirlər – ***ruslarla Rus imperiyasının birliyini yaradırlar – sərsəricəsinə.***

**VƏZİYYƏT**

Millətlərarası ədavət Rusiya İmperiyasını xilas eləyir əslində – onu Antiimperialist Birlikdən qurtarır.

## VƏZİYYƏT

***Bütün əhalini*** Rus imperiyasına qarşı qaldırmaq – yeganə düzgün yol budur – əhali arası münaqişə İmperiyanın xeyrinədir.

## İDRAKSIZLIQ

Ruslardan Rus imperiyasına qarşı müttəfiq hazırlamaq əvəzinə – Rus imperiyasının qoruyucusu hazırlayırlar.

## QƏDDARLIQ HAQSIZLIĞI

Pribaltiklər ruslara qarşı qəddarlıq eləyirlər və bununla da özlərinə qarşı qəddarlığı doğruldurlar.

## ANTİHUMANİZM

Sosializmin humanist modelini axtarırlar – əslində isə sosializm insanın hərtərəfli, total ictimailəşməsidir – yəni antifərdiləşməsi, antişəxsləşməsidir – ***bu səbəbdən də sosializm mahiyyətcə antihumanizmdir.***

## QURAŞDIRMA

Sosialist müəssisələrində aksioner cəmiyyətlər düzəldirlər – Sovet qulluqçularından müəssisə sahibləri quraşdırırlar.

## MAHİYYƏT

Respublikalara İqtisadi Müstəqillik verirlər ki, İqtisadi əsarət möhkəmlənsin!

Müəssisələrə İqtisadi Müstəqillik verirlər ki, İqtisadi əsarət möhkəmlənsin!

Kəndli İqtisadi əsarəti icarəyə götürür əslində.

Təsərrüfat hesabında İqtisadi Əsarət "iqtisadiləşir".

## RESPUBLİKALAR MÜSTƏQİLLİYİ

Respublikalar indi müstəqilcəsinə müstəqilliyindən əl çəkəcək, millicəsinə müstəqilliyindən əl çəkəcək, özünəməxsus

şəkildə müstəqilliyindən əl çəkəcək – Müstəqil Qeyri-müstəqillik yoğurur təzə xamırçılar.

## RESPUBLİKA DÖVLƏT DİLLƏRİ

Dövlət olmayan yerdə Dövlət Dilləri – əslində Dövlətsizlik Dilləri.

## TƏZƏ İTTİFAQ

SSRİ-dən Yekə bir Bazar düzəldirlər – Bazar Birliyi yaradırlar – Dəllalxana tikirlər – Ruhsuzluqdan.

## NƏTİCƏ

Ehkam əsasında Birlik yaratdılar – Uçdu.
İndi maddi mənafe əsasında Birlik yaradırlar – Bünövrəsiz.

## MİLLİ ƏDAVƏT

Zorakı qardaşlıq Yağılığı.

## HƏQİQƏT

Zorakılıq – sosializmin mahiyyətindən doğur, çünki könüllü ictimailəşdirmək olmaz, İnsanlaşdırmaq olar.

*30 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Yenidənqurma bərabərdir Zor üstəgəl Xaosa (qarmaqarışığa) – yəni əslində İki dəfə artan Zora.

Zor İmperiyanı qoruyur, Xaos – Zoru.

## VƏZİYYƏT

Sosialist İqtisadiyyatı Zorla yaranan İqtisadiyyatdır; Zorla yaranan iqtisadiyyatı özbaşına qoysan – məhv olar.

## VƏZİYYƏT

İqtisadi üsulla İctimai İqtisadiyyatı idarə eləmək olmaz, Şəxsi İqtisadiyyatı idarə eləmək olar.

## VƏZİYYƏT

Sosialist İqtisadiyyatı – ictimai iqtisadiyyatdır, yəni cəmiyyətə tabe olan iqtisadiyyatdır; bu səbəbdən də o, müstəqil iqtisadiyyat ola bilməz.

Kapitalist iqtisadiyyatı – şəxsi iqtisadiyyatdır, yəni cəmiyyətə tabe olmayan iqtisadiyyatdır; bu səbəbdən də o, Müstəqildir.

Sosialist iqtisadiyyatı müstəqil olmaq üçün kapitalistləşməlidir – sosial-kapitalist iqtisadiyyat törəyir – qeyri-müəyyən, yarımçıq, bünövrəsiz, səmərəsiz.

## HƏQİQƏT

Kommunist Partiyası – əsrin ən böyük Çirki.

## VƏZİYYƏT

Kooperativ vasitəsiylə maddi təminat yaradacaqlar.

İcarə vasitəsiylə zəhmətkeşi torpağın sahibi eləyəcəklər.

Sosializmi kapitalistcəsinə dirildirlər – kapitalizmi öldürməli olanlar.

## VƏZİYYƏT

Kooperativlərdə zəngin iqtisadi mafiya imkanı gizlənib.

*31 Arzu günü, Od Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Evi başına uçur – Avropa Evi tikənin.

*1 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## PRİBALTİKA HADİSƏLƏRİ

Qorbaçovşina İti Yiyəsini dişlədi.
Qorbaçovşina İtini döydü.

## HƏQİQƏT

Cəmiyyətə bel bağlayanın beli sınır.

## HƏQİQƏT

SSRİ-ni böhrandan yalnız SSRİ-nin ləğvi çıxara bilər.

## SİYASİ ƏMƏKDAŞLIQ

Avropa kapitalistləşən SSRİ-yə texnikləşmə vəd eləyir.

## GEDİŞAT

Sosial-kapitalizm – cəmiyyətdə anarxiya, gərginlik və xaosu artıracaq və bunun nəticəsində ya təzə müstəbidlik bərqərar olacaq, ya da İmperiyaya qarşı xalqlar döyüşü baş qaldıracaq.

## VƏZİYYƏT

Qərb – atlı, SSRİ – piyada.
Qərb – ayağı üzəngidə, SSRİ – ayaqyalın.

## HƏQİQƏT

Sosializm – Şər, kapitalizm – Şər;
Sosial-kapitalizm – iki dəfə Şər.

## VƏZİYYƏT

Qərbin köməyi olmadan SSRİ böhrandan çıxa bilməyəcək.
SSRİ kapitalistləşməsə – Qərb SSRİ-yə kömək eləməyəcək.
SSRİ kapitalistləşməli olacaq, bu da onun gücünü azaldacaq.
Qərb SSRİ-ni öz içində əritməyə çalışacaq.
SSRİ-ylə Qərbin düşmənçiliyi artacaq.

## İSTƏKLƏR

Qərb Yenidənqurmada Rus İmperiyasının sarsılmasını istəyir.

SSRİ Yenidənqurmada Rus İmperiyasının güclənməsini istəyir.

Bu səbəbdən də Qərb SSRİ-dən öz təmənnalı köməyini əsirgəməyəcək.

Bu səbəbdən də SSRİ Qərbin təmənnalı köməyini acı dərman kimi içməli olacaq.

## QORBAÇOVŞİNAYA QƏRB ALQIŞLARI

Qorbaçov inqilabında – Lenin inqilabının ölümünü görmək istəyir Qərb.

## MÜNASİBƏT

Qərb SSRİ-ni kömək əliylə boğmaq istəyir.
SSRİ Qərbin ətəyindən yapışır ki, yıxsın.

## SİYASƏT

SSRİ Dünyaya qarışır ki, Dünyəvi mövqeyini möhkəmləndirsin.

Dünya SSRİ-yə qarışır ki, SSRİ-nin Dünyəvi mövqeyini sarsıtsın.

## QORBAÇOVŞİNANIN SÜLH SİYASƏTİ

Qorbaçovşina Qərbə sosializmin kapitalistləşməsini vəd eləyir əslində.

Qərb sosializmin kapitalistləşməsinə kömək eləmək istəyir.

Qorbaçovşina Qərbə kapitalizmin təhlükəsizliyini vəd eləyir əslində.

Qərb kapitalizmin təhlükəsizliyinə kömək eləmək istəyir.

Qorbaçovşina təslimçilik siyasəti yürüdür, onun qələbələri təslimçilik qələbələridir, yəni məğlubiyyətdir mahiyyətcə.

## VƏZİYYƏT

Pribaltiklər qələbə həşirində boyunduruqaltı qürrə saçırlar.

## GÖRÜNƏN

Rusa hürən Pribaltiklər – Rus İmperiyasının iti olacaqlar yaxın gələcəkdə.

## MÜTLƏQ TƏLƏB

SSRİ xalqları biri-biriylə vuruşmamalıdırlar – İmperiyaya qarşı vuruşmalıdırlar.

## BİRLİK

Qorbaçovşina kapitalistləşmə bahasına Qərbdən bəhrələnmək istəyir.

Qərb kapitalistləşmə bahasına Qorbaçovşinanı bəhrələndirmək istəyir.

***Birləşirlər ki, biri-birinin belini qırsınlar.***

## VƏZİYYƏT

Ədalətin canı – Müstəqil Şəxsiyyətdir, sosializm – şəxsiyyəti ***ictimailəşdirir*** – qeyri-müstəqilləşdirir, bu səbəbdən də sosializm ədalətə ziddir.

## UYĞUNLAŞMA UYĞUNSUZLUĞU

Sosializmi kapitalizmə uyğunlaşdırırlar, Şərqi Avropaya uyğunlaşdırırlar və Dünyanın ahəngini pozurlar Təslimçilər.

## TƏZƏ TƏLƏB

Cavanları sosial-kapitalistləşdirirlər və onlardan əqidə bütövlüyü tələb edirlər yenidənqurmaçılar.

## VƏZİYYƏT

Dünyəvi ictimai rəy təslimçiliklə barışır – çünki iqtidarsızlaşıb.

## QORBAÇOVŞİNA İBARƏLƏRİ

Qorbaçovşinada güzəşt sözü təslim sözünə bərabərdir.

Təzə sosializm – sosial-kapitalizm deməkdir.

## VƏZİYYƏT

Zorumuzdan vahiməyə gəldikləri dərəcədə – Xoşumuzdan vəcdə gəlib Dünya!

## FƏHLƏ TƏTİLLƏRİ

Fəhlə sinfi "hakimlik elədiyi" dövlətdə öz dəhşətli Qəribliyini anladı.

## VƏZİYYƏT

SSRİ-yə maraq artıb deyirlər –
SSRİ-nin ləğvinə maraq artıb demək lazımdır.

## VƏZİYYƏT

Dünyaya sakit sosializm vəd eləyirlər – dünyanın sakit sosialistləşməsindən danışmırlar.

## VƏZİYYƏT

Kapitalizmə deyirlər ki, təzə sosializmi qoru, yoxsa köhnə sosializm səni boğar.

## VƏZİYYƏT

Sosializm Avropaya qarşı durmur, Avropayla birləşir – deyirlər.

Sosialzim Avropaya qarşı durmasa, sosializm olmaz – kapitalizm olar – deyirik.

Sosializm Dünyəvi vəhdətə qarşı durmur, Dünyəvi vəhdəti qoruyur – deyirlər.

Sosializm Dünyəvi vəhdəti qorusa, sosializm olmaz – humanizm olar – deyirik.

Sosializm Qərbin düşməni deyil – deyirlər.

Sosializm Qərbin düşməni olmasa, sosializm olmaz – deyirik.

## MAHİYYƏT

Qorbaçovşina – Təslimçilik avantürasıdır əslində.

## GÜZƏŞT YALANI

Güzəştdən saxta Dostluq yaranır –
Saxta Dostluq isə əslində Yağılıqdır.
Güzəştdən saxta Birlik yaranır –
Saxta Birlik isə əslində hərc-mərclikdir.
Güzəştdən saxta Qayda yaranır –
Saxta Qayda isə əslində Pozğunluqdur.

Güzəştdən fəlakətli Yalan yaranır.

## MOLDAVİYA HADİSƏLƏRİ

Qorbaçovşina rusları itlərinə yedirtdi.

## ƏSKİKLİK

Partiyadan üstün görünmək istəyir, Xalqdan üstün görünmək istəyir, İdeologiyadan üstün görünmək istəyir ***Əskik.***

Partiyadan əskik olan Partiyanı xilas eləmək istəyir, Xalqdan əskik olan Xalqı xilas eləmək istəyir, İdeologiyadan əskik olan İdeologiyanı xilas eləmək istəyir.

*2 Dözüm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Kooperativ – Dövlət Mülkiyyəti artığıdır –
Dəllallığa yarayan, İqtisadi İnkişafa zidd.

## VƏZİYYƏT

Qaranlığa İşıq saçacaydı – Qaranlıqdan İşıq alır.

## HƏQİQƏT

Sosializm – yaranan günü tükəndi əslində.

Kapitalizmi yaşadan sosializm iqtidarsızlığı oldu mahiyyətcə.

## YENİDƏNQURMA SÜQUTU

Sosializm kapitalizmə məğlub oldu, təslim bayrağı qaldırdı, kapitalist sayağı qurulmağa başladı.

## VƏZİYYƏT

Dünyanı təntənəylə iki hissəyə bölmüşdülər həşirçilər, indi onu məyuscasına Bir görürülər sönüklər.

## VƏZİYYƏT

Dünyanı öz Dəyirmanlarında üyüdə bilmədilər – indi dünya Dəyirmanında üyüdülürlər.

## "TƏZƏ SÜLH SİYASƏTİ"

Dünyanı öldürmürəm ki, – ölməyəm.

## TƏZƏ "İNAM"

Sosializm kapitalizmlə birləşib kapitalizm üzərində qələbə çalacaq.

Sosializm kapitalizmi məğlub etmədən kapitalizm üzərində qələbə çalacaq.

Sosializm kapitalizmlə razılıq əsasında kapitalizm üzərində qələbə çalacaq.

Sosializm kapitalizmi rədd etmədən kapitalizm üzərində qələbə çalacaq.

Sosializm kapitalizmlə döyüşmədən kapitalizm üzərində qələbə çalacaq.

***Sosializm kapitalistləşərək kapitalizm üzərində qələbə çalacaq.***

## YAD DOĞMALIQ

Dövlət müəssisəsi zəhmətkeşə Yaddır: bu səbəbdən də onu ***təsərrüfat hesabı*** vasitəsiylə "doğmalaşdırırlar": ***istehsalat müstəqilləşir.***

Kolxoz zəhmətkeşə Yaddır: bu səbəbdən də onu icarə vasitəsiylə "doğmalaşdırırlar": təsərrüfat müstəqilləşir.

Əslində isə Yadlıq aradan qalxmır: Fəhlə özgə müəssisəsində işləyir, kəndli özgə torpağında çalışır: özgə mülkiyyətinin barını yetirir Zəhmətkeş – Mülkiyyətdən məhrum.

## VƏZİYYƏT

Dünyaya ağıl verən – Dünyadan ağıl yığır.

## VƏZİYYƏT

Dünyalaşır ki, xilas olsun.
Dünyalaşdırılır ki, Dünya xilas olsun.

## VƏZİYYƏT

Köhnə dünya təzə dünyanın qabağında gedir.

*3 Mərhəm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HADİSƏ

Sosial-kapitalizm – kapitalizmin "Şərqi"* biçimi.

## VƏZİYYƏT

Sosializm kapitalizmlə "barışır ki", döyüşmür ki, "birləşir ki", – kapitalizmə doy gəlsin.

Kapitalizm sosializmlə "barışır ki", döyüşmür ki, "birləşir ki", – sosializmə doy gəlsin.

***Yağılıq naminə "dostluq eləyirlər".***

## VƏZİYYƏT

Sosializm demokratiya yoluyla kapitalizmə yan alır.

Kapitalizm demokratiya yoluyla sosializmi məhvərindən çıxarır.

## VƏZİYYƏT

Qərb, yeri gəlsə, SSRİ-ni millətçilərdən qorumağa hazırdır, millətçilər isə Qərbə bel bağlayırlar...

---

* Şərq – sosialist ölkələrinin siyasi adı.

## LƏYAQƏTSİZLİK

Yenidənqurmada iştirak eləmək – ləyaqətsizlikdir.

## VƏZİYYƏT

Qorbaçov əslində Qərbdən kömək gözləyir – SSRİ-dən qorunmaq üçün.

## VƏZİYYƏT

Kapitalizm ölməliydi – indi ölü dirildir.
Sosializm kapitalizmi öldürməliydi – indi özü ölür.

## VƏZİYYƏT

Qorbaçovşina – diplomatik vakuum (boşluq) yaradıb dünyada – təhlükəylə dolu.

## VƏZİYYƏT

Marksizm Fəhlələri öz əzəli Məqsədindən – Zavod, Fabrik Mülkiyyyətinə Sahiblikdən ayırdı, onları İctimai Mülkiyyətin muzdlu İstehsalçısına çevirdi, Dövlət istismarına məruz qoydu.

*5 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## SİYASİ LƏYAQƏT

Pribaltiklər Qorbaçovşinaya arxalanıb rusların üzlərinə tüpürürlər.

Qorbaçovşina rusları Pribaltiklərə güzəşt eləyir.

## QORBAÇOVŞİNANIN SÜLH "QƏLƏBƏLƏRİ"

Təslimçilikdən böyük ölüm yoxdur. Qorbaçovşina təslimçilik yoluyla "sülh qazanır" – ölüm yoluyla yaşayır.

## RƏFSƏNCANİ XƏTTİ

SSRİ-yə arxalanıb Amerikaya hürür ki, sonra Amerikaya arxalanıb SSRİ-yə hürsün.

**ƏXLAQ**

Yenidənqurmaya bulaşmaq – Günahdır.

**HƏQİQƏT**

Günün tələbləri – Günün tələləri.

**HƏQİQƏT**

Zəmanə – liliput, İnsan – Hulliver.

*6 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**VƏZİYYƏT**

Maddi mənafe əsasında yaranan birlik – yadlıqdır əslində. "Yadlar Birliyi" yaradırlar Yenidənqurmaçılar.

**HƏQİQƏT**

Qorbaçovşina – Təslimçilik avantürası.

*7 Arzu günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**VƏZİYYƏT**

Qərbi Qorbaçovşinayla siyasi həmrəyliyə çağırırlar – Qorbaçovşinada Qərblə siyasi Doğmalıq görürülər.

**VƏZİYYƏT**

Qərb Qorbaçovşinanı qoruyur ki, Qorbaçovşina SSRİ-ni Qərbləşdirsin.

**HƏQİQƏT**

Həyata uymaq – həyatı uydurmaqdır.

**VƏZİYYƏT**

Sosializmin təzə modeli – neokapitalizm.

## VƏZİYYƏT

Kapitalizmdən labüd şəkildə sosializm yaranmalıydı – sosializmdən labüd şəkildə kapitalizm yarandı.

## VƏZİYYƏT

Sosializmdən sonra kommunizm gələcəkdi – sosializmdən sonra kapitalizm gəlir.

## HƏQİQƏT

***Modelləşdirmə – həyatsızlaşma.***
Sosializmin təzə modeli – Sosializmin təzə həyatsızlığı.

## VƏZİYYƏT

Təslim əsasında Qələbə olmurdu.
İndi Qorbaçovşina təslim əsasında Qələbə xəyalındadır.

## VƏZİYYƏT

Sosializm – İctimai yırtıcılıq.
Kapitalizm – Şəxsi yırtıcılıq.
Sosial-Kapitalizm – İctimai-şəxsi Yırtıcılıq birgə.

*8 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## NAİLİYYƏT

Qorbaçovşina Pribaltiklərə İrqçilik imkanı yaratdı – Pribaltiklər Xalqların nifrətini qazandılar.

## HƏQİQƏT

Güzəşt – zəiflik əlamətidir. Güzəştə əsaslanan siyasət – zəif siyasətdir.

## ƏLAMƏTLƏR

Yenidənqurma Ədavətləri, yenidənqurma Tətilləri, Yenidənqurma İrqçiliyi (Pribaltikada)...

## QORBAÇOVŞİNA BARIŞQANLIĞI

Qeyrətindən keç – Başından keçmə.

## VƏZİYYƏT

***İctimai Mülkiyyət*** adamları iqtisadi azadlıqdan məhrum eləyir.

İctimai Mülkiyyət olmayan yerdə sosializm yoxdur.

***Deməli, sosializm adamları iqtisadi azadlıqdan məhrum eləyir.***

***Deməli, iqtisadi azadlıq – sosializmin ləğvini tələb eləyir.***

***Partiya Hakimiyyəti*** adamları siyasi azadlıqdan məhrum eləyir.

Partiya Hakimiyyəti olmayan yerdə sosializm yoxdur.

***Deməli, sosializm adamları siyasi azadlıqdan məhrum eləyir.***

***Deməli, siyasi azadlıq – sosializmin ləğvini tələb eləyir.***

***Marksizm Ehkamı*** adamları ruhani azadlıqdan məhrum edir.

Marksizm Ehkamı olmayan yerdə – sosializm yoxdur.

***Deməli, sosializm adamları ruhani azadlıqdan məhrum edir.***

***Deməli, ruhani azadlıq – sosializmin ləğvini tələb eləyir.***

***Sosializmi "insanlaşdırmaq üçün" – kapitalistləşdirirlər - əslində iki dəfə insansızlaşdırırlar yenidənqurmaçılar.***

## VƏZİYYƏT

Dünya sosializmə və kapitalizmə bölünmüşdü, indi onu sosial-kapitalizmdə birləşdirirlər.

*9 Dözüm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Dünənə Bugünün gözüylə baxmaq – Dünənsizləşməkdir.

## VƏZİYYƏT

Yenidənqurma qələbə çalsa – ölkəni fəlakət gözləyir.

Yenidənqurma məğlub olsa – ölkəni fəlakət gözləyir.
***Ölkənin xilası – sosializmin ləğvindədir.***

*10 Mərhəm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Tarixdə Tarixin Mənasına layiq hadisə olmayıb.

*11 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## YENİDƏNQURMA GERÇƏKLİYİ

Pozğunluq azğınlığı.

## HƏQİQƏT

Sosializm Əməkdən istismarçı yaratdı.

## HƏQİQƏT

Xalqların biri-biriylə döyüşməsi Şərin xeyrinədir. Xalqlar birləşib Şərlə döyüşməlidirlər.

## SOSİALİST AQİBƏTİ

Yuxudaydılar, Ayıldılar, Dəhşətdən ağıllarını itirdilər.

*12 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## BARIŞQANLIQ HƏQİQƏTSİZLİYİ

Həqiqət Yalanla barışsa – Həqiqət Olmaz, Yalan olar.

Qorbaçovşina Barışqanlıqdan başqa heç nə tanımır, çünki Həqiqətsizdir.

## QORBAÇOVŞİNA ƏXLAQSIZLIĞI

Əxlaq güzəşt tanımır.

Əxlaqda güzəştə getmək – əxlaqsızlıqdır.

***Qorbaçovşina güzəştdən başqa heç nə tanımır, çünki əxlaqsızdır.***

## QORBAÇOVŞİNA HƏQİQƏTSİZLİYİ

Həqiqət – Güzəşt tanımır. Güzəştçilik – Həqiqətsizlikdir.

Qərbaçovşina güzəştdən başqa heç nə tanımır, çünki Həqiqətsizdir.

*13 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Əgər Qorbaçovşina Ağıl deməkdirsə – onda Təslim hücum deməkdir.

## MACAR HADİSƏSİ

Kommunistlər sosial-kapitalizm vasitəsiylə hegemonluğu saxlamaq istəyirlər.

Güclü Antikommunizm gərəkdir – təzə kommunistləri devirmək üçün.

## VƏZİYYƏT

Leqal Antikommunizm yox kimidir SSRİ-də.

Formal Təşkilatlar mahiyyətcə kommunistlərin dəyirmanına su tökürlər.

***Miitinqdə əllər kommunistlərə uzanır.***

***Pünhanda Antikommunizm yetişir – Ağac-ağac, Addım-Addım – Vahid, Yeganə Nicat Yolu.***

## HƏQİQƏT

“Yeganə”, “Vahid” sözlərini şər əməldən salıb, bu səbəbdən də işlətməkdən çəkinir.

***Əslində isə yeganə, vahid olmayan Yoxdur.***

## VƏZİYYƏT

Qorbaçovşina Gərginlik, Xaos və Anarxiya deməkdir.

Qorbaçovşina kəsilməyincə – Gərginlik, Xaos və Anarxiya kəsilməyəcək.

## SOSİALİST YALANI

“Xalq sosializmə inanır” – deyirlər Yenidənqurmaçılar.

Xalqı "köhnə sosializmə" qarşı çevirdilər.
Xalq "təzə sosializmə" qarşı çıxdı.

## VƏZİYYƏT

Qorbaçovşina ölkəni Həqiqətsizlik və Əxlaqsızlıq vasitəsiylə "xilas eləyir".

Əslində isə Həqiqətsizlikdən və Əxlaqsızlıqdan dəhşətli iflas yoxdur.

## HƏQİQƏT

Şərin müəllifi – Zor, Tələbəliyi – Təlqin.

## FACİƏVİ AQİBƏT

Qorbaçovşinaya qalan ölkə.

## POLŞA HADİSƏSİ

"Həmrəyliyə" leqallıq imkanı verdilər ki, kommunist hegemonluğuyla barışsın.

"Həmrəylik" leqallığa yiyələnən kimi kommunist hegemonluğunu rədd elədi.

"Həmrəylik" xalqı kommunistlərə qarşı qaldıra bilsə – leqallıqdan bəhrələnəcək, bilməsə, kommunistlər leqal surətdə "həmrəyliyi" boyunduruğa salacaqlar.

*14 Arzu günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Gücsüzlük adamlara Güc eləyir.

## HƏQİQƏT

Şərdən azadlıq istəməzlər – Şərdən azad olarlar.

## AQİBƏT

Hər şeyi heç şey elədilər ki, hər şey olsunlar – heç şey oldular.

## VƏZİYYƏT

Əslində Qorbaçovşina millətlərə deyir:
"Biri-birinizi qırın ki, sizi yenidən qurum".

## DÜNYA NAMİNƏ

Qorbaçovşina mitinqlərə icazə verir ki, dünya Qorbaçovşina demokratiyasını alqışlasın.

Qorbaçovşina tətillərə icazə verir ki, dünya Qorbaçovşina demokratiyasını alqışlasın.

"Dünya naminə" ölkənin belini qırır Qorbaçovşina.

## QARABAĞDA SON VƏZİYYƏT

Ermənilər fitnə törədirlər – Ali Sovetə göstərmək üçün.

Ali Sovetin qərarı Qarabağı bu və ya digər biçimdə ***erməniləşdirmək*** məqsədi güdəcək.

***Qərara qarşı çıxmalıdır camaat.***

## VƏZİYYƏT

"Yenidənqurmanı xaosdan xilas edin!" – deyə bağırırlar. Yenidənqurma özü elə Xaosdur.

"Yenidənqurmanı anarxiyadan xilas edin!" – deyə bağırırlar. Yenidənqurma özü elə Anarxiyadır.

"Yenidənqurmanı gərginlikdən xilas edin!" – deyə bağırırlar. Yenidənqurma özü elə Gərginlikdir.

## QORBAÇOVŞİNA PRİNSİPSİZLİYİ

Sosialist prinsipi olur, kapitalist prinsipi olur – sosial-kapitalist prinsipsizliyi olur.

## VƏZİYYƏT

Xalq Cəbhələri Şərə gərək olduqları dərəcədə yaşayacaqlar, – Şərə gərək olmadıqları dərəcədə öləcəklər.

## QORBAÇOVŞİNA İMKANLARI

Pribaltikada İrqçilik imkanı yaratdı – Qarabağda qəsbkarlıq, Özbəkistanda canilik.

## QORBAÇOVŞİNA ƏMƏLİ

Milli Ədavəti alışdırdı ki, faydalansın –
Söndürən bilinsin – Söndürə bilməyəcək.
Sinfi Ədavəti alışdırdı ki, faydalansın – söndürən bilinsin – Söndürə bilməyəcək.

***Ölkəni uçurdu ki, yenidən qursun – Qura bilməyəcək.***

## VƏZİYYƏT

Ölkənin bugünkü fəlakətinin səbəbi – Yenidənqurmadır.

## VƏZİYYƏT

Qorbaçovşina – sosial-kapitalizm həmrəyliyidir – öldürən, öldürülməli.

## HƏQİQƏT

Yenidənqurma fəlakətini yaradan sosializmdir – sosializmə qarşı döyüşmək lazımdır – mahiyyətə qarşı, kökə qarşı.

## VƏZİYYƏT

Yenidənqurma – sosializmin Anarxiya, Xaos və İctimai Gərginlik biçimidir.

## VƏZİYYƏT

Anarxiya, Xaos, İctimai Gərginlik – Yenidənqurmanın mənfi halı yox, adi halıdır – üzvi xassəsidir, təbiətidir.

Nə qədər Yenidənqurma var – Anarxiya, Xaos, İctimai Gərginlik – əksilən deyil.

## VƏZİYYƏT

Yenidənqurma – Fəlakətdir – aradan qaldırılmalı, dəf edilməli; Yenidən qurma “xilasından” xilas olmaq gərək!

## HƏQİQƏT

Yenidənqurma – şərdir. Yenidənqurmanın Dəyimanına su tökən Şərin Dəyirmanına su tökür.

*15 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Sosializm – fəlakətli xudbinlik törədir – Cəmiyyətləşən Birləşmir.

## SOSİALİST HƏQİQƏTİ

Mülkiyyəti – cəmiyyətləşdirirlər – öldürürlər.
İnsanı – cəmiyyətləşdirirlər – öldürürlər.

## EHKAM CƏFƏNGİYYATI

Bir millətdə iki millət ideyası – cəfəngiyyatdır.
***Millət – Birlikdir, İkilik deyil.***

## HƏQİQƏT

Sosializm mahiyyətcə millət tanımır – Sinif tanıyır.
***Sosializm ölməsə millət dirilməz.***

## BÖHTAN

Marksizmi Fəhlə sinfinin üstünə yıxdılar.
Sosializmi Fəhlə sinfinin üstünə yıxdılar.
Partiyanı Fəhlə sinfinin üstünə yıxdılar.
***Fəhlə sinfinə böhtan atdılar.***

## HƏQİQƏT

Fəhlə sinfinə marksizm ideologiyası gərək deyildi.
Fəhlə sinfinə sosialist quruluşu gərək deyildi.
Fəhlə sinfinə partiya təşkilatı gərək deyildi.
***Fəhlə sinfinə əməkçi mülkiyyəti gərək idi.***

## VƏZİYYƏT

Sosializm cəmiyyəti İnsanların iradəsini əlindən alır ki, onu öz İradəsinə tabe eləsin.

Əslində isə cəmiyyətin İradəsi İnsanların İradə Birliyindən yaranmalıdır.

## DEMOKRATİK YALAN

Seçki həşirində xalqın halı ağlına və iradəsinə qalib gəlir.

Bu səbəbdən də seçki yeşiyində həqiqət axtarmaq naşılıqdır.

## QORBAÇOVŞİNA ÜSULU

Xalqı hallandırırlar, havalandırırlar ki, Xalqa havadar çıxsınlar – Qazan Qaynadırlar öz başlarına töküləsi...

## VƏHDƏT

Bütün əxlaqsızlıqların başı – Siyasətdir.
Cəmiyyətin başı – Siyasətdir.

## HƏQİQƏT

Siyasi çeviklik əslində əxlaqi çeviklik deməkdir – yəni mahiyyətcə əxlaqsızlıqdır.

*16 Dözüm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## NAŞILIQ

İyirminci əsr unutdu ki, Yerin İşığı Göydədir.

## QORBAÇOVŞİNA MƏNTİQİ

Müstəqil olduğun dərəcədə qeyri-müstəqilsən!

## VƏZİYYƏT

Polşada kommunistlər Yetimləşir – ölkə Yetkinləşir.

## VƏZİYYƏT

Qorbaçovşina kapitalistə yarayır.
Sosialistə yarayır.

Millətçiyə yarayır.
Beynəlmiləlçiyə yarayır.

Əslində kapitalisti satır.
Sosialisti satır.
Millətçini satır.
Beynəlmiləlçini satır.

Qorbaçovşina hamıya yarayır – ona görə heç kimə yaramır.

## PARTİYANIN MİLLİ SİYASƏT PLATFORMASI

Millətlərə təzə Boyunduruq hazırlayırlar.

Qeyri-mərkəzləşmə vasitəsiylə Mərkəzləşmə, "Müstəqillik" vasitəsiylə Qeyri-Müstəqillik – "Doğma" Boyunduruq keçirirlər boynuna xalqların – həssascasına, çevikcəsinə, güzəştcəsinə, təzəcəsinə.

## QORBAÇOVŞİNANIN MİLLİ SİYASƏTİ

Müstəqillik verim ki, Müstəqil olmasınlar.

*17 Mərhəm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## PRİBALTİKA "QABAQCILLIĞI"

1939-cu il Sovet–Alman sazişindən "qan bahası" qopartmaq niyyəti puç oldu, Estoniya irqçiliyi hiddətli ikraha nail oldu, Xalq Cəbhəsinin süqutuna da az qalıb.

Pribaltika Təqlidçiləri Qabaqcılların arxasıyla Süquta doğru irəliləyirlər.

## PRİBALTİKA YIRTICILIĞI

Rus İmperiyasını yırta bilmir, Rus əhalisini yırtır.

## VƏZİYYƏT

Qorbaçovşina Kapitalisti Sosialistlə barışdırır.
Millətçini beynəlmiləlçiylə barışdırır.
Dinçini Dinsizlə barışdırır.
***Fəlakətli həqarət quraşdırır.***

## MURDARLIQ

Oğru Qorbaçovşinanı sevir.
Cani Qorbaçovşinanı sevir.
Möhtəkir Qorbaçovşinanı sevir.
İmperialist Qorbaçovşinanı sevir.
Mövhumatçı Qorbaçovşinanı sevir.
Murdar sevgidir – Qorbaçovşina sevgisi!

*18 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Antimilli Məqsədi “milliləşdirmək” – Milli mədəniyyətləri Antimilli Yöndə “inkişaf elətdirmək” – Qorbaçovşinanın istəyi budur.

(Sosializm – Antimillilik deməkdir, sosializmin milli məqsədi yoxdur, sosializmin məqsədi – Antimillidir).

## HƏQİQƏT

***Beynəlmiləlçilik – mahiyyətcə milli nihilizm deməkdir.***

Humanizm anlayışında Xalqlara hörmət ideyası öz ifadəsini tapır; ***beynəlmiləlçilik milliliyə qarşıdır əslində.***

## LENİN ÇEVİKLİYİ

Lenin milli özünü təyin etmə elan edirdi, həm də ona qarşı təbliğata çağırırdı.

***Birinci vasitə olurdu – ikinci məqsəd.***

Özünü təyin etmə elanıyla özünü təyin etmə ləğv olunurdu.

## VƏZİYYƏT

Sovet Dövləti var – Sovet milləti yoxdur.

Kimi ifadə edir Sovet Dövləti?

Bir Dövlət bir milləti ifadə eləyə bilər.

***On beş Milləti On beş Dövlət ifadə eləyə bilər, Bir Dövlət ifadə eləyə bilməz.***

## VƏZİYYƏT

Müstəqil Dövləti olmayan Respublika (Müttəfiq respublika) nə deyən şeydir?

***Çoxmillətli Dövlət nə deyən şeydir?***

***Dövlətsiz Millət mümkündürmü?***

Mahiyyətcə, çoxmillətli Dövlət millətsiz Dövlət deməkdir, çünki Dövlətsiz Millət yoxdur.

Mahiyyətcə, çoxmillətli Dövlətlər ola bilər, çoxmillətli Dövlət ola bilməz.

SSRİ – siyasi quraşdırmadır – süni, millətləri nəzərə almayan, – özülsüz, Sabahsız.

## SSRİ-nin FEDERAL ƏSASI

Güzəştli Unitarlıq – Birdövlətlik.

## "TƏZƏ" BÖLGÜ

Mərkəz – Hakim;
Müttəfiq Respublikalar – İcraçı.

## PRİBALTİKA SƏRSƏRİLİYİ

Sosializm əsasında SSRİ-dən ayrılmaq istəyirlər.
Sosializm qalırsa, SSRİ-dən ayrılmağın nə mənası?

## HƏQİQƏT

Beynəlmiləlçiliyin mənası millətlərin biri-birinə qovuşması, itməsi, yox olmasıdır.

Millətlərin antisosializmdən kənarda nicat yolu yoxdur.

***Beynəmiləlçilik sosializmə yarayır – millətlərə yaramır.***

## SOSİALİZM BİNASI

Bürokratiya – çoxrəislik, çoxkağızlıq, formalçılıq deməkdir.

Sosializm – bürokratiyasız yaşaya bilməz, çünki mərkəzləşmənin özülü bürokratizmdir.

## SOSİALİZM ZƏRURİYYƏTİ

Mütləq Mərkəzləşmə olmadan – Bir Dövlət 15 Dövləti əvəz eləyə bilməzdi.

Mütləq Mərkəzləşmə olmadan – İctimai Mülkiyyət fəaliyyət göstərə bilməzdi.

Mütləq Mərkəzləşmə olmadan –
İnsan Cəmiyyətləşə bilməzdi.
Mütləq Mərkəzləşmə olmadan –
İdrak Ehkamlaşa bilməzdi.
Mənəviyyat Sürüləşə bilməzdi,
İradə İctimailəşə bilməzdi.
Mütləq Mərkəzləşmə – Sosialistləşmə deməkdir əslində.

## RESPUBLİKALAR MÜLKİYYƏTİ

İttifaqın bağışladığı, nəzarət elədiyi, nizamladığı, ***idarə elədiyi*** – müttəfiqin istifadə elədiyi – əslində Sahiblik əvəzində İcarəçilik.

## HƏQİQƏT

Demokratik sosializm olmur – Demokratik antisosializm olur.

## HƏQİQƏT

Azərbaycanın Milli Suverenliyini SSRİ-dən qorumaq lazımdır.

## HƏQİQƏT

Xalqa azadlıq verilmir – Xalq azadlığı alır.

## QORBAÇOVŞİNA YALANI

Dövləti olmayan respublika – gücsüzdür.

Dövləti olan respublikalara başçılıq eləyən Mərkəz – gücsüzdür.

Bu səbəbdən Güclü Respublika – Gücsüz Mərkəz deməkdir; Güclü Mərkəz – Gücsüz Respublika deməkdir və Güclü Mərkəz – Güclü Respublika İddiası – Yalandır.

## VASİTƏ – MƏQSƏD

Milli mədəniyyətlərin özünəməxsusluğunu qəbul eləyir ki, millətlər SSRİ özgəliyini, sosializm özgəliyini qəbul eləsinlər.

Milli mədəniyyətlərin özünəməxsusluğunu qoruyur ki, millətlər SSRİ özgəliyini, sosializm özgəliyini qorusunlar.

***Özünəməxsusluq vasitəsiylə özgəliyi möhkəmləndirirlər.***

## SİYASİ HAL

Tədbirli Ağanın İncikli Nökərlərə Səxavəti.

## SİYASİ SƏXAVƏT

Milli Dövlət dili paylayır ki, milli Dövlətsizlik əbədiləşsin.

## HƏQİQƏT

Milli özünüdərketmə – Antisosializm.
Milli özünüifadə – Antisosializm.
Milli özünütəsdiq – Antisosializm.

## VƏZİYYƏT

Qorbaçovşina milllətlərin biri-biriylə qovuşması, yəni əslində itməsi – əleyhinə deyil, onun sahmanlaşması, "doğmalaşması", "milliləşməsi" lehinədir.

## TƏZƏ KÖHNƏLİK

Mahiyyət dəyişmir: yenə də SSRİ naminə milli respublikalar, Beynəlmiləlçilik naminə millilik, milliarası birləşmə (mahiyyətcə biri-birinə qovuşma) naminə "milli özümlük" – güzəşt səviyyəsində.

SSRİ çərçivəsində milli müstəqillik Yalandır – daim təzələnən.

## DƏYİŞMƏYƏN MAHİYYƏT

Yenə də Müttəfiq Respublikalar – Vasitə, SSRİ – Məqsəd.

## SOSİALİZM MƏNTİQSİZLİYİ

Əgər Vahid Sovet xalqı varsa – onda Vahid Azərbaycan xalqına, Gürcü xalqına, Ukrayna xalqına nə ehtiyac?

***İki vahidlik olmur – Bir vahidlik olur.***

*19 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Yenidənqurmada sosializm kapitalizmin əl-qolunu bağlayır, kapitalizm sosializmi uçurur.

Nə sosializmdən keçə bilir Qorbaçovşina, nə kapitalizmdən.

## VƏZİYYƏT

Əməkçinin İstehsalata sahib olması üçün Dövlət Mülkiyyəti ləğv olunmalıdır.

Dövlət mülkiyyətinin ləğvi – sosializmin ləğvi deməkdir.

Bu səbəbdən də sosilizm ləğv olunmayınca əməkçi istehsalata sahib olmayacaq.

## VƏZİYYƏT

Qarabağı SSRİ Ermənistana verməyəcək –
Qarabağı azərbaycanlılar ermənilərdən almalıdırlar.

## FƏRQ

Stalin xalqı kapitalizmə qarşı çevirirdi, Qorbaçov xalqı sosializmə qarşı çevirir.

## VƏZİYYƏT

Demokratiya – Vasitədir.
Məqsəd – İqtisadi İslahatdır.
***Vasitə Məqsədə mane olur.***

## QORBAÇOVŞİNA DÜŞÜNCƏSİ

Səbəbi bilmir – Nəticəni görmür.

## GƏRƏKLİK

Yenidənqurmaya təzə kadr lazımdır: əqidəsiz İşlək.

## QORBAÇOVŞİNA ƏMƏLİYYATI

İctimai mülkiyyəti – xüsusiləşdirir.
"Xalq hakimiyyətini" – parlamentləşdirir.
Mərkəzləşməni – qeyir-mərkəzləşdirir.
***Sosializmi kapitalistləşdirir.***

## HƏQİQƏT

Yenidənqurma – kapitalistləşmədir – "əsil" sosialistləşmə adında.

## VƏZİYYƏT

Sosializm Potensiyası – Stalinizmdir.

Stalinizmdən kənar sosializm Potensiyası yoxdur. (İctimai Mülkiyyət, Mərkəzləşmə, Partiya Hökmranlığı)

## QORBAÇOVŞİNA YALANI

İctimai Mülkiyyət – Mərkəzləşmə tələb eləyir.

Planlı Təsərrüfat – Mərkəzləşmə tələb eləyir.

***Sosializm – Mərkəzləşmə deməkdir.***

***Sosializmin Mərkəzləşmədən başqa İdarə Potensialı yoxdur.***

Qeyri-mərkəzləşmə əslində antisosializm – kapitalizm Potensiyasıdır ki, onu yalandan sosializm potensiyası adlandırırlar.

## VƏZİYYƏT

"Xalq Yenidənqurmanın tərəfindədir!" – deyirlər.
Xalqın tərəfi yoxdur – əslində.

## VƏZİYYƏT

Pribaltika Yenidənqurma Eybəcərliyi vitrinasına çevrilir.

## VƏZİYYƏT

Xalqı aramsız Yenidənqurma Məğlubiyyətləri gözləyir – biri-birirndən ağır, biri-birindən dəhşətli...

## VƏZİYYƏT

Polşada Yenidənqurmanın köməyiylə kommunistləri hakimiyyətdən saldılar.

Antikommunistlər Qorbaçovşinanı alqışlayırlar.

## QORBAÇOVŞİNA GEDİŞİ

Ziyalıya yön aldı – Ziyalı diş göstərdi – indi ziyalı Fəhləyə yalmanır.

## QORBAÇOVŞİNA YARADICILIĞI

Xalqı demokratiya vasitəsiylə Yenidənqurmaya qoşdu və əslində Yenidənqurmaya qarşı nəhəng güc yaratdı.

## VƏZİYYƏT

İstehsalata Sahib olmaq üçün – Mülkiyyətə Sahib olmaq gərək.

Mülkiyyətə Sahib olmadan – İstehsalata Sahib olmaq – Oyundur – Səmərəsiz, Gələcəksiz.

## FƏRQ

Stalinin vaxtında cəmiyyət Zindana bənzəyirdi:
Camaat buxovlanmışdı.
Qorbaçovun vaxtında cəmiyyət Sirkə bənzəyir:
Camaat oynadılır.

## GENİŞ BOŞLUQ

Fəhlənin yanında Fəhlə Havadarı bilinir.
Ziyalının yanında Ziyalı Havadarı bilinir.
İdarəçinin yanında İdarəçi Havadarı bilinir.
Oppozisiyanın yanında Oppozisiya Havadarı bilinir...
***Mahiyyətcə isə özü – havadarsızdır.***

## VƏZİYYƏT

Qorbaçovşina kapitalist ölkələrində sosialist inqilablarının əleyhinədir, kapitalizmin sosializmə çevrilməsinə bel bağlayır, kapital-sosializm gözləyir.

*20 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

"Döyüş gərək deyil – Barış gərəkdir!" – deyirlər təzə müdriklər və Barışa qarşı Döyüş Zəruriyyəti yaradırlar.

## YENİDƏNQURMA POLŞASI

Prezidenti kommunist olan burjua respublikası.

*21 Arzu günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Milli Özünü təyinetmə – Milli Müstəqillik deməkdir.

***Təsərrüfat hesabı*** – İqtisadi Müstəqillik yaratmır.

***Dövlətsizlik*** – Siyasi Müstəqilsizlikdir.

Bu səbəbdən də yenidənqurma – milli özünütəyinetməyə xidmət etmir – ***milli müstəqilsizliyə xidmət eləyir.***

## YENİDƏNQURMA ƏHVALI

Problemlər o qədər çoxdur ki, yaşamağa vaxt qalmır.

## HƏQİQƏT

Hökumət – İmperiya kölgəsi. Ziyalı – Hökumət kölgəsi – yəni əslində kölgənin kölgəsi.

## AZƏRBAYCAN XALQ CƏBHƏSİ

Hökumətin sərbəst kölgəsi.

## YENİDƏNQURMA NAİLİYYƏTİ

4 il ərzində SSRİ Xaos, Gərginlik və Anarxiya ölkəsinə çevrildi.

## XALQA ZİYALI MÜRACİƏTİ

Xalqa Ziyalılar müraciət etmədi: – Mərkəzi Komitə müraciət elədi – kölgəsinə sığındı, Xalqa yalmandı Antixalq – özünə Yağı, özgəyə Qul; Hakim yanında – Urvatsız, Gücsüz, Rəiyyət yanında – Yırtıcı, Zalım.

## HƏQİQƏT

Şər – Xeyirin kölgəsi. Xeyir öz kölgəsiylə vuruşur ki, kölgəsiz olsun.

## HƏQİQƏT

Mənasız Xeyir olmur – Mənalı Şər olmur.

## VƏZİYYƏT

Xalqı – Hökumətlə birliyə çağırırlar –
Xalqı Antixalqla birliyə çağırırlar.

## VƏZİYYƏT

Xalq özünü gözləməlidir: SSRİ-ni onun başına uçurdular Yenidənqurmaçılar.

## HƏQİQƏT

Cəmiyyət – kölgələr cəmidir...
Cəmiyyətdə adamlar kölgələnir...
***Kölgədən çıxan – cəmiyyətdən çıxır.***

## VƏZİYYƏT

Hökumət Xalq Cəbhəsini əlində oynadır –
Xalq Cəbhəsi hökuməti yerindən oynadan sayır özünü.

## ŞƏR ƏMƏLİ

Xristianlıq vasitəsiylə Avropaya qovuşur, İslam vasitəsiylə Şərqi boğur.

**VƏZİYYƏT**

Pribaltiklərin "Ayrılmadan Ayrılmaq" siyasəti gözləri qamaşdırsa da – İşıqsızdır.

*22 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**İMTİYAZ**

İctimai Yalan.

**HƏQİQƏT**

Kommunist Partiyası – mahiyyətcə Antimilli partiyadır, çünki kommunizmin məqsədi – millətlərin aradan qaldırılmasıdır.

Bu səbəbdən milli kommunist partiyası təsəvvürü cəfəngiyyatdır – Kommunist hərəkatı milləti təmsil eləmir, Antimilli İdeologiyanı təmsil eləyir.

**VƏZİYYƏT**

Pribaltiklər xalq yolunda İtləşirlər – qudurub xalqlarını da yeyə bilərlər.

**VƏZİYYƏT**

Mərkəz Respublikalara "İqtisadi Müstəqillik" verir ki, Siyasi müstəqillik verməsin.

Respublikalar Mərkəzdən "İqtisadi Müstəqillik" alırlar ki, siyasi müstəqillik alsınlar.

**HƏQİQƏT**

Milli Kommunist partiyası olmur –
Milli Antikommunist partiyası olur.

**OYANMA**

Adamdakı Canavarı oyatdılar, İlanı oyatdılar, Tülkünü oyatdılar, çaqqalı oyatdılar – Oyanmışlar.

*23 Dözüm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Ölməmək üçün yaşamaq – ölümdür.

**HƏQİQƏT**

İqtisadi Möhtəşəmlik – Firavanlıq üçün deyil, Hökmranlıq üçündür.

**VƏZİYYƏT**

Qarabağımızı SSRİ-dən dilənməli oluruq.

**YENİDƏNQURMA HƏQARƏTİ**

Pribaltlar “Məhv olsun Kommunist Partiyası” və “Yaşasın Qorbaçov” deyirlər.

Partiyanı öldürürlər – Partiya başçısını yaşadırlar.

*25 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**HƏQİQƏT**

Ölməmək üçün bəşəriləşmək siyasətində bəşərilik yoxdur, özünümühafizə var.

**HƏQİQƏT**

Ölməmək üçün öldürmək siyasətində xeyirxahlıq yoxdur, özünümühafizə var.

**BUGÜNKÜ MƏCNUNLAR**

Evlənənə qədər dəli olurlar, evlənən kimi ağıllanırlar.

**AQİBƏT**

Dünyanı öz səviyyəsinə endirə bilmədi, Dünya səviyyəsinə qalxa bilmir.

*26 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

**VƏZİYYƏT**

Əyrim-Üyrüm adamlar gərəkdir Yenidənqurmaya.

*29 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

# İçərisi

**İnsanlaşmaq........................................................**5

**Həqiqətlər**

**Birinci Bölüm**

Ata Söyləmləri – Dəyərləndirmələri......................9

**İkinci Bölüm**

Gerçəklik – Ata Sınağında...................................68

[illegible], [illegible], [illegible]
[illegible] ([illegible]) [illegible]!

# [illegible]

## ([illegible])

[illegible] ([illegible]) [illegible] — [illegible] ([illegible]) [illegible] 30-[illegible] ([illegible] 2008-2009-[illegible]) [illegible], [illegible] "[illegible] ([illegible])" [illegible]. "[illegible]" [illegible] 43 [illegible] 7 [illegible].

[illegible]; [illegible], [illegible], [illegible], [illegible], [illegible]. [illegible]. [illegible], [illegible], [illegible].

[illegible] ([illegible]) — [illegible] — [illegible]; [illegible] ([illegible]) — "[illegible] ([illegible]) [illegible]" [illegible], [illegible], [illegible], [illegible]-[illegible] [illegible]. [illegible], [illegible], [illegible], [illegible].

[illegible], [illegible], [illegible]. [illegible].

[illegible]!
[illegible]!

[illegible]
*[illegible]*

*8 [illegible], 30-[illegible]. [illegible].*

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya (İnam Ataya) Ali Səcdəylə!

# MÜTLƏQƏ İNAM RUHANİYYATI
## (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

*8 Köçəri Ayı, 30-il. Atakənd.*

Türkün (İlk) Ruhaniyyat Ocağı
Asif Atanın (İnam Atanın)
Mütləqə İnam Ocağı

ASİF ATA
(Əfəndiyev Asif Qasım oğlu)
On Qutsal Bitiq'in (Onluğun)
Yan Bitiqləri.
Üçüncü Yan Bitiq: Həqiqətlər
(Türk dilində)

Atakənd-30